“...Azərbaycanlıların soyqırımı Bakı, Şamaxı, Quba qəzalarında, Qarabağda, Zəngəzurda, Naxçıvanda, Lənkəranda və Azərbaycanın başqa bölgələrində xüsusi qəddarlıqla həyata keçirilmişdir. Bu ərazilərdə dinc əhali kütləvi surətdə qətlə yetirilmiş, kəndlər yandırılmış, milli mədəniyyət abidələri dağıdılıb məhv edilmişdir...”

**Azərbaycan Respublikası Prezidentinin “Azərbaycanlıların soyqırımı” haqqında 26 mart 1998-ci il tarixli Fərmanından.**



# Tarix bizi ayıq olmağa çağırır



Çoxdan bəri kəşf olunmuş sadə bir həqiqət var. Tarix təkcə faktoloji hadisələrdən ibarət deyil. Tarixin tarixliyi məhz onda yaranır ki, o quru faktoloji təsir dairəsindən çıxır, xalqın əsl taleyinə çevrilir. Elə bu məqamdaca etiraf etməyə məcburam ki, xalqımız çox zaman taleyini öz tarixinə çevirə bilməmişdir. Bu bir tərəfdən Azərbaycana yönəldilmiş imperiya siyasətinin mahiyyəti ilə bağlıdırsa, digər tərəfdən tariximizin saxtalaşdırılması və təhrif olunması ilə əlaqədar olmuşdur.

Artıq on ikinci ildir ki, xalqımız özünün gündən-günə möhkəmlənən müstəqil günlərini yaşayır. Bu gün hər bir azərbaycanlı xüsusilə müstəqil bir ölkənin vətəndaşı olması ilə böyük qürur hissi duyur. Aydın dərk edir ki, qarşıda çox böyük vəzifələr durur. Şübhəsiz ki, bu vəzifələrdən biri, bəlkə də birincisi qan yaddaşımızın bərpa edilməsindən, tariximizin olduğu kimi gənc nəslə çatdırılmasından ibarətdir. Təsadüfi deyildir ki, Azərbaycan Respublikasının prezidenti, xalqımızın böyük və qüdrətli oğlu möhtərəm Heydər Əliyev azərbaycanlıların soyqırımı ilə əlaqədar bizim görəcəyimiz təxirəsalınmaz işləri müəyyənləşdirərək deyir: “Bu hadisələri, onların dərslərini unutmağa bizim haqqımız yoxdur. Tarixi yaddaşsızlıq və unutqanlıq xalqımıza baha başa gələ bilər. Azərbaycanlılara qarşı zaman-zaman törədilən bu ağır cinayətləri unutmamaq, böyüyən nəsli bədxah qüvvələrə və onların məkrli niyyətərinə qarşı ayıq-sayıqlıq ruhunda tərbiyə etmək mühüm vəzifədir”.

Son iki yüz il ərzində ermənilər tərəfindən Azərbaycan xalqına qarşı insanlıq tarixində misli görünməmiş qırğın və soyqırımlar təşkil edilmişdir. Lakin təəssüf ki, mərhələ-mərhələ həyata keçirilən bu qanlı aksiyalara uzun illər layiqli qiymət verilməmiş, onun xalqımıza vurduğu böyük siyasi, maddi və mənəvi itkilər barədə beynəlxalq ictimaiyyətə lazımi məlumatlar çatdırılmamışdır.

Xalqımızın tarixinə qanla yazılmış bu faciələr barəsində əsl həqiqətlər Azərbaycan Respublikası müstəqilliyə qovuşduqdan sonra üzə çıxmışdır. Möhtərəm Prezidentimiz Heydər Əliyevin günbəgün, ilbəil apardığı uzaqgörən və müdrik siyasət nəticəsində ermənilər tərəfindən azərbaycanlılara qarşı törədilən dəhşətli soyqırımların tarixi zərrə-zərrə, misqal-misqal öyrənilmiş, əsl soyqırım hadisələri haqqında dünya ölkələrinə və parlamentlərinə real məlumatlar çatdırılmış, xalqımızın başına gətirilən bu müsibətlərə hüquqi-siyasi qiymət verilmişdir. Xüsusilə dərin razılıq hissi ilə bildirmək istəyirəm ki, Azərbaycan Respublikası Prezidentinin imzaladığı “1948-53-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiya edilməsi haqqında” 18 dekabr 1997-ci il tarixli və “Azərbaycanlıların soyqırımı haqqında” 26 mart 1998-ci il tarixli Fərmanları qan yaddaşımızın oyanması, tarixi keçmişimizə qarşı biganəliyə son qoyulması istiqamətində böyük

əhəmiyyətə malikdir. Bildiyiniz kimi, məhz bu tarixi sənədlərin qəbul edilməsindən sonra müstəqil ölkəmizdə dövlət səviyyəsində bu məsələ ilə əlaqədar müntəzəm olaraq ardıcıl və sistemli tədbirlər hazırlanaraq həyata keçirilir, hər il martın 31-i Azərbaycanda Soyqırım günü kimi qeyd edilir.

Ümumiyyətlə, respublikamızın müdrik rəhbəri möhtərəm Heydər Əliyevin başçılığı altında aparılan genişmiqyaslı tədbirlər sayəsində Azərbaycan həqiqətləri bütün dünyaya çatdırılmış, müstəqilliyimizin qorunması və dövlətçiliyimizin möhkəmləndirilməsi istiqamətində çox mühüm siyasi addımlar atılmışdır. Bu işlərin davamı kimi, ölkə başçısının 1 fevral 2003-cü il tarixdə imzaladığı “Azərbaycan Xalq Cümhuriyyətinə abidə qoyulması haqqında” sərəncamını xüsusi olaraq qeyd etmək istəyirəm. Məhz bu sərəncamla xalqımızın dövlətçilik tarixində mühüm yer tutan Azərbaycan Xalq Cümhuriyyətinin adı əbədiləşdiriləcək, onun aşılamış olduğu müstəqillik hissləri xalqımızın yaddaşından heç vaxt silinməyəcəkdir.

Tarixdən məlum olduğu kimi, ermənilər tərəfindən ciddi soyqırıma məruz qalmış bölgələrdən biri də qədim Şamaxı torpağıdır. Daşnaklar Bakıda böyük qırğınlara rəvac verdikdən sonra 1918-ci ilin mart-aprel aylarında Şamaxıda da kütləvi cinayət aksiyaları törətmiş, minlərlə soydaşımızı ən vəhşi üsullarla qətlə yetirmişlər. Tarixi faktlar və arxiv sənədləri şahidlik edir ki, bəşər cəmiyyətində analoqu olmayan bu hadisələrin araşdırılması və ona lazımi hüquqi-siyasi qiymət verilməsi üçün o vaxt Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən xüsusi komissiya yaradılmışdı. Ədalət naminə deməliyik ki, bu komissiya ermənilərin Şamaxıda törətdikləri soyqırımı təsdiqləyən çox ciddi faktlar da üzə çıxarmağa nail olmuşdu. Lakin təəssüf ki, sonralar baş verən məlum hadisələr nəticəsində bu komissiyanın topladığı faktlar, eləcə də ermənilər tərəfindən bütünlükdə Şamaxıda törədilən soyqırımı əks etdirən digər sənədlər arxivlərdə “həbs edilmiş”, bu hadisələrdə günahkar bilinən cəlladlar haqqında qaldırılan cinayət işlərinə xitam verilmişdir. Hətta bu qanlı aksiyanın baş icraçısı erməni bolşevik silahlı dəstəsinin rəhbəri S.Lalayev S.Şaumyanın köməyi ilə cəzadan yaxasını qurtarmışdır.

Möhtərəm Prezidentimiz H.Əliyev bu məsələ ilə bağlı bütün çıxışlarında dönə-dönə tapşırır ki, əsl soyqırım haqqında həqiqətləri bəşəriyyətə tanıtmaq bizim, indiki nəslin müqəddəs vəzifəsidir. Mən ölkəmizin müdrik başçısının azərbaycanlıların soyqırımı ilə əlaqədar apardığı böyük tarixi işlərin, habelə onun tapşırdığı bu ciddi vəzifələrin qarşısında özümü borclu bilərək, bu kitabın hazırlanması işinə ürəkdən qoşuldum.

Ümumiyyətlə, uzun illər 1918-ci il Şamaxı soyqırımı hadisələri də araşdırılmamış və bunun nəticəsində Şamaxıya dəyən maddi və mənəvi ziyan barəsində kitab yazılmamışdır. Hətta, təəccüblü olsa da, xatırlatmağa məcburam ki, bu məsələ ilə əlaqədar respublikamızda bir sıra tədbirlərin görüldüyü bir vaxtda da Şamaxıda baş verən soyqırım hadisələri anılmamış, onun xatirəsinin əbədiləşdirilməsi istiqamətində heç bir addım atılmamışdı. Bütün şamaxılıların

arzu və istəklərini nəzərə alaraq, 2001-ci ildə Soyqırım günü qeyd olunarkən ən çox qırğın törədilən yerdə 1918-ci il Şamaxı soyqırımının xatirəsinə abidə ucaltmağı qərara aldıq. Bir il sonra, daha doğrusu, 2002-ci ilin martın 31-də şamaxılılar Soyqırım gününü həmin abidənin önündə keçirdilər. Bütün həmyerlilərimizin əsl ziyarətgahına çevrilən bu abidənin açılışı zamanı rayon sakinlərinə bir daha vəd etdim ki, 1918-ci il Şamaxı soyqırımı hadisəsinə həsr olunmuş kitabın hazırlanmasını və yüksək nəfis şəkildə çap olunmasını da öz üzərimə götürürəm. Nəhayət, böyük elmi axtarışların və əziyyətlərin bəhrəsi olan bu kitab sizin ixtiyarınıza verilir. Qəti əminəm ki, hər bir şamaxılının stolüstü kitabına çevriləcək bu qiymətli tarixi sənəd qarşıdan gələn 31 Mart - azərbaycanlıların Soyqırımı gününə layiqli töhvə olacaq, bizi daim məkrli düşmənlərimizə qarşı ayıq-sayıq olmağa, baş vermiş soyqırım hadisələrindən ibrət dərsi götürməyə çağıracaqdır.

***Akif Əliyev***
***Şamaxı Rayon İcra Hakimiyyətinin Başçısı***

## AZƏRBAYCAN RESPUBLİKASININ ŞAMAXI RAYON İCRA HAKİMİYYƏTİ BAŞÇISININ 49 SAYLI

## SƏRƏNCAMINDAN

1. Azərbaycan Respublikası Prezidentinin 26 mart 1998-ci il tarixli fərmanına uyğun olaraq 31 Mart azərbaycanlıların soyqırımı Şamaxı rayonunda geniş şəkildə qeyd edilsin.
2. Ermənilər tərəfindən Şamaxıda qətlə yetirilmiş insanların xatirəsinə ucaldılan abidənin tikintisi soyqırımı gününə kimi başa çatdırılsın.
3. Rayonun idarə, təşkilat və mədəni-maarif müəssisələrində elmi-praktik konfranslar keçirilsin.
4. Əhalisi soyqırımına məruz qalmış kənd və qəsəbələrdə xatirə lövhələri asılsın.

***Mart, 2002-ci il***

# MÜƏLLİFDƏN



Seyfəddin Həmzə oğlu Qəniyev Şamaxı rayonunun Dağ Kolanı kəndində anadan olmuşdur. Azərbaycan Dövlət Pedaqoji Universitetinin filologiya fakültəsini və aspiranturasını bitirmişdir. Filologiya elmləri doktorudur. İndiyə kimi otuz dörd kitabın (“Aşıqlar və el şairləri”, “Şamaxı”, “Şirvan aşıqları”, “Şamaxı şəhidləri”, “Şirvan folklor mühiti”, “Şamaxı maarifi və maarif fədailəri”, “Mirzə Məhəmmədhəsən Nalə”, “Şirvanın 350 şairi”, “Dağ-Kolanı - elim mənim”, “Şirvan övliyaları”, “Adım Aşıq Şakir - mahalım Şirvan”, “Beytüs-Səfa” davamçıları” və s.), eləcə də 150 məqalə və tezisin müəllifidir.

Respublika Yazıçılar və Aşıqlar Birliyinin üzvüdür. O, müqəddəs Həcc və Kərbəla ziyarətlərində olmuşdur.

Hazırda Azərbaycan Müəllimlər İnstitutunun Şamaxı filialında kafedra müdiri vəzifəsində çalışır.

Ailəlidir, dörd övladı var.

Şamaxılılar 2001-ci ildə mart soyqırımı ilə bağlı 1918-ci ildə şəhərin daha çox qırğınına məruz qalmış yerində matəm mitinqinə toplaşmışdılar. Mərasimdə Şamaxı Rayon İcra Hakimiyyətinin başçısı Akif Əliyev də iştirak edirdi. O çıxışının sonunda ürək yanğısı ilə onu da qeyd etdi ki, respublikamız müstəqillik qazanandan bu yana soyqırımla bağlı Şamaxıda gərək bir abidə ucaldılaydı. Gec də olsa, çalışacağam ki, növbəti ilin soyqırımının anılma gününə kimi belə bir abidə elə buradaca ucaldılsın.

Doğrusu, Şamaxının keçmişi ilə bağlı belə vədləri çox eşitmişdik. Odur ki, bu sözə inananlar da oldu, inanmayanlar da.

Həmin hadisədən az bir vaxt keçmişdi ki, Akif müəllimin göstərişi ilə həmin ərazidə geniş iş başladı. Doğrudan da, 2002-ci ilin soyqırımı qeyd olunan günə - 31 Marta kimi abidə hazır oldu.

Abidənin açılışına Milli Məclis sədrinin birinci müavini Arif Rəhimzadə ilə yanaşı Bakı, Ağsu, Qobustan, İsmayıllıdan da xeyli qonaqlar gəlmişdi. Hər kəs soyqırımı ilə bağlı sözünü demək, xatirələrini söyləməklə yanaşı, analoqu olmayan qırğın adına ucaldılmış bu abidəyə görə Şamaxı rayonunun başçısına da təşəkkürünü bildirirdi. Belə bir işin başqalarına da örnək olunması məsləhət bilindi.

Mərasimin sonunda Akif müəllim tədbir iştirakçılarına minnətdarlığını bildirərək dedi: “Vaxtilə erməni soyqırımına məruz qalmış Şamaxıda bu abidə mən deyərdim ki, hələ azdır. Erməni quldurlarının Şamaxıda törətdikləri qırğına aid cilid-cilid kitablar yazılması vaxtı çoxdan çatmışdır. Biz çalışmalıyıq ki, 2003-cü ilin soyqırımı gününə qədər bu faciə ilə bağlı kitab hazırlayaq. Eləcə də Şamaxıda soyqırımına məruz qalmış kəndlərdə xatirə lövhələri açılmasını təmin edək”.

Bəli, biz ziyalılar hamımız rayon rəhbərinin bu səmimiyyətinə ürəkdən inandıq. İnandıq ki, Şamaxı ərazisində minlərlə insanın qanı tökülmüş qırğından bəhs edən kitab da hazırlanacaq.

Bu faciə ilə bağlı az-çox yazılarım, geniş məlumatım olduğu üçün, bir gün Akif müəllim məni yanına dəvət etdi, söhbət edəndən sonra məsləhətlərini verdi. İşə başladım, bu vaxta kimi Şamaxı soyqırımı ilə bağlı əldə etdiyim materialları saf-çürük etdim, arxivlərdə oldum, mütəxəssislərlə görüşdüm. Nəticədə belə bir kitab ərsəyə gəldi.

Beləliklə, bu kitabın ərsəyə gəlməsində təmənnasız köməyi olan, xalqım və tarixini ürəkdən sevən, əsl ziyalı, xeyirxah insan Akif müəllimə bütün ziyalılar adından dərin minnətdarlığımı bildirirəm.

SEYFƏDDİN QƏNİYEV

# 1918 – Cİ İL

# ŞAMAXI SOYQIRIMI

I KİTAB

Bakı - "Nurlar" - 2003

"AZƏRBAYCANLILARIN SOYQIRIMI HAQQINDA"
AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN 26 MART
1998-Cİ İL TARİXLİ FƏRMANININ 5-Cİ, 1918-Cİ İL SOYQIRIMI
85-Cİ İL DÖNÜMÜNƏ VƏ ŞAMAXI SOYQIRIMI ZAMANI FACİƏLİ
ŞƏKİLDƏ QƏTLƏ YETİRİLMİŞ ZİYALILARIN XATİRƏSİNƏ AD EDİRİK.

**Elmi redaktoru:** **Əzizə Cəfərzadə**
Filologiya elmləri doktoru, professor, xalq yazıçısı

**Rəyçilər:** **Pərviz Dərabadi**
Tarix elmləri doktoru, professor

**Lətifə Məmmədova**
Tarix elmləri namizədi, dosent

**Mayıl Alıcanov**
Tarix elmləri namizədi, dosent

Seyfəddin Qəniyev. 1918-ci il Şamaxı soyqırımı. Bakı, "Nurlan", 2003.

Kitabda erməni millətçilərinin və terrorçularının 1918-ci ildə Şamaxı və onun ətraf kəndlərində törətdikləri soyqırımından bəhs olunur. Regionda törədilmiş cinayətlər təkzib edilməz arxiv materialları, ayrı-ayrı sənədlər və o dövrün dəhşətlərini görmüş yaşlı insanların tükürpədici xatirələri əsasında təsdiqlənir. Kitab tarixçilər, politoloq və geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

N 460300000-109 Qrifli nəşr
N-098-2003
© "Nurlan" - 2003

# I FƏSİL

## ERMƏNİ TERRORU VƏ ŞAMAXI

Tarixi qaynaqlar təkzibolunmaz faktlarla sübut edir ki, Qafqaz ərazisində kiçik bir icma təşkil edən ermənilərin tarixən vahid dövləti olmamışdır. XVII əsrə kimi onlar Türkiyə və İranın bir ərazisində, daha sonra Qarabağ və İrəvan xanlığında dəstə halında həyat sürmüşlər. "XVIII əsrin 40-cı illərin axırlarında Azərbaycan torpaqlarının hər yerində olduğu indiki Ermənistan ərazisində də azərbaycanlıların İrəvan xanlığı yaranmışdı və xanlığın başında duran xanların hamısı azərbaycanlılar olmuşlar. Xanlıq ərazisində yaşayanların 78 faizi azərbaycanlı, 11 faizi kürd və başqaları, cəmisi 10 faizi ermənilər idi"[1].

İllər keçdi. Müxtəlif cildə girməyi asanlıqla bacaran bu ermənilər dünyada özlərinə bir çox havadarlar tapdılar. Havadarların yaxından köməyi və göstərişi ilə günü-gündən iştah artmağa başladı. Hətta XIX əsrin sonlarına yaxın "Böyük Ermənistan" yaratmaq xülyasına düşdülər. Ən nəhayət, onlar öz mənfur, iyrənc niyyətlərini həyata keçirmək üçün 1891-ci ildə "Daşnaksütyun" adlı terror təşkilatı yaratdılar. Bir sıra xarici dövlətlər tərəfindən maliyyələşdirilən bu terror təşkilatına dünyanın müxtəlif yerlərinə səpələnmiş millətçi ermənilər də cəlb olundular. Bu mənfur təşkilat həmin vaxtdan "dənizdən-dənizə" "Böyük Ermənistan" yaratmaq uğrunda neçə-neçə planlar cızdı, qərarlar qəbul etdi, cinayətlər törətdi.

"Böyük Ermənistan" yaratmaq xülyası, ermənilərin fikrincə, iki istiqamətdə həyata keçirilməlidir. Birincisi, ermənilərin göz dikdiyi türk torpaqlarının, o cümlədən də, Azərbaycan ərazilərinin müharibə, yaxud dinc yolla işğal edilib Ermənistana qatılması siyasətidir. İkincisi, buna nail olmadıqda milli qırğın törətmək yolu ilə türk xalqlarına, eləcə də azərbaycanlılara qarşı soyqırım siyasətinə həyata keçirməkdən ibarətdir".[2]

XIX əsrdən başlayaraq ermənilər Azərbaycanın cənnət guşələrindən – Qarabağ, İrəvan, Şirvan və s. bölgələrində yavaş-yavaş məskunlaşmağa başladılar. Onlar qədim mədəniyyət beşiyi olan Şamaxıda ən səfalı, bir içim suyu yayın oğlan çağında diş donduran, abu-havası min bir dərdə dərmanı olan – Mədrəsə, Saqiyan, Meysəri, Kələxana, Zarxı və s. yerləri özlərinə "ata-baba" ocağı seçdilər. Bu yerlərdə xalqımızın keçmiş tarixinin izləri indi də yaşamaqdadır. Göründüyü kimi, həmin yaşayış yerlərinin adları, o ərazidə olan toponimlərin hamısı sırf türk mənşəli sözlərdir. Məsələn, ermənilərin XIX əsrdə məskunlaşdıqları Kələxana kəndi hələ XVI-XVII əsrlərdə Şirvanşahın mühafizə obyektlərindən biri olmuşdur. Bu ərazidə XVII əsr abidəsi olan Kələxana türbələri, XVIII əsrin böyük səyyahı Kortelnus de Bryninilin çəkdiyi rəsmdə 9 məqbərə təsvir edilmişdir. Bu gün

[1] M.İsmayılov. "Yalan və riya erməni xislətidir". "Respublika" qəz. 13.I.1993.
[2] V.Həbiboğlu "Böyük Ermənistan" yaratmaq xülyası. "Respublika" qəzeti, 3 aprel, 1999.

onların yeddisi tam, biri yarımuçuq vəziyyətindədir. Məqbərələrdən birinin üstündə kimin üçün tikildiyi və müəllifinin adı yazılmışdır: "Bu günbəz Şeyx İbrahimin şərəfinə 1663-cü ildə Abdül Əzim Əmir Əli oğlunun rəhbərliyi altında tikilmişdir".[3]

Mədrəsə sözü ərəb sözüdür – mənası dərs keçirilən yer və ya məktəb deməkdir. Bir sıra dilçi alimlər Meysəri sözünü "mey" və "sər" sözü ilə əlaqələndirirlər. Əslində, Meysəri sözü Şamaxı dialektində işlədilən "Meyzər" sözündədir. Vaxtilə tut yığmaq (çırpmaq) üçün ağ bezdən düzəldilən böyük çadırın adıdır. Doğrudan da, həmin ərazidə böyük tut bağları olmuşdur və indi də elədir. Meyzəri sözü dildə fonetik dəyişimliyə uğrayaraq Meysər və ya Meysəri formasında düşmüşdür. Təkcə kəndlərin deyil, ermənilərin sonradan gəlib yaşadığı ərazilərdə olan bütün toponimlər türk mənşəli sözlərdir. Yaxşı ki, bunlar da sonradan dəyişdirilməmiş, öz tarixi şəklini saxlamışdır.

XIX əsrin birinci yarısından Şamaxıda və onun kəndlərində məskunlaşmış ermənilər başqa ərazilərdə olduğu kimi, rus havadarlarının köməyi ilə müxtəlif idarələrdə bir çox vəzifələrə yiyələnə bilmişlər. Faktlar bir daha göstərir ki, erməni millətçiləri hələ XIX əsrin 70-90-cı illərində müsəlmanlara xor baxmış, yeri gələndə onların əleyhinə təbliğatlar aparmışlar. Bu işdə bəzən də "dost" cildinə girmiş ermənilər çox vaxt da özlərini müsəlmanların dərdinə şərik adam kimi göstərə bilmişlər. Məsələn, XIX əsrdə Şamaxıda xüsusi var – dövlət sahibi olan, hər yerdə xüsusi hörmətlə qarşılanan Aleksandr Lalayev (1918-ci il qırğınının başçılıq edən Stepan Lalayevin atası) S.Ə.Şirvani ilə dost olmuşlar. S.Şirvani ona bir neçə şer də həsr etmişdir. Hər cildə asanlıqla girməyi bacaran Lalayevin hərəkətlərindən şair, sonralar başa düşür ki, onun tük üzü içəridədir. Odur ki, onun əməllərinə - erməni millətini müsəlmanlardan uca tutmasına etiraz edir:

Aleksandr Lələyofidan olur ümmid tutmaq kim,
Dəxi kəm tutmaya ol ermənilərdən müsəlmani.[4]

Ən nəhayət, XX əsrin əvvəllərindən ermənilər müsəlmanlara qarşı açıqdan-açığa ədavətə başlayırlar. İğtişaşlar daha da çoxalır, erməni terrorçuları açıq-aşkar meydana çıxırlar. 1905-1907-ci il hadisələri terrorçu "Daşnaksütyun" təşkilatının fəaliyyəti kulminasiya nöqtəsinə çatdı. Erməni millətçilərinin əsil niyyətlərini başa düşən Azərbaycan ziyalılarının "Müdafiə", "Qeyrət" kimi hərbi-siyasi təşkilatları yarandı, dövrün mətbuatından və müasirlərin xatirələrindən göründüyü kimi, azərbaycanlılar bu hadisələr zamanı erməni terrorçularına qarşı layiqli müqavimət göstərmişlər. Öz yer-yurdlarını atıb qaçmadılar.[5]

---

[3] Z.Əliyev. "Şamaxının qədim abidələri", "Qobustan" jurnalı. 1982, səh. 40.
[4] S.Ə.Şirvani. Əsərləri, II cild, Bakı, 1968, səh. 192.
[5] V.Quliyev. Azərbaycanda erməni zülmü, Bakı, 1999, səh. 13.

1905-1907-ci illərdə erməni daşnakları xalqımızı məhv etmək, torpaqlarımızı ələ keçirmək üçün Azərbaycanın bir çox bölgələrinə - İrəvanda, Göyçay mahalında, Zəngəzurda, Qarabağda, Qazaxda, Naxçıvanda, Şamaxıda və Bakıda ağlasığmaq qırğınlar törətmişlər.

Xalqımızın arasında süni şəkildə ikitirəlik salan, sünnü-şiə qarşıdurması da məkrli ermənilərin əlində böyük bir vasitə, güclü bir silah olmuşdur. Tarixi sənədlə bir daha sübut edir ki, 1905-1907-ci illərdə Azərbaycanın müxtəlif bölgələrində olan ermənilər şayiə yayırlar ki, "ermənilərin sünnilərlə heç bir işi" yoxdur. Belə bir riya və yalanın nə ilə nəticələndiyini gözləri ilə görmüş publisist mollanəsrəddinçi Ö.F.Nemanzadə 1906-cı ildə "İrşad" qəzetində yazırdı: "Ağla, əzizim, ağla ki, ancaq düşmənlərimiz bizi nə qədər binamus və şərəfsiz hesab edirlər ki, araya, guya, şiə-sünnü nifaqı salıb, yenə bizi qəflət, cəhalət əksimizlə kəsmək istəyirlər. Mən məəttələm ki, ermənilərin "bizim sünnülərlə işimiz yox" yalan və fitnələrinə inananlar nə cür cammaat arasında qalırlar. Nə üçün "məcnunxanalara" getmirlər? Kimdir deyən ki, ermənilərin sünnülərlə işi yoxdur. Ayə, Zəngəzur, Qazax mahalında ermənilərin viran etdikləri kəndlərin, şəhid etdikləri canların çoxu sünnü deyilmiydi? Ayə, Tiflisdə şəhid edilən qalayçı ləzgilər sünnü deyilmiydilər? Ayə, Tiflisdə talan edilən və yanan evlərin bir xeylisi dağıstanlı, şəkili sünnüləri deyilmi? Mən qanmıram ki, erməni bir müsəlman öldürərkən demir ki, sən şiyəsən, ya sünnü? Noyabr vüqudatında bir erməni bir silahsız sünnünü öldürmək istəyəndə, sünnü guya, canını qurtarmaq üçün erməniyə başladı ki, a, qonşu! Siz deyirsiniz sünnü ilə işimiz yoxdur, bil ki, mən sünnüyəm, mənə dəymə! Erməni cavabında: a, bəli, Osmanlıda bizim erməni balalarını nizəyə taxanlar siz sünnülər deyildiniz? Biz sünnü şiə bilmirik, müsəlmanların Qafqazda kökünü qazıyacağıq".[6]

Məqaləni ürək ağrısı ilə qələmə alan müəllif, axırda üzünü bütün müsəlman əhlinə tutur və onlara bir daha erməni fırıldağını, erməni məkrini açıb göstərirdi: "Amma Şəki, Şamaxı, Dağıstan və qeyri-yerlərdəki hiyləgər ermənilər deyirmişlər ki, bizim sünnülər ilə işimiz yoxdur. Əlbət, özlərinin gücləri çatmadıqları, az olduqları yerlərdə çalışırlarmış ki, aranı qatsınlar. Ayə, bu mərhəmətli "kirvələrin". Həm məzhəbləri nə üçün Zəngəzur, Qazax, Tiflisdə belə demədilər və demirlər".[7]

Bəllidir ki, 1902-ci il zəlzələsi Şamaxını yerlə-yeksan etmişdi. Şəhərdə və onun ətraf kəndlərində minlərlə insan qırılmış, bir çoxları şikəst olmuşdu.

1902-1905-ci illərdə zəlzələnin ağrı-acıları təzəcə unudulurdu ki, Şamaxıda erməni soyqırımı baş verdi. Əldə etdiyimiz məlumatlardan bəlli olur ki, ilk əvvəl, açıqdan-açığa fəaliyyət göstərə bilməyən ermənilər gizlincə "Şamaxıda bir çox mülkləri yandırmış", "sünnü və şiyələr"i bir-birinə qarşı qoymaqla müsibətlər törətmişlər. Eləcə də, Şamaxıda olan ermənilər Tiflis, Qazax, Gəncə, Şuşa və

---

[6] Ö.F.Nemanzadə. Seçilmiş əsərləri, Bakı, 1992, 96-97.
[7] Yenə orada, səh. 97.

Cəbrayılda soyqırımı törədənlərə hər cür maddi, köməklik göstərə bilmişlər. Nəticədə "Böyük Ermənistan" xülyasının icraçıları 1905-1907-ci illərdə yüzlərlə Azərbaycan kəndini viran qoymuş, əhalisini ev-eşiklərindən didərgin salmışlar".[8]

Bu illərdə erməni millətçiləri Şamaxıda qırğın törətməyə, bu ərazini "müsəlmanlardan təmizləməyə" böyük səy göstərmişlər. Qatı millətçi Lalayev qardaşları - Aleksandr və Saşa Lalayev Şamaxıda "sünni-şiyə" qarşıdurmasını canlandıra bilmişlər. İlk əvvəlcə, onlar fürsət tapıb, hər iki tərəfdən adamlar qətlə yetirmiş və camaatı bir-birinə qarşı qoymuşlar. Bunun nəticəsi olaraq, sünni və şiə məscidləri arasında narazılıqlar baş versə də, ziyalıların səyi nəticəsində böyük qalmaqallar olmamışdır. Fitvaya uymayan müsəlmanlar ermənilərin fırıldaqlarını, gec də olsa, başa düşmüş və onlara yaxşıca dərs vermiş, Lalayev qardaşlarını xəyanətlərinə görə qətlə yetirmişlər. Çox əfsuslar ki, babalarımız o zaman bu terrorçu nəslin törəmələrinə aman vermişlər. Sən demə, çörəyimizlə, suyumuzla böyüyən həmin erməni yetimləri gələcəkdə atalarından da dəhşətli qırğınlar törədəcəklərmiş. Azərbaycanın müxtəlif yerlərində ermənilərin bu şəhərdə 1905-1907-ci ildə törətdikləri qırğın və faciələrə Şamaxı ziyalıları müxtəlif mətbuat orqanlarında dərc etdikləri məqalələrlə də olsa, erməni cinayətlərinə qarşı etiraz səslərini ucaltmışlar. Bununla yanaşı o dövrdə Şamaxı ziyalıları Qarabağda, Naxçıvanda, Gəncədə ermənilər tərəfindən aclığa, səfalətə düçar olmuş, yer-yurdlarından didərgin düşmüş qardaş-bacılarına öz kömək əllərini də uzatmışlar.

O zaman erməni cəlladlarının Qarabağda törətdikləri cinayətə qarşı etirazını ifadə edən görkəmli şair M.Ə.Sabir şamaxılıların Qarabağda soyqırımına məruz qalmış insanlara etdikləri köməklik haqqında məlumat verir: O, 6 avqust 1906-cı il tarixində "Həyat" qəzetində çap etdirdiyi məqaləsində yazır: "Bəli, Şamaxı əhli öz - milləti - nəcibeyi - islamiyyələrinə qarşı ürəklərində bəslədikləri məhəbbəti - qeyrəti məndanələri, təhəyyücündən Qarabağ facineyi-müəssifəsindən əsarətlərə düçar olan sevgili qardaşlarını düşmənlərin zalimanə və biarəhmanə sui-qəsdlərindən müdafiə müqtədir olmadıqlarından yaralanmış ürəklərinə məlhəm olaraq bir yanda ianə dəftəri açılmışdır".[9]

M.Ə.Sabir başqa bir məqaləsində həvəskar artistlərin Şamaxıda Salamovların evində N.Vəzirovun "Yağışdan çıxdıq, yağmura düşdük" komediyasını tamaşaya qoyduqları haqqında məlumat verir. Müəllif həmin məqalədə onu da göstərir ki, tamaşadan yığılan pul Şuşaya - Qarabağa - zərərçəkənlərə göndərilmişdir. "Vüsul olan məbləğin vəzi - məxaricindən sonra təmiz məbləği 318 manat 68 qəpik pulu Orucəliyev və Şirəlibəy cənabı Şişə şəhərinə poçta vasitəsi ilə doktor Kərimbəy Mehmandarovun üstünə göndəriblər".[10]

---

[8] V. Həbiboğlu. "Böyük Ermənistan" yaratmaq xülyası, "Respublika" qəzeti. 3 aprel, 1999.
[9] M.Ə.Sabir, Hophopnamə, III c. Bakı, 1965, səh. 113.
[10] M.Ə.Sabir. Göstərilən əsəri, səh. 163.

M.Ə.Sabirin həmin məqaləsində bir cəhət də diqqəti çox cəlb edir. Görkəmli şair Qarabağda bu dəhşətli qırğını törədən, ermənilərə havadarlıq edən - Qalosicanovun da adını bəyan edir və göstərir ki, Qalosicanovların məxsusən müsəlmanlara etdiyi yaddan çıxmaz olan birəhmanə və xanımansuzanə hərəkətindən ancaq dərgahi-əhədiyyətə şaki olub, dövlətin ədalət qanununa ona cəza verilməsinə ümidvara olmaqla təsəlliyab ola bilirlər". Şair, o zaman Şuşada general-qubernator işləyən Qalosicanovun qatı ermənipərəst olduğunu düz təyin etsə də, "dövlətin ədalət qanunlarına" bel bağlaması onun yanıldığını göstərir. Çünki mənbələrdən məlum olur ki, general-qubernator terrorçularla həmişə əlbir işləyirmiş. Bu barədə M.S.Ordubadi "Qanlı illər" kitabında yazır: "General Qalasicanovun müsəlmanlara iblis münasibəti bəslədiyini anlayan ermənilər hər an bir bəhanə axtarırdılar ki, generalı müsəlmanların üstünə ayaqlandırsınlar". "İslam əsgərləri isə, mərdliklə onları (erməniləri - S.Q.) qarşılayıb bir qədəm də olsa, müharibədən geri durmur, erməni dəstələrini pərişan edirdilər. Ermənilərin bu vəziyyətini görən general Qalasicanov ümumi ştabda olan rus qoşunlarının müharibəyə qoşulmasını əmr edir".[11]

Bir sözlə, "...Özlərini Qafqazda aparıcı güc sayan erməni siyasətçiləri... 1905-ci ildə azərbaycanlılara özlərinin nəyə qadir olduqlarını göstərməyə çalışırdılar. Həmin dövrdə Bakıda, Tiflisdə, İrəvanda, Gəncədə, Naxçıvanda, Şuşada və b. yerlərdə ermənilərin azərbaycanlı əhaliyə qarşı kütləvi silahlı çıxışları başladı və 1907-ci ilə kimi davam etdi".[12]

Bundan əlavə, Şamaxı ziyalıları ermənilərin Qarabağda törətdikləri cinayətlərə qarşı etirazlarını Qafqaz canişini qraf Vorontsovun adına vurduqları teleqramlarda da ifadə etmişlər. Teleqramlar "Həyat" qəzetinin 3 avqust 1906-cı il sayında çap olunmuşdur.

Böyük çətinliklə olsa da, xalqımız həmin dövrdə bu cəlladların öhdəsindən gələ bilmişlər. Həmin illərdə Şamaxıda ermənilərə pis dərs verilmədi. İşin belə nəticələndiyini görən ermənilər cildlərini tam dəyişdilər. Hətta, özlərini müsəlmanların dostu kimi göstərməyi bacardılar, "Allah baisin evini yıxsın", - deyib, guya, "peşmançılıq" hissi keçirməyə başladılar. Hətta terror ilə qətlə yetirdikləri müsəlmanların dəfnində də iştirak etdilər. 1905-1907-ci illərdə belə hadisələr Şuşa, Naxçıvan, Tiflis, Bakı və Şamaxıda çox olmuşdur. Ö.F.Nemanzadənin "İrşad" qəzetində 12 sentyabr 1906-cı il tarixli sayında çap etdirdiyi bir məqalədə Tiflisdə baş vermiş belə bir hadisə haqqında xəbər verir: "Müsəlman sosial-demokratlarından ən qeyrətli, fail və iş görənlərdən Əziz Məhəmmədoğlunu avqustun 4-cü gecəsi erməni məhəlləsi Avlabarda vəhşicəsinə öldürüb yolun kənarına tullayıblar. Mərhumun xəncərlə başını, döşünü, böyürlərini deşik-deşik ediblər. Qulaqlarını kəsib öldürəndən məlunə aparıblar. Mərhumun

[11] M.S.Ordubadi "Qanlı illər", Bakı, 1991, səh. 61.
[12] V.Quliyev. Azərbaycanda erməni zülüm. Bakı, 1999, səh. 13.

cənazəsini avqustun 8-də cümə günü Mixayılovski xəstəxanasından qaldırılıb, müsəlman qəbirstanlığına götürürlər. Cənazə alayı Vorontsov küçəsindən keçib soldat və erməni bazarları ilə gətirilirdi. Cənazə keçən yerlərdə bir çox gürcü və ermənilər dükanlarını bağlayıb, cənazə alayına qoşulurdular. Dəfn edilən vaxtda türkcə, gürcücə, ermənicə, rusca qayət təsirli nitqlər olunurdu".

Bu illərdə Şamaxı və onun kəndlərində buna bənzər terror hadisələri çox baş vermişdir. "Düşmənçiliyi gizlində icra edin" siyasəti ilə təlim görmüş ermənilər sadəlövh, heç bir xainlik, biclik, riyakarlıq bacarmayan şamaxılılara özlərini dost kimi göstərir, onları bu cür münasibətləri ilə çaşdırırdılar. "Əşi, ermənilər hamısı bizim düşmənimiz deyil, görmürsən məclislərimizdə necə iştirak edirlər", - deyən şamaxılılar onları dost kimi qəbul edirdilər. Belə münasibətə və ünsiyyətə təkcə kasıb təbəqə deyil, hətta ziyalılar da mat qalmışdılar. M.Ə.Sabir 1906-cı ildə, fevral ayında "İrşad" qəzetinə "Alimi-amil və zahidi - fazilimiz cənab Şeyxəli Ağayi-Şirvaninin vəfatı xəbəri münasibəti ilə yazdığı məktubunda oxuyuruq: "Dəfn günündə tamam müsəlman və erməni (seçmələr bizimdir, S.Q.) və cühudlar da etiram üçün dükanlarını bağlamışdılar. Ən nəhayət, Şamaxının məhələlərində qan töküldüyü bir vaxtda qəbristanda dəfn zamanı "erməni Qriqoryan tayfasının keşişi bu məzmun ilə camaata xitabən buyurdu: "- Camaat, siz ağlayırsınız ki, cənab Şeyx ağa vəfat edib, bizləri yetim qoyubdur. Halbuki bu mərhum zahirdə cismən vəfat etmişsə də, ruhən behşitdə olub, Allah-təalanın hüzurunda diridir".

Həmin mərasimdə iştirak edən Lüteriyan tayfasının keşişi özünü müsəlmanların (bu tayfa 1905-1907-ci illərdə Şamaxıda daha çox terror törətmişdir) dostu kimi göstərir və hətta, onları belə arxayın edir ki, "bizdən sizə ziyan olmaz bir ildən bəri Qafqazda bu qədər nahaq tökülən qanlara və bunun kimi hadisələr hamısı öz nəfsimizin bəlasıdır ki, çəkirik. Lazımdır ki, hamılıq ilə öz günahlarımızdan tövbə edib, Allah-təala tərəfinə qayıdaq".[13]

Göründüyü kimi, "ağsaqqalı" - keşişi belə ikiüzlü, riyakar terrorçu bir millətin "qarasaqqalı"nın hansı bəd əməlin sahibi olduğunu təyin etmək o qədər də asan məsələ deyildir. 1905-1907-ci illərdə Şamaxıda geniş şəkildə iğtişaşlar baş verməsə də, erməni millətçiləri bunu törətmək üçün hər cür hazır idilər. Filologiya elmləri doktoru A.Bayramoğlu "Şamaxıda maarif və maarifçilik" adlı dəyərli əsərində bu məsələ ilə bağlı yazır: "daşnaksütyun partiyası 1906-cı ildə milli ədavəti bu qədim mədəniyyət mərkəzində qızışdırmaq üçün əlindən gələni edirdi. Lakin cəhdlər uğursuzluqlarla nəticələndi. Nəticədə, həmin şovinist partiya ilə o zaman Şamaxıda yaşayan ermənilər arasında müəyyən ixtilaf yarandı. Vəziyyəti "aydınlaşdırmaq" üçün Şamaxıya daşnaksütyunun səlahiyyətli nümayəndəsi göndərilsə də, onun burada aparacağı pozuculuq işləri baş tutmadı. Bu haqda "Həyat"da çıxan imzasız bir yazıda oxuyuruq: "Ermənilər ilə daşnaksion nəfəratı

---

[13] M.Ə.Sabir, Göstərilən əsəri, səh. 153-154.

arasında bir neçə səbəblərə görə hadis olan ixtilafı təftiş etməyə gələn müfəttişi pristav - Rüstəmbəy Cəbrayılbəyov tutub naçalnik həzarətlərinə aparmışdı. Daşnaksionun müfəttişinin öz səlahiyyətini təsdiq edən sənəd təqdim edə bilməməsindən onun Şamaxıya gizli və məkrli bir niyyətlə göndərildiyini təsdiq etməkdədirlər. Belə ki, naçalnik tərəfindən həmin daşnaksion agentini gözləyən yerli erməni millətçiləri onlar üçün gözlənilməz və arzuedilməz olan bu nəticənin baş verməsində naçalnik divanxanada işləyən bir erməndən şübhələnərək onu özlərinə xas üsulla cəzalandırırlar".[14]

Belə ikiüzlü, fırıldaqçı keşişlərin canfəşanlığına baxmayaraq, qeyd etdiyimiz kimi, ermənilər Şamaxıda kütləvi qırğın törədə bilmədilər. Qırğının qarşısının alınmasında Şamaxı ziyalılarının - M.Ə.Sabir, Hacı Məcid Əfəndi, Şeyxəli Ağa, Mustafa Əfəndi, Tərrah, Abbas Səhhət, C.Cəbrayılbəyli, Hacı Usub, Mir Mehdi Ağa, Əbdülməcid Əfəndi, Hacı Səfər Məhərrəmov, Əmin Əfəndiyev, Qasım bəy, Məhəmmədhəsən Atamalıbəyov, Ə.İ.Cəfərzadə, Hacı Əbdürrəhman Əfəndi, Əhməd bəy Əhmədbəyov, Salamovlar, Veyisovlar, Hacı Murad, Hacı Şəfi, Əşrəf Yüzbaşov, Azad bəy Qocamanbəyov, Sultan bəy İbrahimbəyov, Ağalarbəy Hüseynbəyov, Əlməmməd Mustafayev, Məşmədi Nəcəf Sadıqov, Əbdülxalıq Əfəndi İbrahimxəlilov və başqalarının böyük xidməti, zəhməti, fəaliyyəti əvəzsiz olmuşdur. 1905-1907-ci illərdə neçə-neçə nahaq qanlar tökən, terror aktı törədən erməniləri Şamaxı ərazisindən qovub çıxarmaq mümkün olmamışdır. Çünki, dövlət çinovniklərinin çoxusu onların tərəfində idilər. Odur ki, T.Qriqoryanların, Lalayanların, Stepanyanların eyni əqidədə tərbiyə almış törəmələri Şamaxının çörəyi və suyu ilə böyüdülər.

**Möhüb Əfəndinin arxivindən:** "1905-ci ildə Şamaxıda ermənilər tərəfindən qırğınlar törədilməsinə səy göstərilsə də, onların mənfur niyyətləri baş tutmadı. Daha doğrusu, Azərbaycanın qərb bölgələrində qan tökən erməni millətçiləri Şamaxıda əl belə tərpədə bilmədilər. Şamaxıda yaranmış gərginliyin sorağı Gəncəyə gedib çıxdı. Odur ki, erməni cəlladlarını cəzalandırmaqdan ötrü, əsasən, şahsevənlərdən təşkil edilmiş könüllü süvari dəstə Gəncədən Şamaxıya yola düşdü. Bu xəbəri eşidən ermənilər Şamaxını tərk etdilər. Erməni keşişləri o zaman böyük ad-san sahibi olan Hacı Məcid Əfəndiyə minnətə gəlirlər. Qan tökülməsini məqbul bilməyən böyük dini bilik sahibi öz yaxın adamları ilə Kürdəmirə - Gəncə qoşununu qarşılamağa gedir. Hacı Məcid Əfəndi ordunu inandırır ki, Şamaxıda ermənilər faciə törədə bilməzlər. Hacının xahişini eşidən ordu Gəncəyə qayıdır. Bununla da ermənilər xilas ola bilirlər. Yenə də əvvəlki kimi Şamaxıda yaşayırlar. Bu hadisədən sonra erməni millətçiləri niyyətlərinin üstünə pərdə çəkmək üçün Hacı Məcid Əfəndini özlərinə ağsaqqal bilir, bütün tədbirlərində onun yanına məsləhətə gedirlər. Onlar Hacı Məcid Əfəndinin

[14] A.Bayramoğlu Şamaxıda maarif və maarifçilik., səh. 139-140.

dəfnində yaxından iştirak edir, hətta onun qəbri üstə türbə tikiləndə xeyli maddi köməklik də göstərirlər".

Belə bir yaxşılığın əvəzində 1918-ci ildə "Daşnaksütyun" təşkilatının Şamaxıda agenti olan bu quldurlar "1905-ci ildə ermənilərin incidilməsinin hayıfını çıxmaq üçün əlverişli məqam gözləyirdilər və həyasızcasına deyirdilər. "Biz bu günü illərlə gözləmişik. Bu Nikolayın sizə kömək etdiyi 1905-ci il deyil. İndi sizə heç kim kömək etməyəcək". Odur ki, terrorçular 1918-ci ilin martında Şamaxıda soyqırımını təşkil etməyə müvəffəq oldular.

## II FƏSİL

## ŞAMAXI SOYQIRIMI

"Daşnaksütyun" təşkilatının terrorçuluq siyasəti 1912-1914-cü illərdən sonra daha da genişlənməyə başladı. Bu illərdə İrəvan-Zəngəzur ərazilərində meydan oxuyan qatı millətçi Andranikin başçılıq etdiyi dəstə ağlasığmaz cinayətlər törətməklə yanaşı, minlərlə azərbaycanlını öz dədə-baba yurdlarından didərgin salmış, neçə-neçə kənd və şəhəri xarabazara çevirmiş, yüzlərlə tarixi abidələrimizi məhv etmişlər. "Azərbaycanlılara qarşı mütəşəkkil soyqırımını, etnik təmizlənmə əməliyyatını ermənilər geniş miqyasda I Dünya müharibəsinin başladığı 1914-cü ildən etibarən daha da genişləndirirdilər. Təkcə onu qeyd etmək kifayətdir ki, Andranik Ozaniyanın başçılıq etdiyi erməni hərbiçiləri 1914-1916-cı illərdə Azərbaycanın cənubunda - Xoy, Salmas, Dilman əyalətlərində 150 min, Şərqi Anadoluda, tarixən həmişə Azərbaycan türklərinin yaşadığı Qars, Sarıqamış, Ərdəhan, Kazıman, Ərzurum bölgələrində isə 200 min azərbaycanlı məhv etmişlər".[15]

1917-ci il oktyabr inqilabından sonra V.İ.Leninin göstərişi ilə "Daşnaksütyun" təşkilatının ən fəal üzvü, millətçi S.Şaumyan Qafqaz işləri üzrə müvəqqəti Fövqaladə Vəziyyət Komissarı təyin edildi. "Bakını ələ keçirməyə, burada Sovet hakimiyyətini qurmağa və qeydsiz-şərtsiz olaraq onun sərhədlərindən Rusiyanın mənafeyi üçün istifadə etməyə çalışırdı. Elə bu məqsədlə də Rusiya dövlətinin başçısı V.İ.Lenin bolşevizm maskası altında gizlənmiş Stepan Şaumyanı Bakıya xüsusi tapşırıqla göndərmiş və ona çox böyük səlahiyyət vermişdir".[16]

Çoxdan belə bir fürsət axtaran Şaumyan gizli şəkildə işə başladı. İlk əvvəl Bolşevik Ordusunun tərkibinə erməni millətçilərini daha çox cəlb etdi. Mənbələrdən bəlli olduğu kimi Şaumyanın Bakıda yaratdığı üç mindən artıq ordunun tərkibini əsasən, terrorçu ermənilər təşkil edirdi. Bundan əlavə, o, bölgələrimizdə "bolşevik ideyaları uğrunda mübarizəyə qoşulan" daha bir çox

[15] V.Quliyev. Azərbaycanda erməni zülmü, Bakı, 1996, s.14.
[16] V.Həbiboğlu. Azərbaycanın soyqırımının təşkilatçısı. Bakı, 2001, s. 46.

ermənini silahlandıra bilmişdi. Bakıda yaradılan bu ordunun əsgərləri elə ilk vaxtlardan azərbaycanlılara qənim kəsilməyə başladılar. “1918-ci ilin yanvar-fevral aylarında özgələrinə çox arxayın olan daşnak zabit və əsgərləri Bakının küçələrində belə bir mahnı oxuya-oxuya gəzirlərmiş:

Bir-iki, Qafqaz oldu bizimki,
Bir-iki, Bakı oldu bizimki.
Dənizdən-dənizə,
Qara dəniz, Aralıq dənizi,
Üstəlik Kirit adası,
Şimal sərhədimiz Voronej şəhəri,
Paytaxtımız Tiflis şəhəri,
Yaşa, çox yaşa, Andranik paşa...
Andranik paşa, səni çox yaşa”...[17]

Bakıda çox güclü bir terrorçu ordu yaratmış Şaumyan müxtəlif bölgələrdə yaşayan ermənilərlə əlaqələrini daha da möhkəmləndirməyə başlayır. İlk əvvəl, “sağ əli olan” A.Əmiryanın redaktoru olduğu “Bakinski raboçii” qəzeti vasitəsilə, həmfikirlərinə “boşeviklərin sözünü” çatdırmağa cəhd göstərir.

1917-ci ilin fevral-burjua demokratik inqilabından sonra Azərbaycanın bəzi yerlərində, eləcə də Şamaxıda Fəhlə və Əsgər Deputatları Soveti yaradıldı. Sovetin sədri “Hümmət” təşkilatının üzvü Əliheydər Qarayev seçildi. Bununla öz siyasətini ört-basdır etmək istəyən S.Şaumyan Sovetə yerli ermənilərdən xeyli üzv daxil etdi. Tarixi sənədlər bir daha təsdiq edir ki, təkcə fəhlə Əsgər Deputatları Sovetində deyil, Şaumyanın göstərişi ilə Şamaxıda olan bir çox aparıcı idarələrdə vəzifələr ermənilərə həvalə olunmuşdu. Qavril Qaroğlanov Şamaxı qəza rəisinin köməkçisi, Arşak Gülbəndov Şamaxı poçt-teleqraf kontorunun rəisi, Mıkırtıçyan rəisin müavini, Saturyan və Qriqoryan Şamaxı Qəza İcraiyyə Komitəsinin üzvü, Ağamyan (əslən Qarabağ ermənisi) təlimatçı, Suren Mıkırtıçyan (Bakı ermənisi) qəza rəisinin köməkçisi, Petrosyan Qırmızı küçədə yerləşən ən böyük baqqaliyyə mağazasının sahibi, Arakelyan-cühud məhəlləsində çaxır mağazasının sahibi, Tarasyan, Artunyan, Axel Mirzoyan məhkəmədə icraçılar, Samvel Arşak, Martrel Şabanov, Uşakyan dövlət məktəblərində direktor, direktor köməkçiləri və müəllimi idilər.

Məlumdur ki, bu zaman Azərbaycanın bir çox bölgələri kimi, Şamaxıda da aclıq başladı. Odur ki, Bakı quberniya komitəsinin göstərişi ilə Şamaxıya xüsusi yardım göstərildi. Yenə quberniyada oturanların göstərişi ilə Şamaxıda bu işin icraçısı qatı millətçi, Şaumyanın əqidə dostu Aqambekyana həvalə olundu. Daha dəqiq desək, o, Şamaxıya “ərzaq komissarı” təyin edildi. Aqambekyan göndərilən

[17] V. Arzumanlı. N.Mustafa. Tarixin qara səhifələri. Bakı, 1998. s. 81.

ərzağı “bənzəri olmayan bir bölgü ilə” paylayır. Yəni, bir payını müsəlmanlara, beş payını ermənilərə verir və ya çox zaman, “ərzağın yolunu kəsir”, “Zira ki, bədbəxtanə Şamaxı ərzaq komitəsinə quberniya komitəsi tərəfindən komissar təyin olunmuş Aqambekyan Şamaxıya gələr-gəlməz sabiqdə az-çox Bakıdan gələn ərzağın da yolunu kəsdi”.[18]

1917-ci ilin sonu 1918-ci ilin əvvəllərindən başlayaraq S.Şaumyanın tapşırıqları ilə Şamaxıda böyük mülk, var-dövlət sahibi olan Stepan Lalayev (1905-ci ildə atası və əmisi törətdikləri əməllərin qurbanı olmuşlar) gizlincə Şamaxıda, eləcə də Mədrəsə, Kərkənc, Saqiyan, Zarxı, Meysəri kəndlərində yaşayan ermənilərə, həmçinin də rus kəndinə - Xilmilli, Qızmeydan, Çuxuryurda gizlincə silah, sursat paylatmış, onları başdan - ayağa silahlandıra bilmişdir. “S.Şaumyan Azərbaycanın müstəqilliyinə yol verməmək məqsədilə hər şey etməyə, hətta xalqı kütləvi şəkildə qırmağa belə hazır idi. O, 1918-ci ilin əvvəllərindən başlayaraq, belə bir qırğının həyata keçirilməsi üçün aralarında təbliğat işi aparılmasına başladı. Ermənilər gizlincə silahlı qüvvələri müxtəlif bəhanələr adı altında Bakıda saxlanılırdı”.[19]

Ermənilərin gec-tez qırğın törədəcəklərini Şamaxı ziyalıları, idarələrdə çalışan, mal-mülk və dövlət sahibləri - Mahmudbəy Mahmudbəyov, Abbas Səhhət, Camo Cəbrayılbəyli, Hacı İsmayıl Veyisov, Əliheydər Qarayev, Abutalıb bəy Fəttahbəyov, Hacı Tağı Mirzəquliyev, Vahab bəy Rəhimbəyov, Osman bəy Hacı Tağı oğlu, Məmmədtağı Əlizadə, Azad bəy Qocamanbəyov, Xankişi bəy Qafarbəgov, Müfti Mustafa Əfəndi, Hacı Baba Abbasov, Hacı Əbdülxalıq Əhmədov, Eyyub Ağa Veysov, Zibaxanım Veyisova, Mürsəl Hacı Soltan oğlu, Şeyx Hacı Axund, Həqqi Veyisov, Mirzə Ağa, Mirzə Müşfiq və başqaları qabaqcadan hiss etmişdilər.

1918-ci ildə Bakı şəhərini bolşevik-daşnak birləşmələrinin törətdikləri qırğınlar hesabına ələ alan S.Şaumyan, necə deyərlər, fürsəti fövtə verməmiş, azərbaycanlılara qarşı soyqırımını bütün ölkədə həyata keçirməyə başlamışdır. Bu zaman “Müsavat” partiyası Şaumyanın daşnak ordusuna qarşı imkanı daxilində müqavimət göstərsə də, heç bir nəticə hasil olmamışdır.

1918-ci ilin yazında bolşeviklər Bakını hərbi qalaya çevirmək üçün qətiyyətlə irəliləyirdilər. O vaxt Qafqaz üzrə hərbi inqilab komitəsi Bakıda yerləşdirildi. Sədri milliyətcə erməni olan Q.N.Korqonov idi. Qırmızı Qvardiya və Xəzər Donanması Bakı Sovetinə tabe etdirildi. Cəbhədən qayıdan 8 min erməni əsgərini Bakıda saxlayan və daşnakların hərbi qüvvələrini özünə tabe edən Şaumyan mart ayında 20 minlik silahlı orduya malik idi. Bakı bolşevikləri ilə

[18] A.Səhhət. Əsərləri, II cild, Bakı, 1975, səh. 69.
[19] V.Həbiboğlu, Azərbaycan soyqırımı təşkilatçısı, Bakı, 2001, səh. 42.

erməni millətçilərinin müştərək mübarizəsində hədəf eyni idi: "Azərbaycan milli fikrini boğmaq, millətçi hərəkatı dəf etmək".[20]

Həmin illərin hadisələri ilə əlaqədar M.Ə.Rəsulzadə sonralar belə yazırdı: "Əvət, bolşeviklər sözlərini tutmuş daşnaklarla birləşmiş. Fəqət, burjuylara elani-hərb edən qatillər füqarayinası və münhəsirən müsəlman füqarasını üç günün müddətində mərhəmətsizcəsinə qılıncdan keçirdikdən sonra sülh bağlamış, "İsmaliyyə" binasındakı idarənizdən apardıqları Müsavat bayrağını salaraq, "Türkiyənin Bakı cəbhəsi yarıldı", - demişdilər".[21]

Terroçu S.Şaumyanın cinayətkar ordusu həmin üç gündə ağır faciələr törətmişdir: "İsmaliyyə" deyilən böyük və gözəl milli saray yandırılmışdır. "Təzəpir" və s. camələr də bombardman edildi. Şəhidlərin sayı 15 minə qədər təxmin edilməkdədir.

Qatillərdən qurtulan azərbaycanlılar ətraf köylərə və dağlara çəkildilər".[22]

Bundan sonra Şaumyan və Avakyan Azərbaycanın digər bölgələrini də qan içində boğmaq üçün Amazaspın komandanlığı altında böyük bir dəstənin Qubaya, Lalayevin komandanlığı altında isə digər bir qoşun birləşməsinin Şamaxıya hücum etməsi barədə əmr verdilər".

Mənbələrdən: "Martın birinci yarısında Şamaxıdan məlumat alındı ki, Bakıdan Şamaxıya top, pulemyot və böyük miqdarda hərbi sursatla iki mindən üç minədək erməni qoşun dəstəsi gəlir. Şamaxıdan dəstənin qabağına müsəlman və erməni ictimai xadimlərindən ibarət nümayəndə heyəti göndərilir. Onlar bütün silahı, topları, pulemyotları Şamaxı qarnizonuna təhvil verməyi dəstəyə təklif etməli və ümumiyyətlə, dəstənin nə məqsədlə gəldiyini öyrənməli imiş. Nümayəndə heyətinin dəstə ilə görüşü malakan kəndi Qozluçayda (Xilmilli) olmuşdur. Dəstə silahı, topları, pulemyotları Şamaxı qarnozonuna verməkdən imtina etmiş və bildirmişdir ki, onların məqsədi Şamaxı qəzasını quldur dəstələrindən təmizləyib, qəzada anarxiyaya son qoyub, normal həyatı bərpa etməkdir. Dəstə Şamaxının yanından keçib Mədrəsə kəndinə gedəcəyinə söz vermişdir".[23]

Bəxtiyar Məmmədtağı oğlunun dediklərindən: "Silahlı dəstəni qarşılamağa gedənlər arasında Vahab bəy, Azad bəy Qocamanbəyov, Udulu Üşüdlü İbad, atam Məmmədtağı Hacı Ağacəfər oğlu, gənc zabit Tərlan bəy Əlyarbəyov, Məmmədtağı Əlizadə də olmuşdur. Onlar Xilmilliyə daxil olan ordunu və silahları görəndə, məətəl qalırlar. Rus-Yapon müharibəsinin iştirakçısı olan Azad bəy nümayəndə

---

[20] F.Əhmədova. Unudulmamalı faciə, "Azərbaycan" qəz. 3.III.2000
[21] "ELM" qəzeti, 17.01.1992, №3.
[22] Z.Vəfa. Keçmişini unudan, gələcəyini itirə bilər, "Azərbaycan" qəzeti, 30.III.2000.
[23] ARDA. For. 1061. sit. 1. və. 56.

heyətinin "Şamaxını quldur dəstəsindən təmizləyəcəyik" deməsinə rişxəndlə cavab verir:

- Bu silahla bütün Azərbaycanda olan qaçaq-quldur dəstəni təmizləmək olar. Şamaxıda isə, sizin fikirləşdiyiniz qədər quldur yoxdur".

Mənbələrdən: "Martın 15-də sübh çağı adı çəkilən dəstə Şamaxının yanından keçəndə şəhərin kənarında öz evlərini qoruyan müsəlmanlar dəstənin şəhərə hücumunu güman edib bir neçə atəş açmışlar. Dəstə də onlara atəş açmışdır. Atışma böyüyüb bütün şəhəri əhatə etmişdir. Lakin müsəlman könüllü dəstəsi rəisinin səyi ilə anlaşılmazlıq aradan götürülmüş və atışma dayandırılmışdır. Bu atışma nəticəsində həm müsəlmanlar, həm də ermənilər tərəfindən bir neçə tələfat oldu. Axşama qədər şəhərdə tam qayda və sakitlik yarandı. Elə həmin gün erməni yepiskopunun təşəbbüsü ilə Şamaxının bütün xanları və ruhanilərin də nümayəndələri yığışaraq and içdilər ki, sülh şəraitində yaşayıb qayda-qanunu nizamlayacaqlar. Bu hadisə ilə əlaqədar ertəsi gün şəhərdə təntənəli yürüş təşkil edilmişdir. Beləliklə, Şamaxıda mart hadisələrinin ilk mərhələsi belə sovuşdu".



Məhşədi Allahverdinin dediklərindən: "Sadəlövh Şamaxı camaatı, hətta, dindarlar, idarə işçiləri, ziyalılar da ermənilərin yalanına inanırdılar. Yoxsa, ayın 18-nə kimi, yəni, iki gün ərzində Şamaxıdan mart ayının 10-15-nə kimi şəhəri tərk edən insanlar ailəsini qırğından xilas edə bildi. Martın 16-dan sonra isə, camaatın çoxu erməni yepiskopunun andına, vədinə inandı və heç kim şəhəri tərk etmədi. Sonradan aydın oldu ki, erməni cəlladları əhalinin çox hissəsini məhv etmək üçün belə şayiə və yalan söyləmişlər. Əgər, şamaxılılar yalana uymasaydılar, sözsüz ki, şəhər əhalisinin 70-80%-i xilas olacaqdı. Yaxşı ki, atam öz yaxınlarını, tanışlarını ayın 15-də şəhərdən çıxartmışdı".



Xalq artisti Ağasadıq Gəraybəyli[24] (1897-1991): "Mən 1897-ci il mart ayının 15-də Şamaxıda anadan olmuşam. 1918-ci ildə artıq 5-6 il idi ki, Bakıda yaşayırdıq. Fikrim vardı ki, Şamaxıya gedib, ad günümü və Novruz bayramını doğmalarımla keçirim. Amma martın əvvəllərində Bakıda qarışıqlıq başlamışdı. Şəhərdə tez-tez müsəlmanlara qəsd edilirdi. Odur ki, martın 10-da Şamaxıya getdim, ziyalı dostlarımla görüşdüm. Onlar hər şeyi mənə çatdırırdılar. Aydın oldu ki, S.Şaumyanın göstərişi ilə Şamaxıda çoxlu silah yerləşdirilibdir. Ermənilər faciə törətməyə tam hazırdılar. Ziyalılar, din nümayəndələri Bakıya xəbər çatdırdılar. Şamaxıda Lalayevin məhəlləsində yaman canlanma vardı. Bəzi varlı ailələr artıq arvad-uşaqlarını Şamaxıdan çıxarıb müəyyən kəndlərdə yerləşdirmişdilər. Mənim ad günüm yadımdan çıxdı. Biz çoxumuz şəhər rəisi, eləcə də, Axund Əbdülxalıq Əfəndi, Hacı Vahab Ələkbərov

[24] Ağasadıq Gəraybəylinin xatirəsi bizdədir – S.Q.

ilə görüşdük. Onların heç biri bizə konkret söz deyə bilmədilər. mən qohumlarımı məsələdən agah etdim. Heç birimizdə bir dənə də olsa silah yox idi. Ayın 16-da Şamaxıda güclü atışma oldu. Erməni keşişi bildirdi ki, bundan sonra belə iş olmayacaq. Bunu deməklə müsəlmanların başının altına yastıq qoydular. Elə həmin gün mən bir neçə qohumumla Kürdəmir yolu ilə Bakıya qayıtdım. Ayın 19-da Şamaxıda törədilən cinayətlər haqqında Bakıya xəbər çatdı. Mən 1918-ci ilin oktyabr ayının əvvəlində qardaşımla Şamaxıya gəldim. Günorta idi. Şəhəri görəndə dəhşət bizi bürüdü. Şamaxı başdan-başa kül olmuşdu, xarabalığa çevrilmişdi. Lap cəhənnəmi xatırladırdı. Bizim məhəllə - Yuxarı Qala yerlə-yeksan edilmiş, gözəl memarlıq abidəsi olan bənzərsiz məscid yandırılmış, dağıdılmışdı, daş qalağı ilə örtülmüşdü. Tanıdığım evlərinin hamısı yerlə-yeksan olmuş, mülklərdən isə əsər-əlamət qalmamışdı. Küçələrdə adamlar xarabalıqlarda eşələnirdi. Yanmış daşlardan başlarını salmaq üçün daxmalar tikirdilər. Abbas Səhhətin, M.Ə.Sabirin, S.M.Qənizadənin, C.Cəbrayılbəylinin, Müslüm bəyin, Hacı Qulamın, Məmmədtağı Əlizadənin, tacir Nurunun, Vahab bəyin, Murad Əfəndinin, Məşədi Əsədin (şair-müəllim Gövhər xanımın atası), Həqqi Veyisovun, Həbib bəy Mahmudbəyovun, Hacı Məmməd Əfəndinin, Nəcməddin Şirindilbəylinin və başqalarının evləri yandırılmış, dağıdılmışdı. Bu evləri, mülkləri yandırmaqla erməni daşnakları Azərbaycan elminə, maarifinə, ədəbiyyatına, incəsənətinə, tarixinə əlacı heç zaman mümkün olmayan yara vurdu. Belə ki, o evlərdə elə sənədlər, elə kitablar, elə əlyazmaları məhv edilmişdir ki, onları nə tapmaq, nə bərpa etmək, nə də yenidən yaratmaq mümkün deyildi. Şamaxı tarixinə aid çox sənədləri də məhv etdi erməni daşnakları. Bir həftədən sonra Bakıya qayıtdıq.

Yeri gəlmişkən onu da deyim ki, vaxtilə 60-cı illərdə Şamaxı arxivi yenidən yandırılanda 1918-ci il qırğınına aid tək-tük sənədlər də məhv edildi. Onda hamı bildi ki, arxivi ermənilər yandırmışlar. Özlərini təmizə çıxartmaq üçün. Bunu hamı, eləcə də dövlət orqanları da bildi. Amma üstünü vurmadılar. Biz də qorxudan susduq".

Şaumyanın göstərişinə əsasən ermənilər artıq mart ayının 14-nə kimi Şamaxını ələ keçirmək üçün qəti tədbirlər görülmüşdür. Belə ki, Lalayev, Avetisyan və Hamazaspin silahlı quldur dəstələri və malakan kəndlərində yerləşdirilmişdir. Erməni din xadimləri isə təşvişə düşmüş müsəlmanları aldadıb, arxayınlaşdırırdılar.

Mənbələrdən: "Müsəlmanlar erməni yepiskopundan ermənilərin onlara qarşı hücum etməyəcəyi barədə andı eşidib sakitləşir və inanırlar ki, bədbəxtçiliyin qarşısı alınıb. Şamaxıda olan kəndli müsəlman könüllüləri evlərinə dağılışdılar. Erməni yepiskopu martın 17-də Şamaxı şəhər müsəlmanları ilə ermənilərin arasında bağlanmış sülh haqqında erməni rəhbərlərinə məlumat vermək üçün Mədrəsə kəndinə gedir".

Xatirələrdən: bu barədə həmin faciələr gözləri ilə görmüş 42 yaşlı Cəbrayılbəy Cəbrayılbəyov 1918-ci ilin noyabr ayının 11-12-də F.İ.K.-ya verdiyi

məlumatda yazır: "1918-ci ilin mart ayında şəhər başçısı Teymur bəy Xudaverdiyevdən və müsəlman milli komitəsindən məlumat almışdır ki, Bakıdan Kürdəmir istiqamətində ordudan tərxis olunmuş 400 nəfər erməni Şamaxıya gəlir. Bakı müsəlman milli komitəsi xahiş edib ki, onları qara fikirlərindən çəkindirsinlər. Müsəlman milli komitəsi Ağsu şəhərinə nümayəndələr göndərdi, lakin səhərisi gün Şamaxıda eşitdik ki, həmin dəstə bölünüb ayrı-ayrı kəndlərə hücum ediblər. Bicov və Ləngəbiz kəndlərini tamamilə yandırılıb. Bunu eşidən yaxın kəndlərdən müsəlman zərərçəkənlərinə köməyə gediblər. Ermənilərlə atışma Bico dağlarında başlayıb. Ermənilər və müsəlmanlar tərəfindən adamlar öldürülüb. Hirslənmiş ermənilər bu barədə Bakı erməni komitəsinə məlumat çatdırıblar. Qısa müddətdən sonra Şamaxıya 3 minə qədər erməni gətirildi. Bundan xəbər tutan yerli müsəlman İcraiyyə Komitəsi, Şamaxı uyezdinin rəisi Hacımalıbəyov və uyezd qazisi Abdulxalıq Əfəndi Əfəndiyev erməni yepiskopunun yanına göndərildi ki, yaraqlıları geri qaytarsın. Lakin erməni yepiskopunun cavabı qəti oldu: "Biz gəlmişik ki, bütün müsəlmanları qılıncdan keçirək". Nümayəndələr belə bir xəbəri eşidib kor-peşiman Şamaxıya qayıtdılar. Lakin o biri gün erməni yepiskopu müsəlman komitəsinə gəlib dedi ki, dəstə ilə danışıb, heç bir müsəlmana zərər dəyməyəcək. Bunu deyən yepiskop Mədrəsə kəndinə getdi. Səhəri gün, yəni, martın 18-də saat 6-da ermənilər Şamaxı şəhərini mühasirəyə alıb atəşə başladılar. Günortaya yaxın şəhərini mühasirəyə alıb atəşə başladılar. Günortaya yaxın şəhərin ən yaxşı məhəllələri yandırılıb külə döndərildi. Həmin axşam müsəlmanlar təslim oldular və tərksilah edildilər. Şəhərdə qarət və talan başladı. Zorakılıq və vəhşilik şamaxılıları qaçmağa məcbur etdi. Mən də qaçdım".[25]

İstefada olan polkovnik Pərviz Əlyarbəyovun dediklərindən: "Atam Tərlan bəy 1918-ci il qırğınının şahidlərindəndir. O, həmin hadisədən danışanda nə qədər özünü ələ almağa çalışsa da, göz yaşlarını saxlaya bilmirdi.

Həmişə də deyərdi ki, mən, Məmmədtağı Əlizadə, Teymur bəy Xudaverdiyev, Abdulxalıq Əfəndi, Siracəddin Əfəndi, Cavad bəy, azad bəy tərəfdaşlarımızı inandıra bilmədik ki, ermənilər bizi aldadır, başımızın altına yastıq qoyurlar. Onlar mütləq 1905-1907-ci ilin hayıfını çıxaracaqlar. Biz Lalayevlə evində görüşdük. O, "biz qonşuyuq, dostuq, bir şəhərin sakinləriyik", - deməklə hamımızı aldatsa da, fırıldağı, yalanı, bicliyi gözlərindən açıqca hiss olunurdu.

Bir neçə könüllü dəstəsi düzəltmişdik. Həmin dəstədə olanlar hamısı cəsur insanlar idi. Çoxu Şamaxının özündən təşkil olunsa da, dəstələrimizə Əngəxaran, Quşçu, Xınıslı, Təklə, Boyat, Azadbəyli, Udulu və s. kəndlərdən də gələn könüllülər çox idi. Erməni keşişinin, Lalayevin mart ayının 15-16-da verdikləri vədə inananlarımız çox oldu. Ən pisi o oldu ki, könüllülərin də inamı artmışdı bu söylənilənlərə. Və bir çoxu dəstələri tərk edib evlərinə getdilər. Mart ayının 18-də Mədrəsədən və Lalayevin məhəlləsindən şəhərə atılan toplar qırğının başlanmasını

[25] Az.RMDA F. 1061, q 3. vər. 19.

elan etdi. Bir neçə saatın içində şəhər od-alova büründü. Ah-fəryad, qışqırıq, haray, bağırtı şəhəri başına götürülmüşdü".

Haşiyə: vaxtilə Şamaxının iyirmi altı məhəlləsi (bəzi mənbələrdə 32 məhəllə) olmuşdur. Bu məhlələrin bir neçəsində qeyri-müsəlmanlar yaşayırdılar. Özü də erməni, gürcü və cühudlar şəhərin yuxarı hissəsində məskunlaşmışdılar. Maraqlıdır ki, XIX əsrdə şəhərdə yaradılan bir çox idarələr – polis idarəsi, məhkəmə, poçt-teleqraf, aptek, rus məktəbi, böyük mağazalar, qonaq evlərinin çoxu həmin məhəllələrdə yerləşirdi. Bu barədə böyük pedaqoq Əliməmməd Mustafayevin xatirələrində oxuyuruq: "Müəllimlərimin hamısı məndən razıdılar (şəhər məktəbində - müəlliflər). Onların əksəriyyəti ermənilərdir. Doluyev, Saakyan, Topçiye və başqaları. Məktəbimiz şəhərin yuxarı başındadır. Bu hissədə yaşayanların əksəriyyəti ermənilər, ruslar, yəhudilər və bir azı da müsəlmandırlar".[26]



"Şəhərdə çoxlu sənətkarlar vardır. Ancaq bunların hər birinin bazarı başqadır; başmaqçı bazarı, dərzi bazarı, zərgər bazarı, çarıqçı bazarı və i. a. Zərgərbazarı ermənilərdən ibarətdir. Bunların içərisində bir nəfər müsəlman tapılmaz. Guya bu sənət ermənilərə məxsusdur. Dərzi bazarı da ermənilərin ixtiyarındadır".[27]

S.Lalayev və eləcə də bir çox erməni mülkədarlarının mülkləri də şəhərin yuxarı hissəsində yerləşirdi. Cinayətin başçılarından olan Lalayev qabaqcadan mülkünün zirzəmisini silah-sursatla doldurmuşdu. Oradan şəhərin müsəlman məhəllələri əl içi kimi görünürdü. Həmin yerdən atılan top düz Cümə məscidinin həyətinə vururdu. Mədrəsə tərəfdən atılan topların vahiməsindən pərən-pərən olan əhali küçələrə axışırdı, başlarını itirmiş insanlar nə edəcəklərini bilmirdilər. Lalayevin evindəki pulemyotlardan atılan güllələr insanları yerindəcə məhv edirdi. Namərd düşmənin heç kəsə - qadına, qocaya, uşağa belə rəhmi gəlmirdi. Şəhərdə soyqırımı həyata keçirən S.Lalayev azərbaycanlıları qanına qəltan edəndə "uf" da demirdi. Şamaxının azərbaycanlılar məhəllələrində cəsəd əlindən yerimək mümkün deyildi. Müsəlmanların heç biri müqavimətini hiss etməyən erməni daşnakları və malakanlar yavaş-yavaş şəhərə yaxınlaşmağa başlayırdılar.

Mənbələrdən: "Axşama yaxın onlar şəhərin ən varlı hissəsi "Piran-Şirvan"a daxil oldular. Evlər yandırıldı. Yanan evlərdən qaçan kişilər, qadınlar, uşaqlar və ümumiyyətlə, küçələrdə görünən hər kəs güllələnirdi. Bundan başqa evlərə soxulur, sakinləri öldürüb, qarət edirdilər, şəhərin küçələrində meyitlərdən qalaqlar

[26] Ə.Mustafayev. Göstərilən əsəri, səh. 51.
[27] Yenə orada, səh. 39-40.

yaranırdı. Gecə müsəlmanlar təslim olmaları barədə qalib ermənilərin nümayəndə göndərirdilər. Lakin atəş dayandırılmırdı. "Piran-Şirvan"ın ən varlı müsəlmanlar yaşayan hissələri yanırdı. Səhərisi gün ermənilər və malakanlar müsəlmanların bütün silahlarını alırlar. Buna baxmayaraq, müsəlmanların öldürülməsi və qarət edilməsi dayandırmır, kişilər, qadınlar və uşaqları məhv edir və ya onları ölüm və evlərini yandırmaqla hədələyərək pullarını əllərindən alırlarmış. Küçələrdə döşləri kəsilmiş, doğranmış qadınların meyitləri atılıb qalmışdı. Talan edilmiş əmlak araba və furqonlarla erməni və malakan kəndlərinə göndərilmişdi"[28] .

Haşiyə: sənədlərdən, xatirələrindən bəlli olur ki, ermənilər istər şəhərin, istərsə də Şamaxının qeyrət çəkən oğulları, yurd-torpaq qədri bilən övladları silaha sarılmışdır. Vahab bəy Rəhim bəy oğlu, Hüseyn bəy Hacı Əli oğlu, şəhər qlavası Teymur bəy Xudaverdiyev, qəza rəisi Azad bəy Qocamanbəyov, Dumanın deputatı Məmmədtağı Əlizadə, uyezd rəisi Əbdülxaliq Əfəndi, Məşədi Əskər Hacı Nuru oğlu, Məmmədtağı Hacı Ağacəfər oğlu, Məmmədsadıq Hacı Ağacəfər oğlu, Qara Nuru, Udulu Üşüdü İbad, Hacı Heydər Hacı Yusif oğlu, Müfti Mustafa Əfəndi, Tərlanbəy Əliyarbəyov, Alxan bəy Əyyubbəyov, Asif bəy Şıxalıbəyov, Sadıq bəy Ağalarbəy oğlu, Talışxan və Qardaşxan qardaşları, Haqqi Veyisov, Şeyxəli Həkimzadə, Kəlbəlayı Yusif, Şıxəlıbəyov, tacir Məşədi Ağa, Məşədi Abılı, Mehdi bəy Hacı Osman oğlu və başqaları erməni cəlladlarına qarşı müqavimət göstərmiş və ya öz var-dövlətləri ilə könüllülərə yardım (silah, sursat, at və s. ilə) etmişlər.

Haşiyə: "Erməni zabiti Atarbekovun Mədrəsədə təşkil etmiş çoxsaylı silahlı birləşməsi ilə türk zabiti Osman Əfəndinin (O, I Dünya müharibədinsə, türk-rus cəbhəsində yaralanmış və Şamaxıda məskunlaşmış, qırğın zamanı könüllülərlə silaha sarılmışdır – müəlliflər) yaratdığı azsaylı dəstənin Zoğalavay çayı vadisində apardığı uğurlu əməliyyatları diqqətəlayiqdir. Erməni zabiti Atarbekovun çoxsaylı dəstəsi müsəlmanlara qarşı hərəkət edib yaxınlaşanda o, qürurla: «Откройте огонь по приказу Атарбекова», - deyib komanda verdikdə nizami qaydada gələn bölük yarımsərxoş vəziyyətdə hücuma keçən əsgərlərinin çoxu Osman Əfəndinin dəstəsində olan mahir atıcılar Məhəmməd Tağı, Udulu Üşüdü İbad, Məhəmməd Sadiq, Talışxan və Qardaşxan qardaşlarının sərrast atəşləri nəticəsində böyük itki və tələfat verməyə məcbur olmuşlar". Şəhəri dalbadal top atəşinə tutduqlarından həm evlər dağılır, həm də yanğınlar baş verirdi, insanlar tələf olurdular. Məsləhət-məşvərət üçün polkovnik Azad bəy Qocamanbəyovun yanına yığışan Şamaxının üləmaları - Şeyx Hacı Axund, Müfti Mustafa Əfəndi, pristav Vahab bəy Rəhimbəyov, Məhəmməd Tağını çağırtdırıb ona "Hacıoğlu, top Şamaxının kələyini kəsir. Səni də yaxşı tanıyıram, tüfəngini də, - demişdir. (Belçika istehsalı olan tüfəngi Məhəmməd Tağıya 1913-cü ildə toyunda o vaxt kapitan rütbəsində olan Azad bəy bağışlamışdı). Topçunu vurmaq tapşırığını alan Məhəmməd Tağı Zoğalavayçayı keçmiş, qalın ağacların, sonra isə kolların arası ilə sürünə-sürünə

[28] ARDA. F. 1061, iş 1, 56.

müəyyən etdiyi məsafədən əvvəl Topçunu, sonra isə onun köməkçisini vurub, topu susdurmuşdu".[29]

Şəhərin varlılara məxsus ən yaxşı evləri yandırılmış və məhv edilmişdi. Şəhər varlılarından Şıxıyev, Həsənbəyov, Cəbrayılov, Müftin, Hüseynbəyov, Əlimirzəyev, Əfəndiyev, Babayev, Məhərrəmov, Veyisov, Böyükbəy Hüseynov, Hacı Vahab Ələkbərov, Hacı İsrafil Məmmədov Mir İbrahim Qasımov, Zəkəriyyə Əfəndi, Əbdürrəhim Ağa Ağalarov, Teymur Abutalıb bəy oğlu Fəttahbəyov və başqalarının bənzərsiz Şərq üslubunda tikilmiş malikanələri odlara qalanmışdı: "Ermənilər yanan evlərdən çıxmağa cəhd edən qadınları, uşaqları və qocaları güllələyirdilər. Onlar şəhərin küçələrində qarşılarına çıxan bütün azərbaycanlıları öldürmüş, həm də əllərinə keçənlərə dəhşətli və ağlasığmaz işgəncələr vermişlər. Bütün qiymətli şeyləri qarət etmişlər. Gizlədilmiş pul və qızılların yerini müsəlman əhalidən zorla, işgəncə verməklə tələb etmişlər. İstəklərini əldə etdikdən sonra onların sahiblərinə rəhm etmədən öldürmüşlər. Küçələrdə döşləri kəsilərək əzabla öldürülmüş, qarnı yırtılmış, bağırsaqları tökülmüş, ən müdhiş təhqirlərə məruz qalmış qadın meyitləri qalaqlanmışdır. Quldurlar hətta uşaqlara belə rəhm etməmiş, onların başına mıx vurmuş və diri-diri torpağa basdırmışlar".[30]

Xatirələrdən: "Mən onda uşaq idim. On yaşım olardı. Biz evimizin zirzəmisində gizləndik. Gözlərimlə gördüm ki, adamları güllələyir, sonra küçəyə yığır, üstlərinə xalça-palaz atıb yandırırlar. Hətta körpə uşaqları diri-diri həmin odun içinə atırdılar. Qonşumuz Molla Mirzəgili ailəliklə yandırdılar. Beş gün zirzəmidə qaldıq. Bir gecə fürsət tapıb şəhərdən çıxdıq. Yolda qardaşım da öldü. (Məşədi Sadıq Əli oğlu)

Umud İsrafilov: "Anam 1918-ci il qırğınından çox danışırdı. Gördüyü dəhşətləri, faciələri elə danışırdı ki, adamın əli yerdən üzülürdü. Erməni cəlladlarından on nəfəri uşaqlı qadınları bir yerə yığır, gözlərinin qabağında körpələrini öldürür, balaca uşaqların cəsədini nizəyə taxırlar. Analardan bir



neçəsinin ürəyi gedir. Onları o saat qətlə yetirir, körpələri nizə ilə anaların köksünə tikirlər. O biri qadınları da eləcə. Bundan əlavə, yazıq Molla Musanı meydana gətirirlər? İxtiyar yaşlı kişiyə əmr edirlər ki, "Qur`an"ı cırıb vərəqlərini yerə töküb tapdasın. Kişi deyilən təklifi eşidib - sizi "Qur`an"a tapşırıram deyib, müqəddəs kitabı sinəsinə sıxdı. Molla Musanı nizənin ucu ilə deşik-deşik edirlər. Yazığın fəryadı ərsə qalxır. Bir azdan o, yerə yıxılıb bayıldı. Kafirlər kilsiyə od vurublar. Kişi cızhacızla yandı".[31]

* * *

[29] B.İsmayıllı. "Yeni Azerbaycan" qəzeti, 31 mart, 2000.
[30] ARDA. fon. 1061. iş 1, vər. 56.
[31] Xatirə şəxsi arxivimizdədir. – S.Q.

Qeyd etdiyimiz kimi, ermənilərə qarşı könüllü dəstələr vuruşmuş və düşmənə xeyli də itki vermişlər. Bunlardan biri də Qara Nuru Məşədi Nəcəf oğlunun dəstəsi idi.

Yaddaşlardan: "Mənim dayım həmin dəstədə olmuşdur. Dayım deyərdi ki, qırğından bir neçə gün əvvəl Nuru bizi – məhəllədə inandığı gəncləri bir yerə dəvət etdi. (Nuru Məşədi Nəcəf oğlu İmamlı məhəlləsindən idi. Ata-babadan varlı olduqları kimi, həm də nəsillikcən pəhləvan imişlər. Atası da, əmisi də gücləri ilə Şamaxıda ad qazanmışlar - S.Q.). Bildirdi ki, ermənilər qırğın törədəcəklər. Hazır olmalıyıq. Bəzi yoldaşlarımız Nurunun sözünə inanmadılar. Bir çoxumuz evimizdə olan bahalı əşyalarımızı və qonaq adı ilə ailəmizi başqa kəndə apardıq. Silahlarımızı gizlətdik. Doğrudan da, bir neçə gün sonra qırğın başladı. İyirmi iki yoldaşla şəhərdən çıxdıq. Boyat kəndində yerləşdik. Səhəri gün Bakı tərəfdən Şamaxıya hücum edən Qozlu malakanları ilə vuruşduq. Düşmən güclü olsa da, möhkəm dayanmışdıq. Bu döyüşdə Qara Nuru bərk yaralandı. Yoldaşlarımızdan on bir nəfəri şəhid oldu. Qara Nurunu götürüb cəbhədən çəkildik. Boyat kəndinə gəldik. Nuru səhər özü vəfat etdi. Onu Boyat qəbristanlığında dəfn etdik (Qara Nurunun qəbri indi də durur). O da yaxşı yadımdadır ki, Nuru son nəfəsində: şəhəri xilas edin, İmamlı məcidini qoymayın yandırmağa," - dedi.

Əliağa Şeyx Mövsüm oğlunun xatirələrindən: Dayım bir də söyləyirdi ki, ermənilər Şamaxını yerlə-yeksan etmişdilər: küçələrdə kəsilmiş başlar, başdan ayrı düşmüş meyidlər, döşü, saçı kəsilmiş qadın cəsədləri, sinəsi xəncərlə parçalanmış, başı güllə ilə paralanmış uşaq meyidlərinin isə sayı-qədəri yox idi. Ən dəhşətlisi o idi ki, şəhərin məhəllə məscidlərinə pənah aparmış insanlar elə oradaca diri-diri yandırılmışlar.

***

Sənədlər, xatirələr bir daha təsdiqləyir ki, Şamaxını talan edən ermənilərin əhaliyə verdikləri cəzaların da dünyada analoqu olmamışdır.

Mənbələrdən: "Şamaxı əhalisinin təhlükəsizliyini qoruya biləcək bir silahlı dəstə belə yox idi. Əhalinin bir hissəsi qorxusundan meşələrin dərinliklərinə çəkilmiş, qalanları isə, Allah evi olan məscidlərdə sığınacaq tapmışdı. Daşnaklar şəhərdə bütün kişiləri qılıncdan keçirdilər. Onlar cavan qızları soyunduraraq öz atalarının və qardaşlarının cəsədləri üstündə oynamağa məcbur edir, sonra isə güllə yağışına tuturdular. Şamaxı məscidlərini mühasirəyə alan vəhşi Lalayevin dəstəsi həmin müqəddəs səcdəgahları içəridə sığınacaq tapmış şəhər sakinləri ilə birgə yandırıb külə döndərdilər. Şamaxı özü boyda nəhəng bir tonqala bənzəyirdi".[32]

Haşiyə: 80 yaşlı Hacı Əliağa Şeyx Mövsüm oğlu Şamaxıda törədilən vəhşiliklərdən indi də danışdıranda özünü saxlaya bilmir, boğazı tutulurdu: "Biz nəsillikcə din əhli olmuşuq. Belə ki, babam Şeyx Əli Ağa Nəcəfül Əşrəfdə ali ruhani təhsili almış, şəhərin ən mötəbər üləmalarından biri olmuşdur. O, böyük şair

[32] Z.Vəfa. Keçmişini unudan, gələcəyini itirə bilər, "Azərbaycan" qəzeti, 30.III.2000

S.Ə.Şirvani və onun atası Seyid Məhəmmədlə dost olmuşdur. Babamın ömür-gün yoldaşı Seyid Mina Mir Tağı qızı da Seyyid nəslindən olub. Həmişə Mir Tağı ocağı ziyarət yeri olmuşdur. Atamın dediyinə görə, babam, nənəm çox səxavətli insanlar olmuşdur. Bəzən görərdin ki, babam Şeyx Əli Ağa yolda rast gəldiyi bir imkansıza obasını və ya çuxasını bağışlayıb. Nənəm çox zaman qapıya gələn imkansıza da əl tutmaqla yanaşı, ocaqda bişən xörəyi qazanqarışıq verərdi. Babam Şeyx Əli Ağanın şəhərdə çox böyük hörməti vardı. O, vəfat edəndə qış olub. Özü də qalın qar bütün yolu bağlayıbmış. Yüz nəfərdən artıq adam İmamlı məhləsindən Laləzar qəbristanlığına kimi yolun qarını təmizləyiblər. Şeyx Əli Ağa 1914-cü ildə vəfat edib.

Həkimzadə Şeyx Möhsüm Şeyx Əli Ağa oğlu 1883-cü ildə İmamlı



məhəlləsində anadan olub. O, ilk təhsilini atasından alıb. Əvvəl İranın Məşhəd, sonra İraqın Nəcəf şəhərində ali-ruhani təhsili alıb. Ruhani təhsili almasına baxmayaraq, o, dünyəvi elmlərə dərindən bələd olmuş, M.Ə.Sabir, A.Səhhət, Qırxayaq, Tərrah kimi şairlər, C.Cəbrayılbəyli, Əliməmməd Mustafayev kimi ziyalılarla yaxın idi. O, 1918-ci il erməni qırğınına kimi İmamlı məscidinin axundu olmuşdur.

Bir çox ailələr kimi Axund da qırğın zamanı ailəsini götürüb Şamaxıdan çıxır. Yolda ailəsinin başına olmazın əzablar gəlir. Bir neçə qohumu yolda vəfat edir. Güc-bəla ilə gəlib Qalağqayına çatırlar. Orada həmyerlisi - qaçqın Kəlbəlayi Abdulhüseynin qızı Məleykə xanımla ailə qurur. Şeyx Mövsümün altı övladı - üç oğlu, üç qızı olur. Övladlarının üçüncüsü - Turab, qızları - Gülsüm və Ünbül vəfat etmişdir. İki oğlu - Hacı Əli Ağa, Hacı Mirzə Ağa və qızı Mina xanım sağdır, Bakı şəhərində yaşayırlar. Şeyx Möhsüm bir müddət Sabirabad məscidinin axundu olmuşdur.

Hacı Əli Ağanın dediklərindən: "Atam ərəb, fars dillərini dərindən bildiyi üçün klassik Azərbaycan ədəbiyyatını - Nizami, Xaqani, Nəsimi və Füzulinin külliyyatının demək olar ki, çoxusunu əzbər bilirdi. 1928-ci ildə bir gecə gəlib evimizi yoxladılar. Anamın, nənəmin ziynət əşyaları ilə yanaşı, həmin şairlərin əsərlərini, bir də atamı Bakıya apardılar. Atam altı ay Bakıda həbsxanada (o zamanlar "Tağıyev türməsi", sonralar isə karamel fabriki oldu. - S.Q.) həbsxanada saxlanıldı. Ən nəhayət, atamı günahsız bilib azad etdilər. Ondan sonra həmişəlik Bakıya köçdük. Atam represiyadan qurtarmaq üçün müəyyən yerlərdə fəhlə işləməyə (arayış almaq üçün adını yazdırırdı) başladı. 1942-ci ildə dini icraçılara, bir növ, azadlıq verildi. Bakıda dini idarə təşkil olunandan sonra, 1937-ci ildən yaxasını qurtara bilən Axundlar bura dəvət olundular. İlk Şeyxül İslam Axund Molla Ağa Əlizadə, atam isə onun birinci müavini, novxanılı Axund Molla Əli Ağa Süleymanzadə isə, qazi təyin olundu. Həmin ildə respublikamızda 17 məscid təşkil edilmişdir.

Atamın səyinə baxmayaraq, Şamaxı kimi qədim mədəniyyət və dini mərkəzdə məscid açılmasına icazə verilmir. 1954-cü ildə Şeyxülislam Axund Molla Ağa Əlizadə vəfat edir. Onun yerinə atam seçilir. Atam ömrünün sonuna - 1966-cı ilə kimi Zaqafqaziya Şeyxülislamı vəzifəsində çalışır. O, üç dəfə Ümumdünya Sülhü Müdafiə Komitəsinin ali mükafatına layiq görülmüşdür.

Atamın soyadı belə gedirdi - Şeyx Mövsüm Şeyx Əli Ağa oğlu Həkimzadə. Həkimzadə ilə bizim heç bir əlaqəmiz yoxdur. Onun belə bir tarixçəsi vardır. Əmim Mirzə Məhəmməd Şeyx Əli Ağa oğlu dini baxışlarla yanaşı İranda oxumuş və həkimlik sənətinə yiyələnmişdir. Tiflisin baş hakimi Şamaxıya qonaq gəlir. Əmim onunla görüşür. Şikayət edir ki, İranda oxuduğu üçün ona iş vermirlər. Baş hakim deyir ki, bu düz işdir. İrandakı tibbi təhsil zəifdir. Bu zaman əmim etiraz edir. Orada əsl tibb elmi öyrədilir. İnanmırsınızsa sübut edim. Sizin babasiliniz var, - deyir.

- Bunu nədən bilirsiniz? - deyə rus həkimi təəccüblənir.

- Sizinlə görüşəndə əliniz əlimdə qaldığı zaman nəbzinizdən hiss etdim. Özü də bir həftəyə müalicə edə bilərəm. Əmim bir həftənin içində kirpi əti ilə onu müalicə edir. Sonra onun göştərişi ilə əmimin Şamaxıda həkim işləməyinə icazə verirlər. Əmim deyərdi ki, bu söhbəti Abbas Səhhətə danışanda, o, məni qucaqlayıb öpdü, təbrik etdi, "sən məndən qabağa düşdün", -deyə gülümsədi.

1920-ci ilin əvvəllərində əmim tutulmaqdan qorunmaq, üçün sənədlərdə soyadını Həkimzadə yazdırır. Atam da eləcə.

II Haşiyə: Hacı Əli Ağa rus, ərəb dillərini bilən 80 yaşına çatmış bir ağsaqqaldır. 1918-ci il qırğını barədə ondan bildiklərini, eşitdiklərin soruşdum:

Əmim Mirzə Məhəmmədin danışdığı bir əhvalatı indi də unuda bilmirəm. Ermənilər bir neçə tərəfdən şəhəri top atəşinə tutmağa başladılar. Bu atəşlər şəhərin mərkəzinə o qədər də ziyan vurmurdu. Camaatı yaman günə qoyan Lalayevlərin mülkündə yerləşdirilmiş silahlı dəstələr idi. Lalayevlərin mülkündən atılan pulemyotun gülləleri, top mərmiləri, düz Cümə məscidinə tuşlanmışdı. Belə anda insanlar ancaq Allah evinə - məscidə pənah aparırdı. Həmin yolu da Lalayevlərin sərrast atıcıları kəsmişdilər. Qucağı uşaqlı qadınlar məscidə çata-çatda dağın üstündəki (Lalayev mülkü şəhərin ən uca yerində idi - S.Q.) daşnaklar o dəqiqə güllə ilə vururdular. Uşaq ananın qucağından yerə düşürdü. Ananın ölümü ilə ürəkləri soyumayan quldurlar oradan uşaqları da nişan alırdılar. Pulemyot gülləsi körpənin cəsədini parça-parça edib göyə sovururdu. Atam deyirdi ki, türklər gələndən sonra, mən, əmim oğlu Musa Qəni oğlu ilə şəhərə getdik. Artıq yay idi. İydən-qoxudan baş çatdadığı kimi, xarabalıqlarda qalan qol-qıç, baş, cəsəd qalıqları insanı dəhşətə gətirirdi. Bizim evimizin ancaq bir hissəsi uçmuşdu. Qonşumuz Məşədi Nağının eyi tamam məhv edilmişdi. Özümü xarabalığa sarı verdim. Daş-qalağının koğuşunda Məşədi Nağının çılpaq meyidini gördüm. Bədəndəki dəlik deşiyin hesabı yox idi. Həyətimizə gəldik. Musa ilə bir-birimizə sarılıb doyunca ağladıq. Bu zaman bir türk əsgəri bizə yaxınlaşıb əlini çiynimizə

qoydu, təsginlik verdi. Tanış olduq. Əsgərin adı Mehmet idi. Mənim ruhani olduğumu bilib dedi:

- Əfəndim, deyirsiniz ki, siz xocasınız. Bildiyiniz kimi, “Qur`an”da buyurulub ki, halal mal nə yanar, nə də oğurlanar. Axı, sizin evinizin bir hissəsi yanıb. Səbəb nə?

- Əfəndim, yəqin ki, məvacibimin haram qatı olubmuş, - deyib atam əsgərə köməklərinə görə minnətdarlıq etdi”.[33]

* * *

Şəhər sakinləri erməni və malakanların şəhəri mühasirəyə aldıqlarını görüb, gecə imkan tapan, silahlı müsəlmanların köməyi ilə ayaqyalın, başıaçıq şəhərdən qaçır, didərgin düşürdülər.



Haşiyə: Vahab bəy Rəhimbəyov Şamaxıda pristav olmuşdur. O, ermənilərdən çoxdan şübhələnmişdi. Bir neçə gündən sonra Nağaraxana kəndindən olan malakan dostu İvan Maksimoviç onun yanına gəlir. O, malakan və ermənilərin bəd niyyətləri barədə Vahab bəyə ətraflı məlumat verir. Elə həmin gün Vahab bəy etibar etdiyi bütün yaxın adamlarını bir yerə toplayır, xəbəri onlara çatdırılır. Belə qərara gəlirlər ki, ürək qızdırdıqları bütün adamlara xəbər çatdırsın və əhali şəhərdən çıxarılsın. Əldə olan silahlar etibarlı insanlara paylansın.

Açıqlama: Vahab bəy Rəhimbəyov 1854-cü ildə Şamaxıda anadan olmuşdur. O, Şamaxıda mollaxana və mədrəsədə oxumuş, realnı məktəbdə təhsil



almışdır. Bir müddət Şamaxıda məhkəmədə işləmişdir, Vahab bəyin üç oğlu (Xanlar bəy, Cəfərqulu bəy, Səməd bəy) iki qızı (Tacə və Lətifə xanım) olmuşdur. Şamaxıda ixtişaş başlanan kimi ailəsini - arvadı Hacı qızı Qəmər xanımla (1887-1940) birlikdə Ağdaşa göndərmişdi. Yolda iki uşağı - qızı Tacə və oğlu Səməd bəy vəfat edirlər. Dostu Qaraxunlu Əşrəf bəy Vahab bəyin ailəsini hörmətlə qəbul edir. Sonra onu Şəkiyə bəyin dostu Hacı Ağa Cəfərin ailəsinə çatdırır. Vahab bəy şəhərdən çıxmağı, qorxub qaçmağı adına sığışdırmır. Odur ki, nökəri Əli, qulluqçusu Gövhərlə birlikdə evində qalır. Atışma zamanı nökəri Əli də ölür. Vahab bəy son nəfəsinə kimi daşnaqlarla vuruşur, ən nəhayət, o yaralanır. Ermənilərin həyətə girəcəyini görən qulluqçu Gövhər təndirə girir və gizlənir. Yağılar həyətə daxil olurlar. Vahab bəyin başını kəsir və mülkünü talan edib yandırırlar.

[33] Hacı Əli Ağanın məktubu bizdədir – S.Q.

Arifin taleyi babasının taleyinə çəkdi: 1991-ci ilin noyabr ayının 20-də xalqımızın bir çox dəyərli ziyalıları və ləyaqətli övladlarının mindiyi "Mİ-8" vertolyotu Qarabağın Qarakənd səmasında vuruldu, 23 nəfər həlak oldu. O zaman mütəxəssislərin gəldiyi nəticə: "onları bir vertolyota yerləşdirərək məhv etmək, ermənilərin və Kremlin birgə düşünülmüş planları idi".[34]

Akademik Tofiq İsmayılov, daxili işlər naziri Məhəmməd Əsədov, respublika prokuroru İsmət Qayıbov, jurnalist Osman Mirzəyev, dövlət xadimi Vəli Məmmədov, jurnalist Alı Mustafayev kimi insanlarla yanaşı televiziyada adi işıqçı işləyən Arif İsmayıl oğlu Hüseynzadə də şəhid oldu. 1918-ci ildə Şamaxının pristavı Vahab bəy Rəhimbəy oğlu erməni soyqırımının qurbanı oldu. Düz 73 il sonra isə onun qız nəticəsi - Lətifə xanımın nəvəsi Arif də eyni cinayətkarlar tərəfindən qətlə yetirildi. Özü də 21 yaşında. Vabab bəyin taleyi nəticəyə qismət oldu.

* * *

Şamaxını hər tərəfdən mühasirəyə alan ermənilərlə mübarizə aparan könüllülərin bir dəstəsinə də Şamaxı qəzasının rəisi olmuş Azad bəy Qocamanbəyov başçılıq edirdi.

Şamaxıda hadisələrin gərginliyini qəza rəisi Azad bəy çoxdan hiss etmişdi. Odur ki, öz yaxın dostları, etibar etdiyi ziyalılar, bəylər və vəzifə sahibləri ilə məsləhətləşdi. Neçə-neçə qanlı-qadalı döyüşlərdə olmuş polkovnik Azad bəy gizlicə bir az silah-sursat toplaya bildi. Onları Şamaxıdakı mülkündə deyil, Pirsaat çayı yaxınlığında olan mülkündə yerləşdirdi, ətrafına etibarlı adamlar topladı. Vəzifə sahibləri: Vahab bəy, Məmmədtağı Əlizadə, Şeyx Hacı Axund, Mustafa Əfəndi, Hacı Vahab Ələkbərov, Teymur Abutalıbov, Hacı Əli Mustafazadə kübar, varlı və tacirlərindən Hacı Mahal, Hacı Soltan bəy, Məşədi Tapdıq, Kərbəlayi Yusif, Tərlan bəy və başqaları ilə məsləhətləşmələr apardı. Onun gizlicə düzəltdiyi könüllülər dəstəsində əlliyə yaxın məsləkdaşı var idi. Oğulluğu Bəymirzə, Məmmədtağı Hacı Ağacəfər oğlu, Musa bəy Hacı Dadaş oğlu, Tərlan bəy Əliyarbəyov, Üşüdü İbad, Həsən bəy Zülfüqarov, Osman Əfəndi, Məmmədsadıq, Talışxan bəy və Qardaşxan bəy qardaşları, Tacir Hacı Qulam bəy, Tacir Əli Abbasqulu və başqaları erməni daşnakları ilə son gülləsinə qədər vuruşmuş, bir çoxu da vətən yolunda şəhid olmuşdur.

Ermənilər Mədrəsə tərəfdən Şamaxını top atəşinə tutmağa başlayır. Top atəşləri yağış kimi yağır. Azad bəy könüllülər dəstəsinə "hansı yolla olursa-olsun, topçuları susdurmaq lazımdır", - deyə göstəriş verir.

Bəxtiyar Məhəmməd Tağı oğlu İsmayıllının yazdıqlarından: "Zoğalavay çayı vadisində erməni zabiti Aterbekovun Mədrəsədə təşkil etdiyi çoxsaylı silahlı birləşməsi ilə türk zabiti Osman Əfəndinin təşkil etdiyi sərrast güllə atanlardan ibarət olan azsaylı dəstənin apardığı uğurlu əməliyyat diqqətəlayiqdir. Osman

[34] 20 noyabr vertolyot faciəsi. "İki sahil" qəzeti, 20.IX.2001.



Polkovnik Azad bəy Qocamanbəyov

Əfəndinin dəstəsindən olan məşhur atıcılar - Məhəmməd Tağı, Udulu Üşüdü İbad, Məhəmməd Sadiq, Qardaşxan və Talışxan qardaşlarının sərrast atəşi nəticəsində ermənilər böyük itki və tələfat verib qaçmağa məcbur olmuşdur. Səhərisi gün əldə edilən qarşılıqlı razılaşma əsasında hər iki tərəf bayraq qaldırıb ölülərini yığmağa başlayırlar. Müsəlmanlar içi xalça ilə döşənmiş arabada 3 meyit aparırlar. Meyitlərdən ikisi Talışxan və Qardaşxan qardaşlarının, üçüncüsü isə onların nökəri 18 yaşlı Xudunun idi. Bunu görən Məhəmməd Tağı hönkür-hönkür ağladıqdan sonra silahdaşlarının intiqamını almağa söz verərək onların ruhuna and içmişdi. Çox keçmir ki, Məhəmməd Tağı öz andını yerinə yetirərək ermənilərlə aparılan növbəti döyüşdə qəddarlıqla məşhur olan Saday yüzbaşının oğlu başkəsən, həmişə sərxoş, mauzerist Sureni və ermənilərin pulemyotçusunu təpəsindən vurmuşdur”.[35]

Polkovnik Azad bəyin dəstəsi Mədrəsə erməniləri ilə xeyli vuruşmuşdur. Bu dəstə düşmənin qarşısını almaqla əhalinin şəhərdən çıxmaları üçün xeyli şərait yaratmışdır. Sonra Azad bəy sağ qalan silahdaşları ilə şəhəri tərk etmişdir. Müzəffər türk ordusu qan qardaşlarına yardıma gələndə Azad bəy bir neçə silahdaşı ilə onlara qoşulmuş və yenidən düşmənlə vuruşmuşdur.

I Haşiyə: Azad bəy Ağasadıq bəy oğlu Qocamanbəyov 1860-cı ildə anadan olmuşdur, Atası Şamaxının məşhur mülkədarlarından idi. Onun mal-qarası, qoyun sürüləri, Şamaxıda mağazaları və böyük imarəti var idi. Pirsaat çayının sahilində geniş əkin sahələri olmuşdur. Mənbələrdə, xatirələrdə qeyd olunduğu kimi, o çox nadinc bir uşaq imiş.

Xatirələrdən: “Azad uşaqları incidir, söyürdü, döyürdü, qapı-pəncərələri sındırırdı. Uşaqlar hər gün Seyid Əzimə ondan şikayət edirlər. Bir dəfə yenə də bir uşaq ağlaya-ağlaya Azadın onun döyməsini Seyid Əzimə xəbər verir. Seyid Əzim Azadı lövhəyə çağırıb aşağıdakı şeri yazdırır:

“Dad sənin əlindən, dad, Azad,
Yaz ki, fəryad əlindən, Azad,
Stolu, akoşkanı sən sındırdın,
Ev oldu bərbad əlindən, Azad”.

Şeri uşaqlar da öz dəftərlərinə köçürüb əzbərləyirlər”.[36] Azad bəy Şamaxıda realnı məktəbi bitirdikdən sonra atası onu Peterburqa oxumağa göndərir. Azad bəy orada hərbi məktəbdə oxuyur. O, ərəb, fars, türk və rus dillərini mükəmməl bilirdi.

[35] “Yeni Azərbaycan” qəzeti, 31 mart 2000.
[36] Ə.Mustafayev. Xatirələrim. Bakı, 1985, s. 46-47.

Hərbi məktəbi qurtarandan sonra Azad bəy Peterburq və Moskva şəhərlərində qulluq edir. O, 1905-1907-ci illərdə Rus-Yapon müharibəsində iştirak etmişdir. Müharibədə göstərdiyi igidliklərinə görə bir neçə orden və meddallarla təltif olunmuşdur. Müharibənin sonuna yaxın sağ qıçından yaralanmışdır. Bir müddət Moskvada xəstəxanada müalicə olunmuşdur. Sonra polkovnik rütbəsində Azərbaycana - Şamaxıya qayıdır. Bir müddət burada əvvəl məhkəmədə, sonra çinovnik köməkçisi, qarnizon komissarı daha sonra Şamaxı qəza rəisi işləmişdir.

II Haşiyə: Azad bəy birinci dəfə Ruqiyyə adlı bir qadınla evlənir. Onların yeganə qızı gənc yaşlarında vəfat edir. Bundan sonra onların uşaqları olmur. Ona görə də Azad bəy həmkəndlisi Bəymirzə adlı bir oğlanı oğulluğa götürür. Bəymirzə igid, qoçaq bir şəxs olmuşdur. 1918-ci ildə ermənilərlə vuruşda böyük hünər göstərmişdir. 1919-cu ildə tərəkəmələrlə olan savaşda yaralanmış, bir neçə gündən sonra ölmüşdür.



Seyfullah bəy Azad bəy oğlu

Azad bəy ikinci dəfə Məhəmməd bəyin qızı Gülarə xanımla ailə qurmuşdur. Həmin qadından Azad bəyin 1912-ci ildə bir oğlu olmuş və adını Seyfullah qoymuşdur. Qeyrət, hünər simvolu olan Azad bəy 1920-ci ilin fevral ayında Şamaxıda vəfat etmişdir. Məzarı Laləzar qəbristanlığındadır.

III Haşiyə: Seyfullah bəy Azad bəy oğlu Şamaxıda orta məktəbi bitirmişdir. O, 1930-cu ildə Azərbaycan Neft və Kimya İnstitutunun memarlıq fakültəsinə daxil olmuşdur. Seyfullah bəy 1941-ci ildə müharibəyə getmişdir. O, 1943-cü ildə ağır yaralanıb, Şamaxıya qayıtmışdır. Sonra ailəsi ilə birlikdə Bakıya köçmüşdür. Bakıda Azərdövlətlayihə institutunda memar işləmişdir. Müharibədə başından aldığı ağır yara zaman keçdikcə ona rahatlıq vermir və o, 1952-ci ildə cavan yaşında dünyasını dəyişir. Bakı şəhərində dəfn olunur. Seyfullah bəyin iki oğlu vardır. Böyük oğlu-babasının adını yaşadan Azad inşaatçı, kiçik oğlu Nicat isə rəssamdır.

***

Şamaxı soyqırımının şahidi olan Ayaz bəy Qocamanbəyovla birlikdə könüllülər dəstəsində yağı düşmənə qarşı vuruşub, əhaliyə yardım edənlərdən biri də 25 yaşlı Tərlan bəy Abdulla oğlu Əlyarbəyov olmuşdur.

Haşiyə: Tərlan bəy Əlyarbəyov 1893-cü ildə Şamaxı şəhərində doğulmuş və burada təhsilini başa vurandan sonra 3-cü Qafqaz atıcı polkuna könüllü kimi daxil olmuşdur. 1911-ci ildə isə, Tiflis şəhərinə Mixaylovski piyada hərbi məktəbə göndərmişdir. Məktəbi 1914-cü ildə bitirmişdir. 1914-cü ilin avqust ayının 1-də 205-ci Şamaxı piyada polku ilə alman cəbhəsinə qarşı əməliyyatda iştirak etmiş, müharibədə 4 dəfə yaralanmışdır. O, döyüşdəki rəşadətinə görə Georgi ordeninin bütün dərəcələri ilə təltif olunmuşdur. Aldığı yara ağır olduğundan Bakıya göndərilmişdir. Burada hərbi idarədə işləmişdir. O, 1918-ci ilin mart ayında çar

ordusunun hərbi tərxisi əsasında işdən azad olunmuşdur. Qarışıqlıqlar başladığı üçün Şamaxıya gəlmiş və burada könüllülər dəstəsinə qoşulmuşdur.*

Erməni-daşnaklarına qarşı müqavimət göstərən dəstələrin (milis dəstəsinə) birinə Tərlan bəy başçılıq etmişdi. O, kiçik bir dəstə ilə erməni millətpərəstlərinə xeyli itki də vermişdir. Düşmən tərəfi güclü olduğu üçün onların dəstəsi geri çəkilmiş və Şamaxının ətraf kəndlərində daldalanmışdır. Ta türk ordusu köməyə gələnə kimi. Şamaxı ermənilərdən təmizlənənə kimi türk ordusunda vuruşmuşdur.



Məlumdur ki, 1918-ci ilin iyun ayında Azərbaycan Demokratik Cümhuriyyətinin göstərişi ilə erməni daşnaklarının cinayətinin üstünü açmaqdan ötrü Ələkbər bəy Xasməmmədovun rəhbərliyi ilə Fövqəladə İstintaq Komissiyası yaradılmışdır. Artıq bu zaman T.Əlyarbəyov Müsavat hökumətində qulluq edirdi. Şamaxı soyqırımında təşkilatçı olan S.Lalayevin, eləcə də onun dostları Arşak Gülbəndovun, Mixayil Arzumanov kimi yüzlərlə erməni cəlladlarının cinayətkar əməllərinin açılmasında T.Əlyarbəyov da yaxından iştirak etmişdir. Fövqəladə İstintaq Komissiyasının protokollarında zabit Arşak Gülbəndov, Armeniak Yakoviç Martirosyan və Abram Xaqanov kimi insan qatilləri, neçə-neçə cinayətlər törədən daşnaklar 25 yaşlı Tərlan Əlyarbəyovun ifadəsi ilə ittiham olunmuşdur.[37]

**Dindirilmə protokolu.**

1918-ci il 10 noyabr şamaxılı Tərlan bəy Əliyarbəyov, 27 yaşlı, Şamaxı qəza rəisinin baş köməkçisi, müsəlman.

Mən, Şamaxıda Əlahəddə Komissar və qarnizon rəisi vəzifələrdə işləmişəm. Quberniya komissarının sərəncamına əsasən, mən, 200 milis toplamalı və olmuş hadisələrin nəticəsini bərpa etməli, həmçinin qayda-qanun yaratmalı idim. Yüz nəfərə yaxın milis toplayıb Şamaxıdan Ağsu istiqamətinə getdik. Bilirdim ki, quldurlar Şamaxı - Kürdəmir yolu ilə gediblər. Keçdiyimiz kəndlər artıq ermənilər tərəfindən talan edilmiş, əhali isə öldürülmüşdür. Mən öz milis dəstəmlə Ağsuda qalmalı oldum. Burada əhali tərəfindən şikayətləri qəbul edirdim. Dəqiq yadımda deyil, 12, ya da 13 martda mən Şamaxı Milli komitəsindən məlumat aldım ki, erməni - bolşevik silahlı dəstələri Şamaxıya hücum ediblər. Mən öz dəstəmlə o saat Şamaxıya qayıtmalı oldum. Komitədə öyrəndim ki, erməni - bolşevik dəstələrinin yanına gedən, azərbaycanlı nümayəndələrinə deyilib ki, şəhərdə olan bütün silahlar qarnizona təhvil verilməlidir. Guya, Şamaxıda daha quldur-zad yoxdur. Onlar

* Generalın bu dövrdəki fəaliyyəti məlum səbəblərə görə onun rəsmi tərcümeyi-halına düşməmişdir. Amma bəllidir ki, o, 1918-ci ilin mayından Müsavat ordusunda çalışmışdır.

[37] Dilqəm. 1918-ci il Şamaxı soyqırımı. "Elin sözü" qəzeyi, aprel 2001.

hamısı kəndlərə dağılışıb gediblər. Bu ərəfədə isə Milli Komitədə olan şamaxılı – ermənilər qarnizonun silah anbarını qarət etmişlər. Bunu mən və qarnizon komissarı Qocamanbəyov da bildik. Onların qabağını almaq məqsədilə biz Komitəyə gəldik. Bu vaxt ermənilər artıq şəhərdə atəş açmağa başlamışdılar. Biz elə, bunu komitədə də eşitdik ki, erməni - bolşevik silahları Çuxuryurd istiqamətindən şəhərə basqın edəcəklər. Komitədə bizə sərəncam verildi ki, şəhərin müdafiəsi lazımdır. Axşam saat 8-9 radələrində mən öz dəstəm və əlavə olaraq 100 nəfər şamaxılı Çuxuryurd istiqamətində müdafiədə durduq. Səhərə qədər Şamaxı atəşə tutuldu. Heç bir itki olmadığından, mən məruzə üçün Milli Komitəyə gəldim. Bir saat keçməmiş Meysəri istiqamətindən və Mədrəsə tərəfdən ermənilər Şamaxıya hücum çəkdilər. Mən dəstənin yanına tələsdim. Mən onlara dedim ki, mənim əmrim olmadan atəş açmasınlar. Meysəri istiqamətindən bir dəstə silahlı adam, şəhərə tərəf gəlirdi. Şərq istiqamətindən də silahlı adamlar görünməyə başladılar. Mən dəstəmə əmr etdim ki, döyüşə hazır olsunlar. Mən təcrübəmdən bilirdim ki, əgər, top atsalar, şəhərdə yanğın baş verə bilər. Elə bu vaxt ermənilər Mədrəsə istiqamətindən toplardan atəş açmağa başladılar.

Həmin gün ermənilər Şamaxıya girə bilmədilər. Şamaxılılar müdafiə mövqeyini yaxşı seçmişdilər. Döyüş 4 saat davam etdi. Ermənilər müdafiəni yara bilmədiklərini hiss edib, Mədrəsə tərəfə çəkildilər. Mən də atəşi dayandırdım və dəstəmə bildirdim ki, ermənilər təslim olacaqlar və silahları təhvil verəcəklər. Bir saatdan sonra ermənilərlə bizim aramızda danışıqlar başlandı. Ermənilər tərəfindən nümayəndələr - erməni yepiskopu Baqrat, Şamaxı poçt teleqraf kontorunun rəisi Gülbəndyan və qeyriləri. Malakanlardan isə, Cabanı kənd sakini Karabanov idi. Danışıqda, “heç bir şey pis olmayacaq, yenə münasibətlərimiz yaxşı olacaq” dedilər. Lakin səhəri gün, ertədən Şamaxı erməniləri tərəfindən mühasirəyə alınmışdı. Bütün gün ərzində şəhər atəşlə tutuldu. Onlar evlərə soxulur, qarət edir, insanları öldürür, bəzilərini əsir alırdı. Mən də bir qarabağlı erməni tərəfindən əsir götürüldüm. Məndən başqa 20 nəfəri də əsir götürmüşdülər. Mənim evimi talan etdilər. Qiymətli şeylərimi götürdülər. Mənim mənzilimdən şaşki (partlayıcı maddə) tapdılar. Mən Qarabağ ermənisinə dedim ki, mən zabit kimi, qanuna görə şaşki saxlamalıyam. O isə, cavabında “bundan sonra şaşki yalnız bizə lazımdır”, - dedi. Məni, yalnız, nağd on iki min pul, bütün qohumlarımın qızılları və qiymətli ev əşyalarını verəndən sonra buraxdılar. Gecəykən mən Şamaxıdan çıxdım. Bir neçə vaxtdan sonra 20 nəfərlik süvarinin başında Ziyadxanov Şamaxıya gəldi. Deyə bilmərəm, onlar, nə qədər Şamaxıda qaldılar. Bolşevik - malakan dəstələri gedəndən sonra Seyid Axundzadə Şamaxıya gəldi. 23 nəfərlik dəstəsi olan Seyidə təklif olundu ki, qalıb Şamaxıda yaşasın. O, isə belə bir təklif verdi ki, əgər, düşmən bizdən çox olarsa, biz şəhəri tərk edək. Mən qəti surətdə dedim ki, mən Şamaxının tərk etməyəcəyəm, onu müdafiə edəcəyəm. Mənim sözlərim Seyid Axundzadəyə təsir etdi. Mənim ətrafıma qonşularım da toplaşdı. Bütün şəhəri

gəzdik və şəhərdə qalanlara tapşırdıq ki, heç kəs şəhərdən çıxmasın. Ertəsi gün eşitdim ki, Şamaxıdan getmiş əhali şəhərə qayıdıb.

İki saatdan sonra bolşevik-malakan dəstəsi Şamaxını tutdu. Ermənilər Göyçaydan geri qayıdıbmış”.[38]

***Kapitan Əlyarbəyov***

Sonralar general-mayor olan T.Əlyarbəyovun xidmətləri təkcə bununla bitməmişdir. O, 1918-ci ilin avqust ayında Azərbaycan Demokratik Cümhuriyyətinin məsləhəti ilə əvvəl Hacıqabulda, sonra Quba qəzasının Qusar şəhərində yerləşən 2-ci polk komandirinin köməkçisi təyin edilmişdir. Hökumət 1919 - cu ildə ona daha böyük etimad göstərmiş və onu Bakı Hərbi İdarəsində rəis vəzifəsinə irəli çəkmişdir.

I və II Dünya müharibələrinin iştirakçısı T.A.Əlyarbəyov 1956-cı ildə Bakı şəhərində vəfat etmişdir.[39]

***

1902-ci il zəlzələsindən keçən 15 il müddətində Şamaxı necə deyərlər, təzədən tikilmiş, varlı-karlı adamlar - Veyisovlar, Salamovlar, Hacı Xeyrulla, Vahab bəy, tacirlər Hacı Musa, Əbdülhüseyn Əlizadə, Hacı Nağı, Axund Mirzə Nəcəf, Kərbəlayi Yusif, Şahlar bəy Şıxəlıbəyov, Rüstəm bəy Məmmədov, Şeyx Əli ağa və b. dağılmış ata-baba mülklərini yenidən qurmuş, daha möhtəşəm imarətlər ucaltmışlar. Şəhərin 13 məhəlləsində məscidlər, hamamlar, bazarlar, karvansaralar bərpa olunmuş, poçt, məktəb, onlarla mağazalar yenidən tikilmişdir. Şəhər abadlaşmış, bağ-bağatlar salınmışdır. Erməni daşnakları 1918-ci ildə bu tikililərin demək olar ki, hamısını yerlə yeksan etmiş, həmin abidələrdən bircəsi də salamat qalmamışdır. Təkcə 1000 ildən artıq yaşı olan, yandırılmış Şamaxı Cümə məscidi nisbətən salamat qala bilmişdir.



Mənbələrdən: “Yoxlama zamanı müəyyən edilmişdir ki, məscidlər, evlər, mağazalar və digər tikililər hansı maye vasitəsilə divarlara çəkilib, sonra isə odlamaqla yandırılmışdır. Bir neçə məscidin xarabalıqlarını, habelə insan sümüklərinin 45 ədəd fotoşəklini çəkmişdilər. Maddi ziyanın hesablanması mümkün deyildir.[40]

Haşiyə: O dövrdə dağıdılan məscidlərdən biri də XVIII əsr yadigarı “İmamlı məhəllәsi”ndəki məscid olmuşdur. Mənbələrdə

[38] ARDA. fon. 1061, iş 1, siy. 105. vər. 100-101.

[39] Azərbaycanda iki Dünya müharibəsinin iştirakçısı general ancaq T.Əliyarbəyov olmuşdur. - S.Q.

[40] İ.Mirzəyev. “Bəli soyqırım olub”, “Xalq qəzeti”, 10.III.2002.

İmamzadə ziyarətgahında dəfn edilən şəxsin dördüncü imam Zeynalabdinin oğlanlarından biri olduğu qeyd edilir. Ziyarətgahın tarixi VIII əsrə aiddir. İmamzadəyə hörmət əlaməti olaraq, 1370-ci ildə orada məscid tikilmişdir.

Məscidin Axundu Hacı Elşənin dediklərindən: Ziyarətgahda dəfn olunanın adı məlum deyildir. Vaxtilə məzarın üstündə yazılı kitabə olmuşdur. 1918-ci ildə erməni daşnaqları Şamaxıda olan bütün tarixi abidələrlə yanaşı, "İmamzadə" məscidini də yandırmış, orada olan yazılı kitabəni məhv etmişlər. Odur ki, xalq arasında ziyarətgah Qərib Ata və ya İmamzadə (İman oğlu) adlandırılmışdır. Məsciddə aparılan arxeoloji qazıntılar təsdiq edir ki, "İmamzadə" məscidi tikiləndən bəri beş dəfə bərpa edilmişdir.

Deyilənlərdən o da bəlli olur ki, bu məzarda uyuyan Pirsaat ziyarətgahında dəfn olan şəxsin - Mir Sahab Ağanın qardaşıdır. Məscid ikimərtəbəli olmuşdur. Son bərpa zamanı aşkar edildi ki, məscidin 21 metr hündürlüyündə olan birinci mərtəbəsi torpağın altındadır. Məsciddə bu günə kimi qalan yeganə kitabədən orada Mövlanə Seyid Mühəmməd Saleh-əl-müddəris adlı böyük bir alimin dəfn olunduğu bəlli olur. Bu da bir daha təsdiqləyir ki, Şamaxıdakı başqa məscidlər kimi, "İmamzadə"də orta əsrlərdə mədrəsə fəaliyyət göstərmişdir.

1902-ci il zəlzələsi zamanı "İmamzadə" məscidi yerlə-yeksan olmuşdur. 1910-1917-ci illər ərzində böyük memar Ziyvor bəy Əhmədbəyov tərəfindən məscid qədim özül üzərində yenidən tam bərpa edilmişdir.

1918-ci ilin martında cəllad S.Lalayevin evinə yaxın olan "İmamzadə" məscidi ermənilər tərəfindən dağıdılmışdır. Şəhərin yaşlı sakinləri - Mürşid baba, Məşədi Nazpərinin (100 yaşlı) dediklərindən bəlli olur ki, qırğın zamanı yüzlərlə qadın, uşaq və yaşlı insan "İmamzadə"yə pənah aparırlar. Məscidin Axundu Cəfərqulu beş nəfər kişi ilə həmin insanları müdafiə edirlər. Ən nəhayət, onların gülləri qurtarır. Erməni cəlladları həmin kişiləri məsciddəkilərin gözü qarşısında qəddarlıqla öldürürlər. Sonra məscidin ağzını bağlayıb od vururlar. Şahidlərin dediyinə görə, qaçqınlar şəhərə qayıdandan sonra məsciddə yandırılmış insanların sümük və küllərini bir yerə yığıb oradaca dəfn edirlər. 1918-ci ildə Müsavat hökuməti qətlə yetirilən insanların üstündə xatirə lövhəsi qoyurlar. Həmin qəbir daşı indiyə kimi durur".

Haşiyə: Şamaxının böyük dini bilik sahibi, alim Axund Mehdi Ağa da öz vəsiyyətinə görə 1911-ci ildə həmin məsciddə dəfn edilmişdir.

***

Elmi araşdırmalar bir daha təsdiqləyir ki, erməni daşnakları Şamaxıda təkcə varlıların mülklərini deyil, eyni zamanda, ziyalıların, elm-sənət fədailərinin evlərini bilərəkdən yandırmağı, qarət etməyi də qarşılarına məqsəd qoymuşlar. Bu fəlakət Şamaxının memarlıq incilərini, məscidi, sarayı və evləri, keçmiş tikililəri, məktəbləri məhv etdiyi kimi, yüzlərlə ziyalılar – şair müəllim, alim, din xadimlərinin dəyəri bilinməyən əlyazma kitabxanalarını yandırmışlar. S.M.Qənizadə, A.Səhhət, M.Ə.Sabir, Axund Şeyx Əli ağa, Mirmehdi Ağa, Mirzə

Həbib, Müfti Mustafa Əfəndi, Axund Cəfər, Əlicabbar Orucəliyev, Möhsün bəy Qədirli, Böyük bəy Mahmudbəyov, Mahmud Əfəndi (prof. E.Əfəndiyevin əmisi), Ələddin Əfəndizadə, Axund Hacı Rza, Hacı Musa oğlu, Əbdülqadir Qafar oğlu, Əlimməd Mustafayev, Əbdürrəhman Əfəndiyev, Tofiq Şirvanlı, Məhəmmədhəsən Tərrah, Ağaəli bəy Naseh, Kərbəlayi Yusif, Şahlar bəy Şıxəlibəyov, Rüstəm bəy Mamedov və başqalarının evi bilərəkdən yandırılmış, talan olunmuş, qədim kitablar, əvəzsiz əlyazmalar məhv edilmişdir.

Kitabxanasını, əlyazmalarını mülkündən, varından çox istəyənlərdən biri də Rusiyanın Dövlət Dumasının deputatı Məmmədtağı Əbdülsəməd oğlu Əlizadə olmuşdur. Erməni daşnakları tərəfindən şəhərin xarabazara çevrildiyini, əhalinin qətlə yetirildiyini görən Məmmədtağı doğmalarının təkidinə baxmayaraq, şəhərdən çıxmır. “Bu qədər kitabı, əlyazmanı məhv olmağa qoymaram”, - deyib, mülkündə qalır.

Açıqlama: Məhəmmədtağı 1958-ci ildə Şamaxıda tacir ailəsində anadan olmuşdur. Onun atası Qafqaz Müsəlmanları İdarəsində şeyxülislamı Şeyx Əhməd Hüseynzadə Salyanlının qızı Fatma Bikə elə evlənmişdir. Məhəmmədtağı 15-16 yaşında Tiflisə getmiş, ana babası Şeyx Əhməd Salyanlının yanında qalmış və ruhani məktəbinə daxil olmuşdur. Məhəmmədtağı babasının köməyi ilə ərəb, fars dilləri ilə yanaşı rus və fransız dillərini də dərindən öyrənmişdir.

O, 1874-cü ildə Bakıya gəlir, burada H.Zərdabi, H.Vəzirov ilə tanış olur. O, “Əkinçi” qəzetində əməkdaşlıq etmişdir. Bakı Realnı Məktəbinə daxil olmuşdur. Sonra o, Novo-Aleksandriyada “Kənd Təsərrüfatı mütəxəssis hazırlayan bir instituta daxil olmuşdur. Bundan sonra o, Moskvada Petrovski Akademiyasında oxumuşdur. 1883-cü ildə Akademiyanı bitirib Peterburqa gəlmişdir. Alman və ingilis dillərini də yaxşı bilən Məhəmmədtağı Peterburqda maliyyə nazirliyində Rixterin rəhbərlik etdiyi “Rüsum və töycü” şöbəsində işləməyə başlayır”, “İqtisadiyyata dair biliyini artırmaq, Avropa həyat şəraitini bilavasitə müşahidə etmək məqsədilə Almaniyaya, Fransaya gedir. Almaniyanın Sileziya vilayətində olarkən apardığı müşahidələr, topladığı faktlar əsasında “Sileziyanın iqtisadiyyatı haqqında” alman dilində kitab yazıb nəşr etdirir” (prof. X.Məmmədov). O, 1988-ci ildə Peterburqdan geri qayıtmış və həmişəlik Şamaxı şəhərində yaşamışdır. Şamaxıya gələndən sonra, Əlizadə Şərqi səyahət etmək fikrinə düşmüş, əvvəl İrana getmiş, orada gördüklərinə, müşahidə etdiklərinə əsasən kəskin pamflet səciyyəli bir əsər yazmışdır, o, qeyri-mətbu əsər haqqında 1906-cı ildə məlumat verən “Həyat” qəzeti göstərirdi ki, müəllif bu əsəri nəşr edərsə, zənnimizcə, ortaya bir ikinci “səyahətnameyi – İbrahimbəy” çıxmalıdır. (prof. X.Məmmədov).



*I Rus Dumasının deputatı Məhəmmədtağı Əlizadə Şirvani*

M.Əlizadə 1906-cı ildə Rusiyanın birinci Dövlət Dumasına Bakı quberniyasından deputat seçilmişdir.

Çox əfsus ki, böyük elm sahibi, 5-6 xarici dil bilən M.Əlizadə də 1918-ci il erməni soyqırımının qurbanı olmuşdur. Doğmalarının dediyinə görə, 60 yaşlı Məhəmmədtağı Əlizadə mülkündə iki saata yaxın - son gülləsinə kimi vuruşmuşdur.

Beləliklə, erməni quldurları onu vəhşicəsinə qətlə yetirmiş, evini talan etmişlər. Axırda onun da mülkünə od vurub, yandırıblar. Bununla da neçə-neçə qiymətli əlyazmalar, alimin işıq üzü görməyən əsərləri, kitabxanası bütövlükdə məhv edilmişdir.

Haşiyə: Şamaxıda yaşadığı müddətdə Məhəmmədtağı Əlizadə Şamaxı yerli ziyalılarının məsləhət yeri olmuşdur. Elə bir tədbir, elə bir yığıncaq yox imiş ki, M.Əlizadə orada iştirak etməsin. A.Səhhətin "1917-ci ildə "Açıq söz" qəzetində çap etdirdiyi bir məqaləsi bu baxımdan diqqətə layiqdir. Məqalədən məlum olur ki, Şamaxıda İcraiyyə Komitəsi təsis edilməsi barədə şəhərə teleqram gəlir. "Xəlayiqi bu məsələyə də aşina etmək üçün 3 gün cümə məscidinin həyətində mitinq təşkil edildi".[41] Çox müzakirə və mübahisədən sonra "səkkiz nəfər ruhani, 4 nəfər tacir, üç nəfər hökumət məmuru, iki nəfər dava vəkilindən ibarət bir komitə intixab olundu". Komitənin sədarətinə birinci padşahın duma vəkili Məhəmmədtağı Əliyev cənabları intixab olundu".[42]

Düzdür, təşkilat sonra ləğv edildi, M.Əliyev işdən istefa verdi. Amma buna baxmayaraq, belə faktlar bir daha təsdiq edir ki, erməni qırğınına kimi onun Şamaxıda böyük nüfuzu və hörməti olmuşdur.

***

Bolşevikbayrağı altında bir araya gələn erməni - malakan birləşmələri 1918-ci ildə Şamaxıda bəşər övladı yaranandan bəri dinc əhaliyə qarşı görülməyən, analoqu olmayan faciələr törətmişlər. "Quduzlaşmış ermənilər on üç məhəllə məscidini və məşhur ocaq sayılan cümə məscidini də yandırmışlar. Bu yırtıcılar 1000 yaşı olan cümə məscidində Axund Cəfərqulunun saqqalını bir-bir yolub, sonra dişlərini kökündən çıxarıb əzabla öldürmüşlər".[43]

Çox çəkmir ki, Şamaxı soyqırımı burada törədilən vəhşiliklərin sorağı hər tərəfə yayılmağa başladı. Bu ara İsmayılxan Ziyadxanovun dəstəsi şamaxılıların köməyinə gəlirlər. "Gəncə atlılarının sorağını eşidən erməni - malakan birləşmələri qorxularından Şamaxını tərk edirlər. Yağı düşmən Qozluçayda qərar tutur. Ermənilərin şəhəri tərk etdiyini eşidən yaxın kənd, meşə, dağ və dərələrdə gizlənən əhali şəhərə qayıdır. Onlar gördüklərinə inana bilmirlər. Küçə, yol və həyətlərdə olan insan cəsədləri - kəsilmiş başlar, qol-qıçlar, əl-ayaqlar, parça-parça edilmiş uşaq - körpə meyitləri onları heyrətə salır, dəhşətə gətirir. Doğmalarının,

---

[41] A.Səhhət. "Əsərləri" Bakı, - 1974 II səh.63.
[42] Yenə orada səh. 64.
[43] H.Hacıyev. Ermənilərin dəhşətli vəhşiliyinə əyani sübut "Azərbaycan" qəzeti 31.III.2000.

balalarının faciə və müsibətlərinin şahidi olan qadınların bir çoxunun başına hava gəlir, dəli olurlar. Müsibət müsibətə qarışır. Ev-eşiklər külə dönübmüş. Bir sözlə, şəhər böyük bir tonqalın külünü xatırladırmış.

Erməni cəlladları tez cinayətkar S.Şaumyana "Gəncə atlıları" haqqında məlumat çatdırırlar. Cəllad Şaumyanın əlinə yenidən fürsət düşür. Odur ki, hamısı millətçi ermənilərdən təşkil olunmuş böyük bir ordunu "əksinqilab qüvvəni" - İsmayılxan Ziyadxanovu məhv etmək üçün Şamaxıya göndərir. Bu xəbəri eşidən İsmayılxan geri çəkilir. Ermənilərin yenidən soyqırımı törədəcəyi xəbərini eşidən sakinlər yenidən Şamaxını tərk etdilər.

İkinci dəfə boz ayın sazağında, öz ev - eşiklərindən ayağıyalın-başıaçıq, aclıq-səfalət içində çöllərə düşən insanların çoxu yollarda ölür, sağalmaz xəstəliklərə tutulur və yaxud taqətsiz halda yollarda qalır, qurd-quşa yem olurlar.

"Şirvanlı mülkədar İsmayıl xan Ziyadxanovun başçılıq etdiyi əksinqilabı qüvvələri təmizləmək" bəhanəsi ilə erməni daşnakları bolşevik bayrağı altında Şamaxıda daha dəhşətli soyqırım aktı törədirlər. Bu barədə mənbələrdə oxuyuruq: "Mən Şamaxıdan çıxıb Göylərə kəndinə gəldim. Lakin "xan dəstəsi" (İsmayıl bəy Ziyadxanov - S.Q.) Şamaxıya gələndən sonra, 28 mart 1918-ci ildə mən Şamaxıya qayıtdım. Ermənilər Qozluçay kəndinə yığılmışdılar. İsmayılxan, malakanlara müraciət etdi ki, erməniləri ona versinlər ya da kənddən çıxarsınlar. Malakanlar iki gün möhlət istədilər. İki gündən sonra malakanlar xəbər göndərdilər ki, erməniləri verməyəcəklər. İsmayılxan Qozluya yaxınlaşanda, atışma başlandı. Malakan və erməni birləşmələrinin sayca çox olmasını görən İsmayılxan Şamaxıya qayıdır və səhəri gün şəhəri tərk edir. Müsəlman dəstəsinin getməsindən üç saat sonra mən də Şamaxını tərk etdim. Ermənilərin müsəlmanlara qarşı etdikləri hərəkətlər, mənim fikrimcə, milli xarakter daşıyırdı. Onlar, guya, bolşeviklərə qarşı çıxan azərbaycanlılara qarşı mübarizə aparırdılar. Əslində isə bu şüar altında minlərlə müsəlman - uşaq, qadın, qoca və daha kimləri qılıncdan keçirdilər. Bu amansız soyqırımının başında Stepan Lalayev dururdu. Təşkilatçılıq işlərinə isə Mixail Arzumanov, qəza rəisinin köməkçisi Qaroğlanov, poçt-teleqraf kontorunun rəisi Gülbəndov və familiyalarını bilmədiyim qeyri-ermənilər başçılıq edirdi. Birinci qaçqın zamanı mənə 400 min manat məbləğində, ziyan dəymişdir".[44]

***

Bolşevik bayrağı altında üçüncü dəfə Şamaxıya daxil olan erməni yaraqlıları şəhəri yenidən ələk-vələk elədilər. Şəhərdə az-çox salamat qalmış tikililər yenidən oda qalandı. Şəhərin yaxınlığında olan qəbristanlıqlar təhqir edildi. Bolşevik ordusu Ağsu-Göyçay tərəfə istiqamət aldı. "Şamaxı şəhərini və onun ətraf kəndlərini viran qoyan, müsəlman əhalisinin ucdantutma qıran vəhşi daşnaklar Gəncə istiqamətində irəliləməyə başladılar. Erməni silahlı qüvvələri, əgər, Bakıdan

[44] ARDA. fon. 1061, iş 105, vər. 17-20.

Şamaxıya üç günə gəlib çıxmışlarsa, onlar iki gün ərzində Ağsu və Göyçayı da zəbt etməyə imkan tapdılar".[45]

Ən nəhayət, erməni daşnakları İsmayıl xan Ziyadxanovun dəstəsi ilə qarşılaşırlar. Bu döyüşdə S.Şaumyanın "erməni-bolşevik" ordusu qələbə çalır. Bu qələbə münasibəti ilə S.Şaumyan, Moskvaya V.İ.Leninə müjdə göndərir. Professor V.Quliyevin yazdığı kimi, "tarixçilərin tədqiqatlarında" oxuyuruq: "1918-ci ilin yazında Bakı proletariatının yardımı və zəhmətkeş kütlələrin fəal işitirakı ilə Azərbaycanın şərq qəzalarında Sovet qoşun dəstələri (oxu: erməni-daşnak qəza dəstələri - V.Q) aprelin 14-də Lənkəranı azad etdi, aprelin 17-19-da Şamaxı sovet şəhərinə çevrildi".[46]

Bəli, bu "böyük qələbə" Şamaxıda 4 minə yaxın dinc əhalinin qəsdən qətli (o cümlədən, 1653 qadın, 965 uşağın, yandırılan, talan edilən 58 kənddə isə 3204 nəfər kişi, 1979 nəfər qadın, 959 nəfər uşağın məhv edilməsi) hesabına başa gəlir (Bunlar adları siyahıya düşənlərdi). Əslində FİK-nin işləri yarımçıq qaldığı üçün qətlə yetirilənlərin sayı düzgün dəqiqləşdirilə bilmədi. Ona görə də mənbələrdə Şamaxıda qətlə yetirilmiş insanların sayı barədə fikir müxtəliflikləri mövcuddur. Məsələn, bir mənbədə oxuyuruq: "Şaumyan cəlladları Şamaxı uyezdində qanlı faciələr törətdi. Şamaxı şəhərindən yalnız xarabalıqlar qalmışdı. 15 minlik əhalisi qılıncdan keçirildi. Az bir hissəsi bu faciədən qaçqınlıqla başını qurtara bildi".[47]

Başqa bir mənbədə göstərilir ki, şəhərində təqribən, 8-12 min, bütövlükdə Şamaxı qəzasında isə, 40 minə qədər insan qətlə yetirilmişdir. Çox təəssüflər ki, onların yalnız 12 min nəfəri qeydə alınmışdır".[48]

Göründüyü kimi sənədlərdən də erməni terrorçularının Şamaxı və onun kəndlərində qətlə yetirdikləri günahsız insanların sayını dəqiq müəyyən etmək mümkün deyildir. Amma ötən əsrin 90-cı illərindən bəri apardığımız ciddi araşdırmalar nəticəsində (yüz nəfərə yaxın şahiddən topladığımız xatirə və məlumatlar) müəyyən edə bilmişik ki, erməni cinayətkarları - S.Şaumyan, S.Lalayan, Z.Arestisyan, T.Əmirov və A.Əmiryan qardaşlarının rəhbərliyi və yerli havadarlarının iştirakı ilə Şamaxı şəhərində təqribən, 14-16 min, onun 40 kənd və obalarında (Bugünkü Şamaxı və Qobustan rayonları ərazisindəki kəndlər) 6-8 min nəfəri qətlə yetirmişlər. Şamaxı şəhəri, onun kənd və obalarından didərgin, qaçqın düşənlərin sayı isə 18 min nəfərdən çox olmuşdur.

Mənbələrdə bu qırğın zamanı Şamaxı qəzasında 58 kəndin yerlə-yeksan edildiyi, yandırıldığı haqqında məlumat verilir. Yəqin etmişik ki, həmin siyahıya faciə törədilmiş bəzi kənd və obaların adı düşməmişdir. Həmin kənd və obaları da

---

[45] V.Arzumanlı, N.Mustafa. Göstərilən əsəri, səh. 91.
[46] V.Quliyev.Göstərilən əsəri. səh.27.
[47] Салех бек. Армянстого. Баку, 1994, стр. 329.
[48] Soyqırımı. Xalq qəzeti, Bakı. 27 mart, 2001.

siyahıya daxil edəndə məlum olur ki, 1918-ci il soyqırımı zamanı Şamaxı qəzasının 90-a yaxın, rayonun isə 40-dan artıq kənd və obası faciəyə məruz qalmışdır.

## III FƏSİL

## ŞAMAXI ERMƏNİ TERRORUNDAN AZAD OLUNDU

Şamaxı, Ağsu, Göyçay əraziləri bolşevik-daşnak ordusunun əlinə keçəndən sonra S.Şaumyan və onun əlaltıları - S.Lalayev və A.Əmiryan 20-25 mindən artıq çoxsu da erməni cəlladlarından təşkil olunmuş ordunun Gəncəyə hücum planını hazırlayırdılar.

Beləliklə, Azərbaycan ərazisinin çox hissəsi günü-gündən erməni-daşnak ordusu tərəfindən işğal edilməyə başlandı. Nəticədə əhali qətlə yetirilir, kəndlər, şəhərlər xarablıqlara çevrilir, xalqın maddi-mədəniyyət abidələri yer üzündən silinir, əhali qaçqın-köçkün vəziyyətinə düşür, bir sözlə, ölkə qan içində üzürdü.

Azərbaycanlılara kömək etmək, xalqı qandan-qadadan, daşnak-bolşevik zülmündən xilas etmək, bu bəladan, faciədən qurtarmaq üçün Türkiyə hökumətinin hərbi naziri Ənvər Paşa Qafqaz İslam Ordusu yaradılmasını məsləhət bilir. Odur ki, ilk öncə ögey qardaşı general Nuru Paşanı təlimatlandırır. Bundan sonra o, Qafqaz İslam Ordusunun məqsəd və vəzifələri haqqında məsləkdaşlarına izahat verir. Bu müqəddəs təşəbbüs nazirin məsləkdaşları tərəfindən alqışlanır.


Ənvər Paşa

"Ənvər Paşanın əsas məqsədi Türkiyə nizami qoşunlarının köməyi ilə Təbrizdən Dağıstana, Tehrandan Türkistana qədər olan bütün əraziləri nəzarət altına almaq, onları yadelli işğalçıların əlindən qoparmaq, imkan daxilində bu yerlərdə milli hökumətlərin yaradılması üçün ictimai-siyasi zəminə nail olmadıqdan ibarət idi".

Odur ki, Nuru Paşa 1918-ci il aprel ayının 8-də öz ordusu ilə Azərbaycana yola düşür və may ayının 25-də Gəncəyə çatır, fəaliyyətə başlayır. Bir neçə gün sonra, yəni, 1918-ci ilin may ayının 28-də Azərbaycan Demokratik Cümhuriyyəti öz müstəqilliyini elan edir. Cümhuriyyətin təşkil etdiyi Milli Məclisdə Məmməd Əmin Rəsulzadə sədr seçilir. Hökumətin ilk Baş naziri Fətəli xan Xoyski (səkkiz nəfər nazir təyin olunmuşdur) olur".[49]

Bu zaman Azərbaycanın bir çox bölgələri kimi Bakı da S.Şaumyanın tərəfdarlarının əlində olduğu üçün paytaxt Gəncə şəhəri seçilmişdir.

1950-ci il aprel ayının 28-də M.Ə.Rəsulzadə Atatürk Xalq evində oxuduğu məruzədə həmin illəri xatırlayaraq deyirdi: "Cümhuriyyət qurulan zaman silahlı

[49] V. Arzumanlı. Qafqaz İslam Ordusu və Azərbaycanın erməni-rus işğalından təmizlənməsi, "Elturan" jurnalı. Bakı, 1999. N 1-2, səh.9.

rus qüvvələrinə arxalanan bolşeviklər Azərbaycanın paytaxtı Bakını zəbt etdilər, türk-müsəlman əhalisini qırğına verdilər və Gəncədəki Milli Azərbaycan qüvvələrini də hədələməyə başladılar. Bu təhlükə qarşısında 1918-ci il 4 iyunda Batumda o zamankı Osmanlı hökuməti nümayəndələri ilə bir müqavilə imzalandı və bu müqaviləyə görə, türk ordusu azərbaycanlı qardaşlarının köməyinə gəldi və 1918-ci ilin 15 sentyabrında birləşmiş qüvəllər Bakını qəsbkar əllərdən xilas etdilər”.[50]

Gəncədə və Gəncə yaxınlığında mövqe tutmuş düşmən ünsürləri susdurduqdan sonra Qafqaz İslam Ordusu Şərqə doğru hərəkət etməyə başladı. Ən böyük və ağır döyüşlərdən biri Göyçayda oldu. Artıq bu zaman “Şimal yolu ilə Göyçay qəsəbəsinə yaxınlaşan bolşevik rus və erməni qüvvələri keçdikləri erməni yaşayış məntəqələrindən canlı qüvvə və təminat toplayaraq 28-30 minlik orduya çevrilmişdilər”.[51]

Nuru Paşanın rəhbərlik etdiyi Qafqaz İslam Ordusu bu döyüşdə bolşevik-daşnak hissəsinin burnunu ovdu və Bakı səmtə yol aldı. Belə bir qələbədən sonra erməni terrorçularının zülmündən cana doymuş Azərbaycan xalqının igid övladları, könüllü dəstələr nizami orduya daxil olmağa başladılar.

Nuru Paşanın ordusuna könüllü qoşulanlar arasında erməni qatillərindən həmyerlilərinin intiqamını almağa hər cür, hər vaxt hazır olan şamaxılılar da var idi. “Şamaxıda cavanlardan ibarət təşkil etdiyi dəstəyə gecəli-gündüzlü təlim keçən Osman Əfəndi az bir zamanda onlardan sərrast atıcılar yetişdirməyə müvəffəş olmuşdu. Bu dəstə ermənilərlə aparılan döyüşlərdə ermənilərin bir çox hücumlarının qarşısını ala bilmişdi. Osman Əfəndi Göyçaya gəldiyi iki günün içərisində orduya 60 nəfər könüllü cəlb etmişdi. Göyçaya varid olan müzəffər türk-osmanlı ordusunun tərkibinə qatıla bilmələri üçün hazırlanmışdı.

Qafqaz İslam Ordusunun zərbi-dəstinə davam gətirə bilməyən 25-30 mindən artıq olan bolşevik-daşnak ordusu geri çəkilməyə başladı. Kürdəmir, Ağsu azad edildi. İşin dəhşəti onda idi ki, yağı düşmən geri çəkildikdə daha çox və dəhşətli faciələr törədirdilər, yaşayış məntəqələrində adda-budda salamat qalmış tikililəri yandırır, heç kimə, heç nəyə rəhm etmirdilər.

Məğlubiyyətlərindən daha da vəhşiləşən erməni-daşnakları təsadüfən rast gəldikləri azərbaycanlılara ağlasığmaz işgəncələr verir, sonra da yerindəcə güllələyirdilər.

Müzəffər Nuru Paşa ordusu iyul ayının 20-də Şamaxını azad etdi. Təxminən, dörd ay ərzində Şamaxı şəhəri yerlə-yeksan olmuş, şəhərin quruca adı qalmışdı. Erməni daşnaklarının ayağı dəydiyi müsəlman kəndləri isə tamamilə yox edilmişdi. Şəhər azad edildikdən sonra müxtəlif yerlərdə gizlənmiş insanlar türk ordusunun pişvazına çıxırdılar.

---

[50] M.Ə.Rəsulzadə - Əsrimizin Siyavuşu. B. 1991, s. 90.
[51] Birinci Dünya müharibəsində Osmanlı Ordusunun Qafqaz hərəkatı. Bakı 1998, səh. 25.

Uzun bir müddət qorxu, həyəcan, aclıq, səfalət içində yaşamış bu insanların üzündə kiçik də olsa ümid, sevinc işığı sezilirdi.

Mənbələrdən: “Türk ordusu Şamaxıya, demək olar ki, küçələrdə, həyətlərdə yüzlərlə yandırılmış, tüstüsü göyə qalxmış mülklərin, binaların, evlərin və dalanların, eləcə də, içərisində, kömürə-külə dönmüş, vaxtın istisinin təsirindən, şişib dağılmış, çürüməkdə olan çoxlu insan cəsədləri ilə dolu olan vaxtda gəlib çıxmışdı. Yandırılmış binaların alovu artıq sönmüş olsa da, əmələ gəlmiş xarabalıqlardan həm də yüksələn tüstünün və kül tozlarının təsirindən nəfəs almaq çətinləşirdi”.[52]

Hacı Musa Tağı oğlunun yaddaşından: “Bizim evimiz Sarıtorpaq məhəlləsində idi. Bu məhəllədə varlı-karlı insanların, kübarların imarətləri daha çox idi. Şəhər azad ediləndən üç gün sonra evimizə qayıtdıq. Şəhər xarabazar idi. Türk əsgərləri şəhərə daxil olanda hamımız onlara baş endirdik. Mən 1902-ci il zəlzələsini də görmüşdüm. Ermənilərin şəhərdə törətdikləri fəlakət zəlzələdən də betər idi. Evimizdən, qonşuların mülklərindən əsər-əlamət qalmamışdı. Yay olduğu üçün ətrafı iy, qoxu bürümüşdü. Əslində isə bir dənə də olsun bütöv cəsəd yox idi. İtlərin, siçovluların, tülkülərin paraladığı meyitlər dəhşətli görkəmə düşmüşdü. Şamaxıya qayıdan insanlar fəryad edə-edə ilk əvvəl məhəllədəki insan cəsədlərini, eləcə də, cəsədlərdən ayrı düşmüş bədən üzvlərini - qol, baş, qıç, əl-ayaqları toplamağa başladılar. Bir neçə gün içində yüzlərlə insan cəsədləri toplanıb dəfn edildi. Çoxsu da məscidinin həyəti və Şamaxının Qəriblər qəbrisitanlığında. Bundan əlavə, insan cəsədlərinin, külü məscidlərdə də basdırılırdı. Bu işlərin icrası zamanı türk əsgərləri də fəal iştirak edirdilər. Belə vaxtlarda bizim hansı hissləri keçirdiyimizi söyləmək o qədər də asan deyildi. Ürəyi gedən, ağlamaqdan göz yaşı quruyan, ah-fəryaddan səsi batan insanlar yüzlərlə idi. Demək olar ki, 1919-cu ilin qışına kimi şəhər hələ yaxşı təmizlənməmişdi. Azərbaycanın müxtəlif ərazilərinə didərgin düşmüş şamaxılılar yavaş-yavaş şəhərə qayıtmağa başladılar. Mən qonşumuz Ağamirzənin ailəsinin şəhərə qayıtmasının şahidi olmuşam. Bizdən iki tin, o biri tərəf “İmamlı”da yaşayırdılar. Ağamirzənin evi tam uçmuşdur. Bir oğlunu ermənilər öldürmüşdülər. Onun qırxa yaxın yaşı olardı. Anası Püstə nənə də sağ idi. Həyətə çatdılar. Ailə yerindəcə donmuşdu. Ana, Ağamirzə ilə yoldaşı Güllü və oğlanları Niyaz, Nuru evin uçmayan divarına söykənib ağlamağa başladılar.

Ağamirzə arvadı Güllü ilə evin xarabalığına cumdular. Bir saata yaxın yanmış daş-torpağı ələk-vələk elədilər. Ən nəhayət, Ağamirzənin dəhşətli səsi hamımızı diksindirdi. O, atası İmamlı məscidinin mollası Məşədi Əsədin yanıb-kösəvə dönmüş cəsədini daşların arasında tapa bilmişdi. Ağamirzə cavan olduğu üçün atam onu güclə kənara çəkdi, anam Güllünü və uşaqları alaçığımıza gətirdi.

[52] S.Ələsgərova, İ.Məmmədli. Şəhid türk zabiti məzan, “Vışka” qəzeti, 21.VI.2000.

Özü geri qayıdıb qonşumuz Paşa və Soltan dayı ilə işə başladılar. Molla Əsədin yanmış sümüklərini bir parçanın arasına yığdılar. Sonra aparıb qəbiristanlıqda dəfn etdilər. Dünyalar yola salmış Püstə nənə ömür-gün yoldaşının belə vəziyyətə düşməsinə, alışıb yanırdı. 80 yaşlı ağbirçək nə edəcəyini bilmirdi. Çarə bir göz yaşına, bir də zəif səslə söylədiyi ağılara qalmışdı. Özü də çarəsiz qadın yanmış evlərinin salamat qalmış hər daşını öpə-öpə söyləyirdi bu ağıları:

Mən aşıq qannıları,
Qan tutsun qannıları,
Qudurmuş it olaram,
Tutaram canlıları.

Pirtirəki dağımdı,
Qoynu qəm oylağımdı,
Yaş tökər leysan kimi
Deyər, yaman çağımdı.

Mən aşiqəm belə yaz,
Belə oxu, belə yaz,
Məni evimdən etdin
Gəlmiyəydin belə, yaz.

Taleyləri bir-birinə oxşar olan qonşular səsə yığılıb dərdlərini göz yaşlarına qata-qata şivən qopardılar".[53]

Şahidlərin dediklərindən: "Şamaxı kəndlərinin birində qadınlar ağasaqqal ruhaninin - kəndin mollasının himayəsinə sığınırlar ki, ermənilər ixtiyar yaşlı ruhaniyə hörmət edib, onlara dəyməzlər. Bu ümidlə ruhani qocanın olduğu yerə pənah gətirirlər. Lakin qaniçən, quduzlaşmış ermənilər, insanların gözü qabağında ruhaninin gözlərini oyur, qulaqlarını kəsir, dərisini soyur, başını bədənindən ayırır, ona pənah gətirən qadın və uşaqların hamısını rəhmsizliklə qətlə yetirirlər". (Umud İsrafilov).

"Şəhərdən çıxa bilməyən qoca, qadın və uşaqları bir yerə yığan ermənilər, müqəddəs kitabı - "Quranı" yandırmağı onlara əmr edirlər. Amma heç kəs bu işi görməyə cürət etmir. Bundan qəzəblənən erməni terrorçuları, qaynar samovarı qadın və qocaların kürəyinə sarıyırlar. İnsanların kürəyinin cızdağı çıxır. Cəzaya tab gətirməyən insanlar atılıb düşdükcə qaynar su onların bütün bədənini bişirir. "Quran"ı yandırmayan yerdə qalan insanları isə süngüdən keçirir, güllələyir, sonra "Quran"la birlikdə odda yandırırlar". (Bayram Alıxan bəy oğlu).

[53] Xatirə. Ə.Cəfərzadənin arxivindədir. - S.Q.

Bəxtiyar Məhəmmədtağı oğlunun dediklərindən: “Atam Məhəmmədtağı Udulu Üşüdü İbadla kol-kosların, yanmış daşların, külə qarışıq tozun-torpağın arasından tapdıqları yarıyanmış, yarıcırılmış kitabları, ətrafa səpələnmiş “Quran” vərəqlərini və fotoşəkilləri çantasına qoyduqdan sonra, qərarlaşdırdıqları kimi, Şamaxının həmin “İmamlı” məhləsindəki ən böyük camesi sayılan, ermənilər tərəfindən yandırılıb, Cümə məscidinə gəlib baxmalı idilər.



Bu məqsədlə onlar Qocamalıbəyovların xarabalığa dönmüş mülklərinin - imarətlərinin çox böyük bağlı-bağatlı həyətindən çıxmağa hazırlaşdıqdan sonra atları bağladıqları yerdən açıb yedəklərində apardıqları zaman, qəfildən, ani olaraq onların və atların ayaqları altında, çox iri, təxminən, pişik böyüklüyündə olan siçovulların zirzəminin divarının həyətə açılan deşiyindən bir-birinin ardınca çıxaraq, sürətlə qaçmalarını görəndə, onların çıxardıqları çox iyrənc səsləri eşidəndə, hər ikisi birdən diksinir, atları isə bərk ürkürlər.

Üşüdü İbad cəld hərəkətlə siçovul dəstəsinin ardınca atəş açır və onların bir neçəsini vura bilir.

Bu dəhşətli, ətürpədici mənzərənin şahidi olan atam və Üşüdü İbad özlərinə gələndə ürkmüş atları tutub, bağladıqdan sonra, divarında həyətə açılan deşik olan zirzəmiyə baxmaq fikrinə düşürlər. Üşüdü İbad zirzəminin yeni yaranmış qapısını təpiklə vurub sındırır. Qaranlıq zirzəmidə, əmələ gəlmiş dəlmə-deşiklərdən, müxtəlif istiqamətdən düşən şüaların zəif işığı altında, onlar başları kəsilmiş, didilib-dağılmış iki meyit görürlər. Siçovulların hansı səbəbdən belə iri olmaları onlara aydın olur”.

Məşədi Hüseynqulu Əmrah oğlunun yaddaşından: “Şamaxı məhəllələrində ondan artıq məscid var idi. Şəhər azad ediləndən bir az sonra Şamaxıya - xaraba və hüzn içində olan bir diyara qayıtdıq. Yanmış daş, divar iyi, meyitlərin iyinə qarışmışdı. Məscidlər yandırılmışdı. “Cümə” məscidi yansa da, nisbətən salamat qala bilmişdi. Məscidin içində bir aya yaxın iş getdi. Məscidin içindəki külün arasından tamamilə kösövə dönmüş insan sümükləri, yanmış paltar, palaz, papaq parçaları, saç çəngələri çıxırdı. Ağsaqqaların məsləhəti ilə bütün məscidlərin içində olan külləri yığıb dəfn etdilər. Doğmalarını tapmayan insanlar o “kül qəbrləri” ziyarətgah bilirdilər. Özü də uzun illər Cümə günlərində hamı o kül qəbrlərin yanında dayanıb ağı deyən, ağlayan övlad, qardaş, ata dağlı o qədər insanlar tanıyırdım ki, Molla Nərgiz, Məşədi Suğra, Kərbəlayi Tubu, Dadaş Məşədi Əli oğlu, Misirxan Nəsirxan oğlu, Qulu Məşədi Alı oğlu, Cənnət Məşədi Soltan qızı, Tükəzban Molla İsmayıl qızı, Yetər, Fərrux Hacı Nağı qızı, Məşədi Xeyri Məşədi Usub qızı”.

* * *

Nuru Paşa igidlərinin ermənilərlə ən ağır döyüşlərindən biri də Şamaxı və Mərəzə əraziləri arasında Acıdərə adlı yerdə baş vermişdi. Bu ağır döyüşdə düşmənin böyük bir qismi məhv edildiyi kimi, Şamaxı könüllüləri və müzəffər türk əsgərlərindən də xeyli döyüşçü şəhid olmuşdur. Həmin ərazidə həlak olanlar arasında bir türk zabiti də vardı. Şəhidin məzarı düz 84 ildir ki, şamaxılılar tərəfindən ziyarət olunur.

Bu məzar Şamaxı - Bakı şosse yolunun kənarında Acıdərə adlı bir yerdə iki dərənin qovuşuğunda kiçik bir təpənin üstündə yerləşir. Şəhid, şəhid olduğu yerdə dəfn olunmalıdır, - adətinə əsasən türk zabiti öldüyü yerdə dəfn edilmişdir. “Üzərində əhəng daşından sənduqə formalı abidə qoyulmuş (1,25x0,155x0,37 metr) tək bir məzar vardır. Sənduqənin ayaq tərəfrində “Allah, Məhəmməd”, baş tərəfində ay-ulduz, nəsx xəttilə ərəbcə, azərbaycanca, türkcə kitabələr həkk olunmuşdur:

Bir türk oğlu qəhrəmanındır bu məzar,
Gör necə yer ilə yeksan eyləmişdim xazikar.
Qafqaz islam yolunda eyləyib zinhar canın,
Ərseyi-hərb içrə bir əslanındır bu məzar!


Şəhid türk zabitinin - İzzət Əfəndinin məzarı (1990)


Şəhid türk zabiti - İzzət Əfəndinin məzarı (2000)

Bu qəbir osmanlı alayı qoşunlarından olan zabitin qəbridir. Qafqaza gəldi, müharibə etdi və şəhid oldu. 1336 (1918)-ci ildə şərəfli şəhadətli daddı, ilqarını seçdi.

“Xoda rebbim benim haqqa. Mehemmeddir Resulallah”[54].

Qəbrin üzərində türk zabitinin adı, soyadı yazılmayıb. Uzun illər bu məzarda dəfn olunan şəhidin adının Qədir Əfəndi olduğu söyləmiş və yazmışlar. Müəlliflər şəhidin adının Qədir əfəndi olduğunu hansı sənədə əsasən söylədiklərini və yazdıqlarını göstərməmişlər.

Son tədqiqatlarda həmin vuruşlarda həlak olan zabitin adının İzzət Əfəndi olduğunu göstərirlər. Bu barədə Bakı Ali Birləşmiş Komandirlər Məktəbinin 1998-ci ildə “Göytürk” mətbəəsində çap etdirdiyi “I Dünya Müharibəsində Osmanlı ordusunun Qafqaz hərəkatı, Azərbaycan Milli Ordusunun yaradılması və Azərbaycanın istiqlalının qazanılması” adlı kitabçanın 31-ci səhifəsində oxuyuruq: “Döyüşlər 20 iyul gecəsi

[54] M.Nemət. “Azərbaycanda pirlər”. Bakı, 1992, səh. 84.

də davam etdi. Türk birləşmələrinin şiddətli hücumu nəticəsində bolşeviklərin Şamaxı müdafiəsi dağılmış və qələbə türk birləşmələrinin əlinə keçmişdir. Türk birləşmələrinin təqibi ilə Mərəzə istiqamətinə geri çəkilən düşmən 21 iyuldakı döyüşdən sonra buradan da çıxarıldı və Bakıya doğru qaçmağa başladı. Bu döyüşdə 28-ci tabur komandiri mayor İzzət Əfəndi şəhid oldu. (Seçmələr bizimdir – S.Q.).

Heybət Şikarovun dediklərindən: "Əgər, türk əsgərləri bir az da gec gəlsə idi, demək olar ki, Azərbaycan həm də Şamaxı bütövlükdə erməni cəlladlarının əlinə keçəcəkdir. Rəhmətlik atam həmin faciələrin hamısını öz gözləri ilə görmüşdür. Əsrlərin şahidi, qədim mədəniyyət mərkəzi olan Şamaxının talan edilməsi, yüzlərlə qədim tarixi abidələrin – məscid, hamam, mədrəsə, eləcə də xan, bəy və tacirlərin bənzərsiz, qədim Şərq üslubunda tikilən mülklərinin yerlə-yeksan olunmasının, yandırılmasının canlı şahidi olmuşdur. Dini bayramlar olanda atam Qədir Əfəndinin ruhuna "Yasin" oxutdurardı. Bununla yanaşı, türk şəhidinin məzarının üzərinə ilk dəfə daş saldırmış Məlikməmməd Məlik oğlu Tağıyevin də adını hörmətlə çəkər və ona rəhmət diləyərdi. Atam deyərdi ki, o kişi öz canı bahasına türk zabitinin adını əbədiləşdirdi. Belə ki, Məlikməmməd 30-cu illərdə Şamaxıda yüksək vəzifəli ermənilərin yuxarılara verdikləri donoslar əsasənda 30-cu ildə qardaşı və iki oğlu ilə həbs edildi. Sonralar bəlli oldu ki, 1937-ci ilin ortalarında Məlikməmməd Şamaxıda Dövlət Təhlükəsizlik İdarəsində işləyən Qavriloviç adlı erməninin göstərişi ilə "türkçülüyü yaymaq və müdafiə etmək" üstündə ikinci dəfə həbs edildi və o "xalq düşməni" adı ilə də güllələndi.[55]

İllər keçdikcə, güclü yağışlar zamanı dağlardan axan sellər həmin təpəni yavaş-yavaş ovurdu. Məzar təhlükə qarşısında idi. Bu təhlükəni görən Babaxan Qara oğlu heç nəyi fikriləşmədən qolunu çırmalayıb işə başladı.

Haşiyə: Babaxan Qara oğlu Rzaxanov, 1928-ci ildə Şamaxı rayonunun Qaracüzlü kəndində anadan olub. Ailələri ilə Bakıya köçüb Razin (Bakıxanov) qəsəbəsində yaşayıblar. Babaxan Suraxanıdakı qarajda sürücü işləmişdir. "O zaman "ZSL"-i varmış. Qırmızı rəngli "Zil" ancaq Babaxanda idi. "Əhməd haradadır" filmindəki Əhmədin "Zil"i onun olub".[56]

Gülnaz Babaxan qızının dediklərindən: "Atam 1954-cü ildə qəbri abadlaşdırmağı qərara alır. Bunun üçün fəhlə, usta tutmaq istəyir. Çoxları hökumətin qorxusundan razılıq vermir. Ən nəhayət, Kazım Süleymanov, Teymur Haqverdiyev, Əliheydər Xasayev işə başlayırlar. Onlar qəbrin ətrafını daşla hörür, dəmir çərçivəyə alırlar. Atam şəhərdən savadlı molla gətirir. Qəbir daşının üstündə olan yazının pozulanlarını da bərpa etdirir. Bu iş hüquq mühafizə orqanlarına çatdırılır. Vəzifədə olan ermənilərin şeytanlığı ilə atam müxtəlif təzyiqlərə məruz qalır. Sorğuya tutulur. Ondan düzəltdiklərini sökməyi tələb edirlər. Atam isə, həbs

---

[55] H.Şikarovun xatirəsi bizdədir – S.Q.

[56] "Hər gün" qəzeti. 1998. 4.IX. Məzar Qədir Əfəndinindir.




olunmağına razı olur, ziyarətgaha əl vurulmağına yox. Bu ara Türkiyə dövləti ilə SSRİ arasında yaranan yaxşı münasibət atamı bəladan xilas edir. Biz hər il mart ayında atamla Şamaxıya gedər, şəhid türk məzarını ziyarət edər, üstünə tər çiçəklər düzərdik. O da yadımdadır ki, atam bizi orada qoyub, Şamaxıya molla dalınca gedərdi. Gətirdiyi mollaya Qədir Əfəndinin ruhuna “Yasin” oxutdurardı.

Atam 1994-cü ildə dünyasını dəyişdi. Vəsiyyətlərinin biri də “şəhid türk məzarına ziyarətə getməyi unutmayın”, - oldu. Ta bu günə kimi atamın vəsiyyətinə əməl edirik”.

Azərbaycan soyqırımının 75 illiyi münasibətilə 1993-cü ildə məzarın yanında Şamaxı yanında Şamaxı və Qobustan rayonları rəhbərliyinin və ziyalıların məsləhəti ilə Türk məzarı yanında mitinq təşkil edilmişdir. Mitinqdə Türkiyənin ölkəmizdəki sabiq Altan Karamanoğlu, səfirliyin işçiləri və səfirin atası da iştirak etdi. Belə qərara aldılar ki, həmyerlimiz, bacarıqlı memar Cəfər Qiyasinin hazırladığı layihə əsasında türk qəbrinin ətrafında məqbərə ucaldılsın. Bu məqsədlə Qobustan rayon bankında 712 saylı hesab açıldı, imkanlı adamların xeyirxah işə kömək etmələri arzu edildi.

Çox əfsus ki, istedadlı memar Cəfər Qiyasinin yaratdığı abidə elə kağız üzərində qaldı. Amma 2000-ci ildə Qobustan Rayon icra Hakimiyyətinin səyi ilə türk zabitinin qəbri təmir edildi və məzardan 30 metr kənarda, şosse yolunun üstündə 1918-ci ildə döyüşlərdə həlak olmuş insanların adına abidə kompleksi ucaldıldı.

* * *

Uzun zaman apardığımız elmi araşdırmalar nəticəsində Şamaxıda və eləcə də, onun kəndlərində qətlə yetirilmiş bir çox insanların adını və soyadını dəqiqləşdirə bilmişik. Şamaxıda qətlə yetirələnlər arasında yüzlərlə dövlət işçisi bəy, tacir, axund, əfəndi, molla, mirzə, müəllim, şair, memar, aşıq, xanəndə və başqa peşə, sənət sahibləri olmuşdur. Teymur Xudaverdiyev (şəhər qlavası), Hacı Cəfər Qulu Axundov, Hacı Baba Abbasov, Əşrəf Hacıyev, Hacı Əbdülxalıq Əhmədov, Hacı Əbdülhüseyn Zeynalov, (özünün üç qardaşı ilə) Hacı İsrafil Məmmədov, Mir İbrahim Qasımov, Eyyub Ağa Veyisov, Zeynəb xanım Veyisova, Əli Abbas bəy İbrahimbəyov, Ələkbər Qədirbəyov, Əbdürrəhim Ağa Ağalarov, Məhyəddin Əfəndizadə, Zəkəriyyə Əfəndi, Mehdi Xəlil oğlu, Ziyyəddin Abdullayev, Hacı Molla Həsən Zeynalov və arvadı, Mahmud Hacıağa oğlu arvadı və oğlu ilə Vahab bəy, İsrafil bəy, Mecid bəy, Məlik bəy, Xaspolad bəy, Nağı bəy, Tağı bəy, Soltan bəy, Mürşüd bəy, Hacı Murad, Hacı Musa Hacı Dadaş oğlu, Kərbəlayi Misir Hacı Namaz oğlu, Hacı Bağı Kərbəlayi Mirzəxan oğlu, Hacı Nurməmməd Hacı Axund oğlu, Mirzə Aslan Kərbəlayi Ağasəfoğlu, Axund Mecid Hacı Salman oğlu, Axund Zülfüqar Molla Məhəmməd oğlu, Molla Mirbaba, Mirzə

Ramazan Molla İbrahim oğlu, Mirzə Həsən Kərbəlayi Əlabbas oğlu, Mirzə Qəşəm Molla Şahbala oğlu, Nakam Əli Şirvani, Mirzə Məhəmməd Şirvani, Məşədi Vəlican Hacı Abbasqulu oğlu Şirvani, Şıxbaba Şirvani, Tərrah Məşədi Məhəmməd, Aşıq Musa, Aşıq İsmi Məmmədnəbi oğlu, Aşıq Soltanağa, Molla Nabat, Molla Nisə, Molla Fatma, Molla Nərgiz Ağa qızı, Mələk Məşədi Tahir qızı, Şair Xanım, Molla Əsbət, Molla Pərinaz Hacı Abbas qızı və yüzlərlə belə insanlar 1918-ci ilin soyqırımına məruz qalmış, müxtəlif işgəncələrlə qətlə yetirilmişlər.

Molla Tubunisə Molla Talıb qızı XIX əsrin II yarısında anadan olub. Təhsilini atasından alıb. Sonra o, İmamlı məhəlləsindəki Molla Çimnazın məktəbində oxumuşdur. Tubunisənin gözəl səsi olduğu kimi, yaxşı da təbi olmuşdur. O, on altı yaşında yaxın qohumu Səlim adlı kasıb bir gənclə həyat qurmuşdur. Onların beş övladı olmuşdur. Tubunisənin 23 yaşı olanda əri qazanc dalınca gedir. İtkin düşür. Ondan sonra çətinliklə beş uşağını saxlamağa başlayır. O, sevgilisinin ölümünə neçə-neçə şerlər yazmışdır:

Qırmacın ucu yaşıl,
Gün dəycək parıldaşır,
Sən öldün, mən də öldüm,
Qəbir mənə yaraşır.

Molla Tubunisə qoca atasının məsləhəti ilə qız məktəbi təşkil edir. Bir müddət məktəbdarlıqla məşğul olur. Sonra dini mərasimlərdə mərsiyələr oxuyur və ya mollalıqla məşğul olur. Erməni qırğını zamanı xəstə imiş. Böyük təkidlə uşaqlarını şəhərdən çıxara bilir. Özü isə, yol gedə bilməyəcəyini hiss edib, evində qalır. Fikirləşir ki, yaşı altmışı ötmüş qocaya yəqin ki, rəhm edərlər. Ermənilər Şamaxını oda qalaq edirlər. Tubunisə evdən çıxanda İmamlı məhəlləsini od içində görür. Qonşular bir-birinə dəyir. Hamı İmamlı məscidinə pənah aparır. Tubunisə də eləcə. Erməni cəlladları məscidi ağızınacan insanla dolu olduğunu görən kimi qapıları bağlayıb dörd tərəfdən binaya od vururlar. İçəridə diri-diri alışan insanların fəryadı ərşə bülənd olur. İnsanların tükürpərdici səsi Pirdiraki dağında əks-səda verir. Molla Tubunisə də məsciddə yandırılan insanların arasında olur.

Molla Tubunisənin əlyazmaları, atası molla Talıbdan qalan kitabları balaca evində yanıb məhv olur. 80-ci illərdə köhnə şamaxılıların yaddaşlarından Tubunisənin 10-12 şerini əldə edə bilmişik.

### Gəl

Qasid gedər olsan, qürbət ellərə,
Qəzyəli yarımdan xəbər gətir, gəl!
Bu naləni izah elə dağlara,
Tapar olsan, əhvalımı yetir, gəl.

***

Deginən yoldadır, sona bülbülün,
Yaqub timsallıdır halı müşkülün,
Gəlin otağında solubdur gülün,
Qebralı dərdimi azalt bitir, gəl!

***

Çatdır ki, beş balan qaman gündədir,
Ağır müsibətim hələ öndədir,
Bəlkə dada çatdı qüdrəti qadir,
Qəddim "dala" dönüb, günüm, ötür, gəl.

***

Gəl apar naməni Səlim itkinə,
Getdi, Tubunisəni qoydu pis günə,
Haray versin, mənim kimi miskinə,
Qoy yazım halımı beşcə sətir, gəl![57]

Məşədi Bikə Məşədi Bağı qızı – 1860-cı ildə Şamaxıda Sarıtorpaq məhəlləsində anadan olub. Atası Məşədi Bağı molla olmuşdur. Bikə yazıb-oxumağı atasından öyrənmiş, sonra Molla Pərinin ev məktəbində oxumuşdur. Dini biliklərə malik olduğu kimi, klassik poeziyaya da bələd olmuşdur. Deyilənə görə, ana nəsli S.Ə.Şirvaninin nəslindən olmuşdur. Gənc yaşlarından şer yazmağa başlamışdır. Mirzə Tağı Məşədi Ağa oğlu adlı bir ziyalıya ərə getmişdir. Ərinin razılığı ilə Məşədi Bikə evlərində, qonum-qonşunun qız uşaqlarına dərs vermişdir. Ermənilər şəhərə daxil olmamış övladları şəhərdən çıxmış, ər-arvad evdə qalmışdır. Lalayevin adamları tərəfindən qətlə yetirilmiş, bütün Sarıtorpaq məhəlləsi kimi, onların da evləri yandırılmışdır. Şair "İsmayıl Fitdağı deyərdi ki, Məşədi Bağı mənim ata qohumlarımdandır. Atam Məşədi Bikənin qətlindən çox danışardı, onun şeirlərindən bir çoxunu əzbərdən deyərdi".

## Sarıtorpaq məhəlləsi

Şamaxının anasıdır,
Sarıtorpaq məhəlləsi.
Şer-sənət yuvasıdır,
Sarıtorpaq məhəlləsi.

Sinədəftər yazarları,
Çeşid-çeşid bazarları,
Hər gələnə etibarı,

[57] Şirvanın 350 şairi, (top. Ə.Cəfərzadə, S.Qəniyev), Ünsiyyət, Bakı, 1997.

Sarıtorpaq məhəlləsi.

Şahlar, xanlar diyarıdır,
Şirvanın namus, arıdır,
Quş südü desən, varıdır,
Sarıtorpaq məhəlləsi.

Kimlər gəldi, kimlər getdi,
Bağında gül, nərgiz bitdi,
Zəlzələdə çoxu itdi,
Sarıtorpaq məhəlləsi.

Bikə burda boya çatdı,
Söz dedi, yazdı, yaratdı,
İlhamıma bir qanaddı,
Sarıtorpaq məhəlləsi.[58]

Aşıq Şıxmirhüseyn (Hüseyn) Əlihüseyn oğlu 1876-cı ildə Şamaxının Ağdərə kəndində anadan olub. Uşaqlıqdan gözəl səsə malik olan Şıxmirhüseyn atasının məsləhəti ilə Şamaxıya gəlir və burada təhsil alır. Əmisi onu Aşıq Sədrəddinin yanına aparır. O, tez bir zamanda aşıqlıq sənətinin sirlərinə yiyələnir. Əngəxaranlı Aşıq Sədrəddin ona, ustad "silləsi" vurandan sonra Şıxmirhüseyn el-oba məclislərinə sərbəst ayaq açır. Şirvan-Quba regionunda böyük ad-san qazanır. Deyilənə görə, o Xaçmaz kəndlərinin birində varlı ailədən olan Turac adlı bir qızı sevmiş, lakin qızın atası, kasıb aşıqla qohum olmağı adına sığışdırmamışdır. Sonralar, o, öz eşq macəraları əsasında "Aşıq Hüseyn və Rurac" adlı bir dastan bağlamışdır. Dastanın bəzi qoşmaları ustad aşıqların yaddaşından əldə etmişik.

1918-ci ildə erməni iğtişaşı başlamazdan bir az əvvəl aşıq yolunda qardaşıgildə yerləşir. Gecələrin birində "Şamaxı yolu"nda da ermənilər faciə törədirlər. Aşıq Şıxmirhüseyn də şəhid olur. Uşaq aşıqların yaddaşından onun şerlərindən nümunələr toplaya bilmişik:

Çağırram ürəkdən "lam" bir, "cim" iki,
Şövqlə gələndə, adı Mühəmməd.
Salavatlar gül camala, ya Rəsul,
Din islamın ilk ustadı, Mühəmməd.

Sidqini bağladı şahlar şahına,
Ona görə yetdi öz muradına,

[58] Məşədi Bikənin əldə etdiyimiz beş şeri arxivimizdədir – S.Q.

Səcdə qıldı, o, otuz cüz "Qurana",
Seçmədi, doğmadan yadı Mühəmməd.

Dayaq durdu o, zəlilə, möhtaca,
"Rəf-rəf" ilə qanaq açdı Meraca,
Hünərilə yetdi, o, taxtı-taca,
Hümbətinə yol aradı, Mühəmməd.

Aşıq Hüseynin qəlbi ataşlı,
Ürəyi qubarlı, gözləri yaşlı,
Çox cəfalar çəkdim, mən başıdaşlı,
Bilirəm ki, var imdadı, Mühəmməd.[59]

Ağəli bəy Əfəndizadə Naseh: - 1856-cı ildə Şamaxıda tacir ailəsində anadan olub. O, mədrəsə təhsili alıb, ərəb, fars dillərinə mükəmməl yiyələnmişdir.



Bununla yanaşı, şəhər rus məktəbində (годоской школа) oxumuşdur. Onun Şamaxı ziyalıları arasında xüsusi hörməti olmuşdur. O, M.Ə.Sabir, A.Səhhət, M.Tərrahın yaxın dostu və əmlakdaşı idi. Şamaxı şairlərinin şerlərinin toplanması və onların F.Köçərliyə çatdırılmasında A.Nasehin xüsusi xidmətləri olmuşdur. Bu barədə F.Köçərli "Azərbaycan ədəbiyyatı" kitabında yazır: "Xüsusən, Ağəli bəyin haqqı bizim boynumuzda artıq dərəcədədir ki, Şamaxı şüərasının tərcümeyi-hallarına dair bir çox məlumat bizə cəm edib göndərmişdir. Bu barədə ol cənaba, alimi-qəlbdən razılıq izhar edib, cənab həqdən ona, xoşbəxtlik tuli-ömür, mərhəmət olmasına təmənna edirik".[60]

Ağəli bəy Naseh 30 ilə yaxın Şamaxıda məhkəmədə çalışmışdır. Bu idarədə haqsızlıq edən rus, erməni çinovnikləri ilə dəfələrlə üz-üzə gəlmişdir. 1912-ci ildən sonra millətçi ermənipərəst Jukranskinin Şamaxıya qəza rəisi, Kolomentsevin isə hakim göndərilməsi Nasehi məyus etmişdir. Həmin şəxslər dövlət idarələrində olan azərbaycanlıları incidir, onları vəzifələrindən uzaqlaşdırmağa çalışırdılar. Xeyirxah, zilayı qədri bilən bələdiyyə rəisi Teymurağa Xudaverdiyev də işdən ilk çıxarılanlardan oldu. "Bu cür təqib edilənlərdən biri də Naseh idi. Kolomentsev 30 il məhkəmə idarəsində çalışan 60 yaşlı, saf qəlbli Nasehi cürbəcür yaramaz sözlərlə təhqir edir, qaçırmağa çalışırdı".[61]

A.Naseh vəzifəsindən çıxır, erməni-rus millətçilərinin gec-tez, 1905-1907-ci il hadisələrinin təkrar edəcəkləri barədə öz dostlarına məlumat verir və onları

[59] Aşiqin şerlərində Aşıq Baratın ifasından əldə etmişik – S.Q.
[60] F.Köçərli. Azərbaycan ədəbiyyatı, II cild Bakı, 1981, səh. 99.
[61] C.Cəbrayılbəyli. Xatirələrim. Bakı, 1966, səh. 121.

ehtiyatlı olmağa çağırırdı. Artıq şəhərdə ermənilərin fəallığı günü-gündən çoxalırdı. Onun ürəyi xəstə idi. Şəhərdə yayılan şayiələr onun halını daha da pisləşdirir. “5-6 gün ağır xəstə yatdı”. Nəhayət, ürəyi davam gətirmədi və altı baş xırda uşağın gözü yaşlı qoyub bizi həmişəlik tərk etdi”.[62]

Ərəb, fars, rus, türk dillərini mükəmməl bilən və bu dillərdə yüzlərlə şəxsi kitabı olan “şəhər kitabxanasına fond toplanarkən 150-dən artıq ən yaxşı kitabını bağışlayan, Şamaxı şairlərinin çoxunun əlyazmalarını özündə toplayan Nasehin evi də ermənilər tərəfindən yandırılmışdır. 30-40 il müddətində o, şamaxılı şairlərin əlyazmalarını toplayıb bir yerə cəm etmişdi. 1918-ci il faciəsi o əlyazmaları məhv etməklə neçə-neçə Şirvanı nisbəli şairlərin adını məhv etdi”. 1918-ci ilin hadisələri nəticəsində nəinki Nasehin, hətta Sabirin, Səhhətin də əsərlərinin mühüm qismi tələf olmuşdur. Tərrah və başqalarının əsərlərindən isə əsər-əlamət qalmamışdır”.[63]

Onun külliyyatı, evi məhv edilsə də, şerlərinin bir qismi bizə gəlib çatmışdır.

Varımdı sinəmdə dərdü qəmi-nihan, ölürəm,
Bu sirri eyləmədim kimsəyə bəyan, ölürəm.

Bacardığınca qəmi-eşqi gizlədim, axır,
Kəsildi  taqətü səbrü qərarı-can, ölürəm.

Səfayi-vəsldir aləmdə gərçi məqsudim,
Bəbayi-hicrin ilə bağrım oldu qan, ölürəm.

Açılmamış-gül idim gülşəni nəzakətdə,
Bahari-ömrümü eşq eylədi xəzan ölürəm.

Başım bənəfşə kimi qəm düzündə çox qaldım,
Vüsalın olmadı üstümdə sayəban, ölürəm.

Şikayət eyləmədim möhləti-fəraqından,
Zəlili xari diləfkari bizəban ölürəm.

Ümid idim çəkərəm dərdi-eşqi Naseh tək,
Qırıldı risteyi-ümmid nagəhan, ölürəm.

Mirzə Məmmədtağı Şirvani – 1870-ci ildə Şamaxı şəhərində anadan olmuşdur. Mədrəsə təhsili alıb, ərəb və fars dillərini öyrənmişdir. Şamaxıda ana dili və şəriət müəllimi işləmişdir. M.Ə.Sabir, A.Səhhət, Ə.Naseh, M.Hadi ilə yaxın

---

[62] C.Cəbrayılbəyli. Xatirələrim. Bakı, 1966, səh. 121.
[63] Yenə orada. səh. 118.

dost olmuş və onlarla şerləşmişdir. 1918-ci ildə evində ailəsi ilə birlikdə qətlə yetirilmişdir. Qalabaz məhəlləsində olan evi, bütün əlyazmaları, kitabları yandırılmışdır. Şairin 1902-ci il zəlzələsinə həsr etdiyi şerin bir parçası və bir neçə qəzəli bizlərə gəlib çatmışdır.

Təzədən şəhri-Şamaxı yenə viran oldu,
Dağılıb hər tərəfə xak ilə yeksan oldu.
Belə yer zəlzələsi bəlkə qiyamətə ola,
Heç görünübmü xəlayiq belə vəhşətdə ola.
Kərbəla vaqiyəsibəlkə bu babətdə ola,
Əsəri-Kərbübəla burda nümayən oldu.

Ağababa Məşədi Nurulla oğlu Sağəri. 1847-ci ildə İmamlı məhəlləsində tacir ailəsində anadan olmuşdur. Atası savadlı bir şəxs olmuş, ərəb-fars dillərini bilmişdir. Ticarətlə əlaqədar Şərq ölkələrinin bir çoxunda olmuşdur. Ağababa mollaxana və mədrəsə təhsili almış, 40-ilə yaxın Şamaxıda müəllimlik etmişdir. O, "Beytüs-səfa" məclisində də iştirak etmişdir. O, 1880-1882-ci illərdə İran, Ərəbistan, Orta Asiyanı gəzib səyahət etmişdir. Cağəri klassik üslubda əsərlər yazmışdır. Onun qəzəl və qəsidələrinin bir hissəsi günümüzə gəlib çatmışdır.

1918-ci il faciəsi zamanı ailəsi ilə Şamaxıdan Qarasuya qaçmışdır. Yolda xəstəliyə tutlan şair orada faciənin qurbanı olmuşdur.

Ey-şanə, türreyi-əfşanıma dəymə,
Canım çıxar, ol zülfü-pərişanıma dəymə.

Etmə günümü qaə mənim, zülf, həzər qıl,
Çin-çin tökülüb, ol məni-sabanıma dəymə.

Ey sürmə, həya eylə, günüm eyləmə tirə,
Çeşmi-siyahi-nərgizi-fəttammadəymə.

Cənnət qapısın bağlama sən aşiqi-zarə,
Ey badi-səba, caki-giribamma dəymə.

Qoy canım çıxsın, mənə rəhm eyləmə, cərrah,
Əl vurma mənə, nabəki-peykanıma dəymə.

Yıxma evini Sagərinin, bad, həzər qıl,
Hər ləhzə əsib sibi-zənəxdanəma dəymə!

Haşiyə: Qeyd etdiyimiz kimi, Şamaxı bu qırğında təkcə övladları, istedadlarını deyil, minlərlə sənət incilərini, əlyazmaları, sənədləri, qiraətxanalarında, məktəblərində, on üç məhəllə məscidində olan qədim əlyazmaları və dini kitablarını itirməklə, neçə-neçə şair-alim və filosofundan da əlini üzdü, onlar haqqında deyiləsi söz qalmadı. Bu itkini isə heç cür, heç vaxt bərp etmək mümkün deyildir.

On üç məhəllə məscidi əlyazmalarla birlikdə yerlə-yeksan oldu. Nisbətən salamat qalan təkcə Cümə məscidi oldu.

Şamaxı Cümə məscidi: şamaxı müxtəlif əsrlərin müxtəlif çağlarında bir çox müharibə, basqın və zəlzələlərə, 1918-ci ildə isə, daha dəhşətli fəlakətə məruz qalmışdır. Müharibə və zəlzələdən salamat çıxan bu memarlıq incisi də, etnik təmizləmə, azərbaycanlılara qarşı Səlib yürüşü və eləcə də, kütləvi qırğınlar törədən erməni daşnakları tərəfindən yerlə-yeksan edildi. Elə ixtişaş başlanan kimi Cümə məscidi Lalayevin malikanəsindən top atəşinə tutuldu. Allah evinə - bu məscidə pənah gətirənlərə, məscid qarışıq od vurdular.

Haşiyə: tarixçilər, arxeoloqlar Cümə məscidi haqqında çox yazmışlar. Alimlərin bir qrupu həmin məscidi Dərbənddə, Orta Asiyada olan məscidlərlə müqayisə edir və bunların xəlifə "Əbu-Müslümün hakimiyyəti dövrünə, yəni VIII əsrə[64] aid olduğunu göstərirlər. Başqa qrup alimlər isə ayrı fikir söyləyirlər. "Cümə məscidi, rəvayətə görə, hələ X əsrdə tikilib".[65]


Memar Zivərbəy Əhmədbəyov

XIX əsrdə və 1902-ci ildə baş verən zəlzələ bu dəyərli abidəni güclü təsir etmişdir. Nəhayət, Şamaxılı memar Zivərbəy Əhmədbəyov və mülki-mühəndis İ.K. Ploşko tərəfindən məscidin yenidən bərpa olunması üçün 1908-ci ildə layihə hazırlanmışdır. Bir müddət sonra məscid "qədim özülü üzərində yeni"dən tikilir. 1918-ci ildə ermənilər bu gözəl memarlıq abidəsini yenidən məhv edirlər. "Məscidin kitabxanasında olan iki minə yaxın əlyazma və dini kitabların külü insan külünə qarışır". Məscid yenidən bərpa olunsa da, divarlarında qalan yanmış daşlar 1918-ci ilin faciəsindən günümüzə çox söz deyir. Bizi ayıq-sayıq olmağa çağırır.

Abbas Səhhət - Başqa ziyalılar kimi, o da şəhərdə ermənilərin Lalayevin başına çox yığıldığının şahidi olurdu. Ziyalı dostlarına "kafirlərin oturuşundan-duruşundan 1905-ci ilin iyi gəlir," - deyirdi. "1917-ci il fevral inqilabından sonra A.Səhhətin bir sıra demokratik siyasi tədbirlərin həyata keçirilməsində fəal iştirakı, Şamaxılılar arasında apardığı kütləvi təşviqat işi, xüsusən milli ədavət

[64] Ş.Fətəliyev. Quberniya şəhəri. bakı, 1982, s. 427.
[65] Qobustan jurnalı. Bakı, 1982, №6, səh. 35.

hissini qızışdırmağa can atan fitnəkarlara qarşı açıq mübarizəsi mühafizəkarlar içində ona çoxlu düşmən qazandırmışdır. Şairi təqib etməyə, ölümlə qorxutmağa başlamışdılar, evində axtarış aparmış, təhqir etmiş və hədələmişlər”.[66]

O, dövrdə A.Səhhət Şamaxıdakı vəziyyəti, Aqabekyan kimi millətçilərin Şamaxıda etdikləri özbaşınalıqlar haqqında mətbuatda çıxış edir. Göstərir ki, bu yaxınlarda “müsəlmanlar silahlanır”, - deyə Tiflisdən əskəri qüvvə gətirib, “şəhəri əlli altı hissəyə bölüb, bir gündə müəyyən saatda qəflətən axtarış etsinlər. Hansı evdə silah və ərzaq, məkumat və məlbusat buldularsa, fövrən həzac etsinlər. Bunun da nəticəsi nə olduğu məlumdur. İştə, qara ürəkli provakatorların da istədiyi budur”.[67] Şəhərdə başlanan iğtişaşları hiss edən Səhhət Şamaxıdan uzaqlaşmağı qərara alır. Odur ki, “Şair mart ayında ailəsi ilə birlikdə yaxındakı Göylər kəndinə getmiş olur. Lakin səfər uzun çəkmir. Bir neçə gün sonra Göylərə gələn qardaşı Məhəmməd Rza xəbər gətirir ki, Şamaxıda nisbətən sakitlikdir. Arxayınlaşan şair ailəsi ilə birlikdə geri - şəhərə qayıdır”.[68]

Bilal Nuriyevin (1894-1995) xatirələrindən: “1918-cı ilin martında iyirmi iki yaşım vardı. Şer-sənət həvəskarı idim. Novruz bayramına hazırlaşırdıq. Xəbər gəldi ki, Abbas Səhhət kəndə gəlib. Özü də S.Ə.Şirvaninin yaxın dostu olmuş Hacı Nüsrəddinin qardaşı Hacı Məhyəddinin evinə düşüb. Mən də atamla Hacının evinə getdim. Kəndin savadlı şəxsləri Hacının evinə yığışmış - Səhhətin görüşünə gəlmişdi. Abbas Səhhət qara kostyum və əbada idi. Ağarmış saçları başına



qoyduğu qara papağın yanlarından çıxmışdı. Sifətinə yaraşan bığı vardı. Üz-gözündən dərd, niskil aydınca görünürdü. O, bir qədər ədəbiyyatdan, dindən danışandan sonra əsas mətləbə keçdi. Ermənilərin hiylələrindən, fitnələrindən söhbət saldı. Sonra camaata ehtiyatlı olmağı tövsiyyə etdi. On gün sonra Abbas Səhhət Şamaxıya qayıtdı”.

A.Səhhət Şamaxıya qayıdandan az sonra şəhər yenidən ermənilərin işğalına məruz qalır. “Bu dəfə həm A.Səhhətin, həm də qardaşının ailəsi qaçqınlara qoşularaq şəhərdən çıxır. A.Səhhətin var-yoxunu, o cümlədən, bütün əlyazmalarım, xüsusən, yaradıcılığının son dövrlərinə aid qeyri-mətbuat əsərlərini özü ilə aparmağa imkan tapmır”. Yarı yolda - Sığırlıya çatanda şair oğulluğa götürdüyü dayısı oğlunu Böyükağanı əlyazmalarını götürmək üçün Sığırlıdan Şamaxıya göndərir. Böyükağa Mehdizadə Şamaxının yaxınlığına qədər gedirsə də, şəhərə daxil ola bilməyib, geri qayıdır”.[69]

[66] K.Talıbzadə. “Abbas Səhhət”. Bakı., 1986, səh. 67.
[67] A.Səhhət. Əsərləri II c. Bakı, 1976, səh. 72.
[68] K.Talıbzadə Göstərilən əsəri. səh. 67.
[69] Yenə orada, səh. 61.

Bu zaman A.Səhhətin xəstəliyi daha da şiddətlənir. Şübhəsiz ki, evdə təkcə Səhhətin özünün deyil, dostu Sabirin ona əmanət etdiyi “qovluq”, həmkarlarının ona yazdıqları məktublar, göndərdiyi şəkillər, topladığı kitablar da məhv olmuşdur. “Böyük çətinliklə Gəncəyə gəlib çatan, “40 günə yaxın ac, müalicəsiz qalan şair, təxminən iyul ayının əvvəllərində yatalaq xəstəliyindən vəfat etdi “.[70]

Türklər Azərbaycanı erməni soyqırımından xilas edəndən sonra A.Səhhətin ailəsi Gəncədən Şamaxıya qayıdır. Xəstəliyə düçar olan ailə üzvlərindən əvvəl - anası Ruqiyyə Soltan və arvadı Soltan Nisə xəstəlikdən vəfat edirlər. Beləliklə, böyük şair, tərcüməçi, publisist Abbas Səhhət və ailəsi erməni daşnaklarının törətdiyi faciənin qurbanları olurlar.

Bəli, Şamaxıdan didərgin düşən on minlərlə ailənin çoxusunun aqibəti beləcə olmuşdur.

Şamaxı ağsaqqallarından Məhərrəm Kəlbəhüseyn oğlunun dediklərindən, habelə apardığımız araşdırmalar zamanı onu da dəqiqləşdirə bilmişik ki, 1918-ci il soyqırımı zamanı Şamaxıdan didərgin düşən insanların bir qrupu Azərbaycanın hüdudlarından kənarlara - Rusiya, Orta Asiya, İrana, Türkiyəyə pənah aparmış, köçmüşlər. Belə insanların çoxu da ziyalılar, tacirlər və kübar ailələr olmuşdur. Ən dəhşətlisi o olmuşdur ki, həmin şamaxılılar bir daha geri qayıtmamışlar. Vətəndən kənarda ömür sürmüş, əbədiyyətə qovuşmuşlar. Həmin şamaxılıların bir qrupunun ancaq adını, soyadını dəqiqləşdirə bilmişik; Hacı Bahab Ələkbərov, Mir İbrahim Qasımov, Hacı Musa Molla Nağı oğlu, Mirzə Nadir Məşədi Mahir oğlu, Əlibaba Əfəndi Molla Ağaxan oğlu, Hacı Molla Həsən Paşa oğlu, Mirzə Fətulla bəy Abdullah bəy oğlu, Rüstəmbəy Məşədi Mecid oğlu, Yadulla bəy Cabbar bəy oğlu, Hacı Soltan bəy Məşədi Həsən oğlu, Məşədi Mecid bəy Kərbəlayi Abdullah bəy oğlu, Münşin Ağa Məhəmməd Bəhayi oğlu (şair-tacir), Məşədi Mirzə Həbib (şair-həkim), Məşədi Əli Kərbəlayi Hüseynqulu oğlu Dərviş (dərviş-şair), Mirzə Qulu Ağasəməd oğlu Məctanə (müəllim-şair), Aşıq Xeyrulla, Mirzə Mahmud Yusif oğlu, Mirzə Tapdıq Ağamusa oğlu, Məşədi Dadaş Molla Ağakişi oğlu və başqaları: bir daha qayıtmadılar Şamaxıya. Oğul - uşaqları da qərib diyarlarda ömür sürdülər.


Məhərrəm Kəlbəhüseyn oğlu

Aşıq Barat Şirvanlının xatirələrindən. Ya 1974-cü, ya da 1975-ci ilin avqust ayı olardı. Bakıda avtovağzalda idim. Şamaxıya gəlirdim. Avtobusun yanında dayanmışdım. İki nəfər-bir kişi, bir qadın da avtobusun yanına gəldi. Avtobusun Şamaxıya getdiyini soruşub, maşına mindilər. Avtobusun getməyinə hələ qalmışdı. Bir azdan kişi avtobusdan düşüb mənim yanımda dayandı. Sonra mənim

[70] K.Talıbzadə. Göstərilən əsəri. səh.6

Şamaxının özündən olub-olmadığımı soruşdu. Şamaxıdan olduğumu bilib, özü haqqında məlumat verdi; Bizim ailəmiz 1918-ci il qırğınından sonra Şamaxıdan çıxmışdır. Atam, əmim tacir idilər. Qırğın zamanı ermənilər atamı, anamı və iki qardaşımı İmamzadə məscidində qətlə yetiriblər. Mən və bacım əmimgillə qaça bilmişik. Şamaxı azad olunandan sonra gəlib gördük ki, İmmalı məhəlləsində olan mülklərimiz yandırılıb. Camaat məsciddə yandırılanların külünü gətirib "Qəriblər" qəbiristanında dəfn edirlər. Əmim ailəsi ilə bizi də götürüb Cərco şəhərinə gəlir. Onda mənim 7-8, bacımın isə 5-6 yaşı olmuşdur. Cərcoda Şamaxılılar çoxdur. Biz orada yaşadıq, ailə qurduq. İndi yaşımız ötüb. Bacımla belə qərara gəldik ki, ata-baba yurdumuzu ziyarət edək. O dünyaya nakam getməyək. Kişi kövrəldi. Şamaxıya gəldik, onları evimə apardım. Kişinin adı Məşədi Abbas Məşədi Beydulla oğlu (1915-ci ildə atasıgillə Məşhədə gedib), qadının adı Gülsüm idi. Səhəri gün onları ilk əvvəl "İmmazadə"yə apardım. Hər ikisi məscidin həyətinə daxil olan kimi torpağı qucaqladılar. Ağlaya-ağlaya məscidin salamat qalmış yanıq daşlarını öpməyə, üzlərini sürtməyə başladılar. Yoldaşımla mən də özümüzü saxlaya bilmədik. Səsə qonşular da yığışdı. Məscidin torpağından bir parçaya yığıb götürdülər. Sonra Cümə məscidinə gəldik. Orada da eləcə İmamlı məhəlləsini xeyli gəzdik. Evlərinin yerini dəqiq müəyyənləşdirə bilməmişdilər. Bir neçə yaşlı insanlara müraciət etdik. Həmin adamlar Abbasın atası Məşədi Beydullanı və əmisi Məşədi Əmirullanın tacir olduqlarını xatırladılar. Amma övladlarını tanımadılar. O biri gün Qəriblər qəbiristanlığına getdik. Baba və nənələrinin qəbrini tanıya bilmədilər. Əmiləri Məşədi Əmirulla deyibmiş ki, (o, 1932-ci ildə vəfat edib) qəbiristanda olan pirin günbatan tərəfində dəfn ediliblər. Guya pirin ayağında da əmiləri bir neçə dini kitab da basdırıbmış (bəlkə də ayrı şey). İki gündən sonra qonaqlarımı yola saldım.

Haşiyə: Aşıq Barat Xiləli Aşıq Xeyrullanın 1918-ci il qırğınında erməni-malakanların camaatın başına gətirdiyi müsibəti özündə yaşadan bir şerin də bizə təqdim etmişdir.

## DÜŞÜB

Başı bəlalı millətim
Ömrü boyu qana düşüb.
Hər gələn ağalıq edib,
Gündə bir ziyana düşüb.
***
Neçə yol dara çəkilib,
Monqol gedib, əcəm gəlib,
Yurdumu tari-mar edib,
Gah bəyə, gah xana düşüb.
***

Yandırıb evlərimizi,
Xaxollar[71] kor qoyub bizi,
Neçə bədbəxt oğul-qızı,
Günahsız zindana düşüb.
***
Xeyrullayam Xilə elim,
Erməni eylədi zülüm,
Xalqım oldu para-bölüm,
Hərəmiz bir yana düşüb.

Məşədi Əli Kərbəlayi Hüseynqulu oğlu Dərviş (1871-1930). 1918-ci il faciəsi zamanı Şamaxıdan didərgin düşənlərdən biri də Məşədi Əli olmuşdur. Ərəb, fars dillərini mükəmməl bilmiş, mollaxanada dərs demişdir. Dərviş olmuşdur. Erməni soyqırımı zamanı Şamaxıdan qaçmış, əvvəl Qubaya, oradan Həştərxana, sonra Türkmənistana getmiş və Cərco şəhərində məskunlaşmışdır. Dərvişin bir neçə şeri məhrum alim Əhməd Cəfərradənin arxivində saxlanılır.

Gözucu baxdım ona, bil məstixumar elədi,
Darayıb tellərini bəh necə tumar elədi!

Elə nazı qəmzə satdı, qiyamət qopdu başımda,
Yıxdı binadan evim, büsbütün tar-mar elədi!

Çəkdi ox kirpiyini, o hədəf etdi, sinəmi,
Dedim ki, rəhm et ya rəb, qanımı bazar elədi.

Gəlişi çox xoş idi, gedişi od qoydu cana,
Etsə də məni Məcnun, qəlbim qırdı, xar elədi.

Getdi, yandı ciyərim, odlara qalandı canım,
Bu rüsva Dərvişi, eşqində giriftar elədi.

1918-ci il faciəsi zamanı didərgin düşmüş Şamaxılıların sorağı Dəmirqapı Dərbənd, Orta Asiya, İran və Türkiyədən gəlir. Qərib diyarda ömür sürənlər arasında olan ziyalılar Şamaxılı-Şirvanlı olduqları itib-batmasın deyə Şirvan sözünə sığındılar; Şirvani, Şirvanlı təxəllüsü ilə əsər yazdılar, şerlər düzdülər. Vətənə dönə bilməsələr də “Şirvanlı” sözünü övladlarına yadigar qoyub dünyalarını dəyişdilər.

[71] Malakanlar nəzərdə tutulur.

Qafqaz İslam Ordusu Şamaxını azad edəndən sonra Bakı uğrunda mübarizəyə başladı. Avqust ayında türk ordusu şəhəri mühasirəyə aldı. Bu zaman düşmən qüvvəllərinin - Şaumyanın tərəfdarlarının sayı xeyli güclənmişdi. Bakıda olan ingilis əsgərləri də erməni-bolşevik qüvvələrinin tərəfinə keçmişdilər. Odur ki, Nuru Paşa Qafqaz İslam Ordusunun Bakı Komissarının 5-ci Qafqaz Diviziyasına belə bir tapşırıq verdi: "Bakıda yerləşən ingilislər Azərbaycanın çox hissəsini ermənilərə verərək onların üstünlüyünü yaratmağa, istər Qafqaz, istərsə də Gürcüstan müstəqil hökumətinə hədə-qorxu gəlməyə çalışacaqlar. Bu vəziyyəti nəzərə alaraq, Bakıya hücum edilməli, ingilislər və erməni bolşevikləri şəhərdən çıxarılmalıdır".[72]

Düşmən qüvvələrinin gücünün artdığını görən Nuru Paşa "Azərbaycanda olan Osmanlı birləşmələrini möhkəmləndirmək və Azərbaycan Milli ordusunun təməlini qoymaq məqsədilə Azərbaycan korpusu təşkil etmək üçün 13 avqust 1918-ci ildə bir əmr verdi. Nuru Paşanın bu korpusu qurmaqda məqsədi osman birlikləri Azərbaycandan getdikdən sonra yaranacaq boşluğun bu korpus tərəfindən doldurulması və Azərbaycan Cümhuriyyətinin təhlükəsizliyinin qorunması idi".

Müzəffər Qafqaz İslam ordusunun uğurlu döyüşü nəticəsində sentyabr ayının 15-də Bakı şəhəri düşmənlərdən tamamilə azad olundu. Ordunun başçısı Azərbaycan Cümhuriyyətinə - Gəncəyə təbrik teleqramı göndərdi. Şübhəsiz ki, bu uğurlu döyüşdə Qafqaz İslam Ordusu da xeyli itki vermişdi". Avqust ayının əvvəllərindən başlayaraq, Bakı cəbhəsində olan 5-ci Qafqaz Diviziyasının 15 sentyabra qədər verdiyi itki isə 30-u zabit olmaqla, 1130-a yaxın idi. Bakı hücumunda azərbaycanlı dəstələrdən meydana gələn qarnizonun 11 şəhidi və 44 yaralısı vardır".[73]

"Bakının azad olunması mübarək bir gün olan Qurban bayramına təsadüf etmişdi. Azərbaycan türkləri ikiqat bayramı bir aləmdə yaşayırdı".[74]

Azərbaycanın erməni-bolşevik bəlasından xilas edilməsində qardaş türk xalqının qəhrəman döyüşçüləri ilə yanaşı Nuru Paşa, Musa Paşa İzzət Paşa, Cəlil Cahid bəy (Toydəmir bəy), Halım Perənev bəy, Mürik Paşa və Ənvər Paşanın misilsiz xidmətləri olmuşdur.

Bir sözlə, türk qardaşlarımız xalqımızı bu müdhiş bəladan böyük itkilər bahasına xilas etdikləri kimi, erməni terrorçularına da əməlli-başlı dərs verdilər. Amma S.Şaumyan və onun əlaltılarının təşkil etdiyi və qəsdən törətdiyi 1918-ci il soyqırımı nəticəsində Azərbaycan başdan-başa dağıdılmış, yandırılmış, xalqımızın əsrlərin sınaqlarından keçmiş yüzlərlə memarlıq abidələri, tariximizi, adət-ənənələrimizi özündə yaşadan qədim əlyazmalar, kitabələr, sənədlər bilərəkdən

---

[72] "Zaman" qəzeti, 16 may, 1998-ci il.
[73] Birinci Dünya Müharibəsində Osmanlı Ordusunun Qafqaz hərəkatı - Bakı, 1998, səh. 42.
[74] Yenə orada, səh. 51.

məhv edilmişdir. Odur ki, Fövqəladə İstintaq Komissiyası Şamaxıya dəymiş maddi ziyanın miqdarını, təxmini də olsa, müəyyən etmişdir. Belə ki, “hesablamalara görə, Şamaxının müsəlman əhalisinə dəyən ziyan bir milyard manatdan çox olmuşdur”. Amma Şamaxıya dəymiş mənəvi ziyanı isə heç cür dəqiqləşdirmək mümkün deyildir.

***

“Şamaxını darmadağın etmiş və yandırmış terrorçuların əsas ideyası: “öldürmək və qarət etmək, qarət etmək və öldürmək” olmuşdur. Şamaxı şəhərinə hücum, kütləvi dağıntılar və qətllər millətçi S.Şaumyanın rəhbərliyi və yerli ermənilərin əli ilə hazırlanmış və əsasən, Stepan Lalayev, Qavril Qaraoğlanov, Arşak Gülbəndov, Mixail Arzumanov, Karapet Aramanov, şuşalı Ağamalov, Sedrak Vlasov, Samvel Doliyev, Petrosyants, ata və oğul İvanovlar, dəllək Ovanes və başqaları tərəfindən həyata keçrilmişdir, icra edilmişdir. Bütün bu erməni quldur başçıları öz bandaları ilə birlikdə Şamaxıda kütləvi yanğınlar və qətllər təşkil etmişlər.

Ümumiyyətlə, yuxarıda göstərilən cinayətlər, kifayət qədər dəlil və sübutlarla təsdiq olunmuş aşağıda adları qeyd olunan zərərdidə şahidlər tərəfindən təsdiq olunmuşdur.

1. Stepan Lalayev - aşağıdakı şahidlərin verdikləri ifadələrə əsasən ittiham olunur: 1) Mövsüm bəy Sadıqbəyov; 2) Əbdülhüseyn Əliyev; 3) Hacı Kərim Əziz oğlu; 4) Məhyəddin Əfəndi oğlu; 5) Nəsrulla Hacı Süleyman oğlu; 6) Məhəmməd Əbdülrəhim oğlu Abdullazadə; 7) Hacı Heydər Hacı Yusifoğlu; 8) Abdulla Abdullayev; 9) Məlik Nemət oğlu Məlikov; 10) Kərbəlayi Yusif Məmmədov; 11) Alixan bəy Əyyubbəyov, 12) Cavad bəy Məmmədov; 13) Hüseyn Baba Məşədi Əbdüləli oğlu; 14) Siracəddin Əfəndiyev.
2. Qavril Qaraoğlanov - Şamaxı qəza rəisinin keçmiş köməkçisi, aşağıdakı şahidlərin verdikləri ifadələrə əsasən ittiham olunur: 1) Mövsüm bəy Sadıqbəyov; 2) Əbdülhüseyn Əliyev; 3) Hacı Kərim Əziz oğlu; 4) Cəlal Molla Fətti oğlu; 5) Sadıq bəy Ağalarov; 6) Məhyəddin Əfəndi oğlu; 7) Məşədi Rəsulhüseyn Əli oğlu; 8) Nəsrulla Hacı Sultan oğlu; 9) Məhəmməd Əbdül Rəhim oğlu Abdullazadə; 10) Abdulla Abdullayev; 11) Məşədi Ələkbər Kərim oğlu; 12) Məlik Nemət oğlu Məlikov; 13) Ağasəlim Hacı Əliyev; 14) Əli Heydər Tağıyev; 15) Alıxan bəy Əyyubov; 16) Cavad bəy Məmmədov.
3. Arşak Gülbəndov - Şamaxı poçt-teleqraf kontorunun keçmiş rəisi, yuxarıdakı şahidlərin ifadəsi ilə ittiham olunur və əlavə 17) Panteleymanov İvanoviç Puqaçov, 18) Asif bəy Şıxəlibəyov, 19) Siracəddin Əfəndiyev.
4. Mixail Arzumanov - Şamaxı aptek mağazasının sahibkarı, həmin şahidlərin ifadəsi ilə ittiham olunur.
5. Karapet Karamanov - Hacı Kərim Əfəndi oğlunun və Məhyəddin Əfəndi oğlunun ifadələri ilə ittiham olunur.
6. Ağamalov - Qarabağ ermənisi, Şamaxıda təlimatçı, həmin şahidlərin ifadələri

ilə ittiham olunur.
7. Sedrak Vlasov - Sadıq bəy Ağalarovun ifadəsi ilə ittiham olunur.
8. Samvel Doliyev - dəllək, yuxarıdakı şahidlərin ifadəsi ilə ittiham olunur.
9. Petrosyants - Şamaxıda Qırmızı küçədəki baqaliyyə mağazasının sahibi, Hacı Kərim Əziz oğlunun ifadəsi ilə ittiham olunur.
10. Ata İvanov - Şamaxıda gön-dəri mağazasının sahibi, Alıxan bəy Əyyubovun və Asif bəy Şıxəlibəyovun ifadəsi ilə ittiham olunur.
11. Oğul İvanov - yuxarıdakı şahidlərin ifadəsi ilə ittiham olunur.
12. Ovanes - Şamaxıda dəllək, yuxarıdakı şahidlərin ifadəsi ilə ittiham olunur.
13. Sandrik Aqrayev - dəllək, yuxarıdakı şahidlərin ifadəsi ilə ittiham olunur.
14. Artyom Ter-Matevosyans - Sadıq bəy Ağalarovun ifadəsi ilə ittiham olunur.
15. Yaqub Martirosyants - dəllək, Süleyman Məşədi Rəhim oğlunun ifadəsi ilə ittiham olunur.
16. Armenak Yaquboviç Martirosyants - həmin şahidlərin ifadəsi ilə ittiham olunur.
17. Aleksandr Xaçaturov – çəkməçi.
18. Mixail Xaçaturov – çəkməçi.
19. Dyuni bəy çəkməçi (pinəçi).
20. David (soyadı bilinmir).
21. Qaspar - Saqiyan kənd sakini, Abdulla Abdullayevin şahidliyi ilə ittiham olunur.
22. Gerasim Aqriyev - Mədrəsə sakini, Məlik Nemət oğlu Məlikovun şahidliyi ilə ittiham olunur.
23. Mixail Karabanov - malakan, Şamaxı xəzinədarlığın işçisi - Cəlil bəy Cəbrayılov və Tərlan bəy Əliyarbəyovun şahidliyi ilə ittiham olunur.
24. Gülbəndov - Zabit, Arşak Gülbəndovun oğlu, keçmiş poçt-teleqraf kontorunun rəisi, 1) həkim Vladimir Pavloviç Sazanov; 2) Əliheydər Tağıyev; 3) Asif bəy Şıxəlibəyovun; 4) Tərlanbəy Əliyarbəyovun şahidliyi ilə ittiham olunur.
25. Xaçanov - Şamaxının keçmiş pristavı
26. Şabanov - Şamaxı şəhər sakini həkim Sazanovun şahidliyi ilə ittiham olunur.
27. Mixail Ter - Qriqoryev - Şamaxı şəhər sakini
28. Arşak Tarasov – Şamaxı şəhər sakini
29. Artamanov – rus, Cabanıda müəllim
30. Boris Polovşekin
31. Semyon Polovşekin
32. Vladimir Domiev,
33. Mamikon Doliv və s. 47 nəfər Çuxuryurd kənd sakinləri.
34. Babacan Maçekislov – Şamaxı sakini Əliheydər Hacı Ağa oğlunun şahidliyi ilə ittiham olunur.
35. Atabəyov – Şamaxının keşmiş komissarı Siracəddin Əfəndiyevin şahidliyi ilə itttiham olunur.

36. Serebriyakov – Şamaxı şəhər sakini
37. Artur Xaçaturov – bənna
38. Kolye (Nikolay) – erməni, Şamaxıda silah ustası, Məşədi Heydər Sultanovun şahidliyi ilə ittiham olunur.
39. Tumas – Şamaxı şəhər sakini
40. Marazyants - Şamaxı uyezdinin Saqiyan kənd sakini
41. Matras - dəmirçi
42. Nikitov Camiran oğlu - Şamaxı sakini Hacı Hüseyn Salamovun şahidliyi ilə ittiham olunur.

Yuxarıda göstərilənlərə əsaslanaraq mən hesab edirəm ki, adları çəkilən cinayətkarlar cəzalandırma və Baş Məclisin 13, 129, 927, 1633, 1636, 1607, 1153 maddələri ilə ittiham olunmalıdırlar.

Qeyd: Adları göstərilməyən cinayətkarlar Şamaxı şəhərində yaşamış və tədqiqat zamanı iştirak edə bilməmişlər.

***Komissiya üzvü: A.Novatski***[75]

Həmin cinayətkarların bir çoxu haqqında qəbul edilmiş qərarda isə oxuyuruq:

“1919-cu il iyul ayının 12-də, Azərbaycan fövqaladə İstintaq Komissiyası, həmin komissiyanın üzvü Novatskinin məruzəsini dinləyərək, Bakı şəhər sakini Stepan Lalayev, Şamaxı şəhər sakinləri Qavril Qaraoğlanov, Arşak Gülbəndov, Mixail Arzumanov, Karapet Karamanov, Simvel Doliyev, Petrosyans (adı məlum deyil), İvanov-oğul (zabit, adı məlum deyil), Ovanes (dərzi, familiyası naməlum), Armenak Yaqubov Martirosyans, Yaqub Martirosyans - Aleksandr Xaçaturov, Mixail Xaçaturov, Allahverdi Minasov, Krikor (dəmirçi, familiyası bilinmir), Karabanov (adı bilinmir - keçmiş Şamaxı Xəzinadarlıq işçisi), Gülbəndov (Arşak Gülbəndovun oğlu), Xaçanov (keçmiş pristav, adı bilinmir), Şabanov (keçmiş zabit, adı bilinmir). Vladimir Doliyev, Mamikon Doliyev, Babağan Mikakiyev, Nikolay (silah ustası, familiyası bilinmir), Arutyun Xaçaturov (bənna), Artamanov (Cabani-rus kəndinin keçmiş müəllimi), Gerasim Ağrıyev (Mədrəsə kənd sakini, Sandrik Ağrıyev (Saqiyan kənd sakini), Qaspar və Ağamalovu (Qarabağ ermənisi, üzüm istehsalı üzrə instruktor) Şamaxı şəhəri və Şamaxı qəzasının yüzlərlə kəndlərində düşünülmüş surətdə, əvvəlcədən, bir neçə minlik güclü silahlanmış dəstələr yaradaraq, dini köklərə əsaslanaraq, IX mart 1918-ci ildən başlayaraq bir neçə gün ərzində, minlərlə günahsız insanları - uşağı, qadını, qocanı, kişini vəhşicəsinə məhv etdikləri üçün təqsirli bilir. Bu faciə törədilərkən, həmin cəlladlar, qeyri-insani vəhşiliklərə əl atmışlar - insanların qulaqlarını burunlarını kəsmiş, gözlərini çıxartmış, qadınların qarınlarını yırtmış, körpə uşaqları süngiyə

[75] Az.R. DA f. 1061, 1. İş. 87, v. 6-8.

keçirmişlər. Silahlar əsasən toplardan, pulemyotlardan, tüfənglərdən, tapançalardan, qılınclardan ibarət olub. Basqın zamanı yüzlərlə zorlama hadisələri qeydə alınmışdır. Daşınan əmlakın talan edilməsi, bir milyard manatdan çox hesablanır.

Şamaxı şəhərinin müsəlman yaşayan hissələri tamamilə yandırılmış və ya məhv edilmişdir. Şamaxı və onun qəzasında 13 məscid xarabaya çevrilmişdir. Bütün bunlara əsaslanaraq, Azərbaycan Respublikasının 21 mart 1919-cu il tarixli qərarı və Azərbaycan Ədliyyə Nazirliyinin 25 iyun 1918-ci il tarixli 3166 N-li sərəncamına əsasən qərara alır:

Adları yuxarıda göstərilən müqəssirlər Cinayət Məcəlləsinin 13, 129, 922, 927, 1630, 1633, 1637, 1453 və 1607 maddələri ilə ittiham olunsunlar.

***Komissiyanın sədri: (imzası) Kommisiyanın üzvləri: (4 üzvün imzaları)***[76]

* * *

Azərbaycan Demokratik Cümhuriyyəti tərəfindən hər ili mart ayının 31-i soyqırımı – matəm günü kimi qeyd olunur. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev cənabları 26 mart 1998-ci il fərmanında bu işə xüsusi qiymət verərək yazır: "Azərbaycan Demokratik Cümhuriyyəti yaranandan sonra 1918-ci ilin mart hadisələrinə xüsusi diqqət yetirilmişdir. Nazirlər Şurası 1918-ci il iyulun 15-də bu faciənin tədqiqi məqsədilə fövqaladə İstintaq Komissiyasının yaradılması haqqında qərar qəbul etdi. Komissiya mart soyqırımını, ilk ilkin mərhələdə Şamaxıdakı vəhşilikləri, İrəvan quberniyası ərazisində ermənilərin törətdikləri ağır cinayətləri araşdırdı. Dünya ictimaiyyətinə bu həqiqətləri çatdırmaq üçün Xarici İşlər Nazirliyi nəzdində xüsusi qurum yaradıldı. 1919 və 1920-ci ilin mart ayının 31-i ilk dəfə Azərbaycan Demokratik Cümhuriyyəti tərəfindən ümummilli matəm günü kimi qeyd edilmişdir".[77]

Bu komissiya Şamaxıda soyqırımı törədən cinayətkarları müəyyən edəndən sonra xeyli müddət istintaq aparılmışdır. Komissiya ilk əvvəl Şamaxıda bu işə rəhbərlik edən Stepan Lalayevin mühakiməsi ilə bağlı 14 mart 1919-cu il tarixdə cinayət işi başlamışdır. Erməni terrorçusunun törətdiyi bütün cinayətlər, şahidlərin ifadəsi ilə sübuta yetirilmişdir. S.Lalayevin cinayətləri barədə məhkəmə müstəntiqi Komarovskinin tərtib etdiyi bir çox sənədlər mövcuddur.

İş N-22 Əlahiddə işlər üzrə, məhkəmə müstəntiqi Komarovski, 13 1453 N-li 1525-1606 maddələr üzrə, ittiham olunan Stepan Lalayevin işi

***Baş: 20/II-1919-cu il.***

---

[76] ARDA foid 1061 siy. 1, iş 108, s.15

[77] Azərbaycanlıların soyqırımı haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı, Xalq qəzeti, 26.III.1998.

İttifaq hərbiçilərinin Bakı şəhərində yerləşən cənab Komandanına, Əlahəzrət komandan! Zati-aliləri! Məlumat verirəm ki, Fövqaladə İstintaq Komissiyasında Stepan Lalayevin işi haqqında apardığım sorğulara şahidlərin tutarlı cavabları olmuşdur.

"Şamaxı şəhərinə gələn Stepan Lalayev, Samson Aspirov və Sayatsazbəyov özləri ilə birlikdə güclü erməni dəstələri gətirmişdilər. O, adları çəkilən ermənilərlə, habelə yerli ermənilərlə - Arzumanov və Gülbəndovla birləşərək, müsəlman qaydasına görə məscidlərdə gizlənən qadın və qızlara, habelə qocalara və uşaqlara işgəncələr verməyə başlamışdır. Şəhərdə olan bütün məscidlərə onun təhriki ilə od vurulmuşdur. Oradan çıxıb, canını qurtarmaq istəyənlərin hamısını vəhşicəsinə qətlə yetirilmişdir. Məsciddə qalanlar isə zəbanə çəkən odda yanıb məhv oldular. Beləliklə, Şamaxı şəhərində müsəlmanlar yaşayan məhəllələri tamamilə xarabazara çevirdilər.

Lalayevin əmrinə əsasən, gənc müsəlman qızlarını erməni əsgərləri Şamaxıda yerləşən xüsusi evlərinə aparıb, məcburən içki içirərək, sərxoş vəziyyətdə zurna sədaları altında rəqs etdirirdilər. Sonra isə, onları zorlayırdılar. Bu əməliyyatlardan sonra, bəzilərini yerindəcə doğrayıb, bəzilərini isə, hündür balkonlardan küçəyə atıb öldürürdülər. Yalnız türk ordusunun Şamaxıya gəlişindən sonra, cəmi-cümlətanı 7 nəfər qız uşağını xilas etmək mümkün olmuşdur".[78]

Çaparidzenin adına. İcraiyyə Komitəsinin üzvü İ.Boqomolov tərəfindən göndərilmiş gizlin xəbərin

**Surəti**

"Bir daha sizdən xahiş edirəm ki, cəllad Lalayevi həbs edəsiniz. O, çoxlu sayda qadın və uşaq öldürmüş, evlər qarət etmişdir. Əmirov onu, həbs etmək istədikdə, qaçıb gizlənmişdir. Hamı təsdiq edir ki, o, məscidi yandırmış və orada çoxlu qadın qətlə yetirmişdir. Növbəti xəbərləri əldə edən kimi sizə göndərəcəyəm.

***İcraiyyə Komitəsinin üzvü – İ.Boqomolov.***

Şamaxıdakı rus dini rəhbərinin, Lalayev haqqında verdiyi ifadənin

**Surəti**

Düzgün və halal adamların məlumatlarına görə S.Lalayev məsciddə qadın və uşaqları öldürmüş və yandırmışdır.

Belə açıq vəhşilikləri Allah özü bağışlasın!

Şamaxı, yerli rus dini rəhbəri - İoani Fyodroviç Boqomolov[79]

---

[78] ARDA. f. 1061,s.l.iş,92, v.99.

[79] ARDA. f. I061,s.l.iş,99, və. 11.

Çox əfsus ki, erməni daşnaklarının Şamaxı qəzasında törətdikləri soyqırımı, faciə - terror aktına "yuxarılar" xüsusi don geydirdilər. Belə ki, bu, "siyasi-sinfi mübarizə və ya vətəndaş müharibəsi" adı altında istintaqa təqdim edildi. Və bolşeviklər hakimiyyətə gəldikdən sonra minlərlə insan qatili olmuş S.Lalayev və onun silahdaşları törətdikləri qanlı cinayətdən yaxalarını asanlıqla qurtara bildilər. İşə xitam verildi.

Bu barədə Azərb. SSR MDAİ-də saxlanılan (f.1061, q.l və ya 99) sənəddə oxuyuruq:

Şamaxı İstintaq Komissiyasının Stepan Lalayevin mühakiməsi barədə işi

***(Baş: 14.III. 1919-cu il, qur: 29.XI. 1920)***
***Mühüm işlər üzrə müstəntiq***

Komarovskinin 22 №-li işi Stepan Lalayevin mühakiməsi üzrə (maddə; 1525-106: № 131453).

**QƏRAR**

1920-ci il 23 noyabr tarixdə Şamaxı İstintaq Komissiyası Stepan Lalayev və digərlərinin mühakiməsi ilə əlaqədar işə baxaraq bildirir ki, onların Şamaxıda törətdikləri zorakılıqlar və ağır cinayətlər 1918-ci ildə - vətəndaş müharibəsi günlərinə təsadüf etmişdir. Bu cinayətlər milli düşmənçilik zəminində baş vermişdir. Xalq Ədliyyə Komissarlığının sərəncamın 2 fevral 1920-ci ildə verilmiş amnistiya haqqında qanuna əsasən bu işə xitam verilmişdir.

Qərara alınmışdır: Stepan Lalayev haqqında qaldırılmış istintaq işinə xitam verilsin və həmin iş Şamaxı uyezdinin mühüm illər üzrə xalq məhkəməsinə göndərilsin.

***İstintaq Komissiyasının sədri:***

***

Beləliklə, Şamaxıda soyqırımı dəhşətli qırğın və törətmiş erməni-daşnaq cəlladları cəzasız qaldılar. Bundan əlavə, qəsdən qırğın və hadisələr haqqında İstintaq Komissiyasının min bir əziyyətlə topladığı sənədlərin çoxusu məhv edildi. Qalanlar isə "arxivlərdə həbs olundu". Erməni soyqırımından danışmaq isə tam yasaq edildi. "Dili uzun" olanlar "xalq düşməni" adı ilə uzaq Sibirə göndərildi. Özü də ömürlük. Bunun nəticəsidir ki, hətta, bizim nəsil erməni terroru haqqında ötən əsrin 90-cı illərinə kimi ətraflı biliyə malik olmamışdır. Həm orta, həm də ali məktəblərdə tariximizin qanlı səhifələrini təşkil edən bu faciədən bir kəlmə də bəhs edilməmişdir. Sovet tarixşünaslığı beynəlmiləlçilik, qardaşlıq ideyalarını təbliğ edə-edə əsl həqiqətləri gizlətmiş, tarixi həqiqətləri başdan-başa təhrif etmişdir. Bunun nəticəsi olaraq, respublikamızın hər bölgəsində olduğu kimi, erməni və malakanlar Şamaxının ən səfalı guşələrində yaşadılar. Sosialist beynəlmiləlçiliyi

adı altında əl-ələ verib birgə təsərrüfat qurduq. Başqa xalqın nümayəndələri olduqları üçün onlara hörmət, izzət göstərdik. İlk əvvəl erməni – malakanlar yaşayan kəndlərə - Çuxuryurd, Kirovka, Mədrəsə, Saqiyan, Xilmilliyə şose yolu çəkdirdik, Bakıdan həmin kəndlərə birbaşa avtobus ayrıldı.

Belə bir gözəl şəraildə yaşayan ermənilər M.S.Qorbaçov hakimiyyətə gələndən sonra qonaq kimi məskunlaşdıqları torpaqları ələ keçirib özününküləşdirmək iddiasına düşdülər. Bunun üçün Azərbaycanın müxtəlif guşələrində yeni torpaqlar, ərazilər əldə etməkdən ötrü müxtəlif fitnələr, terror aktları törətməyə başladılar. SSRİ-nin süqutu onlara dünyadakı havadarları ilə birləşməyə böyük imkanlar verdi. Odur ki, 1988-ci ildən respublikamızın ərazilərini zəbt etməyə başladılar. Doxsanıncı ildən sonra torpaqlarımızın 20 faizindən şoxunu işğal etdilər; minlərlə dinc əhali qətlə yetirildi, ata-baba torpaqlarından didərgin düşdü, yüzlərlə insanlar əsir götürüldü. Vətən qədri bilən oğullarımız silaha sarıldı, torpağımızın müdafiəsinə yollandı. Bu ədalətsiz müharibədə yüzlərlə eloğlumuz şəhidlik köynəyi geydi. Həmin şəhid oğullar arasında Şamaxının da say-seçmə övladları vardır. Bir sözlə, 1918-ci il soyqırımından düz 72 il sonra erməni terrorçuları Şamaxının sinəsinə yenidən övlad dağı çəkdi. Özü də düz 67 nəfər cavan oğul dağı”.

**Şamaxının Qarabağ şəhidləri:**

1. Alxanov Alxan Əşrəf oğlu: Sabir qəsəbəsi
2. Ağayev Gülağa Əli oğlu: Məlikçobanı kəndi
3. Abdurrəhmanov Cavid Təvəkkül oğlu: Şamaxı şəhəri
4. Atakişiyev Sahil Durəsən oğlu: Məlikçobanı kəndi
5. Atakişiyev Şahbala Əli oğlu: Şamaxı şəhəri
6. Ağayev Qabil Qeybalı oğlu: Həmyə kəndi
7. Baratov Müslüm Ağasən oğlu: Məlikçobanı kəndi
8. Babaşov Anar Əlibaba oğlu: Şəhriyar qəsəbəsi
9. Bayramov İmran Allahverdi oğlu: Meysəri kəndi
10. Bəkirov Eldəniz Xəlil oğlu: Quşçu kəndi
11. Balayev Cavanşir Musa oğlu: Şamaxı şəhəri
12. Baxşıyev Fərhad Beybud oğlu: Şamaxı şəhəri
13. Qarayev Mehman Zöhrab oğlu: Məlikçobanı kəndi
14. Qeybalıyev Emil Babaşirin oğlu: Çarhan kəndi
15. Qurbanov Rövşən Bəybala oğlu: Çaylı kəndi
16. Qəhrəmanov Ağadur Sabir oğlu Talışnuru kəndi
17. Dadaşov Qiyas Qərib oğlu: Məlcək kəndi
18. Əzməmmədov Faiq Əzməmməd oğlu: Quşçu kəndi
19. Əliyev Elman Əfqan oğlu: Şamaxı şəhəri
20. Əliyev Fərhad Şahid oğlu: Sabir qəsəbəsi

21. Əliquliyev Mehman Əkbər oğlu: Şamaxı şəhəri
22. Əsgərov Fariz Telman oğlu: Mərzəndiyə kəndi
23. Əbilov Nazir Qədir oğlu: Meysəri kəndi
24. Ələkbərov Xosrov Mürsəl oğlu: Şəhriyar qəsəbəsi
25. Əliyev Babacan Tapdıq oğlu: Ovculu kəndi
26. Zülfüqar Adil Ağagül oğlu: Şamaxı şəhəri
27. Zahidov Teymur Məmməd oğlu: Şamaxı şəhəri
28. Zeynalov Nadir Avdım oğlu: Şamaxı şəhəri
29. İsayev Gülbəndiyar İsbəndiyar oğlu: sis kəndi
30. İsayev Bəxtiyar Səfər oğlu: Meysəri kəndi
31. Kibarov Xalid Nüsrəddin oğlu: Mədrəsə kəndi
32. Kazımov Fərman Mətləb oğlu: Şamaxı şəhəri
33. Məmmədov Əlsuvar Əliheydər oğlu: Göylər kəndi
34. Mikayılov Baba Balakişi oğlu: Göylər kəndi
35. Mustafayev Asif Aftandil oğlu: Mədrəsə kəndi
36. Məmmədov Elman Səlim oğlu: Kərkənc kəndi
37. Muradov Malik Şahkərəm oğlu: Sabir qəsəbəsi
38. Mustafayev Xəlil Süleyman oğlu: Mədrəsə qəsəbəsi
39. Mustafayev Vidadi Şaban oğlu: Sabir qəsəbəsi
40. Novruzov Asif Akif oğlu: Məlikçobanı kəndi
41. Niftəliyev Bəxtiyar Şakir oğlu: Şirvanzadə kəndi
42. Nuhov Mirhəli Cümali oğlu: Göylər kəndi
43. Nəbiyev Kamil Adil oğlu: Məlhəm kəndi
44. Osmanov Bahadur Xanış oğlu: Sis kəndi
45. Orucov Səfa Bahadur oğlu: Məlikçobanı kəndi
46. Pənahov Azər Ağaduran oğlu: Şamaxı şəhəri
47. Rzayev Elxan Qəzənfər oğlu: Mədrəsə qəsəbəsi
48. Rəsulov Rüstəm Aprel oğlu: Mərzəndiyə kəndi
49. Rəhimov Vidadi Lütvi oğlu: Şəhriyar qəsəbəsi
50. Rəcəbov Asif ağamurad oğlu: Qaravəlli kəndi
51. Səmədov Zöhrab Xanlar oğlu: Hacılı kəndi
52. Seyidov Şahin Abduləhəd oğlu: Şamaxı şəhəri

53. Soltanov Rahib Allahverdi oğlu: Böyük Xınıslı kəndi
54. Süleymanov Cavid Feyruz oğlu: Çarhan kəndi
55. Səlimov Səlim Qandalı oğlu: Çuxuryurd kəndi
56. Heydərov Saleh Sabir oğlu: Dəmirçi kəndi
57. Həmidov Həmid Dədəxan oğlu: Şərədil kəndi
58. Şirəliyev Xoşbəxt Şirəli oğlu: Qəleybuğurd kəndi
59. Şeydayev Yaşar Abgül oğlu: Şamaxı şəhəri
60. Şirinov Aslan Sərdar oğlu: Meysəri kəndi
61. Babayev Müşviq Adil oğlu: Şamaxı şəhəri
62. Bayramov Malik Yaşa oğlu: Bağırlı kəndi
63. Şixəliyev Faiq Musa oğlu: Bağırlı kəndi
64. Baxışov Ələddin Allaverdi oğlu: Çaylı kəndi
65. Məryəddinov Veyis Rövşən oğlu: Göylər kəndi
66. Səmədov Kamil Səmədpaşa oğlu: Çaylı kəndi
67. Balakişiyev İlqar Gülalı oğlu: Şamaxı şəhəri

## İTKİN DÜŞMÜŞ ŞAMAXILI DÖYÜŞÇÜLƏRİNİN SİYAHISI

1. Abdullayev Nadir Məsim oğlu: Məlikçobanı kəndi
2. Balayev Çingiz azad oğlu: Dəmirçi kəndi
3. Zərbəliyev Səbuhi Mirzalı oğlu: Muğanlı kəndi
4. İsmayılov Müqabil Canbaba oğlu: Mirikənd kəndi
5. Məmmədov Ağa Cəlal oğlu: Muğanlı kəndi
6. Mənsimov Mayıl Əhməd oğlu: Qəleybuğurd kəndi
7. Səfərov Sərdar Ələddin oğlu: Göylər kəndi
8. Siracov Maarif Güloğlan oğlu: Şamaxı şəhəri
9. Xanquliyev Ədalət Vəfadar oğlu: Astarxanovka kəndi
10. Həbibov Elnur Paşa oğlu: Şamaxı şəhəri

Haşiyə: Məşədi Əbduləli Mustafa oğlu XIX əsrdə Şamaxının sayılıb-seçilən şəxslərindən olmuşdur. O, S.Ə.Şirvani, Mahmudağa, Mirzə Məhəmmədhəsən kimi ziyalılarla dostluq etmişdir. Məşədi Əbdüləlinin beş övladı (Əliməmməd, Əlişirin, Mustafa, Seyfulla və Gövhər xanım) olmuşdur. O, bütün övladlarına təhsil verə bilmişdir.

Əliməmməd Mustafayev 1883-cü ildə Şamaxı şəhərində anadan olmuş, mollaxanda təhsil alandan sonra şəhər məktəbində oxumuşdur. O, 1906-cı ildə Bakıya gəlir. Burada bir çox qabaqcıl ziyalılar – C.M.Qənizadə, S.S.Axundov, M.Hadi, A.Şaiq, H.Zərdabi ilə tanış olur. Buna baxmayaraq, bütün yay aylarında Şamaxıya gəlir, ziyalılarla müəyyən tədbirlərin keçirilməsində fəal iştirak edir. C.Cəbrayılbəylinin xatirələrindən bəlli olur ki, 1917-ci ilin sonunda Şamaxıda olan

Ə.Mustafayev erməni millətçilərinin bəd niyyətləri barədə ziyalılarla məsləhətləşir, onları ayıq-sayıq olmağa çağırır.

Ə.Mustafayev ADU-nun Şərq fakültəsini bitirəndən sonra orada müəllim işləmişdir. "Şamaxı dialektinin izahlı lüğəti" adlı namizədlik dissertasiyası yazmışdır. Görkəmli pedaqoq, publisist, yazıçı, tərcüməçi Ə.Mustafayev ömrünün sonuna kimi Şamaxı ilə əlaqəni kəsməmişdir. Ə.Mustafayevin beş övladı (Xosrov, Aygün, Arif, Namiq, Niyazi) olmuşdur. Arif Əliməmməd oğlu 26 il Azərbaycan MK-nın birinci katibinin köməkçisi işləmişdir.

Mənbələrdən: Erməni millətçiləri hər zaman Azərbaycanın dəyərli övlad obrazlarını fürsət düşən kimi güdaza verməyə çalışmışlar. Belə bir fürsət ötən əsrin 30-50-ci illəri arasında daha çox düşdü erməni cəlladlarının əlinə. Odur ki, 1942-ci ildə bir qrup ziyalı gənc düşdü erməni müstəntiqləri - K.B.Aruşanov və A.Qriqoryanın toruna. Müstəntiqlər səkkiz nəfər gənci "Türkiyəyə meyilli olan və Azərbaycanın SSRİ-dən zorla ayrılmasını nəzərdə tutan antisovet millətçi gənclər təşkilatının üzvü" adı altında həbs etmişlər.[80]

1942-ci ildə daxili işlər kommisiyasında yurd salmış erməni cəlladları – Aruşanov, Arustamov, Qriqoryanın fitvası ilə "antisovet işlərlə məşğul olanlar" – deyə bir qrup gənc azərbaycanlıları həbs edirlər. Bunların arasında Bakı Dəmiryolu texnikumunun tələbəsi Çingiz Seyfulla oğlu da olub. Həbs olunanlarla bərabər Çingiz də ilk əvvəl özünü günahkar hesab etmir. Erməni müstəntiqlərinin işgəncələrinə tab gətirə bilməyən Çingiz 1942-ci il iyunun 28-dəki səkkizinci dindirmədən sonra "hər şeyi boynuna alıb etiraf etdi ki, onu antisovet gənclər dəstəsinə İsgəndərov Süleyman cəlb etmişdir".[81]


Çingizin atası Fuad Seyfulla oğlu

Odur ki, 1942-ci il oktyabr ayının 31-də hərbi tribunalının iclası keçirilir. Qərara əsasən həbs edilmiş 8 nəfərdən üçü güllələnmə, beş nəfər işə on il azadlıqdan məhrum etmə cəzasına layiq görülür. Çingiz də on il həbs edilənlər arasında olur.

Həbsxanadan qayıtdıqdan sonra Çingiz Seyfulla oğlu çox yaşamır.

1959-cu il oktyabr ayının 11-də erməni millətçiləri müstəntiq K.Arusanov və A.Qriqoryanın xain əməllərinin üstü açılır, məsuliyyətə cəlb edilirlər. İttiham olunanlar isə bəraət alırlar. Eləcə də , Çingiz Mustafayev.

Çingizin atası Fuad Mustafayevin dediklərindən: Əliməmməd mənim əmimdir. O, atam Seyfulladan böyük idi. Atam əsasən, ticarətlə məşğul olurdu. Biz iki qardaş olmuşuq. Atam Böyük Vətən müharibəsində 1942-ci il may ayının 10-da həlak olmuşdur. Atamın qara kağızı gələndən bir az sonra qardaşım Çingiz erməni

---

[80] Z.Bünyadov. "Qırmızı terror", Bakı, 1993, səh. 283.
[81] Yenə orada. səh. 302.

fitnəkarları tərəfindən həbs edilir. Düz on il günahsız həbsdə yatan qardaşını erməni müstəntiqləri tərəfindən hansı üsullarla dindirdiklərini söyləyəndə adamın tükləri biz-biz olurdu. O, gənc yaşında vəfat etdi və vəsiyyətinə görə, Göyçayda dəfn etdik. Mən qardaşım haqqında balalarıma o qədər də məlumat verməmişdim. Qorxurdum. Qardaşımın faciəli taleyi məni yandırıb-yaxırdı. Təskinlik üçün ikinci oğlumun adını Çingiz qoydum.



Bakı Şəhidlər Xiyabanı. Milli Qəhrəman Ç.Mustafayevin məzarı

1990-cı il may ayının 24-də mərhum akademik Z.Bünyadovun "Azərbaycan gəncləri" qəzetində "İttiham" adlı yazısında səkkiz nəfər günahsız həbs olunanların başına gətirilən faciələr ətraflı şərh edilmişdir. Qəzeti oxuyan Çingiz bizə gəldi. Özü də ağlaya-ağlaya. Əmisinin faciəsi üçün qovrulurdu. "Məqalədən aydın olurdu ki, Ç.Mustafayevi vəhşi erməni müstəntiqləri düz 15 dəfə dindirmişlər. O, səkkizinci dindirməyə qədər bütün işgəncələrə dözür". Əmisinin faciəsi ilə ilk dəfə ətraflı tanış olan Çingiz bir neçə gün özünə gələ bilmədi. O zaman balam Çingiz söz verdi ki, əmisi Çingizin intiqamını erməni cəlladlarından hər yolla alacaqdır.

Çingiz Mustafayev 1960-cı il avqust ayının 29-da Həştərxan Vilayətinin Kapustinyar-I qəsəbəsində anadan olmuşdur. Ailələri 1964-cü ildə Bakıya qayıdıb. Çingiz 1974-cü ildə Yasamal rayonundakı 164 saylı orta məktəbi bitirib, Azərbaycan Tibb İnstitutuna daxil olmuşdur. İnstitutu bitirəndən sonra Dəvəçi şəhərində iki il işləmişdir. Bakıya qayıtdıqdan sonra o, Azərbaycan İnşaat Mühəndisləri İnstitutu nəzdindəki tələbə profilaktik - sanatoriyalarında baş həkim işləyir.

90-cı il hadisələrindən sonra meydana atılır, cəbhəyə yollanır. 1991-ci ildə "215 kl" studiyasında telerepartyor kimi fəaliyyətə başlayır. Cəbhədən, döyüş bölgələrindən ermənilərin törətdikləri cinayətləri çəkir, həmin faktları respublika televiziyası ictimaiyyətə çatdırmaq istəmir. Odur ki, o, çəkdiyi faktları "Vesti" vasitəsi ilə camaata çatdırır. Odur ki, o, təqiblərə məruz qalır, işdən azad edilir. Buna baxmayaraq o, qardaşları - Vahid və Seyfulla ilə birlikdə cəbhə bölgələrinə gedir, faciələri lentin yaddaşına köçürürlər.

Axırıncı dəfə o, 1992-ci il iyun ayının 13-də Əsgəranla Naxçivannik arasında gedən döyüşü lentə çəkərkən yaralanır. Onu Ağdama xəstəxanaya vaxtında çatdırmırlar. Çingiz 32 yaşında dünyasını dəyişir. "Azərbaycan Respublikasının Prezidenti"nin 1992-ci il noyabr ayının 6-da verdiyi fərmanı ilə Çingiz Mustafayev Azərbaycanın Milli Qəhrəmanı adı ilə təltif olunur.

Xalqımızın qəhrəman oğlu Çingiz Mustafayevin ömür yolu istedadlı qələm sahibi Roza Əli qızının yazdığı "Taleyimə yağan yağışlar" (Bakı, 1993) kitabında ətraflı işıqlandırmışdır.

Bəli, erməni terrorçularının ötən əsrin 90-cı illərində başladığı elan olunmamış müharibədə Şamaxının ər oğulları şəhid oldular. Çoxları da həyatda arzu-kamına yetmədən şəhidlik zirvəsinə ucaldı. Ölümləri ilə ölməzlik qazandı bu gənclər. Əminik ki, tezliklə xalqımız düşmən üzərində qələbə çalacaq və şəhid balalarının qisasını alacaqdır. O qələbə günü isə uzaqda deyildir.

## IV FƏSİL

## ŞAMAXI KƏNDLƏRİNDƏ TÖRƏDİLƏN SOYQIRIMI

1918-ci ildə Şamaxı qəzasına indiki Ağsu, İsmayıllı, Hacıqabul, Kürdəmir, Qobustan rayonunun bir çox əraziləri də daxil idi. Erməni daşnak-bolşevik birləşmələri tərəfindən ərazilərdə ağlasığmaz faciələr törədilmiş, şəhər və kəndlər xarabalığa çevrilmiş, uzaq əsrlərdən həmin dövrə qədər salamat qalmış minlərlə memarlıq abidələri yox edilmiş, xalqın var-dövləti talanmış, mənimsənilmişdir.

Qeyd etdiyimiz kimi, Azərbaycan Demokratik Cümhuriyyəti hakimiyyəti ələ alandan az sonra bu soyqırımını araşdırmaqdan ötrü Fövqəladə İstintaq Komissiyası yaradılması haqqında Xarici İşlər Naziri M.Hacinski hökumətə müraciət etdi: "Artıq dörd aydır ki, Azəbaycan ərazisinin bəzi yerlərində bolşevik adı altında, özbaşına erməni hərbi dəstələri dinc müsəlman əhalisinin başına misli görünməmiş vəhşiliklər açır. Belə ki, bu dəstələrin təşkilatçıları verilən məlumatları - Avropaya yalan çatdırırlar və ya onları yalana inandırırlar. Ümumdövlət və zərərçəkən əhalinin bir qrupunun marağını nəzərə alaraq təcili olaraq, aşağıdakı işləri həyata keçirmək üçün təşkilat yaranmalıdır: 1) Zor gücümə edilmiş bütün hadisələrin dəqiq qeydiyyata alınması; 2) Zor işlədilmiş yerin şəraitini təyin etmək; 3) Günahkarların üzə çıxarılması və dəymiş ziyanın təyin edilməsi.

Yaradılmış təşkilat Fövqəladə İstintaq Komissiyası xarakteri daşımalıdır. Komissiyanın məlumatları əsas Avropa dillərində (rus, fransız, alman və əlbəttə ki, türk dillərində) yazılmalı və geniş yayılmalıdır. Əgər, hökumət razılaşarsa, mən xahiş edərdim ki, bu Komissiya yaradılandan sonra Nazirliyin hesabına müvəqqəti istifadə üçün 50.000 manat vəsait köçürüm".[82]

Nəhayət, 1918-ci ilin iyul ayının 15-də Fövqəladə İstintaq Komissiyası yaradıldı. Həmin komissiyanın sədri Ələkbər bəy Xasməmmədov təyin edildi. Komissiyanın üzvləri isə İsmayıl bəy Şahmalıyev, Andrey Fomiç Novatsk, Nəsrəddin bəy Səfikürdski, Nikolay Mixayloviç Qubvil, Mirzə Cavad Axundzadə

[82] ARDA. f. 1061, s. iş. 95, və. 1.

seçildi. Komissiya respublikamızın başqa bölgələri ilə yanaşı, Şamaxı və onun kəndlərində törədilən dəhşətli qırğınlar barədə məlumat əldə etmək üçün yerlərdə olmuş, faciənin iştirakçıları, şahidləri - ziyalılar, dövlət adamları, mülk sahibləri ilə görüşmüş və əldə etdikləri məlumatları rəsmiləşdirmişdir. Hadisələrdən 84 ildən artıq vaxt ötməsinə baxmayaraq, həmin sənədlərin bir qismi Azərbaycan Mərkəzi Dövlət Arxivində saxlanılmışdır. Amma onu da etiraf etmək lazımdır ki, bir çox sənədlər Sovetlər Birliyi zamanı hansı yollarlasa ermənilər tərəfindən aradan çıxarılmış və ya məhv edilmişdir.

Haşiyə: Bu da həqiqətdir ki, soyqırımı barədə dövri mətbuatda 1920-ci il aprel ayının 28-nə kimi müxtəlif yazılar çap olunmuşdur. Belə ki, "Müsavat" yönümlü qəzetlər hadisələri olduğu kimi, qələmə aldığı halda, bolşevik-daşnak əqidəli qəzet və jurnallarda isə hadisələr onların baxışı kimi - səhv şəkildə əhalinin nəzərinə çatdırılırdı. Bu illərdə Bakıda çap olunan qəzetlərdən biri də "Бакинский рабочии" idi. Qəzetə S.Şaumyanın "sağ əli" - A.Əmiryan redaktorluq edirdi. Bu qəzet vasitəsi ilə, onlar müsavat partiyasının ünvanına yalanlar söyləyir, bolşevik adı altında öz siyasətlərini həmfikirlərinə çatdırırdılar.

Şaumyan Bakıda güclü bir ordu yarada bilmişdi. "Bakı Kommunası ordusunun 70 faizi ermənilərdən ibarət idi. Onlar, guya, bolşeviklərin yaratdığı Qızıl Ordunu təşkil edirdilər. Ümumiyyətlə isə, bu orduda 18 min nəfər silahlı var idi ki, onlar Şaumyanın əmrini gözləyirdilər. Lakin bu dövrdə Şaumyanın qarşısını bir məsələ kəsirdi. Lənkəranda yaradılmış müsəlman diviziyasını tərki-silah etmədən əməliyyata başlamaq olmazdı".[83]

Bu ordunun köməyi ilə qanlar tökən daşnaklar Bakıda "Novruz", "Kaspi", "Turan" mətbəələrini qəsdən yandırmışdı. Bunun nəticəsi idi ki, bir çox mətbuat orqanlarının nəşri dayandırılmışdı. Amma qələm sahibləri hadisələrə biganə də qalmırdılar. Faciələr barədə məqalələr, şerlər, məlumatlar hazırlayır, çap etdirmək üçün məqam gözləyirdilər. 1918-ci il soyqırımı ilə bağlı yazılan əsərlərin bir qismini Azərbaycan Xalq Cümhuriyyəti məğlubiyyətə uğradıqdan sonra müəlliflər özləri qorxudan məhv etmişlər. Bəzilərini də 1920-ci ildə müxtəlif vəzifələrdə çalışan erməni məmurları məhv etmişdir.

Haşiyə: 1918-ci il soyqırımı hadisələrini işıqlandıran əsərlərdən biri də Seyid Ağa Axundzadənin "Mart hadisəsi 1918 və yaxud Nuru Paşa Ordusu tərəfindən Bakının işğalı" kitabı olmuşdur. Kitab 1919-cu ildə "Turan" mətbəəsində çap olunmuşdur. 1992-ci ildə mərhum professor Əhməd Cəfərzadə ilə "Şamaxı" kitabını hazırlayırdıq. O, Hacıqabulda yaşayan bir nəfər axund dostundan həmin əsəri götürdü. İstifadə edəndən sonra kitabı sahibinə qaytardıq.

Şamaxı soyqırımı ilə bağlı bu əsəri hazırlayanda da Bakıdakı bir çox kitabxanalara müraciət etdik. Seyid Ağa Axundzadənin həmin əsərini tapa

---

[83] V. Həbiboğlu. Azərbaycanda 1918-ci il soyqırımının əsas təşkilatçısı S.Şaumyan olmuşdur. "Respublika" qəzeti, 31.III. N 65.

bilmədik. Ən nəhayət, M.F.Axundov adına kitabxanadan həmin əsərin yarı hissəsi cırılmış bir nüsxəsini əldə etdik. Məlum oldu ki, “maraqlı şəxslər" tərəfindən haçansa həmin kitabın əsas hissələri bilərəkdən məhv edilmişdir. Bizə belə gəlir ki, məhv edilən səhifələrdə bu milli faciəmiz ilə bağlı daha ciddi məlumatlar olmuşdur. Seyid Ağa Axundzadə kitabın müqəddiməsində əsəri yazmaqda məqsədini belə açıqlayır: Başqa məmləkət və şəhərlərdə Avropa müharibəsi növbənöv rənglər aldısa da, lakin heç bərabərdə milli rəng almamışdır. Qafqaz islamlarının sadəqəlbliyi nəticələrindən olaraq, hər bir neçəsinə zərfində bir fəlakət və bir bədbəxtliklərə giriftar olduğu kimi bu sənə də Bakı şəhərində, xain qonşularının uydurmalarına aldanıb, tarixi bir fəlakətə düçar oldular.

Bakı müsəlmanlan yüzünə xain “daşnaq” firqəsi tərəfindən açılan həmin pərdə, nəhayət, vəhşiyanə bir surətdə icra edildi ki, həmin tarixdə həqiqət üzrə göstərilib və yeddi ay bir müddətdə Bakı İslamlarına qurulan həqarət və zülmlərə xətmə çəkən Nuru Paşanın ordusunun Bakı şəhərini işğal etməsi bir vəsilə xodadadı fəvlindən olub, naməlum Qafqaz və biləxsus Bakı İslamlarını, xain “daşnak” fitnələrinə məruz olmadan, təxmis etməsini təfsilatı həmin tarixdə göstərilmişdir”.[84]

Əsər “18 mart - 15 sentyabr 1918” başlığı ilə açılır. Müəllif əsərin bu hissəsində daşnakların şəhərdə törətdikləri ağlasığmaz faciələrdən söz açaraq yazır: “Daşnaq” firqəsi əllərinə düşən müsəlman övrət və uşaqlarından heç bir zülmü əsirgəməyib, insanlığa yaraşmayan böylə qəbahətlərin icrasına qərar vermişlər. Hamilə övrətlərin bətnində olan məsum səbtinləri böylə çıxarılıb tüfəng cədələrinə taxmışlar. Xırda balaları divarlara mıxla mıxlamışlar. Pojarnı komanda tərəfində vaqe bir məscidin divarlarında neçə uşağın mıxlandığını barışıqdan sonra görmüşlər və o tərəfdə yaşayan müsəlmanların həyatına birdəfəlik qələm çəkilmişdir. Böylə, bir zülüm və həyasızlığı icra edən daşnaq “igidləri” mart ayının 21-də avtomobillərə minib müsəlman məhəllələrinə barışıq üçün gələndə əllərində on beş yaylıq ilə ağlayırlar ki, vallah-billah, biz heç vəqt razı qeyilik ki, biz ilə qardaş olan müsəlman əhalisinin ayağına bir tikan böylə batsın. Allah şeytana lənətlər eləsin. Bizi də və sizi də yoldan çıxardıb iki qardaşın arasına ziddilik saldı.[85]

Çox əfsuslar olsun ki, erməni daşnak cəlladlarının törətdikləri qırğını gözləri ilə görmüş, onu ətraflı qələmə almış Seyid Ağa Axundzadənin adını çəkdiyimiz əsərinin tam nüsxəni əldə edə bilmədik. Bizcə, arximizə, kitabxanalarımıza bizdən yaxşı bələd olan erməni millətçiləri törətdikləri soyqırımı ört-basdır etməkdən ötrü belə əsərləri kitabxanalardan “əkə bilmişlər”.

[84] S.A.Axundzadə - Göstərilən əsərlər. səh. 2.
[85] S.A.Axundzadə - Göstərilən əsərlər. səh. 15-16.

***

Yuxarıda qeyd etdiyimiz kimi, Fövqəladə İstintaq Komissiyası o vaxtkı Şamaxı qəzasının bütün kəndlərində olmuş, əhali ilə görüşmüş, soyqırımı barədə şahidlərin dilindən məlumatlar, ifadələr toplamışdır. Vaxtilə, "Şamaxı uyezdinin rəisi" erməni millətçilərinin bu bölgədə dağıdıb viranə, xaraba qoyduqları kənd və yaşayış sahələri barədə belə bir protokol da tərtib etmişlər:

"Azərbaycan hökuməti nəzdindəki Fövqaladə İstintaq Komissiyasının, erməni qəsbkarlarının ağır nəticələri və dəymiş ziyan barədə materiallarının siyahısı haqqında 3-16 aprel 1919-cu il tarixli

**Protokolu**

Fövqaladə İstintaq Komissiyasına, Komissiyasının tələbi ilə, dağıdılmış kənd və yaşayış sahələrinin siyahısını göndəririk.

1) Qəbristan (Qobustan-müəllifləri) zonası üzrə; Mərəzəli, Şıxlar, Çuxanlı, Sündi, Mərzəndiyə, Nabur, Təklə - Hacı Məmməd Hüseyn, Yekəxana Talıb, Qurbançı, Ərəbşahverdi, Ərəbşalbaş, Çıxzərli, Cəm-cəmli, Qaracüzlü, Təsi, Təklə-Mirzəbaba, Bəklə, Cəyirli, Ərəbqədim.

2) Mədrəsə sahəsi üzrə: Güyzi, Çaylı, Mirikənd, Muğanlı, Mırtı, Talış-Məlik-Umud, Şərədil, Qaravəlli-Vahidbəy, Məlcək, Xınıslı, Ağabəyli, Avtahi, Bico, Alpout, Osmanbəyli, Ləngəbiz, Qəşəd, Keçdiməz, Çarhan, Nüydü, Boyat, Adnalı, Kürdəmic, Qonaqkənd, Həmiyə, Çabanı - müsəlman, Çaylı-Baxış bəy, Avaxıl, Yuxarı Çağan, Dədəgünəş, Aşağı Çağan, Əngəxaran, Gəgəli, Cavanşir, Ağsu, Şeyməzid, Gorus-Çaparlı, Bortor-Navahı, Bağırlı, Ovculu, Göylər".[86]

3) Bundan əlavə, Şamaxı uyezdinin Abdulyan qəzasında da bir çox kəndlər və yaşayış məntəqələri yandırılmışdır. Şamaxı pristavı Hacıbəyov həmin kəndlərin siyahısında Fövqəladə İstintaq Komissiyasına təqdim etmişdir: Qovlar, Qazimi, Quruzma, Qaraqaşlı, Abdulyan, Kolanı-Turanı, Dağ Kolanı, Talış, Meyniman, Rəncbər, Qubalı-Baloğlan, Pasalı, Şorbaçı, Təzə Cəyirli, Xilə, Padar, Qaraqaşlı, Arat Bozavənd, Rəhmanlı, Rəhimli".[87]

Fövqalədə İstintaq Komissiyası əldə etdiyi məlumat əsasında Şamaxı uyezdində qətlə yetirilmiş, yaralanmış insanlar barədə məlumatı aşağıdakı kimi ümumiləşdirmişdir[88].

---

[86] ARDA. f. 1061, s. 1. iş. 3. və. 1-4.
[87] ARDA. fon. 1061. siy. 3, vər. 1.
[88] ARDA. fon. 1061. siy. 1, vər. 85.

| Sıra | Kənd | Kişi | Qadın | Uşaq | Yaralı |
|---|---|---|---|---|---|
| 1 | Cəyirli | 40 | 20 | 15 | 4 |
| 2 | Ərəbqədim | 200 | 100 | 78 | yox |
| 3 | Cəmcəmli | 15 | 5 | 6 | Yox |
| 4 | Mırtı | 4 | - | 1 | - |
| 5 | Talış-Məlik | 11 | 4 | 1 | - |
| 6 | Mirikənd | 8 | 9 | 2 | Yox |
| 7 | Şərədil | 10 | 5 | 5 | Yox |
| 8 | Quşçu | 192 | 115 | 25 | Yox |
| 9 | Şıxməzid | 10 | 5 | 3 | Yox |
| 10 | Yuxarı çağan | 1 | - | - | - |
| 11 | Ağabəyli | 7 | 3 | 4 | Yox |
| 12 | Qaravəlli | 40 | 50 | 30 | Yox |
| 13 | Barbar Navahı | 15 | 10 | 5 | Yox |
| 14 | Gorus-Çaparlı | 10 | 15 | 10 | 1 |
| 15 | Kürdəmir | 25 | - | - | - |
| 16 | Qonaqkənd | 25 | 5 | 4 | Yox |
| 17 | Ovculu | 5 | 10 | 12 | Yox |
| 18 | Bağırlı | 80 | 150 | 140 | Yox |
| 19 | Təkəli | 360 | 412 | 150 | Yox |
| 20 | Hacılı | 40 | 60 | 30 | Yox |
| 21 | Dilman | 300 | 235 | 50 | Yox |
| 22 | Kalva | 250 | 150 | 100 | 2 |
| 23 | Xatman | 60 | 40 | 20 | Yox |
| 24 | Suraxanı | 11 | 3 | 6 | Yox |
| 25 | Xəsiqara | 46 | 20 | 16 | Yox |
| 26 | Tirğan | 300 | 40 | 20 | Yox |
| 27 | Talışnuru | 20 | 5 | - | - |
| 28 | Sərdakar | 8 | 12 | 8 | Yox |
| 29 | Zərqəva | 40 | 4 | 5 | Yox |
| 30 | Xankəndi | 12 | 8 | - | Yox |
| 31 | Təbiyə | 12 | 3 | 2 | Yox |
| 32 | Makahı | 6 | 1 | 1 | Yox |
| 33 | Tağlabiyan | 7 | 22 | 7 | Yox |
| 34 | Gürcüvan | 10 | 5 | 7 | Yox |
| 35 | Kələrağ | 1 | - | - | - |
| 36 | Bizlən | 50 | 30 | 20 | Yox |
| 37 | Müci | 150 | 50 | 25 | Yox |
| 38 | Qıratan | 30 | 20 | 21 | yox |

| | | | | | |
|---|---|---|---|---|---|
| 39 | Pir qaraçuxa | 4 | 3 | 5 | Yox |
| 40 | Sulut | 38 | 1 | 47 | - |
| 41 | Zeyvə | 30 | 20 | 32 | Yox |
| 42 | Nuran | 30 | 50 | 37 | Yox |
| 43 | Nüydi | 40 | 7 | 10 | Yox |
| 44 | Qəşəd | 50 | 40 | 27 | Yox |
| 45 | Sündi | 250 | - | - | - |
| 46 | Şıxlar | 4 | - | - | - |
| 47 | Bəlkə | 16 | - | - | - |
| 48 | Ağsu | 200 | - | - | - |
| 49 | Qəməli | 99 | 18 | 16 | - |
| 50 | Məlikçobanı* | 10 | - | - | - |
| 51 | Çuxanlı | 52 | - | - | - |
| 52 | Qurbançı | 93 | - | - | - |
| 53 | Mərəzə | 300 | - | - | - |
| 54 | Nabur | 60 | - | - | - |
| 55 | Qaradüzlü | 8 | - | - | - |
| 56 | Ərəbşahverdi | 22 | - | - | - |
| 57 | Çaylı Vahidbəyli | 5 | - | - | - |
| 58 | Şıxzərli | ? | - | - | - |
| 9 | | 363<br>2 | 177<br>1 | 956 | 7 |

Qeyd: F.İ.K. - nın protokolu rus dilində yazılmışdır. Ona görə siyahıda bir çox kəndlərin adı rus tələfüzünə uyğun verilmişdir. Həmin siyahı bir çox mətbuat orqanlarında, eləcə də soyqırımı ilə bağlı yazılmış kitablarda səhv getmişdir. Odur ki, siyahılarda təhrif olunmuş kəndlərilə adının düzgün formasını burada qeyd etməyi lazım bildik (Murta-Mırtı, Şoradil-Şərədil, Yuxarı Çoğan-Yuxarı Çağan, Tarğan-Tircan, Kilva-Kalva, Kaşad-Qəşəde və s.).

## ƏNGƏXARAN SOYQIRIMI

Mənbələrdən: "Martın 18-də sübh çağı Şamaxıdan 3-4 verst aralıda yerləşən Əngəxaran kəndinə hücum edilir. Əngəxaran camaatı sübh çağı top atəşi səsinə ayılaraq topun haradan atıldığını öyrənmək üçün evlərindən çıxdıqda görürlər ki, kəndi Şamaxı qəzasının malakanları mühasirəyə alıb səngərlərdə oturmuşlar, müsəlmanlar görünən kimi, onlara atəş açırlar. Qarışıqlıq yaranır, malakanlar kəndə soxularaq, kişiləri, qadınları, qalanını mühasirəyə alın kənddən kənara çıxarırlar. Malakanların bir hissəsi əngəxaranlıların əmlakı və mal-qarasını oğurlamağa, kəndin ən yaxşı evlərini yandırmağa başlayırlar. Talan edilmiş əmlakı

və mal-qaranı öz kəndlərinə aparırlar. Kəndin qazmalardan başqa bütün evlərini yandırır və uşaqları müsəlman kəndi Məlhəmə aparıb orada saxlayırlar. 88 nəfər kişini isə, malakan kəndi Çuxuryurda gətirirlər. Kəndə çatmış malakanlar əsirləri bağlarda saxlayıb, bir neçə nəfəri öldürülür. Özü də bədbəxtləri arxa-arxaya söykəyərək, öz tüfənglərinin atəş gücünü yoxlayırmışlar. Qalan 76 nəfər əsir kişini Mədrəsə erməni kəndinə göndərirlər. Yolda iki nəfər öldürülür. Mədrəsə kəndinə ancaq 74 nəfər gətirirlər. Onlardan ikisi – erməni tərəfindən Şamaxı şəhərinə müsəlmanlara hansısa tapşırıqları çatdırmaq üçün göndərilənlər qaçıb xilas olurlar. Qalanları əsir qalırlar. Şamaxıya müsəlman qoşunları gəldikdən və ermənilər Mədrəsə kəndindən getdikdən sonra, əngəxaranlı əsrilərin qohumları və həmkəndliləri onların taleyini öyrənmək üçün Mədrəsə kəndinə gedirlər. Kəndin arxasında onların hamısının meyitlərini tapırlar. Görürlər ki, meyitlər eybəcər hala salınmışdır, qulaqları və burunları, habelə əlləri və ayaqları kəsilmişdir. Bir sıra meyitlərin döşlərində yanıq izləri varmış. Görünür, sağ ikən onların döşləri üzərində ocaq qalanmışdır (seçmələr bizimdir – S.Q.). bundan başqa çoxlu əngəxaranlı aclıqdan, soyuqdan və xəstəlikdən ölmüşdür. Hal-hazırda Əngəxaran əhalisinin yarıdan çoxu azalmışdır”.[89]

Azərbaycan Dövlət Arxivində Əngərxan faciəsi, soyqırımı haqqında daha geniş məlumat vardır. Dindirmə protokollarından aydın olur ki, bu kənddəki faciəni təkcə ermənilər törətməmişdir. Xaç qardaşlarının cinayətlərinə, terroruna tərəfdar çıxan Çuxuryurd, Kirovka malakanları bu işdə daha fəal olmuşlar. Bu baxımdan FİK-nın üzvü A.F.Novitskinin məruzəsi əhəmiyyətlidir.

### Şamaxı qəzasının Əngəxaran kəndində törədilmiş faciə haqqında F.İ.K.-nın üzvü A.F.Novitskinin məruzəsi

“1918-ci ilin 18 martında sübh tezdən, malakanlar yaşayan kəndlərdən – Çuxuryurddan, Cabanıdan (rus), Marevkadan və Astraxanovkadan toplaşmış silahlı malakan dəstələri zəbt olunmuş kəndlərə od vurmuşlar. Müsəlmanlar işə müdafiyəyə hazır deyildilər. Çünki, bir gün əvvəl erməni və malakan nümayəndələri and içmiş və söz vermişlər ki, sülh şəraitində yaşayacağıq və qonşuluq münasibətimizi pozmayacağıq. Əngəxaranlılar da inanmışdılar. Kənd əhalisi özünü itirmişdi. Bilmirdilər ki, hansı istiqamətə qaçsınlar. Dörd tərəfdən də atəş açılırdı. Küçələr meyidlərlə dolmuşdu. Uşaq, qadın, kişi meyidi bir-birinə qarışmışdı. Malakanlar kəndə doluşdular. Heç kəsə aman vermədən, güllədən keçirirdilər. Kəndin mollası Ağababa Hacı Molla Qəhrəman oğlu əlində “Quran” onların qarşısına çıxdı və yalvardı ki, atəşi kəssinlər. Lakin malakanlar, ona atəş açdılar. Bir neçə saatdan sonra Molla Ağababa vəfat etdi.

[89] ARDA. f. 1061, s. 1, iş. 110, vər. 114-115.

Yüz nəfərə yaxın uşaq, qadın, kişi öldürüldükdən sonra kənddə qalan əhalini Məlhəm istiqamətində apardılar. 102 nəfər kişini isə, Çuxuryurd kəndinə doğru apardılar. Əhalini kənddən çıxardıqdan sonra, malakanlar evləri qarət və talan etməyə başladılar. Ən yaxşı evləri və məscidi tamamilə yandırıldılar. Çuxuryurda aparılan kişilərin arasından ən hörmətlilərini elə yoldaca öldürdülər. Malakanlar onları bir-birinə bağlayıb, ikisini bir güllə ilə öldürürdülər, istehza ilə öz tüfənglərini sınayırdılar. Bu vəhşiliklərin başçısı Çuxuryurd sakini Vasili Borisoviç Polovinkin idi. Nəticədə 102 kişidən 78 kişi qaldı ki, onları da Mədrəsə kəndinə apardılar. Yolda onlardan üçünü də güllələdilər. Mədrəsəyə 75 adam çatdırıldı. 75 nəfərdən yalnız iki nəfəri – Ağacan Mehdi oğlu və Cabbar Əliməmməd oğlu qaçıb canını xilas edə bilmişdi. Qalanlarını isə, vəhşicəsinə qətlə yetirmişlər. Onların meyitləri eybəcər hala salınmışdı. Qulaqları və burunları kəsilmiş, gözləri çıxarılmış, başları bədənlərindən ayrılmış, meyitləri tikə-tikə doğranmış, sinələrində yanıq yerləri qalmışdı. Belə vəziyyətlərdə tapılan insanlar

bunlardır: Əliməmməd Xalid oğlu, Babacan Əliməmməd oğlu, Zahid Yengibar oğlu və onun qardaşı Vahab, Şahbaz Mehdi oğlu, Molla Həmzə Əhməd Əfəndi oğlu, Nəsrəddin İbrahim oğlu, Nağdiyə Bəhtəkar oğlu, Heydər Adıgözəl oğlu və qeyriləri.

Əngəxarana hücum zamanı 169 nəfər kişi, qadın və uşaq öldürülmüş, evlər qarət olunmuş, 186 evdən 180-i yandırılmışdır. Bundan əlavə, kəndin məscidi də külə döndərilmişdir. Dəymiş ziyanın ümumi miqdarı 4.969.200 manat təşkil etmişdir.

Starşina Məşədi Qədim Məşədi Qədir oğlu, Cabbar Əli Məmməd oğlu, Ağacan Mehdi oğlu, Ağaşərif Molla Soltan oğlu, Saday Adıgözəl oğlu, Ağasən Məmməd oğlu, İbrahim (atasının adı pozulmuşdur və Fərzəli Gəray oğlunun ifadələrindən, həmçinin tərtib edilmiş protokollara əsasən, foto-şəkillərdən, və Əngərxan kəndinin digər salamat qalmış sakinləri tərəfindən tərtib olunmuş protokollardan törədilmiş faciə ilə bağlı müəyyən təsəvvürə gəlmək olar".

Sonralar Çuxuryurd kənd sakinləri Malakanlar arasından faciəni törədənləri müəyyən etmişlər. Həmin siyahını da olduğu kimi veririk:

1. Polovinkin Boris İvanoviç: 1) Məşhədi Qədim Məşhədi Qədir oğlu (1-4); 2) Əvəz Məmməd oğlu (1-23); 3) Ağa Şərif Molla Soltan oğlu (1-25); 4) Fərzah Gəray oğlu (1-26);
2. Polovinkin Vasili Borisoviç: 1) Məşhədi Qədim Məşədi Qədir oğlu (1-4); 2) Cabbar Əliməmməd oğlu (1-13); 3) Fərzalı Gəray oğlu (1-28);
3. Polovinkin Nikolay Borşoviç: - Məşhədi Qədim Məşədi Qədir oğlu (1-4);
4. Polovinkin Yakov: 1) Məşədi Qədim Məşhədi Qədir oğlu (1-4); 2) Əvəz Məmməd oğlu (1-23); 3) Ağaşərif Molla Soltan (1-25); 4) Fərzalı Gəray oğlu (1-28);
5. Polovinkin Aleksey Alekseyeviçin: Məşhədi Qədim Məşhədi Qədir oğlu (1-4. 42); 2) Nəsrəddin İbrahim oğlu (1-22);

6. Polovinkin İvan Alekseyeviç: 1) Məşhədi Qədim Məşhədi Qədir (1-4); 2) Nəsrəddin İbrahim oğlu (1-22); 3) Fərzəli Gəray oğlu (1-28);
7. Polovinkin Semyon: 1) Saday Adıgözəl oğlu (1-22); 2) Fərzallı Gəray oğlu (1-28);
8. Çərkəzov Yefim: l) Məşhədi Qədim Məşhədi Qədir oğlu (1-4); 2) Cabbar Əliməmməd oğlu (1-13); 3) Ağacan Mehdi oğlu (1-16); 4) Nəsrəddin İbrahim oğlu (1-22); 5) Saday Adıgözəl oğlu (1-22); 6) Ağaşərif Molla Soltan oğlu (1-25); 7) Fərzalı Gəray oğlu (1-28);
9. Yurin İvan Mixayiloviç: 1) Məşədi Qədim Məşədi Qədir oğlu (1-4) və 2) Fərzalı Gəray oğlu (1-28);
10. Yurin Nikita - Məşhədi Qədim Məşhədi Qədir oğlu (1 -i).
11. Yurin Pyotr - 1) Məşədi Qədim Məşədi Qədir oğlu (1-4); 2) Fərzalı Gəray oğlu (1-28);
12. Yurin Kosma İvanoviç - 1) Ağacan Mehdi oğlu (1-16); 2) Nəsrəddin İbrahim oğlu (1-22);
13. Yurin Semyon - Əvəz Məmməd oğlu (1-23);
14. Kastrlyun Andrey - 1) Məşədi - Qədim Qədir oğlu (1-4); 2) Fərzalı Gəray oğlu (1-28)
15. Lanin İvan - Cabbar Əli Məmməd oğlu (1-13);
16. Solomatin Matvey - 1) Məşədi Qədim Məşədi Qədir oğlu (1-4); 2) Fərzalı Gəray oğlu (1-28);
17. Lanin Moisey - Ağacan Mehdi oğlu (1-16);
18. Kojin Mixail İvanoviç - 1) Cabbar Əliməmməd (1-13); 2) Ağacan Mehdi oğlu (1-6); 3) Nəsrəddin İbrahim (1-22); 4) Fərzalı Gəray oğlu (1-28);
19. Kajin Semyon - 1) Ağacan Mehdi oğlu (1-16); 2) Fərzalı Gəray oğlu (1-28);
20. Kojin Yakov - Fərzalı Gəray oğlu (1-28);
21. Darılev İvan - Ağacan Mehdi oğlu (1-16);
22. Polov Semyon - Ağacan Mehdi oğlu (1-16);
23. Pyotr İvanoviç (atası onun gözətçi olmuşdur) - Ağacan Mehdioğlu (l-16);
24. Pyotor İosifoviç - Ağacan Mehdi oğlu (1-16);
25. Gerasimov Boris - Məşədi Qədim Məşədi Qədir oğlu (l-4);

**II Şamaxı Qəzasının Cabanı (rus) kəndindən:**

26. Korolyov İvan – Fərzalı Gəray oğlu (1-28);
27. Stepan Nazariç – Fərzalı Gəray oğlu (1-28).

III. – Göstərilənlərdən başqa zərərçəkən Ağacan Mehdi oğlu (1-16) ifadəsində bildirmişdir ki, o, Cabanılı (rus) İqnatın, Yonanın, Zaxarın, Vasilinin, Pyotrun və Marevka kəndindən Dmitrinin, Mixailin, Yakovun və Vasilinin də orda iştirak etdiyini görmüşdür.

Yuxarıda göstərilənlərdən başqa, Çuxuryurd kəndində Əngəxaran kənd sakini Fərzalı Gəray oğluna dəhşətli işgəncələr vermişdir. Bu belə olmuşdur. Olmuş hadisələrdən bir ay sonra malakanlar belə xəbər yayırlar ki, kim bolşeviklərə təslim olarsa, onu bağışlayarlar. Fərzalı Gəray oğlu o vaxtkı starşina Yefim Çerxezovun yanına gəlir ki, mən bolşeviklərin tərəfdarıyam. Çerxezov əmr edir ki, onu sarısınlar və zirzəmiyə atsınlar. Vasili Borisoviç Polovinkinin gücü ilə əmr icra olunur. Bir azdan onun yanına 5 nəfər malakan da gəlir. Fərzalı onlardan "Bədəl" ləqəbli Yorini və İvan Yorini tanıyır. Onlar Fərzalını ağacla döyürlər, sonra sağ ayağını dəmir dəzgahın arasına qoyub sıxırlar. Diz qapağını sındırırlar. Nəticədə də, o, axsaq qalır.

Bütün bunları nəzərə alaraq, törətdikləri vəhşi cinayətlərin nəticəsi son dərəcə ağır və iztirablı olduğundan həmin şəxslərin cinayətə cəlb olunmasını zəruri hesab edirik.

***Fövqaladə İstintaq Komissiyasının üzvü: A. Novitski***[90]

## ŞAHİDLİK PROTOKOLU

"Biz imzalarımızla təsdiq edirik ki, Əngəxaran kəndi erməni və malakan birləşmələri tərəfindən dağıdılmış və adları aşağıda göstərilən kənd sakinləri qətlə yetirilmişdir: 1. Məlikalı Məlik oğlu, 22 yaş, 2. İsmayıl Məlik oğlu, 35 yaş, 3. Niyaz Eminalı oğlu, 22 yaş, 4. Bilal Molla Ağababa oğlu, 32 yaş, 5. Yunis Molla Ağababa oğlu, 24 yaş, 6. Pənah Mustafa oğlu, 60 yaş, 7. Əlyar Pənah oğlu, 28 yaş, 8. Gülcənnət Həmdulla qızı, 55 yaş, 9. Dövlətbəyim Pənah qızı, 25 yaş, 10. Rübabə Əbdülhəmid qızı, 6 yaş, 11. Bəkir Firudin oğlu, 35 yaş, 12. Şakir İrza oğlu, 23 yaş, 13. Baxşəli İrza oğlu, 25 yaş, 14. Mirzəli Əhməd oğlu, 65 yaş, 15. Məhəmməd Əhməd oğlu, 80 yaş, 16. Əhməd Möhüb oğlu, 22 yaş, 17. Mehdi Ağa oğlu, 5 yaş, 18. Gülməmməd Həsən oğlu, 60 yaş, 19. Gülanə Məhəmməd qızı, 26 yaş, 20. Əmirbala Sirac oğlu, 10 yaş, 21. Ağa Adıgözəl oğlu, 38 yaş, 22. Soltanxanım Ağa qızı, 14 yaş, 23. Əkrəm Hüseyn oğlu, 45 yaş, 27. Qızılgül Dostumamed qızı, 35 yaş, 28. Əliqulu Sarı oğlu, 45 yaş, 29. Əlibala Əliqulu oğlu, 7 yaş, 30. Şahsanəm Həsən qızı, 35 yaş, 31. Atakişi Əhməd oğlu, 40 yaş, 32. Ovçu Məhəmməd oğlu, 100 yaş, 33. Bəgdəmir Ovçu oğlu, 45 yaş, 34. Gülmirzə Bəgdəmir oğlu, 12 yaş, 35. Qərib Oruc oğlu, 32 yaş, 36. Girdalı Qərib oğlu, 8 yaş, 37. Gülbadam Şərbətalı qızı, 4 yaş, 38. Molla Mirzalı Ağamoğlan oğlu, 70 yaş, 39. Əlibala Mirzalı oğlu, 35 yaş, 40. Azadxan Əlibala oğlu, 5 yaş, 41. Mövsüm Taha oğlu, 40 yaş, 42. Şirinbala Şəfi oğlu, 7 yaş, 43. Sitarə Cəfərqulu qızı, 25 yaş, 44. Sarı Xalıq oğlu, 90 yaş, 45. Sadıq Xalıq oğlu, 12 yaş, 46. Ağa Xalıq oğlu, 10 yaş, 47. Qızqayıt Xalıq qızı, 8

---

[90] ARDA. f. 1061, s. 1. iş. 110, vər. 5-6.

yaş, 48. Şərəfəli Əşrəf oğlu, 38 yaş, 49. Rüxsarə Şərəfli qızı, 32 yaş, 50. Türbətəli Əşrəf oğlu, 22 yaş, 51. Əhmədbəkir Əli oğlu, 30 yaş, 52. Soltanməhəmməd Babaş oğlu, 28 yaş, 53. Binəbəyim Əlibala qızı, 11 yaş, 34. Zəhra Əhməd qızı, 70 yaş, 55. Məşədi Ələkbər Gül oğlu, 4 yaş, 56. Xırda Xəndan qızı, 35 yaş, 57. Sona Adil qızı, 80 yaş, 58. Şahbala Şirməmməd oğlu, 15 yaş, 59. Şirbala Şirməmməd oğlu, 11 yaş, 60. Ağahəsən Qədir oğlu, 23 yaş, 61. Sədrəddin Hacı Qəhrəman oğlu, 35 yaş, 62. Türfə Mustafa qızı, 6 yaş, 63. Mərcan Səfərəli qızı, 16 yaş, 64. Adil Gül oğlu, 45 yaş, 65. Gül Bilal oğlu, 2 yaş, 66. Şirbala 18 yaş, 67. Hacı Əli Adil oğlu, 16 yaş, 68. Əbdülhəmid Xudaverdi oğlu, 30 yaş, 69. Babaverdi Abdullahəmid oğlu, 5 yaş, 70. Heybət Kərim oğlu, 7 yaş, 71. Rəhim Eyvaz oğlu, 18 yaş, 72. Abdullaxahq İbrahim oğlu, 25 yaş, 73. Cəmilə İbrahim qızı, 17 yaş, 74. Tura Yusif qızı, 18 yaş, 75. Mərdan Qəni oğlu, 20 yaş, 76. Sitarə İbrahim qızı, 70 yaş, 77. Qarakişi Hacıbaba oğlu, 2 yaş, 78. Suma Qəni qızı, 35 yaş, 79. Nemət Əhməd oğlu, 35 yaş, 80. Həcər Abdul qızı, 35 yaş, 81. Osman İbrahim oğlu, 80 yaş, 82. Əmrah Osman oğlu, 21 yaş, 83. İsmayıl İbrahim oğlu, 19 yaş, 84. Süleyman Novruz oğlu, 22 yaş, 85. Seyidxanım Tarverdi qızı, 90 yaş, 86. Bibixanım Şirin qızı, 10 yaş, 87. Türfə Əhliman qızı, 14 yaş, 88. Babakişi İsmayıl oğlu, 18 yaş, Dürnisə Babaş qızı, 35 yaş, 90. Şeyda Məhəmməd oğlu, 70 yaş, 91. Elçin Mikayıl oğlu, 85 yaş, 92. Nuri Gülməmməd oğlu, 22 yaş, 93. Fərman Mirzəcan oğlu, 11 yaş, 94. Nəbi Nuri oğlu, 14 yaş, 95. Ağacan Nuri oğlu, 12 yaş, 96. Ağamurad Abıs oğlu, 19 yaş, 97. Məmmədağa Murad oğlu, 3 yaş, 98. Ruqiyə Abış qızı, 17 yaş, 99. Əmrulla Teybə oğlu, 75 yaş, 100. Səkinə Əlibaba qızı, 18 yaş, 101. Ağahüseyn Cəfərulla oğlu, 20 yaş, 103. Məmməd Umudalı oğlu, 20 yaş, 104. Paşa Umudalı oğlu, 17 yaş, 105. Cəlaləddin Tağı oğlu, 81 yaş, 106. Teymur İbrahim oğlu, 45 yaş, 107. İbrahim Teymur oğlu, 20 yaş, 108. Umudalı Abdullaqədir oğlu, 55 yaş, 109. Baba Süleyman oğlu, 20 yaş, 111. Mədətalı Abdulqədir oğlu, 70 yaş, 112. Ağa Məhərrəm oğlu, 45 yaş, 113. Ağakişi Nəsrulla oğlu, 21 yaş, 114. Süleyman İsrafil oğlu, 22 yaş, 116. Baxşəli Yusif oğlu, 70 yaş, 117. Ağəli Şirəli oğlu, 23 yaş, 118. Məmməd Umudalı oğlu, 22 yaş, 119. Əlihəsən Umudalı oğlu, 19 yaş, 120. Töhvə Orucalı qızı, 35 yaş, 121. Həbib Rəhim oğlu, 41 yaş, 122. Balaqardaş Həbib oğlu, 19 yaş, 123. Əhmədalı Ağamoğlan oğlu, 75 yaş, 124. Camulla Rəsul oğlu, 45 yaş, 125. Seydulla İbad oğlu, 22 yaş, 126. Şakir İbad oğlu, 18 yaş, 127. Allahverdi Ocaqqulu oğlu, 90 yaş, 128. Qarakişi Alıverdi oğlu, 24 yaş, 129. Aslan Qafar oğlu, 35 yaş, 130. Zinyət Alim qızı, 28 yaş, 131. Pirməmməd Əziz oğlu, 25 yaş, 132. Orucalı Kərim oğlu, 70 yaş, 133. Sirac Hacıgəray oğlu, 60 yaş, 134. Əlimustafa Mustafa oğlu, 22 yaş, 135. Xankişi Mustafa oğlu, 3 yaş, 136. Mövsüm İsmayıl oğlu, 18 yaş, 137. Səmərrux Seyid Məhəmməd qızı, 28 yaş, 138. Hacı Polad Hacı oğlu, 66 yaş, 139. Polad Hacı oğlu, 20 yaş, 140. Zeynal Hacı oğlu, 60 yaş, 141. Ziyad Mirzə oğlu, 40 yaş, 142. Bircə Bəşir qızı, 12 yaş, 143. Ağaşirin Nəsrulla oğlu, 20 yaş, 144. Nəzərəli Səfər oğlu, 40 yaş.

İmzalar: Əngəxaran kənd sakinləri: 1. Ağacan Mehdi oğlu. 2. Fərzalı Gəray oğlu. 3. Babaverdi Əhməd oğlu. 4. Saday Adıgözəl oğlu. 5. Məşhədi Qədim Məşhədi Nadir oğlu. 6. Molla Həmzə Əhməd Əfəndi oğlu[91].

## MƏRZƏNDİYYƏ SOYQIRIMI

İsrəfilova Bibigül Süleyman qızının yaddaşından: Ermənilərin Şamaxını yandırması xəbərini eşidən kimi camaat atla, ulaqla, piyada Pirsaat boyunca qaçmağa başladılar. Məqsədləri Kür üstünə getmək imiş. Sən demə, erməni caniləri hər tərəfdən kəndlərə basqın edirlərmiş. Kəndimizin bir dəstəsi tez uzaqlaşır. İkinci dəstəsini isə Çaylı obası ilə Quşçu obası arasında saxlayırlar. Mirəli Məmmədrza oğlu, Dursun Alı qızı, Gülsüm Sərxan qızı, Ülkər Sərxan qızı, Hacı Mürşüd, Yaxşı Hacı Mürşüd qızı, Hacalı Hacı Mürşüd oğlu, Dursun İsmayıl qızı, Eminə Dursun qızı, Gərəgməz Fətəli qızını elə yoldaca vəhşicəsinə öldürdülər. Sonradan həmin şəhidləri Quşçu qəbiristanlığında dəfn ediblər. Bundan əlavə, kəndimizin mollaları - Molla Əmircan və Molla Qəni qardaşlarını ağsaqqal kimi Şamaxıya - ermənilərlə danışığa dəvət ediblər və ordaca qətlə yetiriblər. Mərzəndiyə kəndində qalan yaşlıları, xəstələri isə, orada öldürüb, kəndi tamamilə yandıraraq, daş üstündə bir dənə daş qoymamışlar. Türklər gələndən çox sonra qaçqın və köçkünlər geri qayıdırlar. Məlum olur ki, bir çox ailələrdən bir nəfər də sağ qalmamışdır. Bir sözlə ermənilər bizim kəndə yaman dağ çəkiblər”.

## QUŞÇU SOYQIRIMI

Ermənilərin dəhşətli faciələr törətdikləri kəndlərdən biri də Quşçu olmuşdur. Erməni cəlladları bu qədim kənddə 192 nəfər kişi, 115 nəfər qadın və 25 nəfər uşaq qətlə yetirmişlər. Bu barədə 1919-cu il aprel ayının 18-də kənd sakini Səbzəli Paşa oğlu Muradov Fövqəladə İstintaq Komissiyasına belə bir məlumat vermişdir: “Mən, Muradov Səbzəli Paşa oğlu Şamaxı uyezdinin Quşçu kəndinin starşinası, savadlı, 42 yaşım var, müsəlmanam. Bizim Quşçu kəndi Şamaxının 20 verstliyində yerləşir. Ermənilər bizim kəndə 2 dəfə basqın etmişlər. Birinci dəfə 1918-ci ilin mart ayında - dəqiq yadımdadır, bizim kəndə ermənilər səhər tezdən soxuldular. Əvvəlcə onlar kəndi uzaqdan atəşə tutdular. Biz kənddən çıxıb Abdulyan qəzasına tərəf çıxmalı olduq. Yol boyu ermənilər bizim üzərimizə hücum çəkib, qırmağa başladılar. Kəndə soxulan ermənilər ən yaxşı evləri yandırır və bütün kəndi qarət edirdilər. Heyvan-qaranın hamısını aparırdılar. Əsgərlərin hamısı ermənilərdən ibarət idi. 15 gündən sonra biz kəndimizə qayıtdıq. Bir gün keçəndən sonra bu dəfə malakanlar bizə hücum etdilər. Biz yenidən qaçmağa üz

[91] ARDA. f. 1061, s.l.iş. 100, vər. 117-118.

qoyduq. Onlar kəndə girib, onu yenidən dağıtmışlar. Biz kəndə qayıtdıqdan sonra Mərəzədən iki malakan gəlib bizə dedi ki, biz bolşeviklərə tabe olmalı və silahları onlara təhvil verməliyik. Yalnız bundan sonra sizin rahatlığınız ola bilər, dedilər. Biz razılaşdıq və təslim olduq.

Hətta akt bağladıq. Hər iki hücum zamanı çoxlu itki vermişik. 300 nəfər adam öldürülmüş, kənd yandırılmışdı”.[92]

Ermənilərin kənddə törətdiyi faciələr barədə ixtiyar yaşlılar - Nəcməddin Qüdrət oğlu (1924-2001), Ağacan Ağalar oğlu (1918-1993), Qədir Əhmədağa oğlu (1916-1993), Misir Hacalı oğlu (1923-1994) Saçlı Soltan Mehdi qızı (1920-1998) tərəfindən xeyli məlumatlar əldə etmişik.

Ağacan Ağalar oğlunun yaddaşından: “Həmin vaxt qırğını öz gözləri ilə görmüş atam rəhmətə gedənə qədər yeri düşəndə deyərdi: “Bala, ermənidən bizə dost olmaz. Onlar kənd adamlarına qarşı elə işgəncələr vermişlər ki, heç bir yerdə görünməmişdir. Gözlərinin qarşısında balası öldürülən ananın vəziyyətini bir anlığa gözünüzün qabağına gətirin. Və yaxud, oğlu gözləri qarşısında işgəncə ilə öldürülən qoca atanı fikirləşin. Arxa-arxaya bağlanmış, ər-arvadın bir güllə ilə öldürülməsini təsəvvür edin. Heç bir məmləkətdə belə qırğın törədilməyib. O, da yadımdadır ki, ayaqyalın, başıaçıq yaşlı insanlar, körpə uşaqlı qadınlar qaça bilməyib Əliçapan dağının koğuşlarına pənah aparmışlar. Boz ayın (mart ayı - müəllif) soyuğu, sazağına tab gətirməyən 22 insanın çoxu on beş gün içində ölmüş və ancaq 8 nəfəri salamat qalmışdır. Onların da hamısı xəstəliyə tutulmuşdur. Bir neçə gündən sonra onları səkkizi də sətəlcəmdən vəfat etdi: Musa Nağı oğlu, Güllü Bayram qızı öz körpəsi ilə, Qədir Mirzəqulu oğlunun, Gülqız Babasəlim qızının adı indi yadımdadır. Amma indi o, kafirlərlə bir yerdə yaşayır. Hər şeyi də unutdurdular bizə. Amma biz şahidlər heç vaxt o zülmü unuda bilmərik”.



Ağacan Ağalar oğlu

Nəcməddin Qüdrət oğlu və Saçlı Soltanmehdi qızının yaddaşından: “Ermənilərin Bəylər obasının yanında atdıqları güllə səsindən kənddə olan əhali pərən-pərən düşdü. Qəfil hücumdan qorxuya düşən əhali Qararx, Şıxbörkü, Çillik istiqamətində ayağıyalın, başıaçıq qaçmağa başladı. Amma xəstə, qoca, hamilə qadın və uşaqlar kənddən çox da aralana bilmədilər. Kafirlər kimə çatırdılarsa, qılınc ilə qətlə yetirir və ya güllə ilə vururdular. O zaman qaçanlar arasında ancaq Əhmədov Məhəmməd və Qəniyev Hacalıda tüfəng var idi. Çillik yolu ilə qaçanların ardınca ermənilərin gəldiyini görən Hacalı və Məhəmməd düşməni karıxdırmaq üçün hərdən dayanıb düşmən tərəfə bir neçə güllə atırdılar. Kafirlər,

[92] ARDA. f. 1061, s. 1. iş. 85, vər. 19.

istər-istəməz, ləngiyirdilər. Ümumiyyətlə, yağı düşmən kəndimizi viran etdi, mal-qaranı, taxıllarımızı özü ilə apardı. Üç yüz nəfərdən artıq insanı faciəli şəkildə qətlə yetirdi. Kəndə qayıdanda daş-daş üstündə qalmamışdı”.[93]

Mənbələrdən: “Quşçu” kənd starşinası S.Muradovun tərtib etdiyi aktdan:

Mən, Quşçu kəndinin starşinası və 600 evdən seçilmiş sakinlər, 1919-cu ilin aprelin 9-da tərtib edirik, həmin aktı, ondan ötrü ki, erməni talançılarının mart-aprel ayında bizim kənddə törətdikləri cinayətlərin ağır nəticələri aşağıdakı kimi olmuşdur:

1. Öldürülənlər 192 kişi, 115 qadın, 25 uşaq.
2. Yaralananlar yoxdur.
3. Cəmi ziyan 11475 000 manat (Azərb.SSR MDAİ f. 1061 iş 1 vər 22).[94]

## NABUK SOYQIRIMI

Qozlu (Xilmilli) kəndinə daha yaxın olan Naburda erməni və malakanların törətdikləri vəhşiliklər barədə də müxtəlif sənədlər, rəsmi məlumatlar vardır. 23 noyabrda Nabur kənd sakinlərindən bir qrupu Fövqəladə İstintaq Komissiyasına yazdıqları ərizədə erməni vəhşilərini bu cür göstərmişlər: “Erməni basqınına kimi bizim kənddə evlərin sayı 280, əhalinin sayı isə 1486 nəfər idi. Ermənilər kəndə basqın edərkən, təxminən, 200 evi yandırmış, 60 nəfər kənd sakinini öldürmüşdülər”.[95]

Nabur kəndində törədilən cinayəti həmin ilin 13 noyabrında kənd sakinlərinin bir qrupunun dindirmə protokolunda daha aydın ifadə olunur. O, zaman kənd sakini Sunalı Novruz oğlu hökumət nümayəndələrinə belə məlumat vermişdir: “Mənim adım Sunalı Novruz oğludur. 70 yaşım var. Müsəlmanam, savadsızam. Ermənilər bizim kəndə axşama yaxın hücum etdilər. Biz müdafiə olunmaqda aciz idik. Buna görə də dağlar arasında yerləşən “Qarayazı” adlanan yerə tərəf qaçdıq. “Qarayazı” da bir ay qalmalı olduq. “Türklər gələnə kimi orada gözlədik. Ermənilər bizim kənddən 60 nəfər öldürmüş, 200-ə yaxın evi, bütünlüklə dağıtmışlar”.[96]

Yaddaşlardan: Nabur kəndinin 20-yə yaxın 70-80 yaşlı sakinlərilə görüşmüşük. Onların bəziləri 10-12 yaşlarında olarkən dəhşətləri gözləri ilə görmüşdülər. Dedikləri kimi, uşaq yaddaşlarına həkk olunmuş o dəhşətlər “indinin özündə də yaddaşlardan silinməmişdir”.

---

[93] Hər iki xatirə şəxsi axrivimizdədir – S.Q.
[94] ARDA. f. 1061, s. 1. 85, vər. 22.
[95] ARDA. f. 1061, s. l. iş. 6, vər. 138.
[96] ARDA. f. 1061, s. l. iş. 6, vər. 137.

Məhəmməd Nuruş oğlunun (100 yaş) dediklərindən: "Səhv etmirəmsə, 1918-ci ilin yazı idi. Xəbər çıxdı ki, ermənilər Şamaxını yandırmış, yüzlərlə əhalini qətlə yetirmişlər. Artıq ermənilərin bir hissəsi gəlib indiki Xilmilidə qərar tutmuşdur. Bizim ərazilərin yolunu ermənilərə lənətə gəlmiş "urus" göstərir. Həmin urusun birinin adı yadımdadır. Ona Mirzə Pevil (yəqin ki, Pavel - S.Q.) deyirdilər. Camaat bilmədi neyləsin. Kənd ağsaqqallarının məsləhəti ilə adamlar dağlara çəkilməyə başladılar. Kənddə düşkün qoca və xəstələr qaldı. Gecə qaranlıq düşəndə, kənd sakinlərindən bir qrup adam kəndə gəlir, taxıl quyularından buğda götürüb dağda qalan əhaliyə çatdırırdı. Biz də qorğa qovurub birtəhər yaşayırdıq. Bizim kənd sakinlərindən bir qrupunu ermənilər ələ keçirə bilmişdilər. Həmin adamları Qozlu çayda olan "Nikolay dəyirmanı"na yığmışdılar. Bu zaman səs çıxdı ki, türklər gəlirlər. Ermənilər kəndi yandırıb Xilmilliyə çəkildilər. Kəndə qayıtdıq. Gördük ki, kənd yanmış, xarabazara çevrilmişdir. Taxıl quyularının arpa-buğdasını aparmış, qalanlarını isə yandırmışlar. Kənddə onlarla meyit var idi. Kəndin mollası Molla Əhməd qoca və xəstə olduğu üçün dağa gedə bilməmişdi. Onun böyük qızı Sitarə camaatla dağlara çəkilmiş, kiçik qızı Fatma isə, kənddə atasının yanında qalmışdı. Onların hər ikisinin yandırılmış meyidini evlərinin yanında tapdıq. Bütün qətlə yetirilənlərin cəsədləri yandırılmış və ya qılıncla doğranmışdı. Allah-təala türklərin dadına çatsın, yoxsa, əhalinin hamısı dağlarda, dərələrdə məhv olacaqdılar".

## SÜNDÜ SOYQIRIMI

Soyqırıma məruz qalan Şamaxı kəndlərindən biri də Sündü olmuşdur. Mənbələrdə bu kəndin 250 erməni daşnakları tərəfindən qətlə yetirildiyi göstərilir. Amma bu fakt o qədər də dəqiq deyildir.

Fövqəladə İstintaq Komissiyasının sənədlərində. Sündü kəndində tərtib olunmuş aktda oxuyuruq: "Biz aşağıda imza edən Şamaxı uyezdinin Sündü kəndinin sakinləri 1918-ci il noyabrın 8-də keçirilən iclasda aşağıdakı qərara gəlmişik:

1. Ermənilərin bizim kəndə basqınına qədər evlərin sayı 433 və əhalinin sayı 2553 nəfərdən ibarət olmuşdur.
2. Erməni basqını zamanı 198 ev yandırılmış və 295 nəfər öldürülmüşdür".[97]

Həmin aktda öldürülən kənd sakinlərinin adı və soyadı da göstərilmişdir. Amma bizim yaşlı kənd sakinlərindən öyrəndiklərimizdən aydın olur ki, Sündü kəndində qətlə yetirilənlərin sayı 350 nəfərdən çox olmuşdur.

[97] ARDA. f. 1061, s.l.iş. 6, vər.48.

**Hacı Molla Səbzalı:** "Ermənilər bizim kəndə yaman divan tutublar. Mən onda uşaq olmuşam. Amma yadımda qalanlar və eşitdiklərim çoxdur. Əvvəla, onu deyim ki ermənilərin Qozludan gəldiklərini eşidən camaat kəndi tərk edir. Kəndə çatanda onlar ilk əvvəl yaşlı kişi Qocalı Cəbi oğlu və Töhfə qarını saxlayırlar. Onları əzab-əziyyətlə qətlə yetirirlər. Kənddə əllərinə keçənləri bir yerə cəm edirlər. Sonra onları kəndin aşağısına - Şakirli bağı deyilən yerə aparıb orada öldürür və cəsədlərini dərəyə töküb üstünü örtürlər. Anam deyirdi ki, Fatma qarını kəndin içindəki iydə ağacından asıb diri-diri od vurub yandırmışlar. Bir də deyirdi ki, gavurlar, ananın gözləri qarşısında iki uşağını öldürüb, atın ayağı altına atıblar. Ana uşaqlarına cumanda güllə ilə vurub öldürürlər. Kənddə əllərinə keçən mal-qaranı Qozlu kəndinə aparırlar.

Yaşım çoxdur. Alman savaşında da olmuşam, ermənilərin dinc əhaliyə qarşı törətdikləri vəhşiliyin isə oxşarını görməmişəm. Bu yaşda da həmin hadisələri xatırlayanda tüklərim biz-biz olur, üşənirəm. Bizi erməni bəlasından türk ordusu xilas etdi. Yoxsa, bu torpaqda bir dənə də olsun azərbaycanlı qalmayacaqdı!.. Sonralar biz uşaqlar xilaskar türk ordusunun adına yazılmış şer də əzbərləmişdik. Bircə parça yadımda qalıb:

Xaçpərəstlər tez Qozluya doldular,
Xaç çəkdilər, başlarını yoldular,
Türk ki, gəldi, saman kimi soldular,
Bir də gördüm, qoşun sanbasan gəlir.

Donuz otarmaq kafirlər peşəsi,
Nə başladı ermənin vay səsi,
Türklərin ala gözlü paşası,
Düzülüb dalbadal, yanbayan gəlir.

**Bayazid Əbilqasım oğlunun dediklərindən:** "Atam deyərdi ki, ermənilər malakanların kəndimizə hücum sorağını eşidən kimi, ayağı yol tutan qaçıb başını qurtardı. Kəndə qalanların hamısı qətlə yetirildi. Bir müddət sonra geri qayıtdıq. Hamının taxıl quyuları vardı. Kafirlər taxılları götürüb, quyuları öldürdükləri insanların meyitləri ilə doldurmuşdular. Camaat quyuda olan meyitləri çıxarıb dəfn etdilər. O meyit yox idi ki, ermənilər onun bədənində onlarla dəlmə-deşik açmasın, gözünü çıxarmasın, qulaqlarını kəsməsin, alnına xaç çəkməsin".[98]

**Aşıq İsmi Məmmədnəbi oğlu.** 1860-cı ildə Sündü kəndində anadan olmuşdur. Gözəl səsə və təbə malik olmuşdur. Gənc yaşlarından aşıqlıq sənətinə yiyələnən Aşıq İsmi Şirvan ərazisində məşhur olmuşdur. O, Aşıq Daşdəmir, Aşıq Nurəddin, Aşıq Bilal, Aşıq Şamillə dost olmuşdur. Erməni-malakan cəlladları

[98] Xatirə şəxsi arximizdədir – S.Q.

Sündü kəndini odlara qalayıb, əhalini kütləvi sürətdə məhv etmişlər. Aşıq İsmi də həmin faciənin qurbanlarından olmuşdur. Aşığın beş şerini əldə edə bilmişik.

Hər insandan lələ olmaz,
Sən Kərəm ləlesinə bax.
Dillə ürək düz olmasa,
Duy ürəyin səsinə bax.
***
Nadən gəlib keçə başa,
Bir vicdan ki, dönə daşa,
Döz belə gərdişə, yaşa,
Onda işin tərsinə bax.
***
Dost tutanda, yar seçəndə,
İsmi, gəl yanılma sən də,
Bir adamla yol gedəndə,
Kök-soyuna, irsinə bax.

Haşiyə: Qarabağ döyüşündə Sündü kəndinin də say-seçmə oğulları şəhid olmuşdur. Telman, Cavid, İlyas, Habil və başqaları.

Azərbaycanın Milli Qəhrəmanı Şikar Şikarov: O, 1953-cü ildə Bakı şəhərində anadan olub. Bakıdakı 46 saylı orta məktəbi bitirib, Bakı Ali Ümumqoşun Komandirlər məktəbinə daxil olmuş, sonra Uzaq Şərqdə Ussuriysk şəhərinin Poqraniçnı qəsəbəsində rota-batalyon komandiri işləmişdir. Frunze adına hərbi akademiyanı bitirəndən, sonra Ukraynada qərargah rəisi vəzifəsində çalışmışdır. Erməni faşistlərinin fitnəkarlığından xəbər tutan polkovnik vətənə qayıdır. Azərbaycan Müdafiə Nazirliyində Baş Qərərgah rəisinin müavini təyin olunur. 1992-ci ildən cəbhəyə yollanır, bir çox döyüş əməliyyatlarının hazırlanmasında iştirak edir. Həmin ilin iyun ayının 13-də Tərtərdə gedən döyüşlərdən birində şəhid olur. O, Bakıda "Şəhidlər Xiyabanında" dəfn edilir. Respublika Prezidentinin Fərmanı ilə ona Milli Qəhrəman fəxri adı verilmişdir. Hazırda Sündü kənd orta məktəbi onun adını daşıyır. Oğlu Faiq atasının yolunu davam etdirir - hərbiçidir.


Azərbaycanın Milli Qəhrəmanı
Şikar Şikarov

## CƏYİRLİ SOYQIRIMI

Şamaxı qəzasında ermənilərin yandırıb talan etdiyi kəndlərdən biri də Cəyirli olmuşdur. Arxiv sənədlərində bu kənddə ermənilərin 75 nəfəri (40 kişi, 20

qadın və 15 uşaq) qətlə yetirildiyi bildirilir. Bu barədə kənd starşinası Molla Mirzəligilin tərtib etdikləri aktda oxuyuruq: "Mən Cəyirli kəndinin starşinası (kənd 165 evdən ibarətdir) kəndin hörmətli adamlarından ibarət komissiya 1919-cu ilin aprel ayının 3-də tərtib edirik, həmin aktı ondan ötəri ki, 1918-ci ilin mart ayında ermənilərin bizim kəndə basqını zamanı aşağıdakı qaydada ziyan dəymişdir:

1. Öldürülənlər: 40 kişi, 20 qadın, 15 uşaq.
2. Yaralananlar 2 kişi, 2 uşaq.
3. Evlər və binalar dağıdılmış və 500 000 manat dəyərində
4. Aparılmış və öldürülmüş mal-qara, 500 baş, 27000 00 manat, dəyərində maddi ziyan dəymişdir.
5. Xırda baş heyvan - 700 baş, - 700 00 manat dəyərində.
6. Taxıl məhsulları aparılmış - 2 milyon manat dəyərində.
7. Ümumi ziyanı - 9720 000[99] manat dəyərində.

Aşıq Barat Əhməd bəy oğlunun (1916-1994) xatirələrindən: Bizim kəndimiz malakan kəndlərindən Mərəzə və Xilmilliyə yaxındır. 1918-ci ildə bizim kəndə ilk Xilmilli malakanları hücum edib, sonra da Mərəzə malakanları gəliblər. Camaat xəyanətdən 2-3 gün qabaq xəbər tutan kimi kənddən çıxmağa başlayıblar. Özü də Küdrü düzündən Cəyirli qışlağına. Kənd sakinlərindən qocalar, xəstələr, eləcə də, imkanı olmayanlar çıxa bilməmişlər. Camaatın mal-qarasının çoxusu da Cəyirlidə qalmışdır. Erməni-malakan dəstəsi kəndi talan edib, əhalini müxtəlif üsullarla qətlə yetiriblər. Anam deyərdi ki, Baba kişi xəstə olduğu üçün kənddən çıxa bilmir. Oğlanlarından ikisi və anaları ataları ilə kənddə qalırlar. Qardaşlar ermənilərin gəldiyini görüb, quyuda gizlənirlər. Görürlər ki, cəlladlar xəstə kişini və qoca qarını sürüyə-sürüyə evdən çıxartdılar. Qardaşlar bu mənzərəyə tab gətirə bilməyib, quyudan çıxır və ermənilərlə əlbəyaxa olurlar. Əllərindəki xəncərlə hərəsi bir ermənini cəhənnəmə vasil edir. Bundan qızışan ermənilər qardaşları güllə ilə vurur, sonra ata-ananın gözü qarşısında başlarını kəsirlər. Bu mənzərəni görən ata-ana yerlərindəcə donub qalırlar, dilləri tutulur. Ermənilər ata-ananı gətirib övladlarının yanında öldürürlər.

Ümumiyyətlə, yağı düşmən Cəyirlidə yüzdən çox insanı faciəli şəkildə qətlə yetirmişdir, Səlyan, Hacıqabul ərazisinə pənah aparanlar bir daha geri - Cəyirliyə qarışmayıblar".

Mirzə Aslan oğlu - həmin ildə Cəyirlidən Salyanın Qarabağlı kəndinə köçənlərdən olmuşdur. El şairi gördüyü müsibətləri şerlərində bəyan etmiş, ermənilərə öz nifrətini bildirmişdir. Əfsus ki, el şairinin bu səpgili şerləri 1920-ci ildən sonra məhv edilmişdir. O, 1924-cü ildə Salyanın Qarabağlı kəndində vəfat etmişdir. El şairinin on beş şerini əldə etmişik.

[99] ARDA. f. 1061, s. 1. iş. 85, vər. 4.

Ay ağalar, sizə tərif eyləyim,
Bahar olcaq açır gülü, Şirvanın
Bu yaz qara gəlib millət "ah" çəkir,
Düşübdür tapırğa[100] eli, Şirvanın.
***
Dörd tərəfdən düşmən axıb gəlibdi,
Axıb göz yaşımız selə dönübdü,
Eşitmişəm Azad bəy[101] də ölübdü,
İndi bildim sınıb beli Şirvanın.
Yalan olsun, qurban kəsim adına,
Beş kimsənə özü yetsin dadına,
Hərdən-hərdən düşür, mənim yadıma,
Soyuq bulaqları, seli Şirvanın.
***
Top-topxana gəlir Gəncə elindən,
Ermənini dara çəkək dilindən,
Namus, qeyrət, dövlət getdi əlindən,
Gör kimə qalıbdı malı Şirvanın?[102]

## PADAR SOYQIRIMI

Fövqaladə İstintaq Komissiya sədri A.Xasməmdov F.İ.K.-nın üzvü A.F.Novatskinin 1918-ci ilin yayına erməni silahlı birləşmələrinin Şamaxı qəzasının Padar elatında törətdikləri faciə haqqında məruzəsi:

**5 fevral 1919-cu il.**

"1918-ci ilin yayında, erməni əsgər dəstələri və Şamaxı qəzasının Mədrəsə, Kələxana, Kərkənc, Gürcüvan, Saqiyan və digər kəndlərinin erməniləri, tüfənglə, qılıncla silahlanaraq, qəflətən Padar elatına hücum etdilər. Padar elatının əhalisi öz ev əşyalarını, dəvələrini, atlarını, camışlarını, qoyun-quzularını qoyaraq, canlarını xilas etmək üçün qaçmağa başladılar. Ermənilər padarları təqib edərək, heç kəsə aman vermədən, vəhşicəsinə uşaqları, qadınları qılıncla doğrayır, süngüyə keçirir, güllə ilə öldürürdülər. Bu minvalla 25 qadın, 80 kişi və 15 uşaq qətlə yetirdilər. Ermənilər cavan qadın və qızları da zorlamışlar. Faciəni törətdikdən sonra onlar 3 min baş iribuynuzlu mal-qaranı, 60 min baş xırdabuynuzlu heyvanları aparmışlar. Dəymiş ziyanın miqdarı 72 milyon manat təşkil edir. (Seçmələr bizimdir - S.Q.)

---

100 Tapırğa - qaçqın, didərgin.
101 Azad bəy Qocamanbəyov. (Əslində Azad bəy 1920-ci ildə ölmüşdür).
102 El şairinin çap olunmayan əsərləri arximizdədir – S.Q.

Padar elatının starşinası Ağacan İbad oğlunun ifadəsindən məlum olur ki, onlara hücum edən ermənilərin çoxusunu üzdən tanıyır, amma ad-familiyalarını bilmir. Amma dəstənin başında Stepan Lalayevin durduğunu deyir. Onunla birlikdə dəstəyə rəhbərlik edən Şamaxılı ermənilər - Qavril Qaroğlanov, “Uzun” Mixail, Mixail Petrosov, “doktor” Saxdro Ağrıyev (Mədrəsə sakinidir) və qeyriləri olmuşlar.

Yuxarıda göstərilənləri nəzərə alaraq, Stepan Lalayev, Qavril Qaroğlanov, “Uzun” Mixail, Mixail Petrosov və Saxdro Ağriyev 13, 129, 927, 1633, 1636 və 1453 saylı cinayət məcəlləsi ilə ittiham olunmalıdır”.

*Komissiya üzvü:*
*Novitski' (imzası)*

## ƏRƏBQƏDİM SOYQIRIMI

Şamaxının ən çox ziyan çəkmiş, qarət edilmiş, sakinləri müsibətlərə, faciələrə düçar olmuş kəndlərindən biri də Ərəbqədim olmuşdur.

Fövqəladə İstintaq Komissiyasının protokolunda bu kənddə 378 nəfərin qətlə yetirildiyi qeyd olunsa da, əslində, bu kənddə öldürülənlərin sayı 500 nəfərdən çox olmuşdur. Özü də qətlə yetirilənlər arasmda uşaqlar daha çoxdur. Siyahıya düşən uşaqların sayı 78 nəfərdirlər. Bu kənddə qətlə yetirilənlər haqqında vaxtilə tərtib edilmiş aktda oxuyuruq:[103] Mən Ərəbqədim kəndinin starşinası (kənd 358 evdən ibarətdir) və kənddən nümayəndə seçilmiş hörmətli sakinlərilə 1919-cu ilin aprel ayının 4-də tərtib edirik həmin aktı ondan ötrü ki, erməni yaraqlılarının 1918-ci il mart ayında bizim kəndə basqını zamanı aşağıda göstərilən qaydada ziyan dəymişdir:

1. Öldürülənlər: 200 kişi, 100 qadın, 78 uşaq
2. Yaralanan yoxdur
3. Dağıdılmış evlər və binalar: 1500 000 manat dəyərində.
4. Evlər və binalar yandırılmışdır.
5. Mal-qara aparılmışdır - 308 baş, 9240000 manat məbləğində.
6. Xırdabuynuzlu heyvan aparılmışdır - 15000 baş.
7. Buğda, arpa və s. ərzaq oğurlanmışdır - 1 milyon dəyərində
8. Ümumi ziyan - 6,474.000 manat, dəyərində.

**Kənd starşinası: Əcəlgül Əli oğlu**
**Kənd mollası: Molla Fətəli Əbdürrəhim**
**Kənd sakinləri: İmza 9 nəfər**[104]

[103] ARDA. f. 1061, s. 1. iş. 4, vər. 6.
[104] ARDA. f. 1061, s. 1. iş. 85, vər. 14.

## DİNDİRİLMƏ PROTOKOLU

"Alıxan bəy Eyyubbəyov, 36 yaşlı, savadlı, Şamaxı qəzasının Ərəbqədim kənd sakini, müsəlman".

"Şamaxı faciəsindən üç gün sonra məni, Şamaxı İcraiyyə Komitəsinin üzvü kimi, şəhərə dəvət etdilər. Məqsəd isə, törədilən faciə, dağıdılan əmlak, öldürülən adamlar haqqında məlumatlar toplamaq idi. Mən şəhərə girəndə, şəhər yanmış tonqalın külünə bənzəyirdi. Cinsi ayırd edilə bilməyən meyitlər üst-üstə qalaqlanmışdı. Şəhərin müsəlmanlar yaşayan hissəsindən əsər-əlamət qalmamışdı. Erməni və malakan silahlı dəstələri, şəhəri darmadağın etmişdilər. Dağıntılardan hiss olunurdu ki, şəhərin dörd tərəfindən toplarla güclü atəşə tutulmuşdur. Bizə məlum oldu ki, güclü silahlanmış ermənilər, əvvəlcə ermənilər yaşayan Mədrəsə kəndinə toplaşmış, sonra isə, şimal-şərq istiqamətindən malakanlarla birləşərək şəhərə eyni vaxtda atəş açmışlar. Onlar evlərə soxulmuş, uşaq, qoca, xəstə olanlara aman vermədən, güllədən keçirmiş, əmlaklarını isə sakitcə daşıyıb aparmışlar. Əvvəlcə onlar şəhərin aşağı hissəsini yandırmağa başlayıblar. İşi belə görən müsəlmanlar ağ bayraq götürüb emrənilərə tərəf gedib. Lakin heç bir şərt qəbul etməyən erməni silahlı cəlladları, onları atəşlə qarşılayıb. Bir qədər sakitlik yaranandan sonra şəhərdən çıxmış sakinlər öz yurdlarına qayıtmağa başladılar. Bu o vaxtlar idi ki, türk-islam qoşunu artıq Şamaxıya gəlmişdi. Lakin çox keçmədən, türk əsgərləri gedən kimi, ermənilər yenidən Şamaxıya soxulmuş, ikinci dəfə daha dəhşətli faciələr törətmişlər. Şübhəsiz, bunların başında Stepan Lalayev durmuşdu. Samvel Dolqeyev, zabit İvanov, dəllək Ovanes, şamaxılı ermənilər - Qevorqi Karaoğlanov, Gülbəndov, təlimatçı (Şuşa qəzasından) Ağamalov, Mixail Artumanov, İvanov (zabitin atası) və qeyriləri törədilən faciənin rəhbərlərindən idilər. Faciədən bir neçə gün sonra Şamaxı qəzasının "Acıdərə" adlanan kəndini də ermənilər darmadağın etmişlər. Dəymiş ziyan milyon manatlarla hesablanır".

"İmza"[105]

## MƏRƏZƏ-TATAR SOYQIRIMI

Erməni silahlı qüvvələri Şamaxının bir çox kəndləri yaşayış sahələrində dəhşətli qırğınlar törətmiş, evləri tam yandırmışlar. Həmin kəndlərdən biri də vaxtilə Mərəzə-tatar (Gəmüstü - Nərimankənd) olmuşdur. Bu barədə Fövqəladə İstintaq Komissiyasının tərtib etdiyi protokolda kəndin starşinası İbrahimxəlil Tapdıq oğlu məlumat verməlidir: "Mərəzəli kəndinin starşinasıyam, 55 yaşım var. Savadsızam. Bizim Mərəzəli kəndi malakanlar yaşayan eyni adlı Mərəzəli kəndinin

[105] ARDA. f. 1061, s. l. iş. 105, vər. 97-98.

bir verstliyində yerləşir. Şamaxı şəhərinə birinci basqından sonra Gəncə-müsəlman dəstələri Qaziya kəndinə - geriyə qayıldıqdan sonra biz malakan Mərəzəlisinə yad adamların gəldiklərini müşahidə etdik. Bu yad adamların böyük hissəsi ermənilərdən ibarət idi. Bu zaman Bakıdan qayıdan iki malakan İvan Koreev və Vitali Popov bir neçə şəxslə bizim kəndə gəldilər və kənd ağsaqqallarından tələb etdilər ki, kənddə olan tüfənglər yığışdırılmalıdır və bolşeviklərə təslim olmaq lazımdır. Onlar bir də dedilər ki, əsas rəisləri tezliklə Bakıdan Mərəzəliyə gələcəkdir. Biz həmin adamlardan möhlət istədik, vəziyyətimizi götür-qoy etdik. Bizlərdən bəziləri təklif etdi ki, onların sözlərinə inanmaq lazım deyildir. Və qarşıdurmadan qorxub bizim qışlağa - Qəbristan (Qobustan - S.Q.) deyilən yerə getdilər. Çoxları isə, kənddə qalıb hadisələrin nə ilə nəticələnməsini gözlədilər. İki gündən sonra bizim ağsaqqalları malakan kəndinə çağırdılar. Biz isə, oturub onların geri qayıtmasını gözlədik. Qəflətən malakanlarla bərabər ermənilər kəndimizə hücum çəkdilər. Malakanlar xain çıxdılar və bizi ermənilərə satdılar. Onda bizim sakinlərin 300 nəfərini öldürdülər və 400 evi də yandırdılar. Kəndimizə dəymiş ziyan haqqında akt tərtib olunmuş və hökumətə təqdim edilmişdir" (İmzalar)[106]. Bununla yanaşı, kənd sakinləri 1918-ci ildə kəndə dəymiş ziyan haqqında aşağıdakı məzmunda akt tərtib etmişlər:

"Biz Mərəzəli - Tatar kəndinin sakinləri 1918-ci ildə aşağıdakı akt tərtib etdik:

1. Erməni talanına qədər bizim kənddə evlərin sayı 900, sakinlərin sayı 8317 nəfər olmuşdur.

2. Erməni talanından sonra 400 ev dağıdılmış və 300 nəfər öldürülmüşdür".[107]

Xatirələrdən: "Anam törədilən faciənin şahidi olmuşdur. Dediklərinin hamısı yadımdadır. Şorsulu, Gəmüstü, Gəmaltı və İlanlı qonşu kəndlər idilər. Ermənilərin qırğın törədəcəyi şaiyəsi çoxdan yayılmışdı. Malakanlar bizim kənd sakinlərini dilə tutur, onlara heç kimin toxunmayacağını söyləyirlər. Çox adamlar o kafirlərin sözünə inanmayıb kəndi tərk edir. Biz Şorsu qışlağına qaçdıq. Orada məskunlaşdıq. Bir gün mən, əmim arvadı Sürəyya ilə Qonçu bulağına getmişdik. Bulağın yanında təzəcə yetişən şomu yığırdıq. Birdən əmim Mirzə başılovlu gəldi: "Nə durmusunuz, ermənilər kəndi oda tutublar, artıq qışlaq tərəfə gəlirlər. Tez olun qaçaq". Şomu torbamızı, güyümümüzü orada qoyub qaçmağa başladıq. Qışlaqda olan bütün kənd əhli qaçırdı. Kimi gəbəsini, kimi qab-qaşığını götürmüşdü, kimisi əliboş qaçırdı. O da yadımdadır ki, xəstə olan Mülxısa yeriyə bilmirdi. Ermənilərin aralıdan tüfəng ata-ata gəldiyini görən qadın körpə qundağını bir qayanın daldasına qoyub ağlaya-ağlaya camaata qoşuldu.

[106] ARDA. f. 1061, s. 1. iş. 6, vər. 129-131.
[107] ARDA. f. 1061, s. 1. iş. 1, vər. 133.

Bir çox insanın qorxudan ürəyi partlayıb öldü, bir qismi isə, yorulub yolda qaldı və ermənilər tərəfindən qətlə yetirildilər. O, da yadımdadır ki, Bədəl adlı bir kişidə tüfəng var idi. Biz qaçanda, o, hərdən dayanıb ermənilər tərəfə bir güllə atırdı. Ermənilər silahdan ehtiyat edib yavaşıyırdılar.

Biz bir qisim əhali gedib Sündi qışlağına çatdıq. Orada ancaq qarovulçular var idi. Onlar kişi və qadınların köməyi ilə iki batman unun çörəyini bişirdilər. Əlli nəfərə yaxın idik. Hərəyə bir az yeyib qışlaq zağalarında yatdıq. Səhər obaşdan durub öz qışlağımıza getdik. Türklər gələndən sonra kəndə qayıtdıq. Kənd tam yanmış və məhv edilmişdi. Uçurulmuş, yanmış evlərdə kənd sakinlərinin cəza ilə qətlə yetirilmiş meyidləri var idi. Bir çox insan cəsədi isə yanıb kömürə dönmüşdü. Ermənilərin törətdiyi müsibət yerə-göyə sığmırdı. Bəzi insanların dərdinin çarəsi yox idi. Çoxları kənddə qoyub getdiyi qohum-əqrabasının heç meyidini tapa bilmirdi. Ya yanıb külə qarışmış, ya da qurd-quşa yem olmuşdu. Türklər gələndən sonra xeyli müddət bizim kənddə qaldılar. Sonrakı döyüşlərə hazırlıq gördülər. Bu müddətdə onları ərzaqla bizim kənd, Nabur, Qurbancı və Cəmcəmli kəndi təmin edirdilər. Türklər bir az da gec gəlsəydilər, bizim ərazidə bir nəfər də olsa müsəlman sağ qalmayacaqdı (Güllü Qurbanova 1920-1999).

Hacı Arif Ağasəlim oğlunun dediklərindən: "Kəndimiz Mərəzə kəndi ilə qonşudur. Yaxşı yadımdadır, 50-60-cı illərdə atam Mərəziyə gedib-qayıdandan sonra həmişə əsəbiləşirdi. Səbəbi də, o idi ki, atam Mərəzədə olanda, 1918-ci ildə ermənilərə yardım etmiş yaşlı malakanlarla qarşılaşardı. Həmin cinayətkarların həm də cəzasız qaldıqlarına görə heyfslənirdi. Anam isə atamı sakitləşdirərək deyərdi", - gec-tez başımıza iş açacaqsan, kişi, dilini dinc qoy".

Atanı 1918-ci ildə ermənilərin törətdikləri cinayətlərdən bizə çox danışardı, Erməni millətçiləri o zaman Tatar Mərəzəsinə qonşu olan beş kənddə - Nərimankənd (Gəmüstü), Dərəkənd (Gəmaltı), Damlamaca, Şorsulu, İlanlı kəndlərindən 300 nəfər dinc əhali qətlə yetirilmişdir. Bir qrup insanları erməni-malakan millətçiləri aldadıb Mərəzəyə aparmış, sonra onları Mərəzənin qərbində yerləşən dərədə (indiki postdan aşağıda - S.Q.) qətlə yetirmişlər. Öldürülənlər arasında bizim nəsildən 13 nəfər olmuşdur. Bizim nəsil on dördüncü şəhidini isə Qarabağ savaşında vermişdir - Malik Səlimli!"

Bu kəndlərdən ermənilər tərəfindən qətlə yetirilən şəhidlərin ancaq iyirmi doqquzunun adı məlumdur:

1. Şahverdi Səlim oğlu.
2. Abdulxalıq Şahverdi oğlu.
3. Gülbəs Molla Murad qızı.
4. Bikə Abdulxalıq qızı.
5. Məcid Abdulxalıq oğlu.
6. Kazım Abdulxalıq oğlu.
7. Körpə oğlan uşağı.

8. Abdulla Daşdəmir oğlu.
9. Əsəd Daşdəmir oğlu.
10. Şaməmməd Mamedov oğlu.
11. Ədis Şahbaz oğlu.
12. Zaman Kazım oğlu.
13. Qələm Ağababa oğlu.
14. Muxtar Həmid oğlu.
15. Ağababa Şaməmməd oğlu.
16. Möhlət.............
17. Səfərxan Ədil oğlu.
18. Sənayi İbrahim oğlu.
19. Cəfər Əsəd oğlu.
20. Səmidxan Əsəd oğlu.
21. Xəlgüllah Əsəd oğlu.
22. Seyid İbrahim oğlu
23. Əmir Abdulla oğlu.
24. Süleyman Baloğlan oğlu.
25. Ədilxan Ədil oğlu.
26. Qərib Zülfiqar oğlu.
27. Gülüstan Qəribli.
28. Hətəm Əziz oğlu (Dərəkənd).
29. Şahsuvar Hacı Niftalı oğlu (Dərəkənd).

Haşiyə: Azərbaycanımızın müxtəlif şəhər və kəndlərində 1918-ci il soyqırımını əbədiləşdirmək üçün xeyli işlər görülmüşdür. Bu baxımdan Nərimankənd kəndində qətlə yetirilən insanların adına ucaldılmış abidə təqdirəlayiqdir. 1918-ci il Gəmüstü kəndində qətlə yetirilmiş insanların adına ucaldılmış abidənin təşəbbüsçüsü kənd ziyalıları olmuşdur. (Bu işdə Mirəli müəllimin xüsusi zəhməti vardır). Abidə isə kənd bələdiyyəsinin hesabına tikilmişdir. Biz əminik ki, Şamaxı-Qobustan ziyalıları, kənd bələdiyyələri belə xeyirxah işdən nümunə götürəcək, 1918-ci il soyqırımında qətlə yetirilən həmyerlilərinin adını əbədiləşdirəcəklər. Şəhidlər adına qoyulacaq xatirə lövhələri və ya abidələr yaddaşımızı bərpa etdiyi kimi, gələcək nəsillərlə də çox söz deyəcəkdir!

## OSMANBƏYLI SOYQIRIMI

Bu kənddəki soyqırımı barədə 1918-ci ilin oktyabrda tərtib olunmuş protokolda oxuyuruq:

"27 yaşlı Şamaxı qəzasının Osmanbəyli kənd sakini Şahlarbəy Şıxəlibəyov, müsəlman, savadlı. Mənim yaşadığım Osmanbəyli kəndi Şamaxı şəhərinin altı

verstliyində yerləşir. Şamaxıda və onun ətraf kəndlərində ermənilər tərəfindən törədilən qırğınların əsas səbəbi ermənilərin müsəlmanlara qarşı düşmənçilik hisslərindən irəli gəlmişdir. Ancaq müsəlmanlar heç vaxt ermənilərə qarşı kin-küdurət bəsləməmişlər. 1905-ci ildə baş vermiş qarşıdurmadan sonra müsəlmanlar qəti surətdə inanmışdılar ki, heç vaxt ermənilər onlarla düşmən olmazlar. Çünki bir neçə vaxt idi ki, müsəlmanlarla ermənilər sıx dostluq şəraitində yaşayırdılar. Gizlincə silahlanan ermənilər, üzdə özlərini müsəlmanlara dost kimi göstərir, ailəvi bir-birinə qonaq gedirdilər. Onlar, silahlanmanı belə izah edirdilər ki, guya, bolşeviklərə qarşı çıxan bəylərə və mülkədarlara divan tutacaqlar. Bir vaxt Şamaxı ziyalılarından - Asəfbəy Şıxəlibəyovdan, Azad bəy Qocamanbəyovdan və Şamaxı müfəttişindən eşitdik ki, Xilmillidə (Qozluçayda) erməni və malakanlar silahlanırlar. Digər tərəfdən, Mədrəsə kəndində də həmin yolla ermənilər silahlanırlarmış. Lakin ermənilər yenə də müsəlmanlara deyirdilər ki, bizdən sizə zərər dəyməz. Sadəlövh müsəlmanlar da onların sözlərinə inanırdılar. Lakin Mədrəsədən gələn xəbərlər özünü doğruldurdu. Müsəlmanlardan iki nəfəri Mədrəsəyə getmiş və keşişdən bu qarşıdurmanın qarşısını almasını xahiş etmişdi. Keşiş onlara söz verib ki, müsəlmanlara bizdən ziyan dəyməz.

Osmanbəyli kəndinə yaxın olan erməni kəndi - Kələxanada da ixtişaş törədilməsinə hazırlıq gedirmiş. Bunu bizə həmin kəndə qonaq gedən Osmanbəyli bəylərindən biri çatdırdı. Biz ailəmizi götürüb, Ləngəbiz dağının üstünə qaçdıq. 17 mart 1918-ci ildə erməni cəlladları kəndimizə basqın etdilər. Sən demə, elə həmin gecə erməni dəstələri Şamaxını da mühasirəyə alıbmış. Onlar şəhərə hücum çəkib, müsəlman məhəllələrini yandırır, əlinə keçənləri öldürür, evləri, malikanələri talan edirdilər. Osmanbəyli kəndini yandırdıqdan sonra silahlı dəstələr, bizim kənddən çox da uzaqda olmayan Alpout kəndini tamamilə yandırdılar. Osmanbəyli kəndini isə iki dəfə yandırdılar. İkinci dəfə müsəlman əsgərləri çıxıb gedəndən sonra yandırdılar.

Osmanbəylidə yandırılmış evlər uzunmüddət bərpa oluna bilmədi. Erməni silahlı əsgərləri evlərdə olan bütün zinət şeylərini, heyvan, mal-qara və digər ev əşyalarını daşıyıb aparmışdılar. Əhali çox pis vəziyyətə düşmüşdü. Ölənlərin və itkin düşənlərin sayı bilinmirdi”.[108]

## ADNALI SOYQIRIMI

Fövqalədə İstintaq Komissiyasının tərtib etdiyi dindirmə protokolunda Adnalı kənd starşinası 54 yaşlı Məhyəddin Hüseynəli oğlu 1918-ci il 23 oktyabrda belə bir məlumat verir: “Mənim yaşadığım kənd Şamaxının 3 verstliyində yerləşir. Bizim kənddə 30 ev və 300 nəfər sakin vardır. İndi isə, kənddə cəmi 2 ev qalmışdır. Qalanlar isə, ermənilər tərəfindən dağıdılmış və yandırılmışdır.

---

[108] ARDA. f. 1061. s. 1. iş. 105, vər. 74-76.

Aclıqdan və havaların soyuq keçməsindən əhalinin 140 nəfəri məhv olmuşdur. Həmin gün - erməni və malakanlar bizim kəndə hücum edəndə biz Şamaxıdan Göyçay uyezdinə qaçdıq. On nəfər həmkəndlimizi yolda Qaraqışlaqda ermənilər doğramışdılar. Öldürülənlərdən bir qızı yaxşı tanıyırdım. Gülbadam Sədrəddin qızı. Türklər gələndən sonra biz doğma yerlərə qayıdanda, ancaq xarabalıqlara rast gəldim”.[109]

Yaddaşlardan: “Biz bir neçə erməni kəndinə yaxın olsaq da, Kələxana erməni kəndi ilə çığbir qonşu idik. Hamımız bir-birimizi yaxşı tanıyırdıq. Şaiyə yayılan kimi kəndimizin bir neçə nəfəri Kələxanaya - ermənilərin yanına gedib, onların keşişləri ilə görüşürlər. Erməni cəlladları bizim nümayəndəni arxayın edir ki, qorxmayın, bizdən sizə ziyan olmaz. Biz bir evli kimiyik. Hamımız inandıq. Çarhan kənd camaatı da bizim kimi. Ta, o vaxta kimi kənddən çıxmadıq ki, erməni cəlladları Boyat kəndinə yaxınlaşdılar. Bu zaman artıq Kələxanada gecə ilə yerləşdirilmiş erməni daşnakları hərəkətə gəldilər. Camaat Osmanbəyli dərəsi ilə üzü aşağı qaçmağa başladı. Kənd tərəfdən atılan güllələr, çox adamı dərəni çıxhaçıxda haqladı. Qoca, uşaq və xəstələr heç dərəni çıxa da bilmədilər. Cəsədlər dərədə qalıb, qurd-quşa yem oldu. Salamat qalanlar Alpout kəndinin yanından Ağsuya tərəfə yol aldılar. Dağın üstündən baxanda yandırılan evlər tonqalı xatırladırdı. Türklər bir az da gec gəlsəydilər, ermənilər Göyçaya kimi səpələnmiş bütün qaçqınları məhv edəcəkdilər”.

## BAĞIRLI SOYQIRIMI

Bağırlı kəndində ermənilər tərəfindən daha çox insan qətlə yetirilmişdir. Vaxtilə Fövqəladə İstintaq Komissiyasını tərtib etdiyi protokolda Bağırlıda 80 nəfər kişi, 150 nəfər qadın və 140 nəfər uşağın qətlə yetirildiyi göstərilmişdir. Faciənin dəhşəti göz qabağındadır. Belə ki, erməni daşnak cəlladları kənddə 150 nəfər qadını müxtəlif işgəncə və təhqirlərlə öldürdüyü kimi, heç bir günahı olmayan, uşağa, körpəyə əzab-əziyyət vermiş, süngüyə keçirmiş, hətta, analarının gözü qarşısında başlarını kəsmişlər.

Vaxtilə, Bağırlı haqqında kitab[110] yazanda kəndin sakinlərindən - Həsən Baxış oğlu, Dadaş Baba oğlu. Məryəm Ağa qızı, Səməd Azayev, Mürsəl Namət oğlu, Badam Qara qızı və başqalarından erməni qırğını barədə xeyli məlumatlar əldə etdik. Xatirə söyləyənlər erməni quldurlarının xalqa qarşı tətbiq etdikləri baş kəsmək, qol kəsmək, qadınlar təhqir etmək, qocalara müxtəlif cür əzab verib güllələmək kimi, işgəncələrdən danışanda ağlayırdılar. “Kənd sakinlərinin bir qismi ermənilərin sorağını eşidib dağlara çəkilmişdi. Kənddə qalanlar isə daha çox

[109] ARDA. f. 1061. s. 1. iş. 6, vər. 75-77.
[110] S.Qəniyev. S.Ağayev “Mən bu elin oğluyam”. Bakı, 1996.

idi. Elə ona görədir ki, kəndimizin üç yüz nəfərdən artıq dinc sakini vəhşicəsinə öldürülmüşdür".

Muradxan Alxan oğlunun (78 yaşlı) dediklərindən "Həmin hadisənin şahidi olan əmim Lələş Murad oğlu (1898 1992) o, illərin faciəsindən yana-yana danışardı. Həmin vaxt əmim 18-19 yaşında olub. O deyirdi ki, erməni qatilləri kəndə girəndə mən qoyun nobatında idim. Sürü kənddən çox aralıda dağın sinəsində otlayırdı. Böyük bir atlı dəstəsinin kəndə daxil olduğunu gördüm. Elə həmin anda kənddə güllə səsi eşidildi, çığırtı-bağırtı dağın başına qədər gəlib çatırdı. Bir az keçmiş, kənd tüstüyə büründü. Adamların dağa, Küdru düzünə səpələndiyini gördüm. Bilmədim nə edim. Güllə səsi isə kəsilmirdi. Sürünü dərəyə endirdim. Özüm də bir kolun dibində oturub ağlamağa başladım. Kənd od-alov içində idi. Az keçmiş qonşu kəndlər. Bico, Qəşəd tərəfdən də tüstü qalxmağa başladı. Sürü otlaya-otlaya kəndə tərəf yol almışdı. Yerimdən tərpənmədim. Bir müddət sonra atamın o biri dərədən məni səslədiyini eşitdim. Tez ona tərəf qaçdım. Atam da ağlayırdı. Məni qucaqladı. Boğula-boğula "hamımızı qırdılar", - deyə bildi. Sürü qaldı. Atamla dağın lap zirvəsinə çıxdıq. Gördüm ki, burada çökəkdə ailəmiz, qohum-əqraba toplaşıb, çoxusu ayağıyalın, başıaçıq. Məlum oldu ki, mənim əmim də ilk şəhidlərdən olub. Ermənilər kəndi tərk edəndən sonra kəndə qayıtdıq. Kənddə daş-daş üstə qalmamışdı. Kənd arasında qalmış meyidlərin çoxusu cəlladlar tərəfindən eybəcər hala salınmış, tanınmaz olmuşdu. Bir çox şəhidləri elə kəndin yanında dəfn etdilər. El-oba bütün il boyu matəm içində yaşadı".

Səməd Azayevin dediklərindən: "Türk-İslam Ordusu köməyə gələndə, Şamaxının başqa kəndlərində olduğu kimi Bağırlıda da cavanlar düşməni məhv etməkdən ötrü könüllü olaraq Müsavat və ya Türk-İslam Ordusuna daxil olurdular. Könüllülərin sayı 30 nəfər olmuşdur. Əfsus ki, onların hamısının adı yadımda deyil. Adı-soyadı yadımda qalanlar bunlardır: Kərimov Mülkalı Əsəd oğlu, Kərimov Qasım Nəsir oğlu, Novruzalı Beydulla oğlu, Abbas İsmayıl oğlu, Ələkbərov Məmmədağa, Xancan Qara oğlu, Lələş Murad oğlu, Hüseyn Ağamirzə oğlu, Bəxtiyar Ağamirzə oğlu, Fərman Azay oğlu, Kamal Teymur oğlu. Bu insanlar erməni millətçilərinə qarşı mərdliklə vuruşmuşlar".

## GÖYLƏR SOYQIRIMI

Erməni terrorçuları Göylər kəndində də vəhşiliklər törətmiş, kəndi yandırmış, viranə qoymuş və camaatın var-dövlətini talamışlar. Mənbələrdə kəndin 120 nəfərə yaxın əhalisinin qətlə yetirildiyi qeyd olunur. Vaxtilə "Dağdan ağır elim var" [111] kitabı üçün material toplayanda (1985-1990), kəndin 70-90 yaşlı

[111] S. Qəniyev. M.Mikayılov. "Dağdan ağır elim var". Bakı, 1996.

sakinlərinin yaddaşından, folklor nümunələri ilə yanaşı, kollektivləşmə, kolxoz yaranması, 1937-ci il faciəsi və erməni qırğını ilə bağlı çoxlu faktlar aşkar etdik.[112]

Yaddaşlardan: "Erməni vəhşilərinin kəndə tərəf gəlişini eşidən camaat Çöl-Göylərə tərəf qaçmağa başladı. Atam mal-qaramızı tezdən aparmışdı. Anam xəstə idi. O, gedə bilmirdi. Odur ki, kəndin ortasında olan Pir-Mərdəkan qəbristanlığına pənah apardıq. Qəbristanda olan uçuq karvansaranın içində gizləndik. İki gün qaldıq. Ermənilər qəbristanlığa girmədilər. Onlar kəndi yandırıb, taladılar (Sehrab Alış oğlu - 86 yaş).

Qardaşxan Uhud oğlunun dediklərindən (1908-1999). "Camaatın çoxu lap ertədən kəndin Küdriyə baxan hissəsində Dibəyliyə yığışmışdı. İngilis silahı ilə silahlanmış ermənilər Çarhandan Qaçanoya tərəf yol alanda kənddə qalan adamlar da yenidən qaçmağa başlayırlar. Qaça bilməyən yaşlı qadın və kişilər, xəstələr kəndin müxtəlif yerlərində gizlənirlər. Bələlərindən biri də Eminə Şirali qızı oldu. O, məscidin minbələrinə çıxıb gizlənir. Ermənilər məscidin içini ələk-vələk edir və sonra od vururlar. Məscid alışır, amma qadın bir təhər minarədən düşür və qaçıb başqa yerdə gizlənir. İki gün içində erməni, yaraqlılarının kənddə törətdiyi qırğın və faciənin gözi ilə görənlər danışanda nitqləri tutulurdu. Göz yaşları rəvan olurdu. Kəsilən başlar, qollar, qulaqlar, çıxarılan gözlər, nizəyə taxılan uşaqlar onların yaddaşında əbədi həkk olunmuşdur. Bu qırğında kənddə ona görə az adam öldürülmüşdür ki, camaat bu vaxt hələ dağa çıxmamışdı. Əhalinin yarıdan çoxu qışlaqda yaşayırdı. Yoxsa bu böyük eldə daha çox qırğın olardı".

Bilal Nuriyevin yaddaşından (1892-1895): "Dibəyliyə tərəf baş alan kənd əhalisinin çoxusunun əsasən də, qadın-uşaqların, qorxusundan ürəyinin düşüncəyini hiss edən Qafur Süleyman oğlu bu vəziyyəti qeyrətinə sığışdırmayır. Atının başını geri çəkir. Yerə düşüb beşatlanı ilə kəndə sarı güllə yığdırmağa başlayır. Ermənilər beşatlanın səsindən təşvişə düşürlər. Elə yəqin edirlər ki, müsəlmanlara haradansa kömək gəlib. Odur ki, cəlladlar daha camaatın ardınca getmirlər".

"Atamın xalası Nurşərəf arvad əri ilə kənddən uzaqlaşa bilmirlər. Odur ki, şirəlikdə gizlənirlər. Ermənilər onları görürlər. Gizləndikləri yerdən çıxarıb, onlardan qızıl tələb edirlər. Ər-arvad and-aman edirlər. İşi belə görən ermənilər onların hər ikisinin başını kəsirlər".

Mənbələrdə Göylər kəndində qətlə yetirilənlərin sayının 90 nəfər olduğunu göstərirlər. Erməni qırğınını öz gözləri ilə görən və şahidlərin dediklərindən aydın olur ki, kənddə qətlə yetirilənlərin sayı 120-150 nəfər olmuşdur. Həmin şəhidlərin bir qisminin adını da dəqiqləşdirə bilmişik: Ağacan Səfi oğlu, Alıcan Səfi oğlu, Allahverdi Səfər oğlu, Anaxanım Əhməd qızı, Badam Bəşir qızı, Babalı Hacıməmməd oğlu, Bəyalı Ağa oğlu, Babaxan Sayad oğlu, Eyvaz Mürşüd oğlu,

[112] Toplanılan faktlar arxivimizdədir - S.Q.

Eldar Hüseyn oğlu, Ədil Bayram oğlu, Əhməd Məhəmməd oğlu, Əhmədalı Qasım oğlu, Əlmustafa Məhəmməd oğlu, Əmir Əhməd oğlu, Zərnişan Məhəmməd qızı, Sürcə Alı qızı, Musa Soltan oğlu, Yemən Söhbət qızı, Gülsüm İsmayıl qızı, Məhəmməd Əhməd oğlu, Məmmədalı Bəşir oğlu, Minə Murad qızı, Mılxısa Nadir qızı, Meyrənisə Cəbrayıl qızı, Meyxanım Hüseyn qızı, Murad Aydın oğlu, Nadir Dünyamalı oğlu, Nəsir Dadaş oğlu, Nigar İsgəndər qızı, Nənəxanım Mikayıl qızı, Sayad Cəbrayıl qızı, Sarya Hüseyn qızı, Urfulla Heybət oğlu, Ağamoğlan Ağakərim oğlu, Fərzalı Səlim oğlu, Həmid Şaban oğlu, Qasım İsmayıl oğlu, Hüseyn Adgözəl oğlu, Həlimə Məhərrəm qızı, Şahsuvar Şikar oğlu.

## CABANI SOYQIRIMI

Cabanı kəndində törədilən qırğın barədə Eyvaz Barat oğlu (1908-1996), Misir Ələkbər oğlu (1909), Zərifə Mürsəliyeva (1900-1992), Şahpələng Vəliyev və başqalarından müəyyən məlumatlar öyrəndik. Bu insanlar 80-90 yaşlarında olmalarına baxmayaraq, kövrələ-kövrələ çözələdilər yaddaşlarını.

Misir Ələkbəroğlu: “1918-ci ilin əvvəlləri idi. Kəndimizə xəbər yayıldı ki, ruslar və ermənilər Qızmeydanda toplaşıblar. Məqsədləri müsəlmanları qırmaqdır. Atam yüzbaşı idi. Odur ki, hər gecə qohum-qonşular bizə yığılardılar. Bu məsələnin doğru olub-olmadığını yəqin etməyə çalışırdılar. Atamın həm şəhərdə, həm də qonşu kəndlərdə dostları çox idi. Ən nəhayət, atam dəqiqləşdirdi ki, “bu kafirlər” nəsə, qan salmaq istəyirlər. şamaxıdakı vəzifəlilərin çoxu da rus və ermənilərin əlindədir. Bir gün axşam atam kənd camaatına gizli xəbər verdi ki, yaxın vaxtlarda Xilmilli və Qızmeydanda olan “kafirlər” müsəlman kəndlərinə hücum edəcəklər. odfur ki, yubanmadan kənddən çıxmaq lazımdır. Səhəri günü biz yaxın qohumlarımızla heyvan-qaramazı da götürüb Şamaxıya gəldik. Özümüz şəhərdə yerləşdik. Heyvan-qaranı şəhərin kənarındakı “Qəriblər” qəbristanlığının yanında saxladıq ki, iki gün sonra xəbər çıxdı ki, ermənilər Kürdəmici kəndini yandırıblar. Çarəsiz qalıb yola düzəldik. Çarhan, Nüydi kəndlərindən keçib, Küdlü düzünə çatdıq. Yolda aclıq və soyuqdan xeyli adam öldü. Bir çoxları xəstəliyə tutuldu. Oradan Göyçaya getməyi qət etdik. Orada Bağır və Şəjər kəndləri arasında bizim kəndin qışlağı var idi. Odur ki, orada mənzil saldıq (indi də həmin ərazi “Cabanı yeri” adlanır). Bu zaman ermənilərin böyük bir qoşun dəstəsi Törə dağının arxasında hücuma hazır vəziyyətdə daynmışdı. Bir neçə gün Türk qoşunlarının gəlmə xəbəri çıxdı. Doğrudan da, heç iki gün keçməmişdir ki, türklər gəlib çıxdılar. Törə dağı yaxınlığında böyük savaş oldu. Ermənilər türklərin qarşısında tab gətirə bilmədilər. qırılanlar qırıldı, qalanları çəkilməyə başladılasr.

Mırtıda yenidən savaş oldu. Ermənilər türklərin qarşısını ala bilmədilər. müzəffər türk ordusu şamaxılıların köməyinə can atırdılar. Türklər Şamaxını azad edəndən sonra kəndə qayıtdıq. Kənd tamamilə məhv edilmişdir”.

## QARAVƏLLİ SOYQIRIMI

Şamaxı ərazisində ermənilərlə qonşu olan kəndlərdən biri də Qaravəllidir. Erməni daşnakları qonşu olmalarına baxmayaraq, bu kənddə daha dəhşətli vəhşiliklər törətmişlər. 1919-cu ilin aprel ayın 9-da Xasay Salman oğlunun tərtib etdiyi aktdan bəlli olur ki, erməni cəlladları bu kəndi yandırmaqla yanaşı 120 nəfər insanı qətlə yetirmişlər. Faciənin bənzərsizliyi ondadır ki, düşmən bu kənddə ən çox uşaq və qadınları öldürmüşdür. X.Salman oğlunun imzası ilə təsdiq edilmiş həmin aktda oxuyuruq: "Mən, Qaravəlli kəndinin starşinası və 66 evdən seçilmiş hörmətli sakinləri 1919-cu ilin aprel ayının 9-da tərtib edirik həmin aktı ondan ötrü ki, 1918-ci ildə ermənilərin bizim kəndə zorla girməsi ilə əlaqədar aşağıda göstərilən qədər ziyan dəymişdir:

1. Öldürülmüşdür: 40 kişi, 50 qadın, 40 uşaq
2. Yaralananlar yoxdur.
3. Cəmi ziyan - 6060 000 manat dəyərində[113].

Balaxan Şahbazovun dediklərindən (80 yaş): Atamla anam həmin ilin faciələrini gözləri ilə görmüşlər. Dediklərinə görə, ermənilərin qırğın törədəcəkləri şayəsi kəndə çoxdan yayılmışdır. Kənd əhalisinin çoxu Mədrəsə, Kərkənc erməniləri ilə tanış idilər. Odur ki, həmin adamlar dəfələrlə erməni kəndlərinə gedib, həmişə də eyni sözü eşidiblər: "Biz neçə ilin qonşusuyuq. Siz qorxmayın. Bizdən sizə zaval olmaz". Sadəlövh kənd əhalisinin çoxu onların sözünə inanır, kəndi vaxtında tərk etmirlər. Bunun nəticəsidir ki, kəndimizdə 50 nəfər qadın, 40 nəfər körpə uşaq müxtəlif işgəncələrlə qətlə yetirilmişdir. Belə ki, erməni daşnakları körpəsini ananın gözü qarşısında öldürür və yaxud qadına ilk əvvəl müxtəlif işgəncələr verir, sonra onu güllələyirdilər. Belə bir hadisə uzun illər kənd sakinlərinin yadından çıxmamışdır. Ermənilər ananı evdə öldürmüş, evə od vurmuş, iki yaşlı körpə evdə qalmışdır. İş elə gətirir ki, evin bir hissəsi salamat qalır. Bir nəfər gecə gizlincə kəndə qayıdır ki, ərzaqdan-zaddan aparsın, həmin evin yanından keçəndə uşaq səsi eşidir. O, içəri girir. Görür ki, bir uşaq ölmüş anasının yanında hıçqırır. O, elə bilir ki, ana yaralıdır. Amma məlum olur ki, ana ölüb". (Balaxan Şabaz oğlu).

113 ARDA. f. 1061, s. l. iş. 85, vər. 56.

## QALEYBUĞURT SOYQIRIMI

Azərbaycan Respublikası hökumətinə, Şamaxı uyezdinin Qale-buğurt (Qaleybuğurd) kəndinin sakinləri adından Məmmədzər Qəhrəman oğlu, Mustafa və Əbdüləli (Əbdüləzimin oğlanları) tərəfindən

## ƏRİZƏ

1918-ci ilin 25 aprelinə kimi biz Nuzkeş adlanan yerdə yaşayırdıq. 16 ev idik. Özümüz də firavan yaşayırdıq, Şamaxı hadisələrindən bir neçə gün sonra Steopan Lalayevin başçılığı ilə həmin yerə 100 əsgərdən ibarət bir dəstə adam gəldi. Onlarla birlikdə Çuxuryurd sakinləri Boris Avanes oğlu, Palanq və Semyon Qara İvan oğlu, Polovonxin və Yakov İvanoviç, Semyon Popov, Matvey Qaraev və Ovopoxinin oğlu da bizim yaşadığımız yerə gəldilərş. Stepan Lalayev bizə elan etdi ki, bundan sonra bizim çarımız odur və bizim bütün mülkümüz onun olmalıdır. Əmr verdi ki, bütünmollalar və mülkədarlar yığılsın. Bizim hamımızı isə Çuxuryurd kəndinə göndərdi. Amma meşəni keçərkən əmr verdi ki, bizi güllələsinlər. Onlar bizə atəş açmağa başladılar. Bizlərdən dörd nəfərimiz qaçmaqla, başımızı qurtara bildik. Qarət olunmuş heyvan-qaramızı və mülkümüzü ermənilər apardılar.

Yuxarıdakıları – faktları göstərməklə Azərbaycan hökumətindən xahiş edirik ki, tələf olanların ailələrinə və yetim qalmış uşaqlarına himayədarlıq və köməklik göstərilsin. Müdafiəsiz və günahsız adamların ölümünə biz heyfsilənirik. Bütün ümidlərimiz 1919-cu ilin yaz və yay fəsillərinədir.

Savadsızların əvəzinə imza etdi: Molla Əli İbrahim oğlu[114]

## QONAQKƏND SOYQIRIMI

Erməni millətçilərinin bu kənddə törətdiyi faciə haqqında kənd mollası Məşədi Tapdıq Səməd oğlu və başqaları belə məlumat verirlər ki, kənddə öldürülənlər 25 kişi, 6 qadın və 4 uşaq olmuşdur. Yaralananlar 2 nəfər kişi imiş. Kəndə dəyən ziyan 8300 000 manat olmuşdur.[115]

Kənd sakini, el sənətkarı Qələmşah Gülverdi oğlunun yaddaşından: “Əmim həmin hadisələrin şahidi olmuşdur. Deyərdi ki, biz malakanların sözünə inanmasaydıq, kənddən heç bir nəfər də ölməz, qətlə yetirilməzdi, hamımız qaçıb qurtula bilərdik. Cabanı malakanları bizim kənd yüzbaşısını çağırıb bildirib ki, siz qorxmayın. Qoymarıq ki, sizə toxunsunlar. Ermənilər bizim sözümüzdən çıxmazlar. Kənddən bir çox ailə ilə biz gecə ikən çıxdıq. Səhəri gün ermənilər

---

[114] ARDA. f. 1061, s. 1. iş. 85, vər. 65.
[115] ARDA. f. 1061, s. 1. iş. 85, vər. 75.

kəndə daxil oldular. Özü də Cabanı malakanları ilə. Əllərinə keçəni - 30-a yaxın insanı qətlə yetirib, evləri talan etmiş, sonra yandırmışlar".

## QALADƏRƏSİ SOYQIRIMI

Əli bəy İsrəfil oğlunun xatirələrindən: "Ermənilər gəlib Çuxuryurdda məskunlaşmış, tam silahlanmışdır. Bizim kəndlərə hücum etməyə hazırlaşırdılar. Yollar qar-palçıq olduğu üçün kəndə gələ bilmirdilər. Odur ki, biz də ayağa qalxdıq. Lahıclı Ağakişi yüzbaşının Dədəgünəş, Ülgüc, Qaladərəsindən topladığı dəstə ermənilər ilə xeyli vuruşdular. Düşmənlər Çuxuryurddan olan, hamımızın tanıdığı Petro adlı bir nəfəri bizim yanımıza göndərdilər. Petro mənə yaxınlaşıb dedi:

- Əli bəy, ağ bayraq qaldırıb təslim olsanız, sizə dəyməyəcəklər. Ağakişi yüzbaşı onu öldürmək istədikdə, mən qoymadım. Tez evdən bir qırmızı parçanı götürüb tut ağacına bağladım. Petroya dedim ki, erməni kafirlərə bildir ki, biz bu qırmızı bayrağın altında son nəfəsimizə qədər vuruşacağıq. Petro geri qayıtdı. Bir azdan uzaqdan iki düşmən təpənin üstünə çıxdı ki, qırmızı bayrağa baxsın. Türk beşaçılanının tətiyini çəkməklə birini cəhənnəmə vasil etdim. Bu an ikinci yağı da Ağakişi yüzbaşının gülləsinə tuş gəldi. Döyüş başladı. Biz itki vermədən meşəyə çəkildik. Nuru Paşanın əsgərləri gələnə kimi davam gətirdik. Nuru Paşa öz igidləri ilə 2 gün bizim kənddə qaldı. On nəfərimiz onun dəstəsinə qoşulduq. Türk qoşunu ilə Cəngiyə kimi getdik. Nuru Paşa mənə bir türk beşaçılanı bağışladı. Həmin silahı 1937-ci ildə meşədə basdırmışdım. 53-cü ildən – Stalinin ölümündən sonra gedib həmin yeri qazdım. Yadigar silah tamam çürümüşdü".

## ƏRƏBŞAHVERDİ SOYQIRIMI

Erməni daşnaklarının soyqırımı törətdiyi, viranə qoyduğu kəndlərdən biri də Ərəbşahverdidir. Vaxtilə Fövqaladə İstintaq Komissiyası 1918-ci il noyabr ayını 13-də Ərəbşahverdi kəndində olmuş və kənd sakini Mirzəli Mədət oğlundan qırğın barədə izahat almışdır.

"Mən Ərəbşahverdi kəndinin sakini Mirzəli Mədət oğlu, müsəlman, 45 yaşlı, savadsız verirəm həmin ifadəni ona görə ki, erməni yaraqlıları bizim kəndə basqın edərkən mən qışlaqda olmuşam. Əlbəttə, bunu eşidəndə biz kəndə gedə bilməzdim. Ona görə də dağlarda gizlənməyə məcbur olduq (Şıxzərli ətrafında). Türklər gələnə kimi biz mağaralarda qaldıq. Biz kəndə qayıtdıqdan gördüm ki, kəndimizin çox hissəsi dağıdılmış və yandırılmışdır. Miqdarın mən deyə bilmərəm, amma kənd sakinlərinin bir hissəsi ermənilər tərəfindən öldürülmüşdür".[116]

[116]ARDA. f. 1061, s. 1. iş. 6, vər. 148-149.

Bundan əlavə, arxivdə kənd sakinlərinin 1918-ci il 13 noyabr verdikləri izahatda onlara dəyən ümumi ziyanın qədəri də göstərilmişdir:

"1. Ərəbşahverdi kəndində 206 ev və 1350 sakin olmuşdur.

2. Erməni zorakılığı zamanı 112 ev yandırılmış və 22 nəfər öldürülmüşdür".[117]

Xatirələrdən: "biz tərəkəmə camaatı olmuşuq. Odur ki, payız aylarında mal-qarası olan insanların əksəriyyəti köçdü – külfəti qışlağa yığışırdıq. Qırğın zamanı kədimizdə çox evlər yandırılsa da, ölüm nisbətən az lmuşdur. Çünki mart-aprel ayında camaat Qobustanda yerləçşən qışlaqlarda olmuşlar. Bu xəbər qışlaq əhalisinə çatdırılsa da, heç kəs qorxusundan kəndə getmədi. Əksinə, kənddə ermənilərdən yaxasını qurtara bilənlər, qışlağa gəlmişdilər. xəbəri eşidən kimi ailəmizi aparıb dağlarda yerləşdirdik. Biz kişilər isə, qışlağa qayıtdıq. Səhər mal-qaramızı da götürüb qışlağı tərk etdik".

Bəli, terrorçu "Daşnaqsütyun" partiyası tərəfdarlarının Şamaxıda törətdiyi faciənin bəlkə də heç bir ölkədə, bəlkədə, anoloqu olmamışdır. Bu isə partiyanın məram və məqsədindən irəli gəlir və hələ də davam edir.

Vaxtilə, 1918-ci il soyqırımının təşkilatçılarından biri olmuş A.Əmiryan 1917-ci il dekabrın 6(19)-da "Cinayətkar siyasət" adıl məqaləsin yazırdı: "Daşnaqsütyun" nə deməkdir? Bu ifrat erməni millətçilərinin partiyasıdır. Bu partiya öz 25 ili ərzində sosializmə qarşı, inqilabi ideyaların xalq ketlələri içərisində yayılmasına qarşı mübarizə aparmışdır, bu partiya bütün qonşu xalqlara qarşı təcavüzkar, həyasız siyasət yeritmişdir".[118]

Haşiyə: Aylar, illər dolandı, dünya çalxalandı – SSRİ adlanan nəhəng dövlət dağıldı, parçalandı. Başqa xalqlar kimi Azərbaycan da müstəqillik əldə etdi. Tariximiz, soy kökümüz yenidən araşdırılmağa başladı. Eləcə də xalqımızın həyatında ən ağır müsibət olmuş 1918-ci il faciəsi. Faciəni törətmişerməni terrorçuları yenidən adbaad dəqiqləşdirildi və arxiv sənədləri ilə bir daha təsdiqləndi.

Xalqımızın başına gətirilmiş soyqırımı möhtərəm prezidentimiz Heydər Əliyev cənablarının vermiş olduğu fərmanlarla dünya ictimaiyyətinə çatıdırıldı. Prezidentin fərmanından sonra həmin tarix – 31 Mart soyqırımı günü kimi hər il qeyd olunurdu. Bu fərmandan sonra 1918-ci il şəhidlərinin adı, xatirəsi respublikamızın hər bir bölgəsində əbədiləşdirilməyə başlamışdır. Eləcə də Şamaxıda...

---

[117] ARDA. f. 1061, s. 1. iş. 6, vər. 159.

[118] 1918-1920-ci illərdə Azərbaycanlıların soyqırımı (sənədlər və materiallar), (tərtib edəni və çap. Hazır. V.Şirinoğlu), Bakı , 2001, səh. 9-10.

## V FƏSİL

## 1918-Cİ İL ŞAMAXI SOYQIRIMI SƏNƏDLƏRİN, MƏTBUATIN, ŞAHİDLƏRİN VƏ XATİRƏLƏRİN DİLİ İLƏ

Bütövlükdə Azərbaycanda törədilən erməni-daşnaq faciəsini öyrənmək üçün Fövqaladə İstintaq Komissiyasının sənədləri ilə yanaşı, 1918-1920-ci illərdə çap olunmuş qəzet və jurnallarda bir çox dəyərli materiallar vardır. Bu baxımdan “Azərbaycan”, “Açıq söz”, «Азербайджан», “Həyat”, “İstiqlal”, “Bəsirət”, «Наш годос», «Бакинский рабочии» və s. qəzetlərdə 1918-ci il soyqırımına aid müxtəlif səpkili xeyli materiallar verilmişdir. Şamaxı soyqırımının bəzi məqamları həmin qəzetlərdə ətraflı işıqlandırılmışdır.

### DİNDİRİLMƏ PROTOKOLU



Kərbalayi Yusifin qardaşı oğlu, Hacı Məmmədov (Xalq artisti)

1918-ci il 7 oktyabr Şamaxı şəhəri Məmmədov Kərbalayi Yusif, 60 yaşlı, müsəlman, savadlı. “Mən Şamaxı şəhər sakiniyəm. Müsəlman İcraiyyə Komitəsinin üzvüyəm, Şamaxı və Şamaxı qəzasında yaşayan ermənilərlərlə Şamaxıda törətdikləri fitnəkarlığa qədər davam etmişdi. Şamaxıda və Şamaxı qəzasında baş vermiş hadisələr haqqında aşağıdakıları deyə bilmərəm: 1918-ci ildə Şamaxı şəhərinə çoxsaylı erməni silahlı dəstələri toplaşmağa başladı. Onlar furqonlarla çoxlu silah, top-tüfəng gətirirdilər. Əsasən, bu silahlar Müsüslü istiqamətindən gətirilirdi. Bizə belə bir məlumat gəldi ki, silahlanmış dəstələrin böyük bir qrupu Mədrəsədə toplaşıbdır. Oradan da bir qrupu Qozluçaya gedibdir. Müsəlman nümayəndələrimizdən bir neçəsi Qozluçaya gedib, ermənilərdən silahları nə üçün gətirdiklərini soruşanda onlar: “Bizdən qorxmayın, sizə bizdən ziyan dəyməz”, deyiblər. Lakin bir neçə gün sonra Mədrəsə və Qozluçay istiqamətindən Şamaxıya güclü atəş başladı. Lakin gedənləri erməni cəlladları yerindəcə güllələdilər. Heç bir danışığa getməyən erməni və malakan birləşmiş dəstələri Şamaxını bombardıman edir, ən yaxşı məhəllələri yandırır və talan edirdilər. Körpə uşaqları, qocaları, qadınları amansızcasına öldürürdülər. Qaçmaq imkanı tapmış şamaxılılar, yalnız türklər gələndən sonra şəhərə qayıtdılar. Şəhər tamamilə yandırılmışdı. Mənim şəxsən daşınan və daşınmaz əmlakımdan – üç evim, qızıllarım, bütün xalçalarım, digər ev əşyalarım ümumilikdə bir milyon manat təşkil edən mallarım yandırılmış və ya talan edilmişdir. Ambarımda 100 tonlarla olan taxıllarımı, üç ədəd su dəyirmanını, 1000 baş mal-qaramı, 30 atımı, 24 baş öküzlü, 4 furqonumu, taxılkənimi (kotan), çoxlu sayda silahlarımı ermənilər talan etmişlər. Ümumilikdə bunların miqdarı 2 milyon manatı keçmişdir. Sonralar mənə məlum oldu ki, mənim əmlakımı

ermənilər Kələxana kəndinə daşıyıb aparmışlar. Eşitdiyimə görə, bütün bu hadisələrin həyata keçirilməsinə Stepan Lalayev kimi cəllad bilavasitə rəhbərlik edirmiş”.[119]

***İmza: Kərbalayi Yusif məmmədov.***

## DİNDİRİLMƏ PROTOKOLU

1918-ci il, 6 oktyabr, Şamaxı şəhəri, Hacı Həmidpaşa bəy Şeyx Eyyubbəyov, 58 yaşlı, Şamaxı qəzasının Acıdərə kənd sakini.

“Mən Şamaxı şəhərinin bir neçə verstliyində yerləşən “Acı dərə” adlanan kənddə yaşayıram. Bizim evimiz müsəlmanların müqəddəs yeri olmuşdur. Həmçinin, mən müsəlmanlar arasında hörmət-izzət sahibiyəm. Bir nəfər də olsun, müsəlman mənim sözümdən çıxmaz.

Ermənilərin müsəlmanlara qarşı düşmənçilik ədavəti başlayanda, mən ermənilərin dini rəhbərlərinə xəbər göndərdim ki, əminlik yaratsınlar. Dəfələrlə xəbər göndərməyimə baxmayaraq, heç bir nəticə hasil olmadı. Belə bir ədavət 1905-ci ildə də olmuşdu. Biz, şamaxılı ermənilərinin silahlandığını eşitmişdik, lakin o qədər də inanmırdıq ki, ermənilər bizə qarşı silah işlətsinlər. Bütün bu işlərə, qış boyunca rəhbərlik edən Stepan Lalayev olub. Bir dəfə məni, müftini, erməni yepiskopu Baqratı və bir neçə müsəlmanı danışığa dəvət etdilər. Danışıqda ermənilər bizi arxayın etdilər ki, bizdən sizə heç vaxt ziyan gəlməz. Biz dostuq. Biz də onlara inandıq.

Lakin, biz açıq-aydın görürdük ki, furqonlarla Şamaxıya silah daşınır. Bir vaxt eşitdik ki, Sündi kəndi ətrafında minlərlə malakan dəstə halında toplaşıb, Şamaxı istiqamətində gəlir. Bu ərəfədə ermənilərlə müsəlmanların toqquşması baş verdi. Mən Şamaxıya gəlmək istədikdə, eşitdim ki, şəhər dörd tərəfdən erməni və malakanları tərəfindən mühasirəyə alınıb.

Toplardan-tüfənglərdən tamamilə yandırmış, əhalisini isə güllədən keçirmişlər. Çarhan kəndini də həmin kökə salmışlar. Şamaxı qəzasının, demək olar ki, bütün kəndlərini, o cümlədən, bizim kəndi də - “Acı dərəni” də talan etmiş və yandırmışlar. Bütün anbarlarımızı dağıtmış, ev əşyalarımızı, qızıllarımızı, hətta belə qab-qacağımızı da yığıb aparmışdılar. Hər birimizə dəyən ziyan on min manatlarla hyesablanır. Şamaxıda mənə məxsus olan iki evimi də yandırmışdılar. Ümumilikdə mənə dəymiş ziyan 300 min manat təşkil edirdi. Bütün bunları erməni və malakan silahlı dəstələri törətmişlər”.[120]

---

[119] ARDA. f. 1061, s. 1. iş. 105, vər. 83-85.
[120] ARDA. f. 1061, s. 1. iş. 105, vər. 77-78.

## DİNDİRİLMƏ PROTOKOLU

1918-ci il 6 oktyabr, Şamaxı şəhəri, Levan Georgiyeviç Volnadze, 65 yaş gürcü.

"Bizim nəsil, 1821-ci ildən, dövlət məmuru kimi, Şamaxı şəhərində yaşayır. Dövlət əmlakı və Torpaq Naziliyi üzrə bu şəhərdə nümayəndəyəm. Şamaxı hadisələri haqqında aşağıdakıları deyə bilərəm. Mənim yaşadığım vaxt ərzində ermənilərin, malakanların müsəlmanlarla münasibəti yaxşı olmuşdur. Onlar, həmişə bir-birinə qonaq gedərdilər və dostluq edərdilər. Hətta, 1905-ci idə baş vermiş iğtişaşlar zamanı müsəlmanlar ermənilərə qarşı çıxmadılar.

1917-ci ilin noyabrından müsəlmanlarla ermənilərin münasibəti pozulmağa başladı. Əlbəttə, bu onunla əlaqəlidir ki, Şamaxı qəzasında hökumət "boşluğu" yaranmışdı. Bu illərdə, əsasən, erməni tərəfindən, müsəlman məhəllələrində oğurluqlar baş verirdi. Onlar bəzən bu ad altında silah daşıyır, əlaltından dəhşətli hadisələrə hazırlaşırdılar. Bəzən onlara malakn və ruslar da kömək edirdilər. şəhərdə şayiə yayılmışdı ki, ermənilərdən ibarət bir şayka yaranıb. Bu şayka durmadan fəallaşırdı. Guya, bu şayka "qayda-qanun" yaradacaq. Və durmadan silahlanma davam edirdi. 1918-ci ilin 14 martında, ilk olaraq ermənilərlə müsəlmanlar arasında atışma başlandı. Şəhərə qarşı atəş açırdılar. Malakanların başında Vasili Dobradev və İvan Ambreoviç Qruşenkov (Seçmələr bizimdir – S.Q.) durmuşdu. Atışma axşama qədər davam etdi. Yüzlərlə insn öldürüldü, evlər yandırıldı və talan edildi. Ertəsi gün 15 martda yenidən atışma başlandı və yalnız axşam radələrində atəş kəsildi. Komissar Azadbəy Qocamanbəyov ermənilərlə danışığa getdi ki, atəş kəsilsin və sülh bağlanılsın. 16-17 mart əvvəlki günlərə nisbətən çox sakit keçdi. Lakin 18 martda sübh ertədən Mədrəsə istiqamətindən Şamaxıya güclü top atəşləri atılmağa başladı. Digər istiqamətdən – Cabanı tərəfdən ruslar və malakanlar atəş açmağa başladılar. Atəş, əsasən, şəhərin aşağı hissəsində yerləşən müsəlman məhəllərlərinə açılırdı. Hər iki tərəfdən 4 saata yaxın atəş açıldı. Şəhəri demək olar ki, hər tərəfdən alov bürümüşdü. 19-22 mart günlərində şəhərdə atəş səsi eşitməmişəm. Malakan və rus dəstələri ortaq çıxıb getmişdilər. 23-24 martda Şərədil istiqamətində atışma səsləri gəlirdi. Şamaxıyaköməyə gəlmiş müsəlman korpusu şəhərdən qaçmış müsəlman əhalisinin geri qayıtmasını təmin etdi. Hər ev üçün dəymiş ziyan on min manatlarla hesablanırdı. Həmin vaxtlar mən də ailəmlə birlikdə Şamaxıdan getmişdim. Yalnız 1918-ci ilin iyun ayında Şamaxıya qayıtdım. Mənim də evimi talan etmiş və yandırmışdılar. Mən bilirdim ki, mənim evimdən müsəlmanlar heç nə aparmazlar. Belə işləri yalnız ermənilər edə bilərdilər. Sonrakı yaşadığım vaxtlar müsəlmanlar tərəfindən heç bir kəsi oğurluğa gedən görmədim. Halbuki, hər müsəlmana pul, ev əşyası bu məqamda çıx lazım idi".[121]

[121] ARDA. f. 1061, s. 1, iş. 105, vər. 71-73.

## DİNDİRİLMƏ PROTOKOLU

1918-ci il, oktyabr, Kürdəmir kəndi, Abdulla Abdullayev, 48 yaş, Şamaxı şəhər sakini, müsəlman, savadlı. "Mart ayının ortalarında, eşitdik ki, Bakıdan Şamaxıya böyük qrupda silahlanmış erməni dəstəsi gəlir. Dəstə şəhərə yaxınlaşanda, müsəlmanlar yola çıxdılar ki, görsünlər bu nə dəstədir. Elə bu zaman atəş açıldı. Yüzlərlə adam öldü. Ertəsi gün müsəlman nümayəndələri ermənilərlə danışığa getdi ki, sülh yaratsınlar. Danışıq üçün yer Mədrəsə kəndi seçildi. Hüseyn Məlikovla Hacıbaba Əbdürahmanov nümayəndə kimi getdilər. Nümayəndələr qayıtdıqdan sonra, xəbər verdilər ki, yerli ermənilər sülhə razıdırlar, lakin gələn silahlı dəstə müharibə istəyir. Ertəsi gün tezdən atışma başladı. Küçələr kişi, uşaq, qadın meyidi ilə doldu. Evlər qarət olundu. Gecə müsəlmanlar həkim Sasonovu və Cəfərqulu Axundovu göndərdilər ki, ermənilər atəşi dayandırsınlar. Sasonov xəbər gətirdi ki, ermənilər sülhə söz verdilər.

Lakin səhəri gün daha güclü atəşlər başladı. Əvvəlki gündən də çox tələfat baş verdi. Ermənilər müsəlman məhəllələrinə soxulub evləri yandırmağa və talan etməyə başladılar. Bildiyimə görə, bu hadisələrin təşkilatçısı Stepan Lalayev olmuşdur. Şamaxı ermənilərindən Gülbəndov, Mixail Arzumanov və başqaları da bu işin fəal iştirakçıları olmuşlar. Onların başçılığı ilə Şamaxıda sayı-hesabı bilinməyən evlər yandırılmış və miqdarı hesaba gəlməyən ev əşyaları talan edilmişdir".[122]

"Məşhur quldur dəstəsinin başçısı kimi, habelə adam oğrusu kimi tanınan T.Əmirov "sosialist" ordusunun komandiri seçilən kimi, Bakı şəhərində 60 min müdafiəsiz müsəlmanın başını kəsdi. Onun silahdaşı, cəllad Stepan Lalayev isə, başda daşnaq bandaları olmaqla (onlar da "sosialistlər" adlanırdı) Bakının bir neçə məhəlləsində, kübar adamları evlərindən çıxarıb, birbaşa küçənin ortasında güllələyirdilər. Belə işlərin "məharətlə" həyata keçirdiyini görən "demokrat rəhbəri" Şaumyan, Əmirovla Lalayevi tezliklə, seçilmiş daşnak bandaları ilə birlikdə Şamaxıya – "əksinqilabçılara" qarşı göndərdi.

Biz bilmirik, Şamaxılı "əksinqilabçıların" başına nə iş gəldi. Amma o, məlumdur ki, "qırmızı sosialist" dəstələri, Lalayev və Əmirov başda olmaqla bütün Şamaxını və onun 40 kəndinin əhalisini məhv və qarət etdilər. Lalayevin Şamaxı müsəlmanlarına qarşı törətdiyi vəhşilikləri dünyanın heç bir müharibəsində müşahidə olunmamışdır. Vəhşiliklər o qədər böyük olmuşdur ki, onu heç bir vəchlə gizlətmək mümkün deyildir. Təsadüfi deyildir ki, o vaxtlar bolşeviklər bu hadisəni qəzetlərdə yazanda, Lalayev həyasızcasına belə cavab vermişdi: "Düzdür, dinc əhaliyə qarşı az-maz sərtlik göstərilmişdir". Görəsən, hamilə qadınların qarınlarını cıran, cavan qızları zorlayan, körpə uşaqları süngüyə keçirən, insanları

[122] ARDA. f. 1061, s.1. iş. 105, vər.63-64.

diri-diri torpağa basdıran və daha nə kimi vəhşiliklər göstərən Lalayevlər "dinc əhaliyə qarşı az-maz sərtlik" deyəndə bunlarımı düşünürdü? Yalnız və yalnız daşnak bandaları belə ola bilərdilər. Bu işlərin başında duran və ona rəvac verən Şaumyan, nə qədər çalışdısa, özünü "gizlədə" bilmədi. Əvvəllər malakanlar da ermənilərə qoşulmuşdular. Lakin onların son dərəcə vəhşiliyini, qəddarlığını görəndən sonra, habelə Muğan hadisələrini görəndən sonra qəti olaraq erməni vəhşiliyinə qarşı çıxdılar.

Vermişev və Şaumyanın "rolunu" yaxşıca gördülər. Fövqəladə İstintaq Komissiyası yaradıldıqdan sonra komissiya rəhbəri (sədri) Kojemyako tezliklə Lalayevin vəhşiliklərini üzə çıxardı. Onun həbsi haqqında əmr verdi. Lakin göründüyü kimi, Bakı "sosialistlərinin" daşnak banditlərinə uzanan "əli qısa oldu". Heç bir tədbir görülə bilmədi. Kojemyako Lalayevi həbs etmək istəyəndə, o, müstəntiqi təhqir etdi və Şaumyana zəng vurdu. Şaumyan Kojemyakonu yanına çağırıb ona dedi: "Lalayevi həbs etmək yaxşı deyil, bu nə hərəkətdir?" Bax beləcə "demokrat rəhbəri" Şaumyan qəddar cəlladı - Lalayevi müdafiə etdi. Və heç bir şey olmamış kimi, qolboyun getdilər. Bəs məhkəmə? 3-4 gündən sonra qəzetlərdə elan verildi ki, Fövqaladə İstintaq komissiyası buraxılmışdır...".

***"Azərbaycan" qəzeti, 1918, 8 oktyabr***

"Bakıda və Azərbaycanın qəzalarında daşnakların vəhşiliyi o qədər dəhşətli idi ki, bu cinayətləri təsdiq etmək üçün xüsusi quberniya komissiyaları təşkil edilmişdir. Komissiyanın sədri Kojemyako qatı cinayətkar bir daşnakı - S.Lalayanı həbs etmək istərkən o, həyasızcasına istehza ilə onun üzünə gülmüş, telefonun dəstəyini əlinə alıb: "Özü ilə" (Şaumyan ilə - S.Q.) danışmağı əmr etmişdir. S.Şaumyan telefonla demişdir! "Lalayanı həbs etmək?..." Ləyaqətli çıxmaz. "Ümumiyyətlə, bu nə şıltaqlıqdır?..."

***"Azərbaycan" qəzeti, M 67, 30/17 mart 1919-cu il.***

"Türk ordusunun Qafqaz cəbhəsindən çəkilməsindən bir qədər sonra türk erməniləri ilə Qafqaz erməniləri birləşərək geri çəkilən türk ordusuna basqın etdilər. Bir tərəfdən Andronikin bandası, digər tərəfdən isə, Dro, Keri və Muradın bandası sürətlə silahlandılar. Onların əli ilə bütün müsəlman kəndləri qarət olunmuş, və yandırılmışdır. Eyni zamanda, Şaumyanın və Avakyanın rəhbərliyi ilə Şamaxı hadisələri baş verdi. Bu işlə əlaqədar Şaumyanın yazmış olduğu məktub Gəncə komandanın əlinə keçmişdir. Həmin məktubdan aydın olur ki, Şaumyan və

Avakyan “təmiz” daşnakdırlar. Lalayevin rəhbərliyi altında daşnak banditləri on minlərlə müsəlmanın axırına çıxmışlar...”.

***“Azərbaycan” qəzeti, 1919, 28 avqust.***

Ü.Hacıbəyov: “Rus bolşevizmi araya bir “qrajdanskiy” və bir də milli olmaq üzrə iki rəngli müharibə salıb, saylarca qanlar axıtdı, milyonlarca bəşər övladım tələf etdi, yüz minlərdə evləri viranə qoydu”.

***“Azərbaycan” 1919, mart***

“Şamaxı qəzasında olan əhali 18 mart facieyi-əliməsində (dəhşətli faciə) böyük bədbəxtliklərə uğramışdır. Hamıya məlumdur ki, Şamaxı və Şamaxı qəzasının evləri, mülkləri, dövlət və sərvətləri, heyvanları, hətta, it və pişikləri də erməni cəlladları tərəfdən tələf edilmişdir. Allah evinə, insanların, heyvanların diriliyinə xidmət edən bulaqlara, məzərstanda, vediyeyi-xamuşanda məskən ittixaz edən ölülərin meyitlərin qəbir daşlarına top-tüfəng atıb dağıdan asilərin, yağıların ayaq basdıqları mövqelərdə abadlıq olmayacağı mühəqqiqdir. Şamaxı və Şamaxı qəzası düşmənin ləqədgubu olub, dağılmışsa da, canını, ərəz və namusunu xilas edib, fərara müvəffəq olmuş kəndlilərin əllərində cüzi mal-qaraları qalmışdır ki, bunlar ilə az-çox tarlalarını şum gedib, azuqələrini təmin edirlər. Sağın heyvanları ilə də çörəklərin, şorun, pendirin, ayranın, qatığın düzəldirlər. Bir az irəli gedənlər artırıb, bazarda satırlar.

Könüllərini aldadan 1-2 dana-buzovlarıdır. Əgər, bunlar oğurlanıb aparılırsa, binəva kəndçilərin ətraf və əknada pərakəndə olub, saillik (dilənçilik) və muzdurluq etməkdən maəda (başqa) əlac və çarələri olmayacaqdır. Hökumətimiz təşəkkül edəndən bəri Şamaxı qəzasında düzlük, dinclik və rahatlıq bu dərəcədə idi ki, kəndlilərin mal-qaraları gecələr dəxi evə gəlməyib, həftələrlə otlaqlarda, çöllərdə, düzlərdə qalırdılar. Sahibinin ürəyi xatircəm olmağa görə heyvanın dalınca belə getmirdi. Əyrilik, oğruluq bilmərrə (tamamilə) modadan düşmüşdü. Kəndçilər keçmiş zərər və ziyanların unudub, cənabi - Haqqı (Allahı) ərzi-şükran edirdilər. Çoxları söyləyirdilər ki, asudəlik özü bir dövlətdir. Filhəqiqə bu əmin və amanlığı hüsn şəxslər ömürlərində görmədiklərini bəyan edirdilər. Məəttəəssüf fağır-fücəranın sevinməyi get-gedə fənalaşır, dinclik pozulur. Kəndçilər arasında qorxu və iztirab müşahidə olunur. Səbəbi də odur ki, bu axır vaxtlarda Şamaxı qəzasında oğurluq şiddət etməkdədir. Bu saat 1-2 heyvana malik olan əkinçilər gecələri belə yatmaq istəmirlər. Nə yapsın əlindəki öküzü, inəyi, atı oğurlanandan sonra biri on min manata heyvan almağa gücü və qüvvəsi yetməyir.

Oğurlanan heyvanlar haraya aparılırsa, nişan və sorağın tapmaq da mümkün olmayır. Xüsusən, at oğurluğu bir moda olmuşdur. Ayağında buxovu olan atın kilidin tüfəng, gülləsilə dağıdıb aparırlar. İştə bunsuz da acınacaq bir halda olan

Şamaxı qəza əhalisinin övziya (vəziyyəti) oğurluğun baş verməsilə daha da bədtər olur. Əgər indidən bunun qabağına bir sədd çəkilməsə, dinclik ilə yaşayan kəndistanın güzəranı çox çətinliklə keçəcəkdir". A.A.zadə

***"Azərbaycan" qəzeti, 1919, 16 təmmuz,***
***Şamaxı haqqında.***

Orucluq bayramından istifadə ilə Şamaxı uyezdinin vəziyyəti, əhalisinin güzəran və məişətini yerində öyrənmək, bununla bərabər təşkilat yapmaq məqsədilə türk ədəbi-mərkəziyyət firqəsi "Müsavat"ın Mərkəzi Komitəsi tərəfindən Şamaxıya göndərilmiş parlaman üzvü Mehdibəy Hacıbababəyov bu günlərdə Bakıya qayıtmış və Şamaxı qəzası haqqında aşağıdakı məlumatı vermişdir:

- Məlum olduğu üzrə, Şamaxının yolu Kürdəmir stansiyasındandır. Şamaxıya gedəcək bir müsafir Kürdəmirdən getməlidir. Vaxtı ilə bir çox nəqliyyat əsbabı - fayton, dilican, araba və sairə olardı ki, Kürdəmir ilə Şamaxı arasındakı yolu müşkilatsız getmək olardı.

Son hadisələr zamanında Şamaxı və ətraf kəndləri tamamilə dağılıb, qeyri-məskun (yaşayış üçün yaramayan) bir hala qoyulduğundan Kürdəmirdən gediş-gəliş tamamilə kəsildiyindən indiki halda heç bir nəqliyyat vasitəsi mövcud deyildir.

Kürdəmirdən Şamaxıya doğru yol üzərində olan kəndlər tamamilə yer ilə yeksan edilmişdir. Yurdlarına qayıdan bu zavallılar güləşdən yapılma komalarda, habelə üzəri güləşlə örtülmüş daxmalarda yaşayırlar.

Yarın qışda bunların nasıl yaşaya biləcəklərini nəzərə almalı, indidən çarəsinə baxılmalıdır.

Şamaxı qəzasında demək olar ki, çöl işləri fəna bir haldadır. Onun fənalığı əkilməkdən deyil, bəlkə təbii çöl məhsulatının yığılmamasındandır. Ağsu rayonunda ot tamamilə biçilməmiş qalmışdır. Çünki camaatın bir qismi müharibələrdə və sonrakı qaçqınlıqda və xəstəliklərdə qırılmış, qismi-küllisi də öz yurdlarına qayıtmamışdır. Qayıdanların da gəncləri əsgərliyə alınmış, bununla bərabər çöllərin biçilməməsinə ən böyük səbəb kəndlilərə lazım olan alat və əsbabın qətiyyən olmaması, kəndistanda at və kol kimi birinci dərəcədə kənd həyatına lazım olan qaramalın olmamasıdır. Bu hal isə, yalnız Şamaxı qəzası əhalisinin deyil, ümum məmləkətin gələcək həyatını təhrif edir.

Şamaxı şəhəri bir halətdədir ki, onu təsvir etmək mümkün deyildir. Evlər tamamilə yandırılıb uçurulmuşdur. Vəlo birdənə olsun salamat binaya təsadüf edilməyir. Küçələr dağıdılmışdır. İnsan şəhərə girərkən onu vəhşət alır. Səqfi (damı) tökülmüş, qapı-pəncərəsi yanmış, binalardan yalnız uçuqlar onların miyanından görünən Pompey xarabazarlığını andıran sütunlardan başqa nəzərə bir şey çarpmaz.

Şəhərdə həyat yox kimidir. İki min nəfər şəhərə övdət etmişdir (qayıtmışdır). Gecələr xaraba evlərin mənzərəsi insana bir dəhşət verir.

Şamaxı zəlzələsindən sonra evlər yekdigərindən (bir-birindən) qayət məsafəli bir halda bina edildiyindən bir evdən digər evə heç bir halda od keçməzdi. Budur ki, iddia etmək olar ki, evlər birər-birər yandırılmışdır. On altı məsciddən biri də salamat qalmamışdır. Məscidi-Cameyin binasında ataş ala biləcək heç bir məvad olmadığından, anlaşılır ki, onun yalnız daşdan olan divar və taclarına neft və mazut sürtməklə və bir çox müşkilat daxilində onu yandıra bilmişdilər. Çünki o məscidi başqa dürlü yandırmaq imkan xaricində idi.

Məbədləri belə təhqir və xarab edilmiş türk və müsəlmanlar sonradan şəhəri istirdad edərkən erməni və rus kilsələrilə müqabilə bilməsəl etməmişlər. O kilsələr heç toxunulmadan eləcə salamat qalmışdır.

Şamaxıda elə bir salamat bina yoxdur ki, qəza qaim-məqamı, poçt və teleqraf və bələdiyyə idarəsi və sair bu kimi dövləti müəssisələr orada iqamət eləsinlər. (Seçimlər bizimdir - S.Q.)

Bu müəssisələrin cümləsi şəhər məktəbinin yanğından qalmış xarabalıqları içərisində iqamət edirlər. Şamaxıya gedəcək bir məmur, komission və heyət özü ilə lazım olan yataq və sair bu kimi mayəhtacı (lazım olan şeyi) aparmalıdır. Əks halda orada müvəqqəti də olsa qala bilməyəcəkdir.

Şəhərə övdət etmiş (qayıtmış) iki min nəfərədək əhali şəhərin kənarında bağlardan ağac və küləş toplamaqla komalar yapıb, orada yaşayırlar. Əgər, hökumət qışadək onlar üçün ev və mənzil tədarük etməzsə, qışda soyuqdan tələf olacaqlar.

Şəhərdə əxzi-əsgər (hərbi komissarlıq) idarəsi olmadığından, Şamaxı şəhərindən əsgərliyə düşəcək gənclər dəfələrlə Göyçay, Kürdəmir və sair bu kimi ərazilərdən nəqliyyat əsbabı (transport) olmadığından min dürlü zəhmət və məşəqqətlə və böyük xərclə Şamaxıya gəlib, təkrar geri qayıtmışdılar. Bu uğurda olan var-yoxlarını da xərc etmişdilər. Şamaxıda ya bir əxzi-əsgər idarəsi təsis etməlidir və yaxud əsgərliyə düşəcək gənclər nərədə iqamət edirlərsə, həmin məhəllin əxzi-əsgər idarəsində kəndilərini (özlərini) qeyd etsinlər. Bir daha onlara izafə xərclər verdirib Şamaxıya göndərməyə ehtiyac qalmasın.

Şamaxıda sükunət edə biləcək yer olmadığından, Şamaxı qazisi indi də Kürdəmirdədir. Camaatın qəzavətə ehtiyacı olduqda bu, uzun yolu piyada və yaxud 3-4 yüz manat verməklə Kürdəmirə gəlməyə məcburdur.

Şamaxılılar bu qədər fəlakətə məruz olduqları halda, təkrar yeni bir fəlakətə uğramışdılar.

Bu yaxınlarda orada yanğın olub, külli surətdə taxıl məhsulatı yanıb, tələf olmuşdur. Zərərin miqdarı hələ müəyyən edilməmişdir. Lakin yalnız Hacıqədirli köyündən (kəndindən) 202 min 800 dərz yanmış ki, 70-75 min puda qədər taxıl edir.

Mərəzə adlı malakan kəndi yanında vaqe Mərəzəli müsəlman kəndi vaxtı ilə ermənilər və malakanlar tərəfindən yandırılıb, dağıdılmışdır. Sonradan türklərin müvasiləti zaman malakanlar Mərəzədən qaçdıqlarından mərəzlilər öz kəndlərinə övdət etdikdə (qayıtdıqda) onun xaraba hala salındığını görərək, malakanların kəndində yerləşmişdilər. İndi malakanlar öz kəndlərinə qayıdıb, müsəlmanlar tərəfindən işğal edilən evlərini geri istəyirlər. Bu xüsusda hökumətə müraciət etmişdilər. Hər halda hökumət bu barədə qərar verərkən, müsəlmanlarm da halını nəzərdə tutmalıdır”.

***“Azərbaycan” qəzeti, 1918 № 6; 4 təşrini-əvvəl.***

* * *

**“Verin zavallılara”**
**“Va itəsəmu bi habullahi cəmian valə təfərraqu”.**

Şamaxı və Göyçayda ermənilər tərəfindən yakılıb yıkılan xanimanları, qadın, erkək qurşunla öldürülən, bıçaqlarla kəsilib-doğranan bigünah millətdaşlarımızı, dün zəngin və dövlətli ikən bu gün viranxanalarda iqamətlə bir loxma yavan əkməyə möhtac buraxılan zavallı qardaşlarımızı düşünürmüsünüz?

Əgər, düşünmüyorsunuz, iyi biliniz ki, kainatın beş sənədir biri-birini boğazlayan bu ən mühüm dövrəsində əsəbiyyəm qövliyyəsi əlil və ya nöqsan olan millətlər üçün həyat bu qədər.

Bu günə qədər olduğundan ziyadə yarın üçün də «Quran» əzim əşşanımızın bəlada nağıl etdiyim əmr məbiyyəni vəchlə mətn bir surətdə yekdigərinə sarılaraq siyasi birliklərini təmin etməyən əqvam bəlxassə bundan sonra qətiyyən yaşamayacaqdır. “Əl muminu lil mumuni kəl bunyənil mərsus yəmuddu badəhu badən”.

Həqiqət siyasiyəsini bin üç yüz sənədir qulaqlarımızda çınlatan islamiyyən, bir müsəlmanın digər müsəlmana nisbətini, bir binanın yekdigərinə isnad edən daşlarına bənzəməklə siyasət milliyyəyi pək bəliğ bir surətdə təvir buyurmuşdur.

Bir divarın bir kaç daşını yıxıb çıxarmaqla nasıl ki, divar dağılarsa, millətimizi təşkil edən cəmiyyətdən bir qisminin fəlakətindən də əqsam sairənin həqilə mətasir olması qədər təbii heç bir şey yoxdur.

Şamaxı və Göyçayda yıkılan evlər, yandırılan xanimanlarımız, kəsilib doğranaraq qəfil şəhidiyyə iltihaq edən on minlərlə müsəlmanlar din və millət qardaşlarımız; dün dövlətli ikən bu gün bir loxma əkmək üçün göz yaşlarıyla dilənən bədbəxtlərdir, qövmdaşlarımızdı. (Seçimlər bizim - S.Q.).

Allahın inayəti ilə Bakı alındı. Və ən alçaq düşmənlərimiz məqhur və rəzilanə bir surətdə qaçdı. Millət min üç yüz sənə-eyni məqsəd uğurunda

yekidigərini təqibə yerdə yatan şühədamız əzvalımı da şad edər surətdə üst-üstə iki bayram yandı.

Bu məsrətlər içində ey Bakı və bütün Qafqaz Türkü, ey zəngin müsəlmanlar! Şamaxı və Göyçay zülmzadə qardaşlarımızın göz yaşlarını təcfifə könüllərini təmir etməliyiz. Millətimizin bir qismi ağlarkən, əqsam sairəsinin bilatəsir gülməsi xeyli bir istiqbalə dəlalət edəməz. Bina aliyə, əgər, həyat və istiqlala talib və müstəhəq isəniz Şamaxı və Göyçay zülmzadələrinə və Ermənistandan qismən öldürələrək, qismə də fərar surətlə həyatlarını qurtara bilərək sayən-əxvatınıza iltica edən sair din, millət qardaşlarımıza kisə müavinəti açınız, onlara lazımı dərəcədə inayələr veriniz, çünki siz onlara versəniz Allah da sizə verir. İştə, haydı, qardaşlar verin zavallılara Əlmücahid fi səbiillah".

***"Azərbaycan" qəzeti, 1918, №13, təşv. 13***
***"Şamaxılıların halı"***

"Bakı quberniyasında bolşeviklərin Şamaxı uyezdinə vurduqları zərbə heç bir yerdə verilmədiyi hər kəsə məlumdur. Şamaxı əhalisi əsrlərdən bəri yaşamaqda olduqları ata-baba yurdlarını buraxıb neçə aylar ərzində çöllərdə, biyabanlarda aclıqdan, xəstəlikdən məhv və tələf olmuşlardır. Şamaxı şəhəri və ətraf kəndləri rəhmsiz daşnaksütun və bolşevik dəstələrinin atəşinə düçar olmuşdur. Hal-hazırda gündəlik ruziyə möhtac qalan Şamaxı əhalisi öz dağılmış və bərbad yurdlarına qayıdıb əmur xeyriyyə və nəfə vəzarətinin qaçqınlara yardımedici şöbəsi tərəfindən buraxılan çörək payları ilə gün keçirməkdədirlər. Hər bir ev əşyasını evində buraxıb qaçmağa məcbur olan Şamaxı əhalisi hal-hazırda cırıq əlbisədə qalmışlardır. Şamaxının şiddətli soyuqları yaxınlaşdığındar məzkur qaçqınlara vaxtlı-vaxtında isti paltar ilə müavinəl olunmazsa, biçarə əhalinin halı xeyli təhlükəli olacağına şübhə yoxdur. Şamaxı qaçqınları şimdilikdə uçulmuş və dağılmış şikəst evlərdə yaşamaqdadırlar. Əhalinin hər bir şeyə böyük ehtiyacı vardır. Xülasə, bütün Şamaxı nahiyəsi fəlakət ərəfəsindədir. Şamaxı qaçqınlarının təmin halı üçün hökumət tərəfindən mümkün qədəri tədbirlər ətxaz edilib əhvalın yüngülləşməsinə çalışılacaqdır. Hər yerdə hərc-mərclik qurbanları olan əhaliyə müavinət etmək işini ictimai təşkilatları öz öhdələrinə aldıqları vəzifəni unutmamalıdır. Azərbaycan hökumətinin ictimai təşkilatlarının müavinət üçün çalışmaları zamanı çatmışdır. Bütün əhalini Şamaxı qaçqınlarına müavinət əllərini uzatmağa dəvət edirik və idarəmiz tərəfindən Şamaxı qaçqınlarının nəfinə ianə dəftərçəsi açılır. Bu barədə camaatımızm hər dəfəki gibi yenə də hümmətli olacaqları ümid olunur".

*"Azərbaycan" qəzeti, 1918, № 24*
*"Sağalmaz yaralarımız"*

"1918-ci il martın 14-də Amirovun komandanlığı altında Şamaxıya bolşevik əsgərləri göndərildi".

*"Azərbaycan" qəzeti, 1919, 31 mart.*

"Şamaxı mahalına dörd min nəfərdən ibarət bir qitə göndərilib əhali təqib edilir və dörd min əsgərin yüzdən səksəni erməni olur. Bunların cümləsindən Bakı faciəsi nə məram üzrə oynandığı və bu faciə əsnasında ermənilər nə vəzifəyə bulunduqları, məncə, aşkar olsa gərəkdir". "Məhəmməd".[123]

* * *

*"Hümmət" qəzeti, 1918, 10 iyun, № 86*

"Hümmət" qəzeti "Şamaxı uyezdində" adlı yazını "Znamya trud" qəzetindən götürüb çap etmişdir: "Şamaxı uyezdindəki şura hökumətinin qoşunları bircə gün əqdəm İsmayıllı kəndində qaçaq-quldur dəstəsinin olduğu haqqında məlumat olaraq məzkur İsmayıllı kəndinə yürüş etmişlər. Əksinqilabçıları taparaq qovmuşdular. Həmin gündən də (Tikiş evi) orada küllü surətdə Türkiyə əsgərləri libasları və s. çinləri hazırlanmış imiş. Məlum olur ki, "Müsavat" böylə işlərlə istəyir ki, yalandan öylə göstərsinlər ki, Şura qoşunları ilə müharibə edən dəstənin arasında Türkiyə qoşunları da var idi".

Haşiyə: Şübhəsiz ki, bolşeviklərin orqanından olan "Hümmət" qəzeti bu dövrlərdə həqiqəti ört-basdır etməli idi. Əslində İsmayıllıda Şaumyan ordusuna ("Şura" ordusu deyildi) qarşı vuruşam "qaçaq quldur" deyil, Müsavat ordusu və ya könüllülər idi. "Dörd min əsgərin yüzdən səksəni erməni" olan ordunun törətdiyi faciəli ancaq belə yalanlarla ört-basdır edilə bilərdi.

O dövrün bolşevik əqidəli qəzetlərində gedən məqalə, məlumatlar təsdiq edir ki, S.Şaumyanın törətdiyi faciə Moskva tərəfindən açıqca dəstəklənir.

*"Hümmət" 1918, 8 iyul, № 105.*
*Teleqraf xəbərləri Hacıqabuldan*

"Bakıda Şuraya - Şaumyana, Şebeldayevə, Hərbi İnqilab Komitəsinə, bolşevik kommunistlər firqəsinə, «İzvestiə və Bakinskiy raboçiy» qəzetinə:

[123] Şamaxı soyqırımı ilə bağlı "Azərbaycan" qəzetində (eləcə də "Азербайджан" da) əllidən artıq məlumat və məqalə vardır. Biz onlara ancaq bir qismini kitaba daxil edirik.

Zəhmət çəkib, arxada olan bütün xainlərə, qorxaqlara, küçələrdə durub, ingilis cəlladlarının gəlməsi üçün şura hökumətinin səs verməsini gözləyənlərə və öz ayaqlarını qırmızı ordu və fəhlələrin boyunlarına qoymaq istəyənlərə bizim nifrətimizi yetiriniz! Biz böylə bir xainanə fikrin ziddinə olaraq, Rusiya şura hökumətinə bütün qövmümüzlə imperialistlər və onların dəstpərvərdələri müqabilində mübarizə edəcəyik.

Bütün kəndliləri, matrosları, qırmızı ordu əsgərlərini dəvət ediriz ki, burjuylara tabe olmasınlar".

## Culfadan, Andranikə

"Sizin 574 nömrəli teleqramınızı aldım. Eynilə haman teleqram Moskvaya - mərkəzi hökumətə xəbər verdi".

Öz tərəfimdən sizin qəhrəmanlığınızı təbrik edirəm. Əgər, cənab Qağaznoti və başqaları sizin kibi olsaydılar, erməni kəndlilərinin başlarına indi yeni fəlakətlər gəlməzdi. Türk və millətçilər süngüsü müqabilində mübarizə edən bütün qəhrəmanları təbrik ediniz! Hər bir zəhməti qəbul etməklə bərabər hüriyyət bayrağını yıxmamağa sizi dəvət edirəm. Baku füqerayi kasıbanəsi Rusiya hökumətinin köməyi ilə Kürdəmir və Ağsu cəbhəsində türk və bəglər dəstəsinə mərdanə müharibə etməkdədirlər.

Vəqtilə biz türk, bəg, gürcü knyazları və erməni millətçilərini məğlub etdik, o vaxt bütün Qafqaz kəndli və fəhlələri ümumi "hınqaqda" Şura Hökuməti təsis edib böyük Rusiya ilə əlaqəyə girmişirlər.

Biz sizə kömək edə bilsəydik, çox şad olardıq. Ola bilər ki, siz bizimlə əlaqəyə birləşdirmək üçün bir tədbir arayasınız.

Qafqazın Fövqalədə Komissarı və Baku Şura hökumətinin sədri: S.Şaumyan.

## Mərəzədən Bakuyyə

"Voronsovkaya yetişəndən sonra, bizləri əksinqilabçı müsəlmanların üç günlük hücumları nəhayət buldu. Voronsovka kəndinin əhalisi - kişiləri və həmçinin arvadları çox qoçaqlıqla mübarizə edirdilər. Arvadlar iki sıra səngər bağlamışdılar. Düşmənin qüvvəsi üç min beş yüzə qədər olaraq üç türk zabiti onlara komanda ediyordu".[124]

Mənbələrdən: Fövqaladə İstintaq Komissiyası faciənin səbəbini araşdırarkən 1918-ci il noyabr ayının 9-10-da Şamaxı şəhər sakini Əfəndiyev Siracəddin adlı bir zərərçəkəndən də izahat alınmışdı. İzahatda faciə törədənlər

---

[124] Bu məzmunlu teleqramlar bolşevik əqidəli qəzetlərdə çoxdur.

haqqında da dəqiq məlumat verilir: "Mən Şamaxı sakiniyəm. İyirmi ildir ki, Bakı şəhərində yaşayır və orada ticarətlə məşğul oluram. Ermənilərin həm birinci, həm də ikinci hücumları zamanı Şamaxıda olmuşam. Mən bu basqınların ilkin səbəblərini yaxşı bilirəm.

Hamıya aydındır ki, 1905-1906-cı illərdə ermənilərlə müsəlmanların ilk ədavətləri baş vermiş və bundan sonra ermənilər müsəlmanlara qarşı kin bəsləmişlər. Ermənilər yeni toqquşma üçün bir bəhanə axtarırdılar. Bunun üçün isə, Rusiyada baş verən bolşevik inqilabi dövründən yaxşı məqam ola bilməzdi. Bu fürsətdən məharətlə istifadə edən erməni "Daşnaksütyun" partiyası bolşevikləri inandırdılar ki, Bakıda, ümumiyyətlə, Zaqafqaziyada yaşayan müsəlmanlar bolşevik ideyalarına qarşı çıxırlar və köhnə quruluşdan çıxmaq istəmirlər. Bu bəhanə ilə ermənilər müsəlmanlar yaşayan ərazilərə girir və oranı dağıdır, adamları isə, müxləlif əzablarla məhv edirdilər.

Bu tədbirin başında isə, Tiflisdə planı baş tutmayan Şaumyan dururdu. S.Şaumyana bu işdə əlaltıları və köməkçiləri, əsasən, Şamaxıda aptek müdiri Mikail Arzumanov, Şamaxı poçt-teleqraf kontorunun rəisi Gülbəndov və dəllək Ovanesov kömək etmişdir. Şamaxının Atabəyov uyezdində Serebryakov və Gülbəndovun vasitəsi ilə qısa vaxt ərzində, bütün erməni kəndlərini silahlandırdılar".[125]

1918-ci il noyabr ayının 11-12-də FİK-da zərərçəkmiş Şamaxı pristavı, 42 yaşlı, savadlı Cəbrayılbəy Cəbrayılbəyovun dindirilmə

## PROTOKOLU

1918-ci ilin mart ayında şəhər başçısı Teymur bəy Xudaverdiyev və Müsəlman Milli Komitəsi tərəfindən məlumat alınmışdır ki, Bakıdan Kürdəmir istiqamətində 400 nəfər - erməni ordudan tərxis olunub gəlir. Bakı müsəlman komitəsi xahiş edib ki, onları qara fikirlərdən çəkindirsinlər. Müsəlman Komitəsi Ağsu şəhərinə nümayəndələr göndərdi. Lakin səhərisi gün Şamaxıda eşitdik ki, həmin dəstələr, bölünüb ayrı-ayrı kəndlərə hücum ediblər. Bicov və Ləngəbiz kəndlərini tamamilə yandırıblar. Bunu eşidən, yaxın kəndlərdən müsəlmanlar zərərçəkənlərə köməyə gəliblər. Ermənilərlə atışma Bico dağlarında başlanıb. Ermənilər və müsəlmanlar tərəfindən adam öldürülüb. Hirslənmiş ermənilər bu halda Bakı Erməni Komitəsinə məlumat çatdırıblar. Qısa müddətdən sonra 3 minə qədər silahlı erməni gətirilib. Bundan xəbər tutan yerli Müsəlman İcraiyyə Komitəsi, Şamaxı uyezdinin rəisi Hacımanbəyovu və uyezd qazisi Abdulxaliq Əfəndi Əfəndiyevi erməni yepiskopunun yanına göndərib ki, yaraqlılıları geri

[125] ARDA. f. 1061, iş. 106, vər. 72-76.

qaytarsın. Lakin yepiskopun cavabı qəti olub. Biz gəlmişik ki, bütün müsəlmanları qılıncdan keçirək”.

Lakin o biri gün erməni yepiskopu Müsəlman İcraiyyə Komitəsinə gəlib dedi ki, dəstə ilə danışıb, heç bir müsəlmana zərər dəyməyəcək. Bunu deyib yepiskop Mədrəsə kəndinə getdi. Səhəri gün, yəni, martın 18-də saat $6^{00}$-da Şamaxı şəhərini mühasirəyə alıb, atəşə başladılar. Ermənilərə malakanlar da kömək edirdilər. Günortaya yaxın şəhərin ən yaxşı məhəllərini yandırıb külə döndərdilər. Həmin axşam müsəlmanlar təslim oldular. Bundan sonra müsəlmanlar tərkisilah edildilər. Şəhərdə qarət və talan başlandı. Zorakılıq və vəhşiliklər, şamaxılıları qaçmağa məcbur etdi. Mən də qaçdım. Bütün əmlakın və evim Şamaxıda qaldı. Başqa əlavəm yoxdur. 1918-ci il, 15 noyabr”.

***Şamaxı şəhərinin pristavı (imzası)***[126]

**İttifaq hərbçilərinin Baş komandanı Əlahəzrət Tomson cənablarına**

Bakı şəhərində yaşayan şamaxılılar adından: Hacı Soltan Zamanov, Hacı Mir İsmayıl, Mir Həşimov və Məşədi Əbdülhüseyn Nadirov tərəfindən

**Müraciət (ərizə)**

Əlimizdə olan dəqiq məlumata əsasən, bilirik ki, axtarış polisi tərəfindən həbs edilmiş Stepan Lalayev hal-hazırda sizin sərəncamınızdadır. Zati-aliləri, Allah eşqinə, ədalət naminə, acizanə xahişlə sizə müraciət edirik. Stepan Lalayev kimi cəlladı, vicdanını itirmiş canını - minlərlə insanı qanına qəltan etmiş bir quldduru, hərbi məhkəmənin mühakiməsinə verəsiniz. Mart ayında o, öz bandası ilə Şamaxıya gələrkən, yol boyu bütün yaşayış məntəqələrini, kəndləri yerlə-yeksan etmiş, şəhərin isə bütün müsəlman kişilərini doğramış, qız və gəlinləri, ərləri və atalarının gözləri qabağında zorlamışlar. Hətta belə Qocalara və uşaqlara, rəhm eşitməmişlər. Şamaxı talan edilmiş, sonra isə yandırılmışdır. 5 min ev və bütün məscidlər kül olana kimi yandırılmışdır. Yalnız bir bina - Realnı məktəbin binası salamat qalmışdır. Şamaxı bu hadisədən sonra əsl qəbristanlığı xatırladır. Bütün bu fəlakəti törədən S.Lalayev və onun şaykaları olmuşdur. Belə cani mühakimədən qurtula bilməz. Bizim sizə ərz etdiyimizi təsdiq etmək üçün, xahiş edirik ki, öz tabeçiliyinizdən bir nəfəri Şamaxıya göndərəsiniz”.

[126] ARDA. f. 1061, s. 1, iş. 150, vər. 102-103.

*29 noyabr 1918-ci il Bakı (İmzalar)*[127]

1918-ci il 24 sentyabrında Kürdəmir kəndində FİK-nın, zərərçəkən Şamaxı şəhər sakini Mövsümbəy Sadıqbəyovun dindirilmə

**PROTOKOLU**

Mən Şamaxı şəhərində doğulmuşam. Axırıncı bir neçə ildir ki, Kürdəmirdə yaşayıram. Şamaxı hadisələrindən üç həftə əvvəl mən Şamaxıya köçdüm. Mən hələ Kürdəmirdə eşitmişdim ki, ermənilər Mədrəsə kəndinə çoxlu sayda silah gətirirlər. Təxminən, yanvarın əvvəllərində on altı furqon silah gətirilmişlər. Müsəlmanların təkidinə ermənilər cavab verirdilər ki, biz silahları müdafiə məqsədi ilə gətiririk Müsəlmanlar isə, onlara inandırdılar. Ona görə, inanırdılar ki, müsəlmanlar ermənilərə düşmən gözü ilə baxmırdılar.

